“Pul, kredit və banklar”

Suallara cavab

Məlumat – informasiya nəşri

“Pul, kredit və banklar” fənni üzrə imtahan verəcək olan tələbələr və gələcəkdə bank sistemində işləmək məqsədilə imtahanlara hazırlanacaq məzunlar üçün faydalı məlumat mənbəyidir. Kitabın hazırlanmasında xarici təcrübədən istifadə olunmuş və Azərbaycanın müasir pul, kredit və bank sistemində istifadə edilən anlayışlara açıqlama verilmişdir. Kitab istər “Pul, kredit və banklar” fənninin tədrisi prosesində, istərsə də banklarda çalışma sırasında ən çox verilən suallara cavab olaraq hazırlanmışdır.

"Pul, kredit və banklar" məlumat – informasiya kitabında yer alan mövzuların əksəriyyəti iqtisadi ədəbiyyatda ilk dəfə işlənmiş və hazırlanmışdır. Kitab orijinallığı ilə fərqlənir, çünki kitabın içində olan bəzi suallara cavab ilk dəfə verilir.

Məlumat – informasiya kitabın hazırlanmasında Azərbaycan Respublikasının Milli Bankının normativ xarakterli sənədlər və təlimatlarlarından istifadə edilmişdir.

Sual 1. Barter iqtisadiyyatı və pul

Barter iqtisadiyyatında ən böyük güclük, mallar arasında bir dəyişim nisbətinin təsbitidir. Örnəyin, bir kq buğda qarşılığında nə qədər kərə yağ almaq mümkündür? Yəni dəyişim nisbəti nə olacaqdır? Mallar çoxaldıqca da dəyişim nisbətlərinin sayı artacaqdır. Barter yapmaq istəyənlər, mallar arasındakı bir dəyişim nisbətlərini ağılda tutmaq məcburiyyətində qalırdılar. Mal sayısı az olsa idi bəlkə də bu mümkün ola bilirdi. Ancaq say artdıqca dəyişim nisbətlərini bilmək getdikcə çətinləşəcəkdir. Örnəyin, barterə mövzu olan mal sayısı 4 isə, ortaya 6 fərqli dəyişim nisbəti çıxacaqdır. Barterə mövzu olan mal sayısı artdıqca, dəyişim nisbəti sayısı da artacaqdır.

Bunu **C=n(n-l)/2,** formulu ilə hesablamaq mümkündür. Burada C dəyişim nisbəti sayısını, n-də dəyişimə mövzu olan mal sayısını göstərməkdir. Mal sayısı 100 isə 4950 dəyişim nisbəti olacaqdır ki, bu qədər bilgiyə hər kəsin heç bir zaman ağılda tutması və buna uyması gerçəkdən çox çətin bir problemdir. Barterin problemlərindən biri də malların bölünməzliyindədir. Məsələn, 1 dənə xalçası olan şəxsin xalçanı hissələrə bölərək alma, buğda və s. bu kimi əşyaların alınması çox çətindir və ya buğda çoxluğuna sahib olan ailə bir xalça almağa yetəcək buğdaya malik olmaya bilər. Göründüyü kimi barter blr çox güclükləri ortaya qoymaqdadır. Bu səbəblə insanlar malın malla dəyişimi yerinə daha praktik bir yol aramışlar və dəyişimi sadə duruma gətirəcək bir vasitəçi malı tapmışdılar. Bu isə pul idi. İşin içərisinə pul girincə artıq malın malla dəyişimi ortadan qalxmış və pul bu dəyişimin iki mərhələdə təşkilinə yol açmışdır. Buğda çoxluğu olub, bu çoxluq ilə yağ almaq istəyən ailə, buğdanı bəlli bir pul miqdarı qarşılığında vermiş və ikinci mərhələdə isə bu pul ilə kərə yağı almışdır. Beləliklə malın malla dəyişiminə nəticədə keçilmiş, malın pul ilə, sonra da pulun istənilən malla dəyişimi prosesi həll olunmuşdur. Hərflərlə, göstərəcək olursaq barterdə **M↔M** şəklində olan dəyişimin **M→P və P→M** formasına gəldiyini görürük.

Sual 2. Pulun klassik funksiyaları

Pul, hər kəs tərəfindən ödəmələrdə qəbul edilən ümumi bir mübadilə vasitəsidir. İnsanlar arasında iş-bölümü və ixtisaslaşmanın inkişafında mübadilə yalnız pulun yardımı ilə mümkündür. İş bölümü və ixtisaslaşmanın bulunduğu bir toplumda mübadilə məcburiyyəti ortaya çıxmaqdadır.

Pulun iqtisadi həyatdakı funksiyaları aşağıdakılardır:

Pul bir dəyər ölçüsüdür. Pul istehsal və mübadilə mövzusu olan çeşidli mal və xidmətlərin hesablanmasında müştərək bir ölçü hesab vahididir. Mübadilə edilən mal və ya xidmətlərin vahidi qarşılığında ödənən pul miqdarına qiymət deyilir. Qiymət mübadilə edilən malların bir-biri ilə qarşılaşdırılmasını asanlaşdırır və çeşidli ölkələrdə ölçülən mal və xidmətlər üçün müştərək bir ölçüdür. Pul, metr, kq və s. bu kimi ölçülər kimi dəyişməyən bir ölçü vahidi deyildir. Yəni dəyər ölçüsü olan pulun dəyəri dəyişikliyə məruz qala bilər. Çünki pul vahidi

qarşılığında satın alınacaq mal və xidmət miqdarı sabit deyildir. Pul dəyərindəki dəyişikliklər ümumi qiymət səviyyəsində dəyişikliklərlə ölçülür.

Pul mübadilə vasitəsidir. Hər kəs tərəfindən ödəmələrdə qəbul edilən və ümumi bir mübadilə vasitəsi olan pul mübadiləni ikiyə ayırmaqdadır. Mübadilə edilən mal və xidmətlər öncə pula çevrilir və daha sonra arzu edilən mal və xidmətlərin asanlıqla satın alınır.

Pul bir yığım vasitəsidir. Pul hər kəs tərəfindən ödəmələrdə qəbul edilən ümumi bir mübadilə vasitəsi olduğuna görə, insanlar yığımlarını pul olaraq saxlamaqda yarar görməkdədirlər. Çünki, yığım pul olaraq saxlanılması istənilən anda istənilən mal və xidmətin satın alınmasını mümkün edir. Bundan başqa, pul müəyyən bir satınalma gücünə sahibdir, pulun mühafizəsi bir çox mallara nəzərən daha asandır. Ancaq, pulun yığım vasitəsi olması, pulun dəyər ölçüsü və ümumi bir mübadilə vasitəsi olma funksiyasının sağlam işləməsinə bağlıdır.

Pul gələcək ödəmələr üçiin bir ölçü vahidir. Pulun dəyər ölçüsü və hesab vahidi olması gələcək ödəmələrdə bir ölçü olaraq istifadəsinə səbəb olmaqdadır. Pulun tədiyə vasitəsi olması, kreditə satış kimi iqtisadi mübadilələri artıran yeni bəzi mübadilə formalarının ortaya çıxmasına yol açmışdır.

Dünya pul funksiyası. Ölkələr arasında və yaxud müxtəlif ölkələrin şəxsləri arasındakı qarşılıqlı münasibətlərdə təzahür edir. Bu cür münasibətlərdə puldan satın alınan malların ödənilməsi, kredit və bir sıra digər əməliyyatların aparılması ücün istifadə edilir. Hal-hazırda ölkələrarası başlıca hesablaşmalar Amerikan Dolları, İngilis Funt sterlinq, Yapon Yenası, İsveçrə Frankı və Avronun yardımı ilə aparılır.

Sual 3. Pulun modern funksiyalari

Pulun iqtisadi əməliyyatları asanlaşdırıcı, istehsalı təşviq edici və investisiyaları finanslaşdırma kimi önəmli bir funksiyası da vardır. Pul təklifində bir artımın və bunun nəticəsində faiz səviyyələrində önəmli bir dəyişmənin ortaya çıxmasını fərz edək. Bunun nəticəsində iqtisadiyyatda qiymət artımları və ya azalmaları meydana gələ bilir.

Gəlirlərin yenidən bölgü aləti olaraq pul. Banklar tərəfindən bəzi şektorlara kredit açılması, bəzilərinə isə kredit verilməsində rədd siyasəti, I halda sektorun inkişafına, II halda isə sektorun daralması ilə nəticələnir. Beləliklə, kredit siyasəti biznesin mənfəət həcminə təsir etməkdədir. Nəticədə milli gəlir üzərində təsirli olmaqdadır. İnflyasiya dönəmində kredit siyasətinin gəlirlər üzərində ciddi təsiri vardır. Yığım sahibləri və sabit gəlirlilər satın alma güclərinin azaldığını asanlıqla hiss edərlər, buna qarşılıq borc olanlar inflyasiyadan yararlanarlar. Çünki aldıqları borcları irəlidə dəyəri düşmüş olan pul ilə ödəyəcəkdir.

Nüfuz aləti olaraq pul. Banklar bəzi şirkətlərin iflasına maneçilik törədə bilərlər. Bəzi sektorlarda yeni texnologiyanın tətbiqində və inkişafında qatkıda buluna bilərlər. Banklar şirkətlərin istehsal siyasətinə istiqamətləndirilməsində təsirləri olduqca güclüdür.

Sual 4 . Pul sistemləri

Pulla bağlı mövzuları tənzimləyən qanun, qərar və uyğulamaların tamamına pul sistemi deyilməkdədir. Dövlətlər pulun tədavülünə çox əski zamandan bəri müdaxilədə bulunmuş və pulun tədavülü ilə bağlı bir çox qanunlar çıxararaq sistemi nəzarət altına almağa çalışmışlar. Standart olaraq qəbul edilən pulun sərhədsiz ödəmə qüvvəti vardır. Buna qanuni tədavül deyilir. Pul ilə əlaqədar qanunların müəyyən edilməsində gərəkən digər önəmli bir mövzu da pul vahidi ilə ilgilidir. Bu gün isə dünyanın heç bir ölkəsində pul qarşılığı qızıl çəkisi təsbit edilmiş deyildir. Yəni, pulların qızıla çevrilə bilmə imkanı yoxdur.

Kağız pul, pul olma özəlliyini, qanundan və dövlətin etibarından almaqdadır. Kağız pul sistemində, kağız pul əsl puldur, pulun qızıl qarşılığı yoxdur və tədavülü məcburidir. Bu sistemdə: kağız pulun sərhədsiz borc ödəmə özəlliyi vardır; kağız pulun emisiyası sərbəst deyildir və bu yetki sadəcə Mərkəzi Banka verilmişdir. Kağız pul sistemində xarici borclar xaricə satılan mal və xidmətlərdən əldə edilən valyuta ilə ödənir.

Sual 5 . Pulun tədavül sürəti

Pul həcminin önəmi, təmsil etdiyi satınalma gücünə bağlıdır. Pulun tədavül sürəti, pul vahidinin bir il içində ortalama olaraq əl dəyişdirmə sayıdır. Pulun tədavül sürəti, ölkədəki pul həcminin satınalma gücünü müəyyən etmək baxımından, bilavasitə pul miqdarı qədər önəmlidir. Doğrudan da bir ölkədəki pul miqdarının bir il içindəki satınalma gücü, pul miqdarı (M) ilə tədavül sürətinin (V) hasilinə bərabərdir. Pulun tədavül sürətini bulmaq üçün, nominal gəlir rəqəmini pulun təklifi miqdarına bölmək lazımdır. Pulun tədavül sürəti iqtisadiyyat üçün çox önəmli bir qavramdır. Pul miqdarı sabit ikən, tədavül sürətinin artması iqtisadiyyatda daha çox satınalma təşkil edəcək, əksinə tədavül sürəti düşər ikən, eyni miqdar pul daha az bir satınalma gücü ifadə edəcəkdir. Pulun satınalma gücünü S ilə, iqtisadiyyatda pul miqdarını M ilə, pulun tədavül sürətini V ilə göstərsək: S=MV. Bu isə bizə göstərir ki, bir iqtisadiyyatda pulun miqdarı qədər pulun tədavül sürəti də önəmli bir faktordur.

Ümumiyyətlə, pulun ortalama olaraq əldə tutulma müddəti nə qədər uzun (qısa) olursa, pulun tədavül sürəti də o qədər az (çox) olur. Əgər pulun tədavül sürəti V, əldə tutulma müddətini də K ilə göstərsək, aralarında aşağıdakı ilişki vardır: K=1/V.

Pulun tədavül sürəti, iqtisadi vahidlərin əllərində «yastıq altı» pul miqdarı tutmaları ilə əlaqədardır. Əgər hər kəs əlinə keçən pulları heç gözləmədən dərhal xərclərsə pulun tədavül sürəti sonsuz dərəcədə böyük olurdu. O, isə insanlar əllərinə keçən pulları dərhal xərcləməzlər və bunları çeşidli motivlərlə əllərində tutarlar. Pulun bir müddət «yastıq altı» olaraq əldə tutulması, tədavül sürətinin azalmasına səbəb olmaqdadır. İnsanlar əllərində üç motivə görə pul tutarlar: əməliyyat, ehtiyat və spekulyasiyon.

Sual 6. Pulun tədavül sürətinə təsir edən amillər

Tədavül sürətinə və ya da insanların əllərində tutmaq istədikləri pul miqdarına təsir göstərən faktorlar aşağıdakılardır:

1. Ölkədəki kredit qurumlarının inkişaf səviyyəsi və xalqın bunlardan istifadə etmə dərəcəsi:

1.1.borc vermə və investisiya imkanları;

1.2.borc vermə asanlığı.

2. Xalqın yığım və istehlak meyli.

3. Ölkədəki ödəmə adətləri:

3.1.gəlirlərin əldə edilməsindəki sıxlıq;
3.2. gəlirlərin əldə edilməsi və xərclərin ödəməsindəki düzənlik;
3.3.zaman və miqdar olaraq gəlir və xərclər arasındakı uyum.
4. Pulun əl dəyişdirmə asanlığı.
5. İnsanların gələcək haqqındakı dəyərləndirmələri:
5.1. gələcəkdəki gəlirlər və qiymətlər haqqındakı dəyərləndirmələr.
5.2.gələcəkdəki faiz həddi haqqındakı dəyərləndirmələr.

Sual 7. Pul tələbi nədir

Pul tələbi milli iqtisadiyyatda müəyyən bir anda bütün fərd və qurumların yanlarında, kassalarında və bank hesablarında həmən xərcləyə biləcəkləri pul kütləsidir. Pul hər kəs tərəfindən qəbul edilən bir dəyişim aləti olduğu üçün, istənilən mal və xidməti satınalmaq həmən mümkün olacaqdır. İşdə bu səbəblə iqtisadi vahidlər əldə pul tutmaq məcburiyyətində qalır. İnsanların pul tələbi ilə gəlir tələbi bir-birindən fərqli şeylərdir. Bir icçinin müəyyən bir səviyyədə yaşamını davam etdirə bilmək məqsəd ilə sahib olmaq istədiyi aylıq miqdar, onun gəlir tələbidir. Ancaq işçi əldə etdiyi bu pulun bir hissəsini likvid olaraq yanında saxlamaq istəyəcəkdir. İşdə bu işçinin pul tələbidir.

Fərd və qurumlar üç motivə bağlı olaraq pul tutarlar:

1. İş görmə motivi;
2. Gələcəyi düşünmə motivi;
3. Spekulasyon motivi.

Spekulasyon motivi ilə əldə pul tutmanın məqsədi qazanc saxlamaqdır. İnkişaf etmiş ölkələrdə spekulasyon daha çox istiqraz bazarlarında aparılır. İstiqraz və aksiya qiymətlərindəki dəyişmələrdən qazanc saxlamaq məqsədi ilə pul tələbi (spekulasyon motivi ilə likvidlik tərcihi) faizin bir funksiyasıdır. Yəni $L_2=f(r)$., burada L_2 -spekulasyon motivi ilə pul tələbini (likvidlik tərcihi), r bazar faiz dərəcəsini göstərməkdədir.

Sual 8. Pul təklifi

Bir iqtisadi sistemdə müəyyən bir anda tədavüldə bulunan bütün növ pulun məcmu miqdarına pul təklifi deyilir. O halda, pul təklifi iqtisadiyyatın müəyyən bir zamanda sahib olduğu məcmu pul miqdarını, texnik sözlə desək pul ehtiyatlarını ifadə edən bir qavramdır. Bu ehtiyat, tədavüldə bulunan hər cür pul miqdarını əhatə etməkdədir. Fərd, firma və dövlət kimi yəni iqtisadi vahidlərin əllərində, kassalarında, evlərində bulunan bu pul miqdarına pul təklifi deməkdəyik. İqtisadiyyatda pul miqdarı sabit bir göstərici deyildir. İqtisadiyyatın ehtiyaclarına görə, pul ehtiyatlarının miqdarı davamlı dəyişim halındadır. Pul təklifinin hesablanmasında, hansı ödəmə alətlərinin hesablamalara daxil olacağı sualına aşağıdakı kimi cavab verə bilərik**:** Pul təklifi =kağız pullar (banknotlar)+bank pulu. Kağız pullar mərkəz bankı tərəfindən çıxarılır və MB-nin bazara pul sürmə əməliyyatına «emisyon» deyilir. Bank pulu isə, banklar tərəfindən yaradılan puldur. Bank kreditləri. üzərinə çek çəkilən əmanət hesabları banklar tərəfindən yaradılan pulları təşkil etməkdədir. Pul kütləsinin ən başlıca göstərici aqreqatı M_2-dir. Azərbaycanda pul kütləsinin aqreqatları aşağıdakı kimidir:

M_0=dövriyyədə olan nəğd pul
$M_1=M_0$+tələb olunanadək depozitlər
$M_2=M_1$+müddətli depozitlər
$M_3=M_2$+SDV depozitlər.

Sual 9. Pul dəyərindəkl dəyişmələrin ölçülməsi

Pulun dəyərini təsbit etmədə ən önəmli göstəricisi qiymət indeksləridir. Qiymət indeksləri bizə, pulun dəyərində görülən geniş və çıxışları təsbit etməyə imkan verir. Qiymətlər, pul dəyərində ortaya çıxan artım və azalışların bir göstəricisidir. Ancaq bir neçə mal və xidməti deyil də, həmən bütün mal və xidmətlərin qiymətləri yüksəlirsə, bu durum pulun dəyər itkisini, əksinə bütün mal və xidmətlərin qiymətlərində bir düşmə varsa, bu da pulun dəyər qazandığını göstərəcəkdir. Pulun dəyərindəki dəyişiklikləri qiymətlərdəki dəyişikliklərə görə təsbit etmək gərəkməkdədir. Ancaq bir iqtisadiyyatda yüz minlərlə mal və xidmət alınıb satılmaqdadır və hər birinin ayrı qiyməti vardır. Bunların hər birindəki qiymət dəyişikliklərini ayrı-ayrı incələmək imkansız olacaq qədər gücdür. Bunun üçün bütün mal və xidmətlərin qiymətləri yerinə, müəyyən malların qiymətləri ələ alınır və malların önəmlərinə görə bunlara fərqli ağırlıqlar verilir. Beləliklə, qiymət indeksləri dediyimiz göstəricilər əldə edilir. İndeksin başlanğıc ili olan ildə əldə edilən qiymətlər ortalamasına 100 rəqəmi verilir. Bunu izləyən illərdə əldə edilən qiymətlər ortalaması da 100-ə görə nə miqdar artım və ya azalış göstərmişsə, ona görə örnəyin 105 və ya 98 yazılır.

Sual 10. Azərbaycanda nağd pul tədavülünün təşkili

Azərbaycan Respublikasının Konstitusiyasının 19-cu maddəsinin I hissəsinə müvafiq olaraq Azərbaycan Respublikasının pul vahidi manatdır. Bir manat 100 (yüz) qəpikdən ibarətdir. Pul nişanları kağız və metal pul formasında tədavülə buraxıla bilər. Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin III hissəsinə müvafiq olaraq Azərbaycan Respublikasının ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağandır. Milli Bankın buraxdığı pul nişanları, o cümlədən yubiley və xatirə pul nişanları Azərbaycan Respublikasının bütün ərazisində nominal dəyərləri ilə hər növ ödənişlərin həyata keçirilməsi, hesablara daxil edilməsi və pul köçürmələri zamanı hökmən qəbul edilməlidir. Manatla qızıl və ya digər qiymətli metallar arasında rəsmi nisbət müəyyən edilmir. Tədavülə buraxılmış pul nişanları Milli Bankın borc öhdəliyidir və onun bütün aktivləri ilə təmin edilir.

Azərbaycan Respublikasının ərazisində nağd pul tədavülünün təşkili üçün Milli Bank aşağıdakıları həyata keçirir:

1. pul nişanlarına olan tələbatı müəyyənləşdirir;
2. pul nişanlarının istehsalını təşkil edir və ya hazırlanmasına sifariş verir, onların daşınmasını və saxlanmasını təmin edir;
3. pul nişanlarının ehtiyatlarını yaradır və həmin ehtiyatlara sərəncam verir;
4. Milli Bank və kredit təşkilatları tərəfindən nağd pulun saxlanması və inkassasiyası qaydalarını müəyyən edir;
5. Milli Bankda və kredit təşkilatlarında kassa əməliyyatlarının aparılması qaydalarını müəyyənləşdirir;
6. tədavülə yararsız olan pul nişanlarının əlamətlərini və onların dəyişdirilməsi qaydalarını müəyyən edir.

Sual 11. İnflyasiyanın meydana gəlmə səbəb və təzahür formaları

İnflyasiya əmtəə və xidmətlərə tələbin ümumi təklifdən artıqlığı mühitində qiymətlərin artması və bunun da müqabilində pul vahidinin dəyərsizləşməsi prosesidir. İnflyasiya dinamik bir prosesdir. Belə ki, iqtisadi sahədə baş verən dəyişikliklər mütəmadi olaraq büdcənin tarazlığını pozur. Belə bir durumda əlavə pul emissiyası büdcə xərcləri hesabına maliyyələşdirilən tədbirlər üçün ən asan vəsait mənbəyi olur. Bu proses öz növbəsində dövriyyədə olan pulun miqdarını artırır, qiymətlərin ümumi səviyyəsini yüksəldir və nəticədə büdcənin tarazlığı yenidən pozulur.

İqtisadçılar inflyasiyanın bir çox çeşidlərindən bəhs edirlər. Bunlardan ən çox söz ediləni xərc inflyasiyası, tələb inflyasiyası, əmək haqqından qaynaqlanan inflyasiya və xarici aləmdən yansıyan inflyasiya çeşidləridir. İnflyasiyanın meydana gəlmə səbəb və təzahür formaları aşağıdakılardır: Struktur inflyasiya, tələb və təklif arasındakı uyğunsuzluqdan doğan inflyasiya və pul təkliflərindəki ifrat artımın törətdiyi inflyasiyadır.

Struktur inflyasiyanin təzahür formaları aşağıdakılarla özünü göstərir: əhalinin gündəlik istehlak mallarına tələbatı sürətlə artaraq genişlənməkdədir. Lakin bu fiziki tələbatı qarşılayacaq kənd təsərrüfatı və sənaye malları kifayət edən istehsal olunmursa ölkədə qiymətlərin strukturu pozulmağa başlayacaq və inflyasiya baş verəcəkdir. Büdcə kəsirləri və borclarının artması, bu borcları ödəmək üçün mərkəzi bankdan istifadə olunması və xərclərin istehsala yönəldilməməsi qısa müddətdə pula olan tələbi də artıracaqdır. Bazar iqtisadiyyatı şəraitində qiymət sahəsində mühüm struktur problemlərdən biri də inhisarçı müəssisələrin varlığıdır. İqtisadiyyatda o müəssisələr inhisarçı hesab olunur ki, hər hansı ərazidə müəyyən məhsulun tək istehsalçısı olur və bu ərazidə həmin məhsulu əvəz edə bilən digər məhsullar istehsal olunmur. Bununla da istehsalçı alıcılara malları istədiyi qiymətə sata bilər.

İnflyasiyanın əsasını təşkil edən digər bir səbəb də iqtisadi resursların ədalətli bir şəkildə paylanmaması və ya onlardan iqtisadiyyatda lazımi səviyyədə istifadə edilməməsidir. Xarici ticarət kəsirlərini təşkil edən idxalatla ixracat arasındakı böyük fərq ixracatın həcmini azaltmaqda, istehsal üçün lazımi texnologiyanın və malların alınmasını asanlaşdırır. Nəticədə ölkənin daxili istehsalı daha da zəifləyir və struktur problemi daha da kəskinləşdirir. İnflyasinı törədən ən vacib struktur səbəblərindən biri də büdcə kəsirləridir. Məcmu tələbdəki dəyişiliklər, alış xərclərində, sərmayələrdə, hökumət xərclərində, ixracatdakı artımlar və ya vergilərdəki azalışlar məcmu tələbin artmasına səbəb olan amillərdir.

Tələb inflyasiyası isə iqtisadiyyatdakı nominal gəlirin (pulla ifadəsi) o iqtisadiyyatdakı real gəlirdən (istehsal edilən mal və xidmətdən) daha çox olması halında görülən inflyasiya formasıdır. Tələb inflyasiyası iqtisadiyyatda məcmu təklifin sabit qalması şəraitində məcmi tələbin artmasından və ya istehsalın artım sürətinin tələbin artım sürətindən aşağı olmasından ortaya çıxır. Çünki qiymət artımı istehsalı təşviq edir. İstehsalın təşviqi əmək haqqının səviyyəsini yüksəldir. Əmək haqlarının yüksəlməsi alıcılıq qabiliyyətini artırır. Beləliklə, mal və xidmət birjasında, həm də istehsal malları birjasında məcmu tələb artımı inflyasiyaya səbəb olur.

İnflyasiyaya yol açan səbəblərdən biri də istehsal xərclərinin artmasıdır. Xərclər inflyasiyası, malın maya dəyərində, yəni maddələrin birində və ya bir neçəsinin qiymətlərində (örnəyin xammal qiymətlərində) meydana gələn artımlar səbəbi ilə ortaya

çıxmaqdadır. Maya dəyərində meydana gələn artımlar məhsul qiymətini artırır, bu da qiymətlərin yüksəlməsinə səbəb olur. Məlum olduğu kimi, istehsal prosesi - əmək, kapital, təbiət resursları və təşəbbüskardan təşkil edilir. Nəticədə məsrəflər inflyasiyası bu istehsal amillərin hamısının və ya bir neçəsinin qiymətlərindəki artımların malların qiymətlərində əks etdirilməsi səbəbindən yaranır. Tədavül dairəsində əmtəə və xidmətlərlə təmin edilməyən artıq pulun olması, onun alıcılıq qabiliyyətinin aşağı düşməsinə gətirib çıxarır. İnflyasiyanın əsas mənbəyi mərkəzi bank tərəfindən tədavülə buraxılan əlavə pul kütləsidir.

Həmkarlar təşkilatının çox güclü olduğu iqtisadiyyatlarda, həmkarlar birliyinin təzyiqi ilə istehsalda gerçək bir produktivitə (məhsuldarlıq) artımı olmadan yapılacaq əmək haqqı artımları da, ölkədə nominal gəliri yüksəldəcəyindən inflyasiyaya yol açа biləcəkdir. Bu cür inflyasiyalara da əmək haqqından qaynaqlanan inflyasiya deməkdəyik.

İnflyasiyaya yol açan səbəblərdən biri də xaricdən idxal edilən malların qiymətlərindəki artımlardır.

Eyni zamanda, uzun müddətdə pul təklifindəki artımlar həm inflyasiyanı, həm də faiz dərəcələrini artırır. İnflyasiya səviyyəsini aşağı salmaq üçün pul təklifinin artım nisbəti azaltmaq məqsədəuyğundur.

Sual 12. İnflyasiyanın iqisadiyyata təsiri.

İnflyasiya, təklif əskikliyindən deyil, pul bolluğundan ortaya çıxmaqdadır. İnflyasiyanın sabit gəlirlilər dediyimiz qruplara, yəni işçi və məmurların gəlir bölgüsünə mənfi təsiri şübhəsizdir. Bu qrupun gəliri, qiymətlərin artımına ayaq uyduran qrupların gəlirlərinin əksinə azalar və satın alma gücü düşər. Bu isə sosial ədalətsizliyə yol açar. İnflyasiya şəxslərin yığım istəklərini yox edir. Pul gündən-günə dəyərini itirdiyinə görə kimsə pulunu saxlaya bilməz. Həmən pullarını mala yatırmaq istər. Bu isə tələbin şişməsindən təkrar qiymətlərin yüksəlməsinə yol açar. İnflyasiya olan ölkədə yapılacaq investisiyaların produktiv sahələrə qoyulması yerinə, ən çox qısa müddətdə mənfəət gətirən sahələrə istiqamətləndirilməsinə yol açar və beləliklə iqtisadiyyatda qaynaq bölgüsünün pozulmasına səbəb olur. İnflyasiya ölkənin xarici ticarətini də pozar. Valyuta kurslarının sabit olduğu bir durumda daxili qiymətlərin çox yüksəlməsi nəticəsində idxal ediləcək mallar daha da azalır. Bu isə, valyutaya ehtiyacı olan ölkələr üçün ciddi problemlər doğurur. Bu problemləri həll etmək üçün də devalvasiyon edilir, yəni, inflyasiya dönəmlərində faiz dərəcələri yüksəlir və real maaşlar azalır.

İnflyasinin istehlak meylli sabit gəlirlilər əleyhinə olmasından, bu isə öz növbəsində istehlakı azaldaraq inflyasiya təzyiqini düşürücü yöndə bir təsir göstərir.

Sual 13. İnflyasiyaya qarşı miibarizə

Bildiyimiz kimi inflyasiya-cari qiymət səviyyəsində məcmu tələbin məcmu təklifdən yuxarı həddə çatmasıdır. Burada aktiv olan amil tələbdir, yəni inflyasiyanın səbəbi təklifin tələbin altına düşdüyü üçün deyil, tələbin təklifin üstünə çıxdığı üçün başlamışdır. Bundan ötrü inflyasiyanın qarşısının alınmasının tək yolu tələbi daraltmaqdır. Gerçəkdən inflyasiyaya qarşı mucadilədə təklifin artırılması yetərli tədbir deyildir. Çünki təklif, eyni vaxtda özünə bərabər əlavə bir tələb yaratmadan artırmaq lazımsız olurdu. Belə olunca, təklifin artırılması, məcmu tələbi də artıracağından, inflyasiyaya səbəb olan tələb çoxluğuna davam edəcək deməkdir. Bu duruma görə, əgər təklif artımı, eyni zamanda özünə bərabər bir tələb

artımına səbəb olmursa, inflyasiyanın qarşısını almada bir alət ola bilər. Belə bir təklif artımı idxalatla təmin etmək mümkündür. Yığılmış valyuta rezervlərinin istifadəsi, ya da borclanaraq yapılan idxalat, inflyasiyanın qarşısmı almada yardımçı ola bilir. Fəqət inflyasiyanın qarşısını almaq üçün məcmu tələbin daralması məsələsi çox çətin bir işdir. Yəni, investisiyaları daraltmaq, iqtisadi artımı yavaşlatmaq lazım olacaqdır. Bu isə öz növbəsində investisiya sektorunda işsizliyə yol vermiş olaraq, çeşitli qrup və təbəqələr arasındakı gəlir çəkişməsini durdurmaq gərəkəcəkdir. Bu isə ciddi sosial gərginliyə yol açar. Bəzi iqtisadçılara görə, maaş və qiymətlərin əsnək olduğu bir iqtisadiyyatda əmək haqqı və qiymətlərdəki yüksəlmə məcmu gerçək tələbin azalmasına səbəb olur. Bu isə, inflyasiyanın azalması yolunda bir təsir meydana gətirir. Belə ki:

Ümumi qiymət səviyyəsinin yüksəlməsi, əməliyyat motivi ilə pul tələbini artırır. Bu isə, əgər pul təklifi sabit qalırsa, faiz nisbətlərinin yüksəlməsinə səbəb olmaq surəti ilə investisiya tələbinin azalmasına və gəlir səviyyəsinin düşməsinə yol açar. İstehlak xərcləmələri azalır, həm investisiya, həm də istehlak xərcləmələrinin azalması gerçək tələbi azaldır(faiz təsiri).

İnflasiyanın idxalatı artırıcı, ixracatı azaldıcı yöndə təsir etməsi, ölkə iqtisadiyyatının xarici ticarət kəsiri verməsinə yol açar. Bu isə, xarici ticarətin iqtisadiyyatdakı önəminə görə, məcmu gerçək tələbi, dolayısı ilə inflyasiya təzyiqini azaldıcı yöndə təsir edə bilər.

Hazırda inflyasiyanın cilovlanması ona qarşı mübarizənin konkret yollarının və müvafiq alətlərin seçilməsi sahəsində toplanmış kifayət qədər dünya təcrübəsi, antiinflyasiya siyasətinin işlənib hazırlanmış nəzəri əsasları mövcuddur. Keynsçi təlim iqtisadi siyasətdə təsirli alət kimi iki vasitəni tövsiyə edir: işsizlik və durğunluq halında dövlət məsrəflərini artırmaq, inflyasiya sürətləndikdə isə bu xərcləri azaltmaq.

Monetaristlərə görə, inflyasiyanın səbəbi pul kütləsindəki artım olduğundan, yeganə çarəsi də onun artım nisbətini azaltmaqdır. Lakin, onlara görə inflyasiya onun qarşısının alınması yollarının bilinməməsindən deyıl, bu tədbirləri həyata keçirəcək siyasi iradənin olmamasından irəli gəlir.

Antiinflyasiya tənzimlənməsinin vəzifələrindən biri də büdcə kəsirinin azaldılması və ləğv edilməsidir. Özəlləşdirilən müəssisələrin səhmlərinin satılması inflyasiya tələbinin müəyyən hissəsini azaldır. İri miqyaslı özəlləşdirmə həyata keçirilmiş bütün ölkələrdə belə nəticə əldə edilmişdir.

İnflyasiya əleyhinə bir vasitə kimi milli valyutanın məzənnəsini artırmaqdan istifadə edilir. İnflyasiyanın qarşısının alınmasında vacib amillərdən biri də ücüz kredit siyasətinin aradan qaldırılmasıdır. İnflyasiya, bir iqtisadiyyatda pul miqdarının yenə də o iqtisadiyyatdakı mal və xidmət miqdarına nəzərən daha çox artımı ilə və ümumi qiymətlər səviyyəsində ortaya çıxan davamlı bir artımın nəticədir. Bu davamlı artımın səbəbi də pul miqdarında meydana gələn artımdır. Ancaq, pul miqdarında artıma paralel olaraq əgər iqtisadiyyatda mal və xidmət istehsalının artımı da müşahidə olunursa, onda bu durumda ümumi qiymətlər səviyyəsində bir artım ortaya çıxmayacaqdır. Ümumi qiymət səviyyəsinin davamlı olaraq yüksəlməsi xalqın istehlak və investisiya xərcləmələri ilə dövlət xərcləmələri və ixracat gəlirindən təşkil olunan məcmu gerçək tələbin, milli istehsal və idxalatdan təşkil olunan məcmu təklifi aşmasindan, yəni tələbdən meydana gələ biləcəyi kimi xərclər artımından da qaynaqlana bilir.

Sual 14. Devalvasiya

Bir ölkənin Milli pulun dəyərinin tək tərəfli bir qərarla yabançı ölkə pullarına görə düşürməsinə devalüasyon deyilməkdədir. Məsələn, 1 Avro= 1 manat ikən yapılan bir devalüasyonla 1 Avro = 1,10 manat olaraq təsbit edilirsə, bu durumda manat Avro qarşısında 10% nisbətində dəyər itkisinə yol açmışdır. Devalüasyon yapılmasını gərəkdirən şərtlərin ən önəmlisi davamlı və xronikləşmiş xarici ticarət açıqlarıdır. Bir iqtisadiyyat əgər xaricə satdığından daha çox malı xaricdən alırsa, bu ölkənin xarici ticarəti açıq verir deməkdir. Xarici ticarət kəsirə olan ölkələrin hökumətləri devalvasyonla ixracatı artırma, idxalatı isə azalma məqsədi daşıyır. Devalüasyondan sonra devalüasyonu yapan ölkənin malları xarici ölkələr üçün ücüzlaşır, əksinə xarici ölkənin malları isə bu ölkədə bahalaşır. Lakin devalüasyondan sonra iqtisadi uğuru əldə etmək üçün daxili qiymətlərin artımını durdurmaq şərtdir.

Sual 15. Pul siyasətinin iqtisadiyyata təsiri

Heç şübhəsiz pul siyasətini həyata keçirən insitut - Mərkəz Bankıdır. Mərkəz Bankı pul təklifindən istifadə edərək faiz nisbətlərini də dəyişdirə bilir. Faiz nisbətləri isə bilindiyi kimi investisiya və yığım səviyyələri üzərində təsirli olmaqdadır. Pul siyasətinin təməl məqsədi, qiymət səviyyəsinə nəzarət, iqtisadiyyatı sabitlik içində tutmaq, məşğulluq, iqtisadi artımı və tədiyyə balansında tarazlığı təmin etməkdir.

1930-cu illərdəki iki olay pul siyasətinin rolu və məqsədləri mövzularında bir dəyişməyə yol açdı. Bu olayların birincisi, böyük depresyon və onun təşkil etdiyi kütləsəl və şiddətlənən işsizlik, ikincisi də 1936-cı ildə Keynesin məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi əsərinin nəşr etməsidir. Keynes əsərində pul təklifindəki bir dəyişmənin faiz nisbətlərinin dəyişməsinə, bunun da investisiyaya təsirini geniş şəkildə izah etmişdir.

Daha sonralar, 1940-cı illərdəki hadisələr, pul siyasətinin məqsədləri və alətləri üzərində dəyişiklik edilməsi mövzusunda təsiri olmuşdur. Bunlardan Birincisi, II Dünya müharibəsi sırasında və sonrasında, Federal Rezerv Sisteminin müharibə məsrəflərinin finansmanı və faiz nisbətlərini düşük tutma siyasəti uyğulaması olmuşdur. 1946-cı ildə ABŞ-da çıxarılan iş qanunu ilə, işlə təmin olma, ABŞ hökümətinin milli iqtisadi siyasətinin əsas məqsədini təşkil etməsi olmuşdur.

Beləliklə pul siyasətinin məqsədləri sırasına qiymət səviyəsi ilə yanaşı, məşğulluq da əlavə edilmişdir.

II Müharibə sonrası, Avropa və Yaponiyanın iqtisadi artımı, ABŞ- ı təhdid edər formaya geçincə, pul siyasətinin üçüncü bir məqsədi, iqtisadi inkişaf və artımı təmin etmək olmuşdur.

Xarici ticarət balansı tarazlıqda saxlamaq məqsədi 1950-ci illərin sonlarında 1960-cı illərin əvvəllərində iqtisadi ədəbiyyatda ən önəmli müzakirə mövzusu olmuşdur.

Zamanla pul siyasətinin məqsədləri arasında çatışmalar olur. Qiymət sabitliyi saxlamaya yönəlik bir pul siyasəti çox zaman tam məşğulluq məqsədindən uzaqlaşma məcburiyyətində qalmaqda və bir anlamda qiymət sabitliyi işsizliyin qaynağı olmaqdadır.1970-ci illərdə petrol böhranı sonrası ortaya çıxan durğunluğun əsası böyük ölçüdə bu proses çərçivəsində inkişaf etmişdir. Digər yandan valyuta kurslarının sabit tutulması durumunda, əgər faiz nisbətləri yüksəlirsə, finans sərbəstləşmənin olduğu bir ölkədə, ortaya bir açıqlıq çıxmaqdadır. Bu açıqlığa "valyuta qayçısı" deyilir. Bir ölkədə "valyuta qayçısı" təşkil edilirsə və bu ölkəyə

xaricdən qısa müddətli sərmayə axımı olmaqda, bu isə bəzi dönəmlərdə ciddi fınans böhranına səbəb olmaqdadır.

Depresyonda pul siyasəti. Daha öncə görmüş olduğumuz üzərə, depresyonun səbəbi investisiyaların azalmasıdır. Buna qarşı pul siyasətinin tədavi tədbirləri faiz həddini düşürmək və kredit almada asanlaşdırma prosesinə yardımçı olmaqdır. Bu tədbirlərin yetərsizliyi açıqdır. Çünki depresyon zamanlarında sərmayənin marjinal verimliyi çox düşük, hətta 0-ın altındadır. Bu durumda investisiyanı stimulaşdırmaq üçün, faiz həddini düşürmək lazım gələcəkdir. Lakin, faiz hədlərinin 0-dan aşağı düşürülməsinə imkan yoxdur. Hətta bank əməliyyat məsrəflərini qarşılaya bilməsi üçün faiz hədlərini pozitiv bir rəqəmə çatdırması lazımdır.

Faiz həddinin düşürülməsi, investorları stimullaşdırmayacaq, kreditlərin alınmasında asanlaşma şərtləri isə bir işə yaramayacaqdır. İflasların və işsizliyin yayğın olduğu bir dönəmdə banklar kredit vermədə ehtiyatlı və çox diqqətli olmalıdırlar. Gerçəkdən depresyon dönəmlərində kreditlərin geri ödənməmə ehtimalı çox yüksəkdir. Belə bir vəziyyətdə bütün bankların depresyonla mücadiləsi üçün kredit verməkdə geniş davranmağa inandırmaq sadə bir iş deyildir.

Sual 16. Pul siyasətinin məqsədləri

Pul siyasəti strategiyasının hazırlanması iki mərhələdən ibarətdir: onun son məqsədinin müəyyən edilməsi və cari məqsədin müəyyən edilməsi. Bütün bu məqsədlərin hamısı monetar orqanlar tərəfindən həyata keçirilir. isadi.

Hər bir ölkənin iqtisadi siyasətinin əsasında inflyasiya səviyyəsinin aşağı salınması və ÜDM-in artımı durur. Bildiyimiz kimi, dövlət orqanlarının əsas məqsədi müəyyənləşmiş siyasi iqtisadi tədbirlərin həyata keçirilməsi yolu ilə stabilliyin əldə olunması və bu stabilliyin uzun müddət qorunmasıdır. Ümumi iqtisadi stabillik hər şeydən əvvəl əsas makroiqtisadi göstəricilərin müəyyən vəziyyətini nəzərdə tutur. Bunlara əsasən istehsalın stabil artımı, stabil qiymətlər, işçi qüvvəsinin tam məşğulluğu tədiyə balansın müsbət saldosu və s. kimi sadalanan nəticələrə nail olmaq üçün monetaristlər belə hesab edirlər ki, bütün bazar elementləri sərbəst fəaliyyət göstərməlidir. İnhisarçı meyllərin həm dövlət, həm də xüsusi sektorda inkişafı rəqabətin öz rolunu yerinə yetirməsinə imkan vermir.

Bunun əksinə olaraq son illər pul sisteminin liberallaşdırılması ideyaları geniş yayılmışdır. Bütün bu nəzəriyyələrin əsas məqsədi pul siyasətinin iqtisadi proseslərə təsirinin optimallaşdırılması istiqamətidir. Pul siyasətinin müxtəlif ölkələrdə məqsədlərinin fərqlənməsi monetar orqanların taktikasının seçilməsindən asılıdır.

Pul siyasətinin strategiyası kimi məqsədləri də aşağıdakı kimi təsnifləşdirilir: fəaliyyət sərhədlərinə görə; pul siyasətini daxili və xarici olaraq iki istiqamətə bölmək olar. Fəaliyyət vaxtına görə (taktiki və aralıq) də pul siyasətinin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Taktiki məqsəd dedikdə, pul orqanlarının açıq bazarda ardıcıl əməliyyatlar aparması vəzifələri nəzərdə tutulur. Aralıq məqsəd isə müəyyən vaxt intervalında iqtisadi dəyişiklərin tənzim edilməsi vəzifələrini ifadə edir. Aralıq məqsədlərə istehsalın nominal həcmi, faiz dərəcəsi, pul kütləsinin artım tempi, qiymət səviyyəsi aiddir.

Pul siyasətinin aralıq məqsədlərindən biri də pul kütləsinin artırılmasıdır. Pul kütləsinin dəyişdirilməsi istehsalın hecminə təsir edir. Lakin bu təsirin hansı səviyyədə olması iqtisadçılar arasında mübahisələrə səbəb olur. Pul kütləsinin artırılması nominal istehsal həcmini artırır. Faiz dərəcəsi ilə pul dövriyyə sürəti arasında asılılıq olduğuna görə Mərkəzi bank daim

tədavüldə olan pul kütləsini korrektə etməlidir. Müasir pul nəzəriyyələri pulun dövriyyə sürətinə stabil deyil, dəyişkən səviyyə kimi baxır.

Pul siyasətinin aralıq məqsədlərindən biri də qiymət səviyyəsinin nəzarətdə saxlanılmasıdır. Qiymət səviyyəsinin qaxması bütün iqtisadi proseslərə təsir edir. Ona görə də dövlət orqanlarının həyata keçirdikləri iqtisadi siyasətdə bu göstərici əhəmiyyətli yer tutur. Qiymət səviyyəsi müəyyən nöqtədən aşağı düşdükdə Mərkəzi Bank bank sisteminə əlavə ehtiyatlar verməklə məcmu tələbi artırır. Qiymət səviyyəsi müəyyən edilmiş nöqtədən yuxarı qalxdıqda əksinə tədbirlər həyata keçirilir. Pul siyasətinin daimi eyni səviyyədə saxlanılmasının çatışmayan tərəfləri vardır. Bu onunla əlaqədardır ki, bu prosesdə təklifdə ola biləcək şokların nəticələri iqtisadi sistemə mənfi təsir edir. Təklifdə ola biləcək şok zamanı Mərkəzi Bank pul kütləsini sıxmaqla qiymət səviyyəsini eyni saxlamağa çalışır. Bu isə iqtisadi sistemin inkişafının qarşısını alır.

Pul siyasətinin aralıq məqsədlərindən biri də faiz dərəcələrinin iqtisadi aktivliyi stimullaşdıracaq səviyyədə olmasını tənzim etməkdən ibarətdir. Pul siyasəti vasitəsi ilə Mərkəzi Banklar faiz dərəcələrinə təsir edir və onların müəyyən həddən artıq olmasın qarşısını alır. Mərkəzi Bank birbaşa faiz dərəcəsinin səviyyəsini müəyyənləşdirmək imkanında deyildir. Dolayı metodlar vasitəsi ilə faiz dərəcəsini tənzim etmək üçün Mərkəzi Bank uçot dərəcəsindən istifadə edir. Digər tərəfdən açıq bazarda əməliyyatların aparılması faiz dərəcəsinin səviyyəsinə təsir edə bilir. Faiz dərəcəsinin aşağı və ya yüksək olması iqtisadi fəallığa, investisiya mühitinə çox güclü təsir edir.

Beləliklə, Pul siyasətinin məqsədləri təməl məqsədləri altı başlıq altında toplaya bilərik: Tam məşğulluq; İqtisadi böyümə; Qiymət səviyyəsi; Tədiyyə balansında tarazlıq; Faiz nisbəti sabitliyi; Finans bazarlarında sabitlik.

Sual 17. Pul siyasətinin alətləri.

Birbaşa pul siyasətində Mərkəzi Bank məqsədlərini həyata keçirmək üçün bazar qaydaları çərçivəsindən deyil, qanuni qaydalar yolundan istifadə edir.

Faiz dərəcələrinə nəzarət. MB-nin birbaşa alətləri içərisində ən çox istifadə ediləni - faiz dərəcələri üzərində nəzarət sistemidir. Mərkəzi Bank kredit qurumlarına əmanət və kredit əməliyyatlarına görə faiz dərəcələrinə məhdudiyyət qoya bilər. Bu uykulama çərçivəsində müxtəlif sektorlara müxtəlif faiz dərəcələri tətbiq edilə bilər, və bu zaman stimullaşdırılacaq sektorlara açılacaq kreditlərin faiz dərəcələri aşağı səviyyədə tutulur. Burada məqsəd kredit mənbələrin dövlət proqramına uyğun olaraq prioritet sahələrə verməkdir.

Kredit limitləri. Mərkəzi banklar kommersiya banklarının iqtisadi fəaliyyətlə əlaqədar olaraq sektorlara açacaqları kredit miqdarına məhdudiyyət qoya bilər. Açılacaq kreditlərə görə məhdudiyyət limitləri fərqləndirilir. Stimul edilmək istənilən sektorlara ayrılacaq kredit limitlərinin miqdarı yüksək tutulur və burada məqsəd kreditlərin bu sektorlara yönəlməsini təmin etməkdir. Kredit limitləri bank bazasında da uykulana, bankların sərmayəsinə, kredit və əmanət həcminə də qoyula bilər.

Fərqliləşdirilmiş reeskont kreditləri. Bank bazasında reeskont kvotaları, bankların məqsədlərinə, risk vəziyyətinə uyğun olaraq, likvid ehtiyacı ilə əlaqədar müəyyən edilir. Məqsəd bu kvotaların yardımı ilə yerli bankların reeskont pəncərəsindən daha çox yararlana bilməsini, bununla da bəzi sektorların maliyyə baxımından dəstəklənməsini təmin etməkdir.Məsələn, kənd təsərrüfatı sektoruna daha çox qaynaq transfer edən banklarda Mərkəzi bank tərəfindən reeskont kvotaları yüksək tutulur.

Disponibilitə tətbiqi. Mərkəzi bank, kommersiya banklanın aktivlərindəki mənbələrin müəyyən bir nisbətini dövlət istiqraz kağızlarını satın almağa və ya bankların varlıqlarının müəyyən faizini kassalarında nağd olaraq tutmağa məcbur edə bilər.

Portfeldə finans aktivlərinin yenidən nizamlanması. Mərkəzi bank, kommersiya banklarının portfellərində tutacaqları maliyyə aktivlərinin nisbətini təsbit edə bilər. Məsələn, satın alınan səhm və iqtiqrazların hansı fəaliyyət sahəsinə aid olmasını, bunların nisbətinin və ya miqdarının nə qədər olacağını müəyyənləşdirə bilir. Beləliklə, finans qurumlarının əllərində olan fondların iqtisadi sektorlara transfer edilməsini təmin etmək mümkündür.

Reklam və ya rəsmi olmayan göstərişlər. Mərkəzi Bankın ölkədə həyata keçiriləcək pul siyasətinin məqsədləri haqqında media qurumları vasitəsilə ictimaiyyətə açıqlamaları və ya iqtisadi islahatlar haqqında tövsiyə və təklifləri, şirkət və şəxslərin gələcək investisiya qərarlarında dəyişikliyə təsir edə bilər.

Dolayı pul siyasətinin həyata keçirilməsi istiqamətində Mərkəzi Bank pul bazarında bütün iştirakçılar kimi eyni statusda iştirak edir və bazarda gedən dəyişikliklərin təşəbbüskarı birbaşa Mərkəzi Bank deyil, bazardır.

Pul siyasətinin dolayı alətlərinin üç növü mövcuddur: Reeskont siyasəti; Məcburi ehtiyat normaları; qiymətli kağız bazarında açıq əməliyyat siyasəti.

Reeskont siyasəti. Mərkəzi Bank reeskont əməliyyatlarını aparmaqla, likvid keyfiyyəti yüksək olan finans varlıqlarının diskont edilməsi formasında həyata keçirir. Bu yolla Mərkəzi Bank bankların kredit həcmlərinə təsir edə bilər. Reeskont krediti likvidə ehtiyacı olan bankların ən son likvid mənbəyi olan MB bu açığın bağlana bilməsi məqsədi ilə kredit təmin edilməsini qoruyan bir pul-kredit siyasəti alətidir.

Məcburi ehtiyat normaları. Mərkəzi Bank bu siyasəti həyata keçirməklə, kommersiya banklarına portfellərinin müəyyən bir hissəsini rezerv pul olaraq saxlamaqla (nağd və ya MB-da əmanət formasında) qarşılarına öhdəçilik qoymaqdadır. Başqa sözlə, məcburi ehtiyat normaları bankların passivlərində yer alan bəzi öhdəliklərinin müəyyən bir hissəsinin nağd və faizsiz olaraq MB tərəfindən bron edilməsidir. MEN tətbiqi, bankların əmanətlərinə ani və vaxtaşırı çəkilişlərə qarşı bir yandan əmanət sahiblərinin sistemə olan inamını artırmaqla bərabər, digər tərəfdən pul miqdarına nəzarətdə önəmli bir alət olmuşdur. Gizli vergi təsiri (uyqulamaya görə faiz ödəmələrindən topladıqları əmanətin bir hissəsini faizsiz olaraq MB depo etdiyindən, banklar bu hissədən əldə edəcəyi gəlirdən məhrum olur. Bu gəliri isə MB istifadə edərək, bazardan gəlir əldə etməsi yolu ilə mənfəəti xəzinəyə axıtmaqdadır) də yaradan MEN-in varlığının davam etməsi xəzinəyə önəmli gəlir gətirir.

Açıq bazar əməliyyatı (ABƏ). Açıq bazar əməliyyatı, finans aktivlərinin MB tərəfindən birinci və ikinci bazarda birbaşa və ya tərs depo əməliyyatlarında istifadə edilən maliyyə aktivləri içərisində başlıca yeri cari xəzinə borcları və dövlət istiqraz sənədləri tutur. Açıq bazar əməliyyatı MB-nin tədavüldəki pul kütləsini azaltmaq və ya çoxaltmaq üçün xəzinə bono və təhvillərilə, özəl sektora aid bəzi təhvil və sənədləri ilə konkret və ya keçici bir müddət üçün alqı-satqı əməliyyatıdır.

Açıq bazar əməliyyatları, bankların likvidlərindəki və bazardakı pul miqdarında dəyişikliyə yol açır. Bankların likvidində meydana gələn dəyişmələr kredit açа bilir və fond həcminə və kredit siyasətinə təsir edə bilir. Bundan başqa, açıq bazar əməliyyatları bazardakı tarazlıq faiz dərəcəsinə təsir edir. MB qiymətli kağızları satın alarkən bazara likvid çıxdığından faiz dərəcələri aşağı düşəcək, qiymətli kağızın qiyməti artacaqdır. Digər tərəfdən MB bazara qiymətli kağız satarkən, bazardakı likvid azalacaq, faiz dərəcələri yüksələcək, qiymətli kağızların qiyməti aşağı düşəcəkdir.

Sual . Kreditin mahiyyəti

Krediti, latın ifadəsi olub – greditam-gredere, yəni etimad etmə və ya inanma mənasına gəlir. Kredit, yəni qarşılığı gələcəkdə ödənəcək və etimad üzərinə qurulmuş bir tədiyə formasıdır. Bu üsula görə alınan malların dəyəri dərhal ödənməyərək, gələcəkdə ödənilməsi öhdəliyi gətirilir. Kredit alanın sadəcə ödəmə arzusu yetərli deyil, eyni zamanda kreditin məbləği qədər və hətta ondan yuxarı məbləğdə qarşılığı və ya təminatı olmalıdır. Kredit etimad və ya təminata söykənən bir əməliyyatdır. Kredit qənaət edilən pulların bazara axmasını və malların ən faydalı şəkildə istifadəsinə yardımçı olur. Kredit əldəki pul ilə gələcəkdə ələ keçəcək pulun mübadiləsidir. Kredit verən pul verib, ödəmə vədi almaqda, kredit alan isə pul alıb ödəmə vədi verməkdədir. Pul sonsuz likvid olduğuna görə pul ilə istənilən mal və xidmət satın alına bildiyinə görə, kredit, kredit verənin bu gün mal və xidmət satınalmaqdan əl çəkərək gələcəkdə mal və xidmət satın almasını, kredit alanın isə gələcəkdə mal və xidmət satınalmaqdan əl çəkərək bu gün mal və xidmət satınalmasını mümkün edər. Kredit gələcək gəlirlər hesabına xərcləmək imkanı verməklə yanaşı, iqtisadiyyatda satınalma gücünün artmasma, mübadilə həcminin genişlənməsinə səbəb olur.

Iqtisadi məfhum kimi kreditin əsasını geri qaytarılma təşkil edir. Geri qaytarılma kreditin ümumi xüsusiyyətidir və buna görə də kredit münasibətlərinə xas olan müəyyənedici cəhətdir. Deyilənlərdən kredit anlayışı və onun mahiyyəti haqqında belə bir nəticəyə gəlmək olar ki, kredit dəyərin kreditorla borcalan arasında geri qaytarılma əsasında hərəkətidir və bununla əlaqədar kreditorla borcalanın arasında yaranan iqtisadi münasibətlər toplusudur.

Kreditin funksiyaları

Kreditin funksiyaları aşağıdakılardır:

1. Yenidən bölüşdürmə funksiyası, yəni kreditorun sərbəst vəsaiti başqa əraziyə vəya başqa iqtisadi sahəyə keçə bilir;
2. tam dəyərli pulların kredit pulları ilə əvəzlənməsi prosesi;
3. tədavül xərclərinə qənaət;
4. kapitalın konsetrasiya və mərkəzləşdiriməsi.

Kreditorla borcalan arasında bağlanan kredit sövdələşmələri dəyərin yenidən bölgüsü mərhələsində meydana gəlir. Mübadilə prosesində müvəqqəti sərbəst olan dəyər borcalana verilir, sonra isə öz sahibinə qaytarılır. Kredit üçün səciyyəvi olan bu proses onu göstərir ki, kreditin ilk və köklü funksiyası yenidən bölgü funksiyasıdır. Formasından asılı olmayaraq bütün hallarda dəyərin yenidən bölgüsü baş verir. Kredit vasitəsilə resursların yenidən bölgüsü müxtəlif səviyyələrdə baş verir. Kredit münasibətlərinin subyekti olan müəssisələrin səviyyəsində baş verən dəyərin fərdi dövranı və dövriyyəsi çərçivəsində mal-material qiymətliləri və pul vasitələri yenidən bölünür. Ümumiqtisad səviyyəsində isə dəyərin hərəkəti kredit vasitəsilə milli gəlirin yenidən bölgüsündə təzahür edir.

Kreditin ikinci funksiyası həqiqi pulların kredit əməliyyatları ilə əvəzlənməsi vasitəsilə tədavül xərclərinə qənaət edilməsidir. Müasir iqtisadiyyatda bu cür əvəzlənmə üçün zəruri şərait mövcuddur. Mal və xidmətlərə görə nağdsız hesablaşmalarla əlaqədar pulların bir hesabdan köçürülməsi, qarşılıqlı borcların ödənilməsi, qarşılıqlı ödəmələrin yalnız saldosunun (qalığının) köçürülməsi nağd pul ödəmələrini azaltmaq üçün pul dövriyyəsi quruluşunu yaxşılaşdırmaq imkanı yaradır.

Müasir dövrdə həqiqi pullar kimi qızıl sikkələr deyil, kredit əsasında buraxılan pul nişanları tədavül edir. Metalizm dövrün həqiqi pulların kredit ilə əvəzlənməsi prosesi qızıl sikkələrin yerinə banknotların tədavül etməsində təzahür edirdi. Lakin qızılın tam demonetizasiyası, yəni qızıl sikkələrin banknotlarla tam əvəzlənməsi və banknotların öz qızıl əsasını itirməsi bu funksiyanın qüvvədən düşməsinə gətirib çıxartmadı. Əksinə, kreditin tərəqqisi, onun əmtəə təsərrüfatının inkişafında aparıcı qüvvəyə çevrilməsi nəticəsində borcalanın cəlb və təsərrüfat dövriyyəsinə yenidən daxil etdiyi dəyər pula xas olan vəzifələri icra etməyə başlayır. Bunun nəticəsində ictimai kapitalın hərəkəti sürətlənir. Tədavül vaxtı minimuma endirilir və tədavül xərclərinə qənaət edilir ki, bu da ictimai kapitalın fəaliyyət səmərəsinin yüksəlməsi deməkdir, çünki kapitalın məhsuldar fəaliyyət vaxtı artır.

Kreditin mühüm funksiyası kapitalın təmərküzləşməsi və mərkəzləşməsi prosesinin sürətləndirilməsi funksiyasıdır. Kredit mexanizminin vasitəsilə izafi dəyərin kapitallaşması prosesi daha sürətlə baş verir. Kapitalın təmərküzləşməsinin güclü amili kimi çıxış etməklə kredit fərdi yığımın hüdudlarını genişləndirir. Kreditin köməyi ilə bir fərdin kapitalları onlara digər fərdlərin kapitallarını əlavə etməklə artırılır. Bu mənada kredit fərdi müəssisələrin səhmdar cəmiyyətlərə çevrilməsi və yeni şirkətlərin yaradılması, inhisarların və beynəlxalq şirkətlərin meydana gəlməsi amillərindən biridir. Məhz kapitalların mərkəzləşdirilməsi mexanizmi kimi çıxış etməklə kredit rəqabətin güclü vasitəsinə çevrilir. Çox vaxt iri şirkətlər, kiçik şirkətlərə nisbətən daha münasib, yüngül şərtlərlə kreditləşdirilir.

Kreditin prinsipləri

Kreditin tarazlıq qanunu - Kredit ilə onun mənbələri arasında asılılığı tənzimləyir. Sərbəstləşən vəsaitlə yenidən bölüşdürülən vəsaiti tarazlaşdırır.

Ssuda dəyərinin saxlanması qanunu - müvəqqəti istifadəyə verilmiş vəsait geri qayıtdıqda onun dəyəri itmir.

Vaxt qanunu - vəsaitin sərbəstləşmə vaxtı çox olduqca kreditin borclunun sərəncamında qalması ehtimalı da artır. Eləcə də kreditin dövretmə sürətinin artımı onun yeni borcalana təqdim edilməsinə imkan verir.

Kredit münasibətləri zamanı tərəflər müəyyən prinsiplərə riayət etməlidirlər: qaytarılmaq, müddətlilik, ödənclik və təminat prinsipləridir. Kreditin qaytarılmalı olması onun mahiyyətindən irəli gəlir, yəni verilən vəsait geri qaytarılmalı olmasa o, heç kredit adlanmazdı. Bir iqtisadi kateqoriya kimi kredit əmtəə-pul münasibətlərinin digər iqtisadi kateqoriyalarından bilavasitə bu xüsusiyyəti ilə fərqlənir. Bazar münasibətləri şəraitində bu xüsusiyyət daha kəskin xarakter daşıyır. Kreditin qaytarılmalı olması borc alanda və borc verəndə ciddi maddi məsuliyyət aşılayır. Qaytarılmalı məfhumu mücərrəd xarakter daşıdığından kreditləşmə prosesində bu məfhum daha dəqiqləşdirilir. Yəni kredit müddətlilik prinsipi əsasında həyata keçirilir. Bu o deməkdir ki, kredit konkret müəyyən olunmuş müddətlərdə qaytarılmalıdır. Müddətlilik prinsipi onu tələb edir ki, borc vəsaiti borc alanın dövriyyəsində müəyyən müddət iştirak etməlidir və bu müddət başa çatdıqdan sonra o geri qaytarılmalıdır.

Müddətlilik - yəni borcun əvvəlcədən müəyyən edilmiş müddətdə geri qaytarılması - borcdan səmərəli istifadə olunduğunu göstərir. Kreditin müəyyən olunmuş müddətdə geri qaytarılmaması əsassız olaraq müəssisənin dövriyyəsində borc vəsaitinin iştirakından xəbər verir və pul tədavülünə mənfi təsir göstərir. Bankların kommersiya prinsipləri əsasında fəaliyyət göstərdiyi bir şəraitdə bu prinsipin əhəmiyyəti daha da artır.Kreditin ödənilmə müddətləri tərəflər arasında bağlanan müqavilədə əks olunur. Müddətlilik prinsipinə əməl etməyən borc alanlara

iqtisadi sanksiyalar tətbiq edilir - əsasən faiz səviyyəsi yüksəldilir və gələcək kreditləşmədə borcalanın intizamsızlığı nəzərə alınır.

Kreditin vacib prinsiplərindən biri onun ödəncli olmasıdır. Bu o deməkdir ki, kredit nəinki müəyyən olunmuş müddətdə tam qaytarılmalıdır. Həmçinin kreditdən istifadəyə görə ödənc-faiz ödənilməlidir. Kreditin ödəncli olması borcalanda kreditdən səmərəli istifadə etmək məsuliyyəti aşılayır, onda daxili resursları artırmaq marağı oyadır. O kreditdən elə istifadə etməyə çalışmalıdır ki, əldə etdiyi nəticə nəinki kreditin geri qaytarılmasını, kreditə görə faizlərin ödənilməsini təmin etsin, həmçinin özünə gəlir gətirsin. Ödənclik kreditor üçün də xüsusi əhəmiyyət kəsb edir. Kreditor ödənclilik əsasında öz müstəqilliyini və gəlirliliyini təmin edir, resurslarını artırır. Ödəncliliyin iqtisadi mahiyyəti ondadır ki, kreditdən istifadə nəticəsində əldə edilən gəlir borcaları ilə kreditor arasında bölüşdürülür.

Ssuda kapitalına görə əldə edilmiş illik gəlirin verilmiş kreditin məbləğinə nisbəti kimi müəyyən edilən ssuda faizi norması kredit resurslarının qiyməti kimi meydana çıxır. Bank kreditinə görə faiz stavkaları müəyyənləşdirilərkən aşağıdakılar nəzərə alınmalıdır: faiz şəklində gəlir gətirən kredit qoyuluşu və digər aktiv əməliyyatların həcmi; bankın öz müştərilərinə depozit hesablara görə verdiyi orta faiz dərəcəsi; bankın aktiv əməliyyatları üzrə faiz stavkası; bankın kredit resurslarının quruluşu; bank kreditlərinə olan tələb və təklif; kreditin təminatlılığından asılı olaraq risk səviyyəsi; inflyasiya prosesinin tempi ölkədə pul tədavülünün stabilliyi; istehsalın mövsümiliyi və s.

Kreditin vaxtında və tam qaytarılması şərtlərindən biri də kreditin təminatlı olmasıdır. Təminatlılıq prinsipi kimi kreditin ödəniş vaxtı çatarkən, kredit ödənilmədikdə onun ödənilməsini təmin edən faktor başa düşülür. Əvvəllər kre-ditin təminatı kimi əsasən mal materiallarından istifadə edilirdi, yəni kreditlər vaxtında ödənilmədikdə kreditor öz borcunu və faizlərini həmin-maddi qiymətlilərin reallaşdırılması vasitəsi ilə təmin edirdi. Bazar münasibətlərinə keçid kreditin bu prinsipinin də mahiyyətini dəyişdirmişdir. Son illərə qədər kreditin təminatlılığı dedikdə onun maddi qiymətlilərlə təmin olunması, yəni kredit müqabilində onun dövriyyəsində material qiymətliləri mövcudluğu başa düşülürdü. Bazar münasibət-lərinə keçidlə əlaqədar təminatın digər formalarından ödəmə qabiliyyətli müştərilərin zəmanəti, havadarlığı, sığorta polisi və s.-dən istifadə edilir. Təminatlılıq borcun vaxtında və tam ödənilməsinin qarantı olmaqla borc alanın kreditora verdiyi hüquqi cəhətcə rəsmiləşdirilmiş öhdəlik forması xarakteri daşıyır.

Kreditləşmə prosesində differensial münasibət prinsipindən də istifadə edilir. Bu prinsip əvvəllər borcalanların yaxşı və pis işləməsindən asılı olaraq tətbiq edilirdi. Yaxşı işləyən müştəri güzəştli qaydada kreditləşdirilir, pis işləyənlərə isə kredit cəzaları tətbiq edilirdi.

Hal-hazırda kreditləşmə müştərinin kredit qabiliyyəti əsasında həyata keçirilir. Bu prinsipə görə kredit ehtiyacı olan müştərilərə deyil, kredit qabiliyyətli müştərilərə verilir.

Kreditin forma və növləri

Kreditin baza forması aşağıdakılardır: mal-əmtəə; pul və qarışıq (kommersiya). Sazişdə nəzərdə tutulan kreditorun kimliyindən asılı olaraq kredit aşağıdakı formalara ayrılır:

1. Təsərrüfat (şirkətlər arası);
2. Bank;
3. Mülki (vətəndaşlar arasında);
4. Dövlət;
5. Beynəlxalq;
6. İstehlak.

Təsərrüfat subyektləri krediti pul və kommersiya kredit formasında istifadə edilir. Kommersiya krediti zamanı kreditor kimi təsərrüfat subyektləri, yəni müəssisə, firma, şirkətlər çıxış edir. Kreditin bu forması bir mal istehsalçısının və yaxud malın topdan satıcısının digər müəssisəyə əmtəənin nisyə satışı zamanı meydana gəlir. Deməli, kommersiya kreditinin əsasında satıcı müəssisənin əmtəə dəyərinin ödənilməsi üzrə möhlət verməsi və müəyyən edilmiş müddət keçdikdən sonra əmtəə dəyərini ödəmək öhdəliyi kimi alıcı müəssisənin veksel verməsi durur. Bu səbəbdən kommersiya kreditinə veksel krediti də deyilir. Göründüyü kimi kommersiya kreditinin obyekti dəyərin əmtəə formasıdır, aləti isə kommersiya vekselidir. O, əsasən qısamüddətli (1 ilə qədər) səciyyə daşıyır. Onun iştirakçıları təsərrüfat fəaliyyətinin subyektləri olduğundan kommersiya krediti topdansatış münasibətlərdə tətbiq olunur. Kommersiya krediti daxilindəki ödəmə möhləti məhsul satışının davamı kimi çıxış edir. Buna görə kommersiya krediti vasitəsilə satışm tezləndirilməsi və tədavül zamanının məhdudlaşdı-rılması məsələsinə nail olunur ki, bu da fərdi və ictimai kapitalın səmərəli fəaliyyətinə xidmət edir. Bu mühüm cəhətin davamı kimi kommersiya faizinin formalaşması çıxış edir. Mal satıcısının əsas məqsədi məhsul satışının sürətləndirilməsi və onun qiymətindəki mənfəətin əldə edilməsinin tezləşdirilməsidir. Bu səbəbdən kommersiya krediti üzrə ödəniş möhlətinin haqqı məhsulun qiymətinə daxil edilir və bu, bank krediti faizi ilə müqayisədə çox cüzidir.

Hal-hazırda kommersiya kreditinin üç növündən istifadə edilir:

1. Kreditin müddəti fiksə (tarixi təsbit edilmiş) edilmiş qaydada ödəmək;
2. Konsiqnasiya qaydasında (hissə-hissə ödəmək) borclunun malı realizə etdikdən sonra kreditora pulun ödənməsi;
3. Açıq hesabla kreditləşmə.

I-ci halda satılı malı alıcıya göndərdikdən sonra, alıcı satıcıya sadə veksel, yəni vekseldə təsbit edilmiş tarixdə borc ödəməsinin yerinə yetirilməsinə öhdəlik verir və ya satıcı, özü alıcıya tratta təqdim edir (köçürmə veksel) və alıcı kommersiya sənədlərini akseptə edir, yəni tratta göstərilmiş tarixdə ödənişi yerinə yetirməyə öhdəlik verir.

II-halda, konsiqnasiya prosesidir, yəni pərakəndə satıcı malı realizə etdikdən sonra kreditora olan borcunu yerinə yetirir. Məsələn, konsiqnasiya yeni malların bazarı və qeyri-tipik malların təklifi ilə təqdim edilir, yəni bazarın tələbi dəyərləndirmək çətin olduğu bir durumda konsiqnasiya tətbiq edilir.

Ancaq, kommersiya kreditin tətbiqi əksər şirkətlər üçün finans cəhətdən sərfəli deyildir və bu kreditin ən geniş forması – bank kreditdən istifadə edilməkdədir. Adətən, bank kreditləri məqsədə yönəlik istifadə edilir: əsas kapitalın artımına, dövriyyə vəsaitlərinin tamamlanmasına, istehlak məqsədli.

Bank krediti kreditin ən geniş yayılmış formasıdır. Məhz banklar krediti ən çox müvəqqəti finans yardımına ehtiyacı olanlara verir. Bu da təsadüfi deyil, çünki əsas fəaliyyəti kredit işi olan banklar xüsusi bir subyektdir. Bank kreditinin başlıca xüsusiyyəti ondadır ki, geri qaytarılma əsasında pul vəsaitlərinin dönə-dönə dövranı və dövriyyəsini həyata keçirən banklar daha çox şəxsi kapitalından deyil, cəlb edilmiş resurslardan istifadə edir. Müəyyən subyektlərdən borc götürdüyü pul vəsaitlərini bank digər hüquqi və fiziki şəxslər arasında yenidən bölüşdürür. Eyni zamanda bank sadəcə pul vəsaitlərini deyil, pulu kapital şəklində borc verir. Bu o deməkdir ki, borc alan bankdan götürdüyü vəsaitləri elə istifadə etməlidir ki, təkcə onların kreditorlara qaytarılmasını deyil, həm də ən azı borc faizini ödəməkdən ötrü kifayət edən mənfəət əldə etsin.

Ödənclik kreditin bank formasının ayrılmaz atributuna çevrilir. Bütün bunlarla əlaqədar bank kredit faizi həmişə kommersiya krediti faizindən yüksək olur. Bank əsasən özgə vəsaitlərdən kredit resursu kimi istifadə etdiyindən verdiyi kreditlər üzrə faizi maksimal səviyyədə saxlamağa çalışır. Lakin bank kreditini kommersiya kreditindən fərqləndirən təkcə bu cəhət deyil. Bank kreditinin obyekti ticarət və sənaye kapitalından ayrılmış pul kapitalıdır. Borc alan kimi dövlət, fiziki və hüquqi şəxslər, o cümlədən bankların özü də çıxış edir. Kommersiya kreditinin miqyasları hər bir halda ticarət və sənaye kapitalı ehtiyatları ilə müəyyən olunur və məhdudlaşır. Ticarət və sənaye kapitalının kommersiya krediti xətti ilə hərəkəti ünvanlıdır: əmtəə ya istehsalçıdan istehlakçıya, ya da istehsalçıdan əmtəənin sonrakı satışı ilə məşğul olan ticarət şirkətinə ötürülür.

Bank krediti kommersiya kreditinə xas olan məhdudiyyətləri aradan qaldırır, çünki o kreditləşmənin istiqamətləri məbləği və müddətləri ilə məhdudlaşmır. Bank krediti kommersiya kreditində olduğu kimi təkcə əmtəə tədavülünə deyil, həm də kapital yığımına xidmət edir. Bank kreditinin aləti olan bank vekseli ilə kommersiya vekselinin diskont əməliyyatları vasitəsilə əvəz edilməsi kreditin təminatını gücləndirir, deməli onun miqyaslarını, müddətlərini genişləndirir.

Kreditin növü isə kreditin əsas formalarının detal xarakteristikası kontekstində, yəni onun əlavə əlamətlərini açıqlayır. Kreditləri verən və alan şəxslərə, sektorlara, kreditin istifadəsinə görə məqsədli, təminatlı və müddətinə görə qruplaşdırmaq mümkündür.

1) krediti verən şəxslər yönündən bank kreditləri ilə qeyri-bank kreditləri, alan şəxslər baxımından isə özəl sektora açılan kreditlər, dövlət sektoruna açılan kreditlər;

2) İqtisadi sektorlara görə kreditlər - kommersiya kreditləri, kənd təsərrüfatı kreditləri, sənayeyə açılan kreditlər, inşaat sektoruna açılan kreditlər şəklində ayıra bilərik. Kreditin iqtisadi sektorlar arasında paylanmasının iqtisadi inkişaf və sosial ədalət baxımından böyük önəmi vardır.

3) Kreditdən istifadə məqsədlərinə görə - istehlaka açılan kreditlər və istehsala açılan kreditlərlərə bölünür. İstehlak xərclərini qarşılamaq məqsədi ilə alınan kredit, kredit alınan cari gəlirindən ayıracağı pul ilə geri ödənir. Bu ödəmənin həyata keçirilməsi kredit alanın gələcəkdəki gəlir və xərc durumuna bağlıdır. İstehsalı maliyyələşdirmək üçün alanın kredit istehsal edilən malların satışından əldə edilən satış gəliri ilə və ya kreditdən istifadə edilən əməliyyatdan əldə edilən qazanc ilə qarşılanır.

4) Təminata görə kreditləri təminatlı və təminatsız kreditlər almaq üzrə ikiyə ayırdıqdan sonra, təminatlı kreditlər zəmanət qarşılığı, əmtəə və sənət qarşılığı, ipotek qarşılığı açılan kreditlərə bölünür. Kredit alanın imzasına güvenilərək açılan kreditlərə açıq kredit deyilir.

5) Müddətlərinə görə kreditləri qısa müddətli, orta müddətli və uzun müddətli kreditlərə bölmək olar.

6) Ödənicliyə görə: baha faizli, ucuz faizli , faizsiz.

İstifadə formasına görə: istehsal krediti, istehlak krediti və investisiya krediti. İnvestisiya krediti – istehsal fəaliyyətlərinin genişlənməsi, yəni istehsal vahidlərinin açılması məqsədi ilə istifadə edilir və adətən, investisiya kreditlərinin müddəti uzun müddətlidir. İstehsal krediti alan müəssisə bunun istehsal prosessi fəaliyyətində istifadə edir və kredit müqaviləsində təsbit edilən müddətdə kreditin əsas kapitalını və faizini qaytarır. Məsələn, bir şirkət istehsal krediti ilə həm xammal təmini, həm də işçilərin maaşlarının ödənməsi kimi keçici finans sıxıntılarılarını həll edə bilər.

İstehlak krediti – istehlakçıların ehtiyatları olan malların təmin edilməsində istifadə edilir, yəni istehlakçılara satınalma gücü qazandırır. İstehlak krediti, kommersiya məqsədi ilə deyil, fərdlərə istehlak ehtiyaclarının qarşılanması üçün ayrılan kreditlərdir. İstehlak kreditləri avtomobil, televizor, soyuducu, paltar yuyan maşın və s. bu kimi daşınan istehlak mallarının satın alımında finansə etmək üçün istifadə edilir.

Kreditin bu növü əhali tərəfindən yeni dəyərin yaradılmasına deyil, borcalanın istehlak tələblərinin ödənilməsinə yönəldilir. Bu kredit vasitəsilə vətəndaşların bahalı, uzunmüddətli istehlak mallarına yaranan tələbatı onların dəyərinin tam ödənilməsinə qədər təmin edilir. Əhalinin alıcılıq qabiliyyətini onun pul gəlirləri müəyyən edir, lakin alıcılıq qabiliyyəti çox vaxt alıcı tələblərindən aşağı olur. Bu və ya digər malları almaq istəyi maddi imkanları üstələyir. Başqa sözlə, əhalinin cari pul gəlirləri ilə uzunmüddətli istehlak mallarının (mebel, avtomobil və s.) yüksək qiymətləri arasında uyğunsuzluq mövcud olur. Eyni zamanda əhalinin bəzi tələblərində pul vəsaitlərinin müvəqqəti sərbəstləşməsi baş verir. Belə vəziyyətdə istehlak kreditinin meydana gəlməsi təbii görünür, çünki onun köməyi ilə istehlakçı nöqteyi-nəzərindən iki cür ziddiyyət aradan qaldırılır. Birinci, uzunmüddətli istehlak mallarına olan yüksək qiymətlərlə əhalinin cari gəlirləri arasındakı ziddiyyətdir. İkincisi, əhalinin bir qrupunda sərbəst pul yığımlarının yaranması və digər qrupunda isə onların istifadəsi zərurətinin yaranması arasındakı ziddiyyət. Deməli, istehlak krediti əhalinin istehlak səviyyəsinin yüksəldilməsinə xidmət edir. Digər tərəfdən isə istehlak krediti istehsalçının (satıcının) da mənafelərinə uyğundur, çünki əmtəələrin satışının fasiləsizliyinə xidmət edir. İstehlak kreditinin bank və firma formaları ola bilər. Birinci halda, istehlak kreditini pul formasında bank verir. Qeyd etmək lazımdır ki, bank kreditləri arasında istehlak krediti ən bahalı kredit hesab edilir. İkinci halda isə ticarət firmasının özü müəyyən bahalı uzunmüddətli malı müştəriyə kreditə satır. Hər iki halda müştəri banka və yaxud ticarət firmasına kreditin məbləğinin müəyyən faizi həcmində ilkin ödəniş edir. Kredit məbləğinin qalan hissəsini isə kredit müddəti ərzində vaxtaşırı ödəmələrlə kreditora qaytarır. Hər hansı bir səbəbə görə borcalan ödəmələri dayandırdıqda kreditor krediti (pul məbləğini və yaxud malı) geri alır. İstehlak krediti üzrə borcun ödənilməsi mənbəyi borcalanın qarşıdan gələn gəlirləridir. Bu səbəbdən belə kreditlərin verilməsindən əvvəl kreditor tərəfindən kreditin qaytarılma mənbələrinin reallığı ciddi yoxlanılmalıdır.

İstehlak kreditinin ayrıca növünü mənzil krediti təşkil edir. Burada kredit hazır mənzilin (evin) alınmasına və yaxud evin tikilməsinə verilir. Mənzil krediti ya bank müəssisəsi, ya da mənzili (evi) tikən şirkət tərəfindən müvafiq olaraq pul və ya natural şəkildə verilir. Bu zaman girov iltizamı (girovnamə) tərtib olunur. Və bu sənəd borcalan mənzil kreditini hissə-hissə müəyyən müddət ərzində kreditora qaytarmaq öhdəliyini icra edə bilmədikdə kreditora mənzili (evi) müsadirə etmək hüququ verir. Kreditin bu növünə ipoteka krediti yaxındır. Bu sırf daşınmaz əmlakın girovu üzrə verilən kreditdir. Və bu kredit üzrə girovnamə tərtib olunur. Borc vəsaitləri müxtəlif məqsədlərə, o cümlədən istehsal və istehlak tələbatlarının ödənilməsinə istifadə oluna bilər. Əksər hallarda ipoteka borcunun qaytarılması mənbəyi borcalanın qarşıdan gələn gəlirləridir. Bu isə girov qoyulan daşınmaz əmlakın əsaslandırılmış qiymətləndirilməsini və borc vəsaitlərinin qaytarılmaması hallarında girov qoyulmuş əmlakın satılması imkanlarınm müəyyən edilməsini labüd edir.

Zamana vəya müddətinə görə: qısa müddətli kredit; orta müddətli kredit və uzun müddətli kredit. Adətən, 7 gündən – 1 ilədək müddətindədir. Kommersiya sferasında istifadə edilir. Orta müddətli kreditlər bir ildən beş ilədək müddətindədir. Adətən, sənaye və kənd təsərrüfatı sektoru orta müddətli kreditlərdən istifadə edirlər. Uzunmüddətli

kreditlər isə investisiya sferasında istifadə edilməkdədir. Burada müddət beş ildən yuxarı olur. Şirkətlər uzun müddətli kreditlərlə əsas fondlarının təminatında istifadə edir.

Müddəti bir ili keçməyən kreditlərə qısa müddətli, müddəti bir ildən yuxarı, ancaq 5 ildən az olan müddətə açılan kreditlərə orta müddətli kreditlər, ancaq beş il müddətindən yuxarı müddətə verilən kreditlərə uzunmüddətli kredit deyilir. Qısa müddətli kreditlər, müvəqqəti pula ehtiyacı olanlara açılır. Məsələn, bir sənayeçi xam maddə satın almaq, fəhlə və qulluqçuların əmək haqqını ödəmək üçün gərəkli pulun bir bölümünü kredit ilə qarşılayır, kreditin müddətinə qədər istehsal etdiyi malların satışından əldə etdiyi qazancla krediti geri ödəyir. Orta və uzunmüddətli kreditlər, orta və uzunmüddətli finansman ehtiyacı üçün tələb edilir və bu kreditlərlə qoyulan investiya üçün ayrılan amortizasiya fondu ilə və ya mənfəətlə geri ödənir. Məsələn, bir fabriki qurmaq ya da mövcud fabriki genişləndirmək üçün uzunmüddətli kredit alan bir sənaye şirkəti aldığı krediti, gələcəkdə əldə edəcəyi mənfəətlə ödəyir. Qısa, orta və uzun müddətli kreditlərin yuxarıda açıqlanan özəllikləri ayrı-ayrı kredit qurumlarının qurulmasına səbəb olmuşdur. Məsələn, qısa müddətli kreditlərlə daha çox əmanət və kommersiya bankları, orta və uzun müddətli kreditlərə isə daha çox investisiya və inkişaf bankları vasitəçilik edirlər.

Alan şəxsə görə: dövlət krediti və özəl krediti. Kredit alanın şəxsinə görə dəyişir. Kreditdən istifadə edən şəxsi dövlət və ya bələdiyyənin qurumları da bilir. Bu kredit özəl kreditdən bir az fərqlidir. Çünki kreditin müddət sonunda borc ödənməzsə təzyiq və ya icbar etmə kimi vasitələr bir az zəifdir. Kreditin digər növü dövlət kreditidir. Dövlət krediti o zaman meydana gəlir ki, kreditor və yaxud borcalan sifətində dövlətin özü (mərkəzi hökumət və yerli hakimiyyət) çıxış edir. Borcalan kimi çıxış etdikdə dövlət büdcə xərclərinin təmin edilməsindən ötrü borc kapitallar bazarında öz borc öhdəliklərini yerləşdirməklə büdcəyə əlavə vəsait cəlb edir. Dünya təcrübəsinin göstərdiyi kimi daxili borclar dövlət xərclərinin maliyyələşdirilməsinin vergilərdən sonra ikinci mənbəyidir. Eyni zamanda büdcə kəsirinin örtülməsi məqsədi ilə borc vəsaitlərindən istifadə olunmanın miqyasları resursların səmərəli və qənaətli istifadəsi nöqteyi-nəzərdən məhdudlaşdırılır. Çünki borcu müəyyən vaxtdan sonra qaytarmaq gərəkdir.

Dövlət borc öhdəliklərini müəyyən məqsədli dövlət proqramlarının maliyyələşdirilməsi məqsədi ilə bazarda yerləşdirə bilər. Məsələn, milli iqtisadiyyatın bərpası, inkişafı, ayrı-ayrı sahələrin yenidən qurulması, konkret regionların inkişafı, müxtəlif sosial proqramlar, təbii fəlakət nəticələrinin aradan qaldırılması və s. məqsədli proqramlar, təkcə dövlət büdcəsinin cari gəlirləri hesabına deyil, həm də dövlət borcu xətti ilə də maliyyələşə bilər. Dövlət krediti çərçivəsində dövlət kreditor kimi də çıxış edə bilər. Belə hallarda dövlət vəsaitlərindən müxtəlif subyektlərə kreditlər verilir. Bu, xüsusilə milli iqtisadiyyatın çox vaxt mənfəətsiz və yaxud azmənfəətli, lakin geniş təkrar istehsal üçün zəruri sahələrə xasdır. Burada onu da qeyd etmək olar ki, dövlət kreditindən (dövlət həm kreditor, həm də borcalan olduqda) iqtisadiyyatın tənzimlənməsinin güclü aləti kimi də istifadə edə bilər.

Kredit münasibətləri təkcə ölkə daxilində deyil, ölkələr arasında da mövcuddur. Kredit kapital ixracının formalarından biri kimi çıxış edir. Belə hallarda kreditin başqa növü olan beynəlxalq kredit ön plana çıxır. Beynəlxalq kredit zamanı iştirakçılar dəyişmir, lakin kredit sövdələşməsinin tərəflərindən biri xarici ölkəyə mənsub olmalıdır.

Təminat formasına görə: açıq kredit və təminatlı kredit. Açıq kredit – borcludan heç bir təminat alınmadan sadəcə şəxsi, maliyyə və əxlaqı durumları göz önündə tutulur. Açıq kreditinin verilə bilməsi üçün şirkətlər tərəfindən borcalan şəxsin durumu dayanıqlı və ödəmə qabiliyyəti yüksək olmalıdır. Təminatlı kreditdə isə kreditdən istifadə edən

şəxsin borcuna zəmin (kəsir) və ya maddi təminat göstərir. Maddi təminatda daşınmaz və ya daşınmaz qiymətlər qarşılıq göstərilir. Bunlar üzərinə girov və ipoteka təsis edilir.

Kreditin sərhədləri.

Kreditin əsaslandırılmış tətbiq sərhədlərinin müəyyən edilməsi və onlara riayət olunması həm kredit əlaqələrinin iştirakçıları üçün, həm də bütövlükdə iqtisadiyyat üçün vacibdir. Bu onunla izah olunur ki, kreditləşmə yalnız lazımi həcmdə edildikdə onun iqtisadiyyata təsiri müsbət olur. Çox vaxt kredit artıq həcmdə verildiyindən müəssisələrin vəsaitlərdən qənaətlə istifadə olunmasında istehsal və satış proseslərinin sürətlənməsində, bütövlükdə kapitalın dövran və dövriyyəsinin səmərəliliyinin yüksəldilməsində marağı zəifləyir. Nəticədə, təkrar istehsal proseslərinin zəifləməsi baş verir, əksinə iqtisadi subyektlərin kreditə olan tələbatları tam ödənilmədikdə onların fəaliyyətində çətinliklər yarana bilər ki, bu da yenə təkrar istehsal proseslərinin ləngidilməsi deməkdir. Deməli, kreditin sərhədləri hər dəfə düzgün müəyyən edilməlidir. Bu, həm kommersiya, həm də bank kreditinə aiddir. Kredit sərhədlərinin müəyyən edilməsi ilk növbədə kreditin- borc vəsaitlərinin geri qaytarılması tələbinin nəzərə alınmasından irəli gəlməlidir. Ona görə də ən əvvəl borc götürülən vəsaitlərin geri qaytarılması üçün imkanların - zəruri şəraitin mövcud olmasını müəyyən etmək vacibdir. Öz növbəsində bu, kreditin hansı məqsədlər üçün istifadə ediləcəyini, hansı obyektlərə yönəldiləcəyini tədqiq etməyi tələb edir. Bununla yanaşı, kreditin tətbiq sərhədlərinin müəyyən edilməsi zamanı borc vəsaitlərinin istehsal və satışın fasiləsizliyi və ahəngliliyinin təmin edilməsindəki iştirakının zəruriliyi, borcalanların təsərrüfat fəaliyyətinin keyfiyyəti, resurslardan istifadənin səmərəliliyi, dövriyyənin ödəniş vasitələri ilə təmin edilməsi tələbatı nəzərə alınmalıdır. Bunlardan başqa kreditin sərhədləri iqtisadi inkişafın xüsusiyyətləri və vəzifələri ilə də müəyyən olunur. İqtisadiyyatın müxtəlif inkişaf dövrlərində kreditin sərhədləri dəyişir. İstehsal həcminin dəyişməsi, onun quruluşundakı dəyişikliklər, dövriyyədəki pul kütləsinin optimallaşdırılması probleminin konkret həlli kredit sərhədlərinin müəyyən edilməsindən ötrü əhəmiyyətli amillərdəndir. Kredit münasibətlərinə girən tərəflərin maraq və inkişafını da unutmaq olmaz. Borcalanlar öz fəaliyyətlərinin konkret xüsusiyyətlərindən irəli gələn tələbatlarından əlavə cəlb olunan vəsaitlərin geri qaytarılması və haqqının ödənilməsi imkanlarını da düzgün müəyyən etməlidir. Kreditora gəldikdə isə onun borc vəsaitləri vermək imkanları və bunda olan marağı daha önəmlidir. Vəsaitləri borc verməkdə marağın və onların qaytarılma etibarlılığının optimal uzlaşdırılması kreditləşmənin kreditorun maraq və imkanlarından asılı olan həcmlərini şərtləndirir. Qısa və uzunmüddətli kreditlərin sərhədlərinə gəldikdə isə, onların müəyyən edilməsində bəzi obyektiv xüsusiyyətlər mövcuddur. Borc vəsaitləri dövriyyə kapitalı kimi istifadə edildikdə kreditin qaytarılması dövriyyə kapitalının dövranının başa çatması nəticəsində sərbəstləşən vəsaitlər hesabına edilir. Və buna görə də dövriyyə kapitalının hərəkət müddətləri ilə sıx əlaqələndirilir. Uzunmüddətli kreditin sərhədləri isə ondan irəli gəlir ki, borcun qaytarılma mənbəyini əsas kapitalın istismarı nəticəsində yaranan mənfəət təşkil edir. Deməli, qaytarılma müddəti də kreditləşən xərclərin kreditləşmə müddəti ərzindəki əldə olunan mənfəət hesabına ödənilməsi imkanlarından irəli gələrək müəyyən edilir.

Kreditin iqtisadiyyatda rolu.

Kreditin rolu onun təsərrüfat, əhali, dövlət üçün tətbiqinin nəticələri ilə səciyyələnir. Kreditin rolu onun müxtəlif forma və növlərinin həyata keçirilməsi zamanı təşəkkül tapan münasibətlərin nəticələrində təzahür edir. Kreditin iqtisadiyyata təsirinin hər bir istiqaməti üzrə kredit münasibətlərinin konkret forma və ya növü üstün mövqeyə malikdir. Məsələn, əmtəələr nisyə satıldığı zaman başlıca rolu kommersiya krediti oynayır. Əksinə kredit pul vəsaitləri şəklində verildikdə bank krediti birinci dərəcəli əhəmiyyət kəsb edir. Kreditin rolu onun məhsul istehsalı və satışının fasiləsizliyinə olan təsirində də təzahür edir. Borc vəsaitlərinin köməyi ilə təsərrüfat subyektlərinin əlavə resurslara olan tələbatı ödənilir və təkrar istehsal proseslərinin ləngiməsinə yol verilmir. Əlavə vəsaitlərə yaranan tələbat mövsüm amili ilə də bağlı ola bilər. Burada da kredit vasitəsi ilə kapital dövranı və dövriyyəsinin fasiləsizliyi ahəngdarlığı təmin edilmiş olur. Kreditin istehsalın genişlənməsində də rolu böyükdür. Kreditin iştirakı ilə geniş təkrar istehsal üçün kapital mənbələrinin formalaşması sürətlənir. Kreditdən əsas fondların artırılması mənbəyi kimi də istifadə edilə bilər. Belə hallarda kredit istehsalın inkişafı və genişlənməsi üçün zəruri olan yeni əsas fondların yaradılması üzrə müəssisələrin imkanlarını artırır. Burada xüsusilə mühüm olan cəhət odur ki, kredit müasir dövrün iqtisadi tərəqqisinin aparıcı qüvvələrindən biri olan elmi-texniki tərəqqiyə, bununla da cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına xidmət edə bilər.

Kreditin pul dövriyyəsində də rolu mühümdür. Məlum olduğu kimi, nağd pulların tədavülə buraxılması və tədavüldən çıxarılması kredit əsasında banklar vasitəsilə baş verir. Bir tərəfdən nağd pulların tədavülə buraxılması müəssisə və təşkilatlara, əhaliyə bankların kassalarından nağd vəsaitlərin verilməsi xətti ilə yalnız onların bank hesablarında qalıqlar mövcud olduqda mümkündür. Belə qalıqların olması müştəri ilə banklar arasında müəssisə, təşkilat və əhalinin kreditor olduqları kredit münasibətlərinin olmasını göstərir. Bank hesablarından nağd pulların verilməsi bankın müştəri qarşısındakı borcunun ödənilməsi deməkdir. Digər tərəfdən isə banka nağd pulların daxil edilməsi onların tədavüldən çıxarılmasını göstərir və bankların öz müştərilərinə olan borclarının böyüməsi ilə müşayiət olunur. Nağdsız pul dövriyyəsinə gəldikdə isə, ödənişləri daima yerinə yetirməkdən ötrü müəssisələrin vəsaitlərə əlavə tələbatı yaranır. Buna səbəb gündəlik pul məxaricləri ilə pul mədaxilləri arasındakı uyğunsuzluqdur. Belə hallarda əlavə pül vəsaitlərinə yaranan müvəqəti tələbat kredit cəlb olunmaqla ödənilə bilər. Burada verilən borcların həcmi və onların ödənilmə müddətlərinin əmtəə istehsalı və satışı prosesləri ilə əlaqələndirilməsi böyük əhəmiyyət kəsb edir. Dövriyyədəki pul kütləsinin ona olan tələbata uyğun olması ictimai kapitalın geniş təkrar istehsalınm ahəngliyi və fasiləsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Məhz dövriyyədəki pul kütləsinin dövriyyənin tələbatlarına uyğun olması məqsədilə kreditləşmə prinsiplərinə riayət edilməsi çox vacibdir. Eyni zamanda dövriyyədəki pul vəsaitlərinin həcminin tənzimlənməsinin böyük iqtisadi əhəmiyyətini nəzərə alaraq kredit əməliyyatlarının pul siyasəti tədbirləri vasitəsilə dövlət tənzimlənməsi tətbiq olunur. Burada kreditin iqtisadi rolunun yeni tərəfi aşkarlanır. Kreditdən iqtisadiyyatın dövlət tənzimlənməsinin güclü aləti kimi istifadə olunur.

İqtisadiyyatın kredit tənzimlənməsi kreditin həcmi və dinamikasını dəyişməklə iqtisadiyyatın inkişafı imkanlarına və perspektivlərinə təsir göstərməsilə əlaqədardır. Kreditin dinamikası iqtisadiyyatın silsiləvi inkişaf ilə müəyyənləşsə də dövlət tənzimlənməsi kreditin iqtisadiyyatın sahə və bölmələri üzrə yerləşdirilməsinə güclü təsir göstərə bilir. Kredit tənzimlənməsi vasitəsilə dövlət, sosial-iqtisadi problemlərin həllinə, ziddiyyətlərin zəiflədilməsi, iqtisadi böhranların gedişinin yüngülləşdirilməsinə, inflaysiyanın

dayandınlmasına, iqtisadiyyatın və ümumi milli məhsulun, ixrac və idxalın quruluşunun səmərələşdirilməsinə və s. çalışır. Məsələn, dünya təcrübəsindən yaxşı məlumdur ki, böhran şəraitində və yaxud böhran yaxınlaşdıqca bazar tələbini canlandırmaq məqsədilə dövlət çox vaxt kredit vasitəsilə istehsal investisiyalarını, mülki tikintini, uzunmüddətli istehlak mallarının kreditə satışını, milli ixracı stimullaşdırmağa çalışır. Borc kapitalı hərəkətinin təbii bazar mexanizmi ilə kredit tənzimlənməsi arasındakı nisbət hər dəfə ölkə iqtisadiyyatındakı konkret vəziyyət, dünya ölkələrinin ilk növbədə də əsas iqtisadi ortaqların istehsalındakı silsiləvi dəyişikliklər, beynəlxalq ticarətdə, beynəlxalq valyuta sistemində və kapital bazarındakı vəziyyətdən asılıdır. Kredit tənzimlənməsi bütövlükdə iqtisadiyyatın səmərələşdirilməsinə, onun keyfiyyətinin yüksəldilməsinə xidmət etsə də müəyyən məhdudiyyətlərə də malikdir. Bu məhdudiyyətləri bilmək, onlara bələd olmaq kredit tənzimlənməsindən bacarıqla istifadə edilməsindən ötrü vacibdir. Əks halda kreditə hədsiz meyl, ondan makro və mikro səviyyələrdə sui-istifadə pul kredit böhranları ilə nəticələnə bilər.

FƏSİL 12. İPOTEKA KREDİTİ

İpoteka (yunan sözü olub hypoteka – girov deməkdir) girovun bir növü olub, bu zaman girovun obyekti həmişə bir qayda olaraq girov qoyanın mülkiyyətində olur. İpoteka sözünün özü ilk dəfə olaraq VI əsrdə Yunan hökmdarı Solon tərəfindən istifadə olunmuşdur. Bu mərhələ ipoteka kreditinin formalaşmasında birinci addım idi. Daha sonra ipoteka krediti anlayışı inkişaf edərək XIII əsrdən başlayaraq Almaniyada bir əsaslı mexanizm kimi fəaliyyət göstərməyə başlamış və bazar iqtisadiyyatının əsas hissələrindən birinə çevrilmişdir.

Azərbaycan respublikasında ipoteka haqqında qanun 15 aprel 2005-ci ildə qəbul edilmişdir. Ölkədə yaşayış mənzillərinin kreditlə satılması şərtlərini müəyyən edən «İpoteka haqqında» Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 7 iyun 2005-ci il 252№-li Fərmanı Qanunun hüquqi olaraq qüvvəyə minməsinə səbəb oldu. İpoteka krediti – müvəkkil kredit təşkilatı tərəfindən borcalana yaşayış sahəsinin alınması üçün məqsədli istifadə, qaytarılmaq, müəyyən müddətə, faizlər ödənilmək və təminatlıq şərtləri ilə verilmiş puldur.

«İpoteka haqqında» Azərbaycan Respublikası Qanununa əsasən ipoteka öhdəliyin icrasının təmin edilməsi üsulu olaraq daşınmaz əşyaların və rəsmi reyestrdə üzərində mülkiyyət hüquqları qeydə alınan daşınar əşyaların girovudur. Qəbul olunmuş qanuna əsasən dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaq sahələri, xüsusi mülkiyyətdə olan fərdi və çoxmənzilli yaşayış evləri, habelə mənzillər ipoteka predmet iola bilər. Mehmanxanalar, istirahət evləri, bağ evləri və bu kimi başqa tikintilər və binalar ümumi əsaslarla ipoteka predmeti ola bilər. İpotekanın predmeti açıq bazarda və ya hərracda satıla bilər. Daşınmaz əşyanın ipotekası haqqında müqavilə daşınmaz əmlakın dövlət reyestrində, daşınar əşyanın ipotekası haqqında müqavilə isə daşınar əmlakın rəsmi reyestrində qeydə alınır. «Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 2005-ci il 299№-li Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Milli Bankının nəzdində Azərbaycan İpoteka Fondu yaradıldı.

«Azərbaycan Respublikasında ipoteka kreditləri sisteminin yaradılması haqqında» Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 16 sentyabr tarixli 299 nömrəli

Fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondu yaradılmışdır. Azərbaycan Respublikasında ipoteka kreditlərinin maliyyələşdirilməsi mexanizmini yaratmaq məqsədilə 22 dekabr 2005-ci tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondu haqqında Əsasnamə, «Azərbaycan Respublikasının Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun vəsaiti hesabına ipoteka kreditlərinin verilməsi Qaydaları», «Azərbaycan Respublikası Milli Bankı nəzdində Azərbaycan İpoteka Fondunun yenidən maliyyələşdirdiyi ipoteka kreditlərinin müvəkkil kredit təşkilatları tərəfindən verilməsinə dair Standart Tələblər» və sair sənədlər təsdiq edilmişdir.

Qanunvericilikdə nəzərdə tutulmuş məqsədlərə çatmaq üçün AİF-in əsas funksiyaları müvəkkir kredit təşkilatları tərəfindən verilmiş ipoteka kreditlərinin yenidən maliyyələşdirilməsi, Maliyyə vəsaitlərinin cəlb olunması məqsədilə ipoteka ilə təmin olunmuş qiymətli kağızların emissiyası, öz fəaliyyətinin sabitliyini və likvidliklini təmin etmək üçün maliyyə risklərinin idarə edilməsidir.

2006-cı ildə 13 müvəkkil kredit təşkilatı tərəfindən ipoteka krediti verilmiş və müvəkkil kredit təşkilatlarına 306 müraciət daxil olmuş və nəticədə yerli banklar tərəfindən ümumi məbləği 5,6 mln. manat təşkil edən 245 ipoteka krediti verilmişdir. Bu da daxil olmuş müraciətlərin təxminin 80%-ni təşkil edir. Verilmiş kredit həcmindən ümumi məbləği 1,3 mln. manat, yəni 23,2% təşkil edən 63 ipoteka krediti Fond tərəfindən yenidən maliyyələşdirilmişdir. Verilmiş ipoteka kreditlərin statistikasına nəzər yetirdikdə kreditin orta məbləğinin 22727 manat, minimal məbləğinin isə 5260 manat təşkil etdiyini görmək olar. Bu kreditlər üzrə orta faiz dərəcələri 8,4% minimal faiz dərəcəsi isə 5% təşkil etmişdir.

Azərbaycan **İpoteka Fondun vəsaiti hesabına verilən ipoteka kreditləri aşağıdakı tələblərə cavab verməlidir:**

- Kredit Azərbaycan manatı ilə verilməlidir;
- Kredit Azərbaycan Respublikasının vətəndaşına verilməlidir;
- Kredit 3 ildən 15 ilədək müddətə verilməlidir;
- Kredit üzrə illik faiz dərəcəsi 12%-dən çox olmalıdır;
- Kreditin məbləği kreditin verildiyi tarixə ipoteka ilə yüklü edilən daşınmaz əmlakın bazar qiymətinin 70%-dən çox olmamalıdır;
- İpoteka kreditləri üzrə ödəniləcək aylıq məbləğ borcalanın (borcalanların) aylıq məcmu gəlirinin 50%-dən çox olmamalıdır;
- Kreditin son ödəniş tarixinə borcalanın yaşı qanunvericiliklə müəyyən olunmuş pensiya yaş həddindən çox olmalıdır;
- Kredit daşınmaz əmlakın ipotekası ilə təmin olunmalıdır;
- İpoteka ilə yüklü edilən daşımaz əmlak müstəqil qiymətləndirici tərəfindən qiymətləndirilməlidir;
- İpoteka saxlayanın hüquqları qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmalıdır;
- Kredit üzrə əsas borc və hesablanmış faizlər hər ay bərabər hissələrlə (annuitent ödənişlər) ödənilməlidir;
- Borcalanın həyatı və əmək qabiliyyəti, eləcə də, ipoteka illə yüklü edilmiş daşınmaz əmlak bazar qiyməti əsas götürülərək, ipoteka ilə təmin edilən kreditin həcmindən az olmamaq şərtilə sığortalanmalıdır;
- AİF tərəfindən müəyyən olunan digər tələblər.

Kredit multiplikatoru.

Kommersiya banklarının bank sistemi içərisində ən önəmli fəaliyyətlərindən biri də bank pulunu yarada bilməsidir. Bank pulu banka qoyulan əmanətin məcburi ehtiyat normalarına ayrılan miqdarı çıxıldıqdan sonra, təkrar kredit olaraq verilməsi nəticəsində yaranır. Bank pulu çek sisteminin tətbiq edildiyi ölkələrdə böyük rol oynayır. Bankların kredit mexanizması ilə yaradıqları pulu ifadə edən bir qavramdır. Əgər ödəmələr heç banknot istifadə edilmədən, tamamilə çeklə aparılarsa, o təqdirdə kredit multiplikatorunun (k) düsturu aşağıdakı kimi olar: K=(1-r)/r. Bura – r bankların əmanətə qarşılıq tutmaq məcburiyyətində olduqları qarşılıq nisbətlərini ifadə edir. Görüldüyü kimi, bu nisbət nə qədər aşağı olursa kredit multiplikatorunun dəyəri o qədər yüksək olur. Fəqət, gerçəktə, banklardan alınan kreditlərin bunun çeklə istifadəsi mümkün deyildir. Bir bölüm ödəmələr banknotla aparılır. Digər bir ifadə ilə, alınan kreditlərin bir bölümü bank sistemin kənarında çıxartılmış olur. Bu vəziyyətdə kredit multiplikatoru aşağıdakı düsturla göstərilir: K=(1-r)/(r +M), M – banknotla aparılan ödəmələrin nisbətidir. Dolayısı ilə M-nın dəyəri nə qədər aşağı olarsa, kredit multiplikatoru o dərəcə böyük olur.

Faiz dərəcələri və müddət.

Faiz – bazar iqtisadiyyatında sabitliyin formalaşmasında çox önəmli funksiyaya malikdir, yəni gəlirlərin - yığım və ya istehlaka istiqamətləndirilməsini təsbit edər. Faiz – pulun kiralanması qarşılığında tələb edilən dəyərdir. Burada elan edilən faizlər nominal faizlərdir. Yəni illik inflasiya dərəcəsi %10 olduğu halda, nominal faiz %10 elan edilən aktivin real faizi sıfırdır. Pul və kapital bazarlarında nə qədər finans aləti var isə, o qədər faiz dərəcəsi vardır. Faiz dərəcəsinin müddət strukturu finans aktivləri ilə əlaqədar olduğuna görə, faiz dərəcələrinin strukturuna müəyyən edən amilər aşağıdakı şəkildə sıralaya bilərik:

- finans aktivinin müddəti;
- finans aktivi ilə əlaqədar vergi tətbiqi;
- finans aktivləri ilə əlaqədar çıxabiləcək inflasiya riski;
-finans aktivin marketoloji dərəcəsi.

Faizləri çeşidli şəkillərdə təhlil etmək mümkündür:

- investisiya alətlərinə görə (bonos, əmanət, qer kimi);

müddətinə görə (qısa müddətli, orta müddətli, uzun müddətli);

- strukturuna görə (sadə, mürəkkəb kimi);
- pul vahidinə görə (manat, dollar və digər valyutalar);
- satın alma gücünə görə (real faiz, nominal faiz);
- ələ keçən gəlirliyə görə (brut, net).

Pul və kapital bazarlarında nə qədər finans aləti var isə, o qədər faiz dərəcəsi vardır. Bütün bu finans alətləri dəyişik faiz dərəcələri tətbiq edir:

- müddət strukturları;
- risk mövzuları;
- vergi dərəcələri;
- ikinci bazarlarda əməliyyat görmə qabiliyyəti

Faiz dərəcələrinin strukturunu müəyyənləşdirən ən önəmli amil, dövlət qiymət qiymətli kağızlarının müddəti və gəlirliyidir. Faiz dərəcələri ilə finansal aktivlərin müddəti arasındakı əlaqə, gəlirlik əyrisi vasitəsi ilə (yield curve) təhlil edilir dörd fərqli gəlirlik əyrisi vardır:

1. müddət uzandıqca faiz dərəcəsi artmaqdadır. Buna artım gəlirlik əyrisi deyilir.
2. müddət uzandıcı, göz dərəcəsi düşməkdədir.
3. müddət nə olarsa olsun faiz dərəcəsi dəyişməməkdədir.
4. müddət uzandıqca ilk əvvəllər faiz dərəcəsi artmaqda, daha sonra isə azalmaqdadır.

Nominal və real faiz dərəcələri.

Faiz nisbətinə təsir edən amillər (likvidlik, qiymətlər, gəlir və gözlənilən inflyasiya) təhlil edilmişdir. İnflyasiya gözləmə təsiri (Fişer təsiri) problemini iqtisad elmində ilk dəfə İ.Fişer araşdırmış və bunu sadə bir bərabərliklə açıqlamışdır, yəni, n=r+i; n-nominal faiz dərəjəsi, r-real faiz dərəjəsi, i- gözlənilən inflyasiya səviyyəsi.

Yığımı faizin bir funksiyası olaraq qəbul edən neoklassik iqtisadçılara görə, real faiz dərəcəsinin neqativ dəyər alması durumunda, yığım həcmi azalacaqdır. Dolayısı ilə borc verilə bilir fondlar azalacaqdır və finans bazarlarından borc şəklindəki fond mənbəyi tələbi artacaqdır. llik nominal faiz dərəcəsindən inflasiyanın illki səviyyəsi çıxdıqdan sonra, əldə etdiyimiz faiz dərəcəsinə real faiz nisbəti deyilir. İ.Fişerin adı ilə tanınan Fişer bərabərliyinə görə, nominal faiz dərəcəsi (1), real faiz dərəcəsi (i_r) ilə gözlənilən inflasiya səviyyəsinin (P_e) cəminə bərabərdir: $i=İ_r+P_e$, bu bərabərlikdən istifadə edərək real faiz dərəcəsini də əldə edə bilərik: $İ_r=i-P_e$.

Faiz dəhlizi

2 aprel 2007-ci il tarixindən başlayaraq “faiz dərəcəsi dəhlizi” yanaşmasını tətbiq edir.
Belə ki, həmin tarixdən başlayaraq Milli Bankın pul bazarında əməliyyatları iki istiqamətdə - çərçivə alətləri və açıq bazarda əməliyyatlar vasitəsilə - aparılacaq.
Çərçivə alətləri
Çərçivə alətləri vəsaitlərin qısamüddətli cəlb olunması və yerləşdirilməsi alətlərindən ibarət olaraq bankların qısamüddətli likvidliyinin idarə olunması məqsədilə istifadə olunacaq.
Milli Bankın çərçivə alətləri kimi bir günlük repo (vəsaitlərin cəlb olunması aləti) və bir günlük əks-reponun (vəsaitlərin yerləşdirmə aləti) istifadəsi nəzərdə tutulur. Çərçilə alətləri üzrə Milli Bankla əməliyyatlar istənilən vaxt əməliyyat günü ərzində müəyyən olunmuş faiz dərəcələri ilə bankların təşəbbüsü ilə aparıla bilər.
Beləliklə, çərçivə alətləri üzrə faiz dərəcələri “faiz dərəcəsi dəhlizi”ni təşkil edəcəkdir: dəhlizin minimal həddi bir günlük vəsaitlərin cəlbolunma (repo) faiz dərəcəsi ilə, maksimal həddi isə - bir günlük vəsaitlərin yerləşdirmə (əks-repo) faiz dərəcəsilə müəyyən olunacaq. Milli Bankın uçot dərəcəsi isə “faiz dərəcəsi dəhlizi” çərçivəsində “dəhlizin” bir parametri kimi müəyyən olunacaqdır.
“Faiz dərəcəsi dəhlizi”nin parametrləri (çərçivə alətləri üzrə faiz dərəcələri və uçot faiz dərəcəsi) cari ilin ikinci rübündən başlayaraq hər iki aydan bir qiymətləndiriləcək və zərurət olarsa yenidən baxılaraq Milli Bankın İdarə Heyəti tərəfindən yenidən müəyyən olunacaq.
Bu qaydada Milli Bankın İdarə Heyətinin qərarı ilə 2 aprel 2007-ci il tarixindən başlayaraq “faiz dərəcəsi dəhlizi”nin aşağıdakı parametləri müəyyən edilmişdir:

- Dəhlizin minimal həddi – 5%
- Dəhlizin maksimal həddi – 19%
- Milli Bankın uçot dərəcəsi – 12%

Açıq bazar əməliyyatları

Açıq bazar əməliyyatları pul siyasətinin əməliyyat hədəflərinin reallaşdırılması məqsədilə dövriyyədə olan pul kütləsinin tənzimlənməsi və banklararası pul bazarında faiz dərəcələrinə təsir vasitəsi kimi istifadə olunacaq. Milli Bankın açıq bazar əməliyyatları müəyyən olunmuş "faiz dərəcəsi dəhlizi" çərçivəsində notların buraxılışı və qısa-müddətli repo əməliyyatları vasitəsilə Milli Bankın təşəbbüsü ilə birbaşa (qiymətin elan olunması ilə) və ya dolayı (kəmiyyətin elan olunması ilə) hərraclar vasitəsi ilə aparılacaq.

Açıq bazar əməliyyatları kimi aşağıdakılar istifadə oluna bilər:

- sterilizasiya xarakterli: Milli Bankın qısamüddətli notlarının emissiyası; qısamüddətli repo əməliyyatları;
- emissiya xarakterli: qısamüddətli əks-repo əməliyyatları.

Açıq bazar əməliyyatları üzrə birbaşa hərrac keçirildiyi zaman elan olunan hərracın qiyməti (faiz dərəcəsi), dolayı üsulla hərrac keçirildiyi zaman isə kəsmə qiyməti (faiz dərəcəsi) üzrə faiz dərəcələri "faiz dərəcəsi dəhlizi" çərçivəsində aşağıdakı prinsipə uyğun müəyyən olunur:

Yiğim - investisiya əlaqəsi

Hər hansı bir ölkədə iqtisadi vahidlər (ev idarələri, şirkətlər və dövlət) gəlirlərinin hamısını istehlak xərclərinə yönəltmirlər. Onlar gəlirin bir hissəsini yığıma və ya investisiyaya ayırırlar. İqtisadi vahidlərin ən vacib məqsədlərindən biri də gündəlik istehlak ehtiyaclarını artırmaqdır. Ancaq iqtisadi vahidlərin bugünkü istehlaklarını artıra bilmələri üçün gələcək-dəki istehlak imkanlarından daha çox fədakarlıq etməyə hazır olmaları lazımdır və ya eyni ifadəni tərsinə söyləsək, şəxslərin bu gün müəyyən bir istehlak miqdarından əl çəkmələri onlara gələcəkdə, bu gün əl çəkdiklərindən daha çox həcmdə istehlak imkanı vəd edir. Bu çoxluğu isə faiz həddi müəyyənləşdirir. Məsələn, bir şəxsin bugünkü 100 manatlıq istehlakından əl çəkməsi ona bir il sonra 120 manatlıq istehlak imkanı təmin edirsə, deməli, faiz nisbəti 20%-dir (inflyasiyanı nəzərə almadan).

Ümumiyyətlə, hər hansı bir ölkənin iqtisadi artımı o ölkədə yaradılan xalis real aktiv investisiyaların cəminə bağlıdır. Bu aktiv investisiyanın finans qaynağını isə ölkə daxilində cəlb edilmiş yığımlar ilə ölkə xaricindən gətirilən sərmayə fondları təşkil edir. Yığım ilə investisiya arasında qarşılıqlı əlaqə vardır. Yığım olmadan investisiyanın gerçəkləşdirilməsi mümkün deyildir, eyni zamanda investisiya imkanları və şəraiti olmadığı halda, iqtisadi anlamda yığımın da toplanınası qeyri-mümkündür. Modern iqtisadi sistemlərdə, yığım sahibləri ilə investisiya qoymaq istəyənlər, adətən, müxtəlif şəxs və ya qruplardır. Bu səbəblə də müəyyən kəsimlərin planladıqları və gerçəkləşdirdikləri yığımların toplamı ilə başqa kəsimlərin planladıqları investisiyaların toplamının bərabər olması, gerçəkləşməsi ideal sayıla biləcək bir haldır.

Ümumiyyətlə, ölkənin iqtisadi artımı yığım (investisiya) miqdarına bağlıdır. İnkişaf etməkdə olan ölkələr yoxsul olduqlarından, onların yığımları da azdır. Sadəcə bu yığımlara əsaslanıb investisiya qoymaq ölkənin iqtisadi böyüməsini təmin edə bilməz və ya yetərli olmaz. Bu səbəbdən də inkişaf etməkdə olan ölkələr ölkənin iqtisadi böyüməsini sürətləndirmək məqsədi ilə xarici sərmayədən (xarici yığımlardan) yararlanmaq istərlər. Ümumiyyətlə, xarici sərmayə bir ölkəyə: özəl xarici sərmayə investisiyası və xarici kredit olmaqla iki formada gəlir.

Yığım fərdin pul gəlirinin istehak üçün sərf edilməmiş hissəsidir. Şəxslərin məlum bir dönəmdə əldə etdiyi cari gəlir (Ce) iki bölümdən ibarətdir: yığım (T) və cari xərclər (He). Bunu riyazi şəkildə belə göstərmək olar: **Ce = T + He.** Cari gəliri sabit olaraq qəbul etsək, o zaman şəxslərin yığımı cari xərclərin böyüklüyünə bağlı olacaqdır. Cari xərclərin toplamının cari gəlirə bərabər olduğu və ya bu gəlirdən yüksək olduğu bir halda şəxsi yığım sıfır və ya

mənfi olur. Hər hansı bir ölkədə toplanan yığımın qaynağı şəxs və qurumların gəlirləridir. Yığım qabiliyyəti şəxsin gəlir səviyyəsinə bağlıdır.

Yığım etmə arzusu haqqında isə müxtəlif amillərdən söz açıla bilər:

1. gözlənilməyən bir hadisəyə qarşı xərclərə hazır olma (xəstəlik, ani fəlakət və s.);
2. irəlidə həyata keçiriləcək böyük xərclər üçün bu gündən pul yığmaq (səyahətə çıxma, ev və ya avtomobil alma, uşaqlarının məktəb xərclərini maliyyələşdirmək və s.);
3. bir işqurma məqsədini gerçəkləşdirmək üçün hazırlıq görmə;
4. finans varlığı əldə etmə arzusu;
5. yüksək bir gəlirə sahib olma arzusu.

Klassik və neoklassik iqtisadçılara görə yığım faizin bir funksiyasıdır. Yüksələn faiz qiyməti, yığım meylini artıraraq məcmu yığım həcmini şişirdir. Faiz nisbətində azalma isə yığım həcmində azalmaya yol açır.

İnvestisiya definisiyası

Hər hansı bir dönəmdə iqtisadiyyatda istehsal edilən məhsulun (output) yeni quruluşlar, yeni dayanıqlı təchizat və inventardakı dəyişmələr şəklindəki qisminin dəyərinə investisiya deyilir vəya investisiya, gələcəkdəi istehlakı artıra bilmək məqsədilə bugünkü istehlakı qısmağı lüzumlu qılmaqdadır. Qeyd edək ki, daxili və xarici kapital investisiyaları praktikaya keçiriliş şəklinə görə iki cür ola bilər. Belə ki, investisiyanın yatırıldığı daşınır qiymət və ya maddi dəyər ya ilk dəfə yaradılır, ya da daha öncədən mövcuddur. Daxili və xarici investorun bir ölkədə fabrik inşa etdirməsi və ya yeni çıxardılan hissə sənədini (səhmi) satın alınması birinci, daha öncə inşa edilmiş olan bir fakbrikin satın alınması və ya kapital bazarında alım-satım predmeti olmuş bir daşınır qiymətin mülkiyyətinin əldə edilməsi isə ikinci qrupa misaldır. Daha öncə qurulmuş olan bir fabrikin xarici sərmayədar tərəfindən alınması, yeniləmə və ya genişləmə məqsədli ola bilər. Bununla bərabər, mövcud bir fabrik, bina və ya təsisin satın alınması, fərdi olaraq investisiya olmaqla birlikdə, makro-iqtisadi nöqteyi-nəzərdən investisiya sayılmaz. Çünki bu əməliyyat, əgər yeniləmə və genişləmə məqsədli investisiya deyilsə, yəni istehsal kapasitəsini artırmırsa, sadəcə olaraq mövcud təsisin əl dəyişdirməsini təmin etməkdədir. Eyni şəkildə, səhm, finansman bonosu, xəzinə bonosu, dövlət istiqrazı kimi finansal varlıqların satın alımı da, iqtisadi mənada, investisiya sayılmaz; bu investisiyalar finans investisiyalarıdır. Burada əlavə bir dəyər yaradılmadığı kimi, fərd sadəcə olaraq əlindəki varlığın şəklini dəyişdirməkdədir.

1993-cü ildə System of National Accounts(SNA) iqtisadi varlıqları finansal iqtisadi varlıqlar və qeyri-finansal iqtisadi varlıqlar olaraq ikiyə ayırmışdır.

Finansal iqtisadi varlıqlar aşağıdakı komponentlərdən təşkil olmaqdadır: Bono; İstiqraz; Səhm; Pul funksiyasını yerinə yetirən qızıl; Kassa-bank; Avanslar; Debet hesabları.

Ümumi olaraq investisiyaların aşağıdakı şəkildə təsnif etmək mümkündür: etüd-proyekt investisiyaları; yeni investisiyalar; fəaliyyəti davam etdirmə və yeniləmə investisiyaları; ekspansiya investisiyaları; tamamlama və çətin situasiyaları açmaq üçün ekstremal investisiyalar; modernləşdirmə və təkmilləşdirmə investisiyaları; araşdırma-inkişaf etdirmək (research and development R&D) investisiyaları.

İnvestisiyanın stimullaşdırılmasının 2 önəmli amili vardır:

- investisiyanın gəlirlilik nisbəti;

➢ investisiyanın finans qaynaqlarının orta xərcləri.

İnvestisiyanın səmərəliliyi investisiya mövzusuna ölkə iqtisadiyyatının ehtiyac hiss etməsi, başqa sözlə desək, investisiyanın qoyulacağı iş sahəsində bir təklif və tələb tarazlığın tapılması ilə yaxından əlaqədardır. Sərmayə xərcləri isə finansal bazarlarda təşkil edilən borclanma və özəl fondlarının xərcləri ilə investor şirkətin özəl şərtlərinə bağlı olaraq az və ya da yüksək səviyyədə təşkil edilə bilər.

Ümumiyyətlə, iqtisadçıların sərmayənin marjinal təsiri adlandırdıqları və finans nəzəriyyəsində daxili səmərə vermə nisbəti (internal rate) olaraq tanınan investisiyanın səmərəlilik nisbəti, şübhəsiz investisiyaya yönəlik planların qərara alınınasında önəmli faktlardır.

Finans bazarında fondların xərclərinin aşağı və ya yuxarı səviyyədə olmasına təsir edən başlıca amillər:

1. Mərkəzi Bankın apardığı pul siyasəti
2. Ölkə iqtisadiyyatının yığım potensialı
3. Kredit- maliyyə qurumlarının kapital bazarındakı fəaliyyətinin əhatə dairəsi təşkil edir.

Beləliklə, investisiya — gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

Belə vəsait və sərvətlər aşağıdakılardır:

- pul vəsaiti, məqsədli bank əmanətləri, kreditlər, paylar, səhmlər və digər qiymətli kağızlar;
- daşınar və daşınmaz əmlak (binalar, qurğular, avadanlıq və başqa maddi sərvətlər);
- müvafiq qaydada rəsmiləşdirilmiş elmi-təcrübi və digər intellektual sərvətlər;
- bu və ya digər istehsal növünün təşkili üçün zəruri olan, ancaq patentləşdirilməmiş texniki sənədləşdirmə, vərdiş və istehsalat təcrübəsi kimi tərtib edilmiş texniki, texnoloji, kommersiya və digər biliklərin məcmusu ("nou-hau");
- torpaqdan, sudan və digər ehtiyatlardan, binalardan, qurğulardan, avadanlıqdan istifadə hüquqları, habelə müəlliflik hüququndan irəli gələn və başqa əmlak hüquqları;
- başqa sərvətlər.

Əsas fondların yaradılmasına və təkrar istehsalına, habelə maddi istehsalın digər formada inkişafına investisiya yönəldilməsi kapital qoyuluşları şəklində həyata keçirilir.

Plasman anlayışı

İqtisadiyyatda gəlir və məşğulluğu artıran təməl ünsur olan investisiya anlayışına, bəzi hallarda yanlış tərif verilir. Məsələn, mövcud bir fabrikin, bir ərazi və ya tarlanın satın alınması xalq arasında investisiya adlandırılır. O isə, bu kimi xərcləmələrdə iqtisadiyyatda yeni bir istehsal gücü təşkil etmir, sadəcə mövcud mal və xidmətlər bir əldən başqa ələ keçir. Mövzuya mikrosəviyyədə baxsaq, bu hadisə mövcud bir fabrikə satın alan şirkət baxımından bir investisiyadır. Ancaq mikrosəviyyədə düşünsək bunun bəsit bir əldən-ələ

dəyişmə olduğunu görərik. Bunun kimi, qiymətli kağızların satın alınınası halı da investisiya çərçivəsi xaricindədir. Səhm, istiqraz satın alan şəxsin etdiyi xərcləmə də bir investisiya xərcləməsi deyildir. Buna iqtisad dilində (ingiliscə placement) playsmant deyilir, yəni playsmant sadəcə mövcud yatırımların əldən-ələ keçməsidir, yeni bir investisiya deyildir. İnvestisiya isə sadəcə sərmayə həcminə qoyulan əlavə kapitaldır.

Plasman - pulun, gəlir gətirən daşınır və daşınmaz mallara və ya digər sərvət ünsürlərinə qoyularaq dəyərləndirilməsidir. Plasman mövcud investisiyaların əl dəyişdirməsidir, yəni bir investisiya deyildir. Adətən, sənayeləşmiş ölkələrdə plasman aksiyalara qoyulmaqdır.

Bunların alqı-satqısı iqtisadiyyatda mövcud istehsal gücləri üzərindəki mülkiyyət haqqının bir əldən başqa ələ keçməsindən savayı bir şey deyildir. İqtisadi anlamda investisiya fondların sərmayə mallarına (real varlıqlara) yönəlməsidir. Ümumiyyətlə, hər hansı bir ölkədə yığımın həcmi real investisiyalar təşkil edir, real investisiyaların həcmi isə bu investisiyaların gerçəkləşdirilməsi üçün yetərli fondların olmasına, digər bir ifadə ilə desək, yığım fondlarının axtarılmasına bağlıdır. Real varlıq investisiyaları yenidən qurmaya və istehsal gücünün artımına yönəldilmiş investisiyalardır.

Kredit insitutlari

Yığım və investisiyanın müxtəlif şəxslər tərəfindən həyata keçirildiyi bir toplumda yığımların investisiyaya dönməsi, kredit sisteminin varlığını meydana çıxarır. Kredit sistemi şirkət və fərdlərdən əmanətləri (depozitlər) cəlb edir və toplanmış vəsaitləri sonradan dövlət, şirkət və fərdlər arasında yenidən bölüşdürür. Beləliklə, öz vəsaitlərini təklif edən əmanətçilər (kreditorlar) və bu vəsaitlərə ehtiyacı olanlar (borclular) kimi iki qrup yaranır.

Kredit sisteminin ən vacib çalışma mexanizmi borclama və borcvermə əməliyyatlarını asanlaşdırmaq və nizamlı bir şəkildə işləməsini təmin etməkdir.

Kommersiya bankları topladıqları müddətli və müddətsiz əmanətlərlə bərabər, dolayı finans alətlər qarşılığında fond toplayaraq səhm, istiqraz və çeşidli kredit alətlərinə yatıran kredit qurumlarıdır. Bütün kommersiya banklarının başlıca iki funksiyası vardır: borc almaq və borc vermək. Borc almaq çox zaman əmanət şəklində, borc vermək isə kredit şəklində ortaya çıxır. Kommersiya banklarının fond qaynaqlarını müddətsiz və müddətli əmanət hesabları, mərkəz bankının avansları və iştirakların mənfəətləri təşkil edir.

Əmanət bankları - ipotekli kreditlər yolu ilə kiçik yatırımçılara yönəlik borcvermə əməliyyatlarında ixtisaslaşmış qurumlardır. Əmanət banklarının əsas funksiyası kiçik investorların əmanətlərinin toplanması və bu əmanətlərin iqtisadiyyata yönləndirilməsidir. Bank topladıqları fondların böyük bir hissəsini müştərilərinə verirkən, bir hissəsini də kredit şəklində ipotek qarşılığı olaraq inşaat-mənzil krediti kimi kiçik şirkətlərə verir.

Əmanət və kredit birlikləri - əmanət və kredit qurumları ev, avtomobil kimi istehlak kreditləri sahəsində ixtisaslaşırlar.

Kredit ittifaqları - mənfəət məqsədi daşımırlar və fəaliyyətləri sadəcə üzvləri ilə məhdudlaşır. Kredit ittifaqları daha çox üzvlərinin istehlak kreditləri ehtiyacına yatırım

edirlər. Azərbaycan Respublikasında "kredit ittifaqları haqqında" Qanun 2 may 2000-ci ildə qəbul edilmişdir və kredit ittifaqları könüllü, mənafə əsasında birləşən fiziki şəxslərin, kiçik sahibkarlıq subyekti olan hüquqi şəxslərin sərbəst pul vəsaitlərini cəmləşdirmək yolu ilə özlərinin qarşılıqlı kreditləşdirilməsi üçün yaratdıqları bank olmayan kredit təşkilatıdır.

Poçt-bank qurumları. Avropa ölkələrində poçt sistemi müəssisələrində əhaliyə direkt geniş spektirli və keyfiyyətli bank-finans xidmətləri təklif edilməkdədir. Hal-hazırda post-bank xidməti çərçivəsində müştərilərə daha çox investisiya xidmət və məhsulları təklif etmək meyli güclənməkdədir.2004-cü ildə «Poçt rabitəsi haqqında» AR Qanunu qüvvəyə mindikdən sonra, həmin qanuna uyğun olaraq 07 oktyabr 2004-cü il tarixdən «Azərpoçt» DM universal poçt xidmətlərini göstərən Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Milli Poçt Operatoru sayılır.

İnvestisiya bankları. Bu banklar uzunmüddətli investisiya kreditini təmin edən və ya da özəl şirkətlərin çıxardıqları istiqrazların satışına qarantiya verən qurumlardır. Beləliklə, investisiya bankları, kapital bazarının daha çox inkişaf etdiyi ölkələrdə xalqın qısa və uzun bir müddət üçün istifadə etmədiyi əmanətləri ilə şirkətlərin və dövlətin uzun müddətli kreditə olan ehtiyaclarının qarşılanmasında vasitəçi olurlar.İnvestisiya banklarının funksiyaları aşağıdakılardır: Aksiya və istiqrazların yenidən bölgüsünü həyata keçirir, avrovalyuta bazarında avroistiqraz və avroaksiya yerləşdirilməsinə vasitəçilik edir və korporativ şirkətlərə investisiya mövzusunda müşavirlik xidməti verir.

İnkişaf bankları - daha çox sərmayə bazarının inkişaf etmədiyi və ya sərmayənin qıt olduğu ölkələrdə ortaya çıxmışdır. İnkişaf banklarının vəzifələri isə aşağıdakılardır:İnvestisiya layihələri hazırlamaq və investisiyanı stimullaşdırmaq məqsədi ilə kredit vermədə yardımlar, sirkətlərin səhmlərini alaraq investisiya prosesində iştirak edir və xarici sərmayənin investisiya sahələrinə yönəlməsinə vasitəçilik edirlər.

Finans şirkətləri öz varlıq və borclarına əsaslanıb qiymətli kağızlar ixrac etməklə və topladıqları fondları birbaşa olaraq nağd kredit istəyən istehlakçılara və ya istehlak mallarının finansmanı üçün şirkətlərə qısa və uzunnüddətli kredit təklif edən finans qurumlarıdır.

İnvestisiya fondları - fondlar investorlara mülkiyyət haqqı verən səhm ixrac edirlər. İnvestorlar üçün hər hansı bir təminat və ya sığorta mövzusu imkansızdır. Əldə edilən fondlardarı qiymətli kağız portfelinin satın alınmasında istifadə edilir. Kapital bazarlarında fondlar səhm və istiqraz kimi finans alətləri üzərində ixtisaslaşmaya malikdirlərdir.

Pensiya fondları - üzvlərinin əqidəsinə və gəlirinə görə təsbit edilən ayırmaları toplayaraq üzvlərini xəstəlik, ölüm və pensiyalılıq kimi risklərdən qoruyurlar. Toplanan ayırmalar uzunmüddətli və sabit olduğundan likvid fond tutmaq ehtiyacına heç bir əsas qalmır. Bu səbəbdən də toplanan fondlar kapital bazarı alətlərinə yönəlir. Pensiya fondları iştirakçılara, yaşamlarının aktiv olaraq çalışmadıqları dönəmində, dönəmsəl gəlir saxlamaq üzrə, aktiv olaraq çalışdıqları dönəmdə ödədikləri payların vasitəsi ilə topladıqları fondları kapital bazarlarında dəyərləndirən qurumlardır.

Qiymətli kağızlarla əməliyyat aparan şirkətlər - əllərindəki uzunмüddətli fondları qanun çərçivəsində səhm və istiqraz satınalma yolu ilə dəyərləndirən qurumlardır. Finans bazarlarında, bu şirkətlərin çox çeşidli funksiyaları vardır. Bəzi qiymətli kağız şirkətləri iştirakçılar arasındakı qiymətli kağız əməliyyatlarının gerçəkləşdirilməsində bilgi qaynaqlarını "broker" (komisyonçu) kimi istifadə edirlər. Brokerlər əməliyyatlarını

gerçəkləşdirmək üçün bir komisyon alırlar. Bu komisyon təklif və tələb arasındakı qiymət fərqinə təsir edir. Bəzi qiymətli kağız şirkətləri, yeni çıxarılmış şirkətin qiymətli kağız ixracını reallaşdırır. Hüquqi şəxsin müəyyən qiymətli kağızlarının alış və satış qiymətlərini elan edib, bu qiymətli kağızların elan edilmiş qiymətlərlə alınması və ya satılmasını öhdəsinə götürməklə öz adından və öz hesabından qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanılması prosesi diler fəaliyyəti hesab edilir.

Sığorta şirkətləri - sığorta şirkətlərinin əsil funksiyası, meydana gəlməsi düşünülən təhlükələrdən doğa biləcək itki və zərərləri azaltmaq məqsədi ilə üzvlərinə sığortaçılıq xidmətləri verirlər. Sığorta şirkətləri ölüm, xəstəlik, ya da qəza sığortası kimi sığorta polislərinin satılması qarşılığında prim (müəyyən edilən məbləğin yüzdə bir hissəsi) alırlar və topladıqları bu primləri çeşidli qiymətli kağız satın alınmasında istifadə edirlər. Sığorta şirkətləri kapital bazarının ən önəmli iştirakçılarıdır. Sığorta şirkətləri sığorta strukturu içərisində, özəl sığorta və sosial sığorta olaraq iki yerə bölünür. Özəl sığorta isə öz növbəsində, həyat və mal sığortası olaraq ikiyə ayrılır, sosial sığorta isə sosial müdafiə qurumlarını əhatə edir.

Mal və qəza sığortalarında şirkətlər, aktivlərində daha çox likvid tutmaqla və kapital bazarlarında likvidliyi yüksək olan finans alətlərinə yatırım qoyurlar. Burada investisiya qərarlarında mənfəətdən çox, likvidlik və təminatlıq ön plana çıxmaqdadır.

İnsanlar heç gözlənilməyən olaylarla hər gün qarşılaşa və bu qarşılaşmalar ölümlə və ya qəza ilə nəticələnə və hətta bu zaman bir maddi varlığın itkisinə də yol açа bilər. Bu məqsədlə insanlar gələcəyə və sağlığa yönəlik olaraq maddi itkiləri aradan qaldırmaq məqsədi ilə sığorta şirkətləri təşkil etmişlər.

Sığorta iqtisadi mexanizmin yardımı ilə fərd və qurumlar öz risklərini (gələcəyin müəyyənsizliyinə görə) sığorta qurumlarına həvalə edirlər.

Həyat sığorta şirkətləri. Həyat sığortası fondları uzunmüddətli və sabit olmasından dolayı daha çox şirkətlərin səhmlərinə, ipotek kreditlərinə və dövlət istiqrazlarına yatırılır. Həyat sığortasının təməl vəzifəsi sığorta alanı ölüm və yaşama risklərindən qorumaqdır.

Həyat sığorta polisi iki tiplidir: ömürlük həyat sığortası və müvəqqəti həyat sığortası (həyat sığortasının müvəqqəti müddəti).

Lizinq. "Finans icarəçi", məlum bir müddət üçün icarələyən (lessor) və icarəçi (lessec) arasında imzalanan, icarəçi tərəfindən seçilib, icarələyən tərəfindən satın alınan bir mülkiyyətini icarələyəndə, malın istifadəsini müəyyən bir icarə haqqı ödəməsi qarşılığında icarəçidə buraxan bir kontarktdır. Bu tərifə görə, icarə dəyərinə icarələyənin ümumi xərcləri: malın dəyəri və bağlanan sərmayənin faizi və mənfəət marjı daxildir.

Dünyada lizinqə mövzu olan mallar: avtomobillər; büro avadanlıqları və ya cihazları; xəbərləşmə cihazları; kənd təsərrüfatı alət və maşınları; təyyarələr; yol-inşaat maşınları; avtobuslar; mətbəə avadanlıqları; tibbi cihazlar; enerji təsisatı.

Lizinq ölkədaxili icarə və beynəlxalq icarə olmaq üzrə ikiyə ayrılır. Lizinqin ölkədaxili və ya da beynəlxalq olması, icarələnən malın idxal edilib-edilmədiyinə görə deyil, sözləşməyə tərəf olanların, ölkə daxilində olub-olmadığına bağlıdır.

Faktorinq. Faktorinq, böyük miqdarda kreditlə satış həyata keçirən şirkətlərin və satışlardan alınan haqların "Faktor və ya Faktorinq şirkəti" adlandırılan quruluşlar tərəfindən satın alınması əməliyyatıdır. Faktor şirkətlərin alacaq hesablarının satın alınmasında ixtisaslaşmış finans qurumlarıdır. Faktorinq qısamüddətli satışlardan alınan haqların faktorlara satılması ilə şirkətlərə fond saxlama imkanı veren bir finans texnikasıdır.

Faktorinq əməliyyatı firma (müştəri), borclu və faktorinq şirkəti (faktor) olmaq üzrə üç tərəfdən ibarətdir:

1. Firma (müştəri) faktorinq xidmətini tələb edən və kreditli satışlardan əldə edilənləri faktorinq şirkətinə dövr edən şirkətlərdir.

2. Faktorinq şirkəti: müştərinin alacaqlarının dövr etdirərək və satın alaraq, qarşılığını nağd şəklində, alacaqlıya ödəyən şirkət və ya bu əməliyyatları yürüdən bankdır,

3. Borclu müştərinin alacaqlı olduğu fərdlər, şirkətlərdir.

Forfatinq. Forfatinq, faktorinqdə olduğu kimi, alacaq hüquqlarının üçüncü şəxsə dövr edilməsidir. Forfatinq metodu ilə ixracatın 80% və ya 90%-ə kimi hissəsi finansə edilir. Çünki forfatinq əməliyyatında mal dəyərinin 10%-i və ya 20%-ə qədər hissəsi nağd olaraq ödənilir. Dünya miqyasında forfatinq əməliyyatı aparan 300-ə qədər bankın 80-i Londondadır. Beynəlxalq bazarlarda artan rəqabət, ixracatçıların idxalatcılara daha uzunmüddətli mal satmalarına səbəb olmuşdur. Bunun nəticəsində ixracatçıların, alacaqlarını almama riski, faiz və valyuta riski kimi əlavə risklərlə yüklənmələri və bu risklərdən qorunma arzusu forfatinq finansman texnikasın istifadəsinə yol açmışdır.

Forfatinq əməliyyatında yer alan tərəflər aşağıdakılardır: ixracatcı şirkət (forfaitist); idxalatçı firma; Forfait; Qarantlı bank.

Forfatinq prosesinin I mərhələsində ixracatçı ilə alıcı arasında satış sözləşməsi bağlanılır. II mərhələdə, forfaiter ixracatçıdan dəyərləndirmə ala bilmək üçün bəzi məlumat və sənədlər istəyir: tələb edilən kreditin həcmi, müddəti, valyuta cinsi, idxalatçının adı, ünvanı, yerləşdiyi ölkə, alacaqların şəkli, təminat növü, təminatı verecək olan bankın adı, yerləşdiyi ölkə, sənədlərin məbləği, müddətləri, ödənəcəkləri yer, ixrac edilən malların cins və miqdarı, sənədlərin təslim tarixi və lazım olan digər sənədlər.

Forfaitinq əməliyyatında ən çox istifadə edilən pullar ABŞ dolları, Avro və İsveçrə Frankıdır. Forfatinq əməliyyatında risk amilləri aşağıdakılardır: ölkə riski; siyasi risk; transfer riski; valyuta riski; ticari risk; faiz riski. Forfaitinq ilə ixracatçı özünü bu risklərə qarşı qoruyur və müddətdən öncə finansman əldə edir.

Bankları fəaliyyət növlərinə görə qruplaşdırın

Mərkəzi Bank Ölkənin kredit sisteminin mərkəzində duran Mərkəzi Bank "Banklar Bankı" kimi çıxış edir və ona iqtisadi baxımdan bir çox vəzifə və fünksiyalara verilmişdir. Hər şeydən əvvəl, Mərkəzi Bank son kredit instansiyasıdır. Qanunvericiliklə ona verilmiş hüquqdan istifadə edərək bank sistemini tənzimləyir, onların iqtisadiyyata təqdim etdiyi kreditləri və depozit qəbulunu dolayı yolla müəyyən edir. Mərkəzi Banklar dövriyyədəki nağd pulun emitentidir və iqtisadiyyata pul təklifinin əsasını təşkil edən pul bazasını əlində olan pul siyasəti alətləri ilə müəyyən edir. Milli pulun daxili və xarici dəyərini qoruyur. Hökumətə maliyyə və iqtisadi məsələlərdə müşavirlik edir. Mərkəzi Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyini və bank sisteminin sabitliyini və inkişafını təmin etməkdir.

Kommersiya bankları Kredit- maliyyə qurumlarının ən ilkin və geniş yayılmış forması bankların da daxil olduğu depozit institutlarıdır. Banklar fiziki şəxslərdən, firmalardan, dövlət orqanlarından tələb edilənədək və müddətli hesablar qəbul edir və öz növbəsində

onları kredit olaraq təqdim edir və ya ayrı-ayrı iqtisadi subyektlərin qiymətli kağızlarına yerləşdirir, investisiyaların həyata keçirilməsində iştirak edir.

Kommersiya banklarının fəaliyyəti hər bir ölkənin bank qanunvericiliyi ilə tənzimlənir. Bəzi ölkələrdə onların fəaliyyətinə daha məhdud hüquqi çərçivədə, bəzilərində isə bir qədər geniş çərçivədə imkan verilir. Bütün kommersiya banklarının bəlli iki funksiyası vardır: borc almaq və borc vermək. Borc almaq çox zaman əmanət şəklində, borc vermək isə kredit şəklində ortaya çıxır. Kommersiya banklarının bank sistemi içərisində ən önəmli fəaliyyətlərindən birisi də bank pulunu yarada bilməsidir. Bank pulu banka qoyulan əmanətin məcburi ehtiyat normalarına ayrılan miqdarı çıxıldıqdan sonra, təkrar kredit olaraq verilməsi nəticəsində olur. Bank pulu çek sisteminin uyğunlaşdığı ölkələrdə böyük bir rola sahibdir.

Aqrar banklar - kənd təsərrüfatı sahə fəaliyyətinin digər ticarət və sənaye fəaliyyətlərindən fərqli olmasına görə dünya ölkələrinin çoxunda aqrar iqtisadiyyatına yönəlik dövlət tərəfindən qurulan banklardır.

Xalq bankları - iri və orta ölçülü şirkətlərin uzunmüddətli kreditə olan ehtiyacını qarşılamaq üzrə qurulan banklardır.

İnvestisiya bankları daha çox kapital bazarının inkişaf etdiyi ölkələrdə xalqın qısa və uzun bir müddət üçün istifadə etmədiyi əmanətləri ilə şirkətlərin və dövlətin uzun müddətli kreditə olan ehtiyaclarının qarşılanınasında vasitəçi olurlar. İnvestisiya bankları - şirkətlər tərəfindən ixrac edilmiş qiymətli kağızların bir hissəsinin satılmaması halında özü satın almanı qəbul edə bilər. Bu əməliyyata öhdəliyin satışı deyilir. Bank bu qarantıyla bir növ şirkətin ixrac edəcəyi qiymətli kağızları sığorta etdirməkdədir. Bu əməliyyatdan bank iki şəkildə gəlir əldə edər. İlk olaraq, satışında vasitəçilik etdiyi qiymətli kağızlar üzərində müəyyən bir komisyon alır. İkinci olaraq da qaranti komisyonu alır. Bu qaranti komisyonu qaranti etdiyi (satışını) sənədlərin dəyəri üzərindən alınır.

İnkişaf bankları - daha çox sərmayə bazarının inkişaf etmədiyi və ya sərmayənin qıt olduğu ölkələrdə ortaya çıxmışdır.

İstehlak bankları - xidmətlərini istehlakçılara təklif edir.

Universal banklar - bütün finans xidmətlərini təklif edən qurumlardır.

İpoteka bankları. Dünya praktikasında ipotekanın əsas iki modeli amerikan və alman modeli istifadə edilir. İkisəviyyəli ipoteka krediti sxemi adlandırılan amerikan modelində ilkin ipoteka bazarında verilən ipoteka kreditləri daha sonra xüsusi yaradılmış agentiklər tərəfindən satılır ki, bu agentliklər də qiymətli kağızların buraxılışı yolu ilə onları skyuritizasiya edə bilir. Birsəviyyəli ipoteka krediti sxemi adlandırılan alman modelində isə ipoteka kreditini vermiş banklar sərbəst şəkildə qiymətli kağızların buraxılış yolu ilə ipoteka kreditini yenidən maliyyələşdirə bilər.

İslam bankları - İlk İslam bankı 1963-cü ildə Misirdə qurulmuşdur. Lakin, ilk müasir İslam bankı 1971-ci ildə Qahirədə Ənvər Sadatin əmri ilə qurulan Nasir Sosial Bankıdır. Bu bank daha çox sosial rifah təşkilatı kimi fəaliyyət göstərmiş, yəni xəstəlik, evlənmə və ölüm kimi səbəblərə xərclər çəkmək məcburiyyətində olan yoxsul insanlara faizsiz yardım göstərmək məqsədi ilə qurulmuşdur. Daha sonra, 1975-ci ildə Ciddədə kral Faiselin dəstəyi ilə İslam Konfransı təşkilatına üzv olan ölkələrin iqtisadi inkişaf proqramlarını islam prinsipləri çərçivəsində dəstəkləyən - "İslam İnkişaf Bankı" qurulmuşdur. İslam bankçılığının ən başlıca özəlliyi, İslam dinində faizin haram sayılması səbəbi ilə, faizsiz iqtisadi sistemin inkişaf etdirməsinə yardım göstərməkdir. İslam bankının dayandığı iki təməl prinsip vardır: pulun bir mal deyil, bir mübadilə vasitəsi, bir hesab ölçüsü olması; əməyini ortaya qoyanla

sərmayəsini ortaya qoyanın işin nəticəsinə görə ortaq məsuliyyət daşımalıdır. Mənfəət və ya zərərə şərikdirlər.

Azərbaycan respublikasinda bank fəaliyyətinin hüquqi əsaslari

Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikasının Milli Bankından və kredit təşkilatlarından ibarətdir. Milli Bank dövlətin Mərkəzi Bankıdır və onun fəaliyyəti Azərbaycan Respublikasının Konstitusiyası, "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu Qanun və bunlara müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlar, habelə Azərbaycan Respublikasının tərəfdar cıxdıgı beynəlxalq müqavilələrlə tənzimlənir.

Cari bank fəaliyyəti ilə bağlı qərarları qəbul edərkən kredit təşkilatları dövlət hakimiyyəti və bələdiyyə orqanlarından asılı deyildir və onlar kredit təşkilatlarının fəaliyyətinə qarışa bilməz. Kredit təşkilatları qanunla onların fəaliyyət növlərinə aid edilməyən fəaliyyəti həyata kecirməyə məcbur edilə bilməz. Kredit təşkilatlarının və dövlətin müvafiq öhdəlik götürdüyü hallardan başqa bütün digər hallarda kredit təşkilatları dövlətin, dövlət isə kredit təşkilatlarının öhdəlikləri üçün məsuliyyət daşımır.

Azərbaycan Respublikasının ərazisində banklar və bank olmayan kredit təşkilatları bank fəaliyyətini Milli Bankın verdiyi xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilə bilər. və depozit əməliyyatları yalnız banklar tərəfindən həyata keçirilə bilər. Bankın onun nizamnaməsi ilə müəyyən edilmiş firma adında mütləq qaydada "bank" sözü olmalıdır. Heç bir bank istənilən sənəddə, elanlarda və ya reklamda özünün nizamnaməsində göstərilən addan fərqli adla adlandırıla bilməz. Bank" sözünün işlədildiyi mətndən bu sözün bank fəaliyyətinə aid edilmədiyi tam aydın olduğu hallardan başqa bank fəaliyyəti ilə məşğul olmayan hüquqi şəxsin adında "bank" sözünün ("bank" sözü olan söz birləşməsinin) istifadəsi qadağandır.

Azərbaycan Respublikasının Mərkəzı Bankı**n(Milli bank) məqsədləri**

İqtisadi siyasətdə pul siyasətinin yeri və rolu zaman içində önəmli dəyişikliklərə uğramışdır. Pul siyasətinin iqtisadi siyasətdəki ağırlıq payı artdıqca, pul siyasətini həyata keçirən qurumun da, yəni Mərkəzi Bankın da iqtisadiyyatda gücü və önəmi artmaqdadır.

Mərkəzi banklar pul siyasətinin həyata keçirilməsi istiqamətində müəyyən etdikləri hədəf və məqsədlərə çatmaq üçün müxtəlif vasitələrdən istifadə edirlər. Ancaq bu vasitələrin təsirləri isə ölkədən ölkəyə və ən əsası da ölkələrin iqtisadi səviyyələrinə və struktur özəlliklərinə bağlı olaraq önəmli fərqliliklər göstərməkdədir.

Son illər finans bazarlarına doğrudan müdaxilə edən pul siyasəti alətləri əvəzinə, dolayı olaraq müdaxiləyə izin verən alətlərin də daxil olduğu müşahidə edilməkdədir.

Ümumiyyətlə, bütün ölkələrdə mərkəzi bankların əsas vəzifəsi çevik pul-kredit siyasətinin aparılması və pul-kredit siyasətinin əsas metodları ilə iqtisadiyyatda tənzimləyici funksiyasını yerinə yetirməkdir. Pul-kredit siyasətinin başlıca istiqamətlərində ölkənin makroiqtisadi və makromaliyyə vəziyyəti təhlil edilir, pul-kredit siyasətinin və bank sisteminin inkişafının əsas istiqamətləri əks etdirilir. Pul-kredit siyasətinin başlıca istiqamətlərində inflyasiyanın səviyyəsinin azaldılması və manatın xaric dönərli valyutalara nisbətən məzənnəsinin möhkəmləndirilməsi kimi əsas vəzifələrin yerinə yetirilməsi üçün aşağıdakılar nəzərdə tutulmalıdır:

- qarşıdakı il üçün pul-kredit siyasətinin məqsəd və vəzifələrini və bunlara nail olmaq yollarının müəyyənləşdirilməsi;

- inflyasiyanın proqnozlaşdırılan səviyyəsinə nail olmaq üçün pul kütləsi həcminin və strukturunun tənzimlənməsi;

- daxili aktivlərin və ehtiyat pulun maksimum və xarici ehtiyatların minimum səviyyəsinin təmin olumnası tədbirləri;

- ölkənin tədiyə qabiliyyətinin sabitliyi və valyuta bazarının tənzimlənməsi üçün valyuta ehtiyatlarının zəruri səviyyəsinin müəyyənləşdirilməsi;

- həyata keçirilən pul-kredit siyasətinə uyğun olaraq bank işinin təkmilkəşdirilməsi tədbirləri.

Milli Bank pul-kredit siyasətini həyata keçirərkən aşağıdakı metodlar əsas götürür:

1. Mərkəzləşdirilmiş kredit əməliyyatları üzrə faiz dərəcələrinin müəyyənləşdirlməsi:
2. Məcburi ehtiyat normalarının müəyyənləşdirilməsi;
3. Sərbəst bazarda qiymətli kağızlarla bank əməliyyatları aparılması;
4. Kredit təşkilatlarına mərkəzləşdirilmiş kreditlər verilməsi;
5. Valyuta müdaxiləsi və mübadilə məzənnələri siyasətinin həyata keçirilməsi;
6. Bank əməliyyatlarının məhdudlaşdırılması.

Milli Bankın klassik xassələrindən biri də onun kredit təşkilatları üçün sonuncu instansiya kreditoru olmasıdır. Nəhayət, Milli Bankın dövlətə münasibətdə əsas səlahiyyətlərindən biri də onun Azərbaycan dövlətinin bankiri və müşaviri rolunda çıxış etməsi, həmçinin bank sistemi vasitəsilə dövlət büdcəsinin kassa icrasını təşkil etməsidir.

Milli Bank qarşıdakı il üçün dövlətin pul siyasətinin əsas istiqamətlərini oktyabr ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikası Prezidentinə təqdim edir və dekabr ayının 31-dək kütləvi informasiya vasitələrində ictimaiyyətə açıqlayır. Pul siyasətinin əsas istiqamətlərini açıqlayarkən Milli Bank cari ildə həyata keçirilən pul siyasətinin yekunlarını, habelə qarşıdakı il üçün müəyyən etdiyi pul siyasətinin məqsəd və vəzifələrini, Milli Bankdan asılı olan və asılı olmayan amilləri də əks etdirməklə onların həyata keçirilməsi yollarını göstərir.

«Azərbaycan Respublikasının Milli Bankı haqqında» Qanunun 4-cü maddəsinə görə «Milli Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin sabitliyinin təmin edilməsidir». Bunun nəzərə alaraq Milli Bank monetar amillərdən asılı olaraq dəyişən baza inflyasiya göstəricisini hədəfləyir. Baza inflyasiya üzrə hədəf Milli Bank tərəfindən hər növbəti il üçün işlənən və ictimaiyyətə bəyan olunan pul siyasətinin əsas istiqamətlərində öz əksini tapır. Pul siyasəti üzrə son məqsədə nail olmaq üçün aralıq hədəflər müəyyən edilir. Baza inflyasiya üzrə illik hədəfə nail olmaq üçün pul siyasətinin aralıq hədəfləri kimi pul kütləsindən və Nominal Effektiv Məzənnədən istifadə edilir. Hədəf götürülən inflyasiya səviyyəsindən asılı olaraq tələb olunan pul kütləsinin artım həddi və eləcə də NEM-nin dəyişim trayektoriyası təyin edilir. Sonra bu göstəricilər pul siyasətinin tətbiqi üçün istiqamət rolunu oynayır. Azərbaycanda pul siyasətinin aralıq məqsədləri kimi pul kütləsi və NEM-dən istifadə olunması uzunmüddətli dövrdə inflyasiyanın dinamikasının əsasən məhz bu parametrlərdən asılı olması ilə əlaqədardır.

Pul siyasətinin aralıq hədəflərindən asılı olaraq onun əməliyyat hədəfləri müəyyənləşdirilir. Pul siyasətinin əməliyyat hədəfləri pul bazası və manatın ABŞ dollarına nəzərən ikitərəfli nominal məzənnəsidir. Bu göstəricilərdən əməliyyat hədəfləri kimi istifadə edilməsi ölkənin maliyyə bazarlarının xüsusiyyətləri ilə əlaqədardır. Belə ki, sərəncamda olan pul siyasəti alətləri vasitəsilə Milli Bank pul bazasına və ikitərəfli məzənnəyə digər potensial operativ hədəflərə müqayisədə daha effektiv təsir göstərə bilir.

Pul siyasətinə dair gündəlik qərarlar pul bazasının və ABŞ dollarının məzənnəsinin dəyişimində dərhal öz əksini tapır. Pul bazasının və manatın ABŞ dollarına nəzərən məzənnəsinin dəyişimi isə pul kütləsinə və NEM-ə təsir göstərir. Bu da müəyyən vaxt ərzində inflyasiya üzrə hədəfə nail olmağa imkan verir. Operativ hədəflərdən asılı olaraq pul siyasəti alətlərinin kəmiyyət parametrləri, o cümlədən açıq bazar əməliyyatlarının həcmi, valyuta mübadiləsinin məbləği və s. müəyyənləşdirilir.

Maliyyə bazarlarının inkişaf səviyyəsini nəzərə alaraq Milli Bank 2007-ci ildən etibarən pul siyasətinin beynəlxalq ətandartlara uyğunlaşdırılması çərçivəsində «faiz dərəcələri dəhlizi» yanaşmasının tətbiqini nəzərdə tutur. Yeridilən pul siyasətinin reallaşması mexanizmlərinin mütərəqqi formalarından olan faiz dəhlizinin tətbiqiq yeni əməliyyat strukturunu nəzərdə tutmaqla Milli Bankın iqtisadiyyatda pulun dəyərinə təsir etmək imkanlarının genişləndirəcəkdir.

Azərbaycan Respublikası **MərkəziBankın (Milli bank) funksiyaları**

«Azərbaycan Respublikasının Milli Bankı haqqında» Qanunun 5-cü maddəsinə görə Milli Bankı öz məqsədlərinə nail olmaq üçün :

1. dövlətin pul və valyuta siyasətini müəyyən edir və həyata keçirir;
2. nağd pul dövriyyəsini təşkil edir, Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsinin II hissəsinə və bu Qanuna müvafiq olaraq pul nişanlarının tədavülə buraxılmasını və tədavüldən çıxarılmasını həyata keçirir;
3. manatın xarici valyutalara nisbətdə rəsmi məzənnəsini mütəmadi müəyyən edir və elan edir;
4. qanunvericiliyə uyğun olaraq valyuta tənzimini və nəzarətini həyata keçirir;
5. sərəncamında olan beynəlxalq qızıl-valyuta ehtiyatlarını saxlayır və idarə edir;
6. qanunvericiliyə uyğun olaraq hesabat tədiyə balansını tərtib edir və ölkənin proqnoz tədiyə balansının hazırlanmasında iştirak edir;
7. "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa, bu Qanuna və onlara müvafiq qəbul etdiyi normativ xarakterli aktlara uyğun olaraq bank fəaliyyətini lisenziyalaşdırır və tənzimləyir, qanunla müəyyən edilmiş qaydada bank fəaliyyətinə nəzarəti həyata keçirir;
8. ödəniş sistemlərinin fəaliyyətini təşkil edir, əlaqələndirir, tənzimləyir və onların üzərində nəzarəti qanuna uyğun olaraq həyata keçirir;
9. bu Qanunla və digər qanunlarla nəzərdə tutulmuş başqa funksiyaları həyata keçirir.

Azərbaycan Milli Bankı bazara pul siyasətinin hansı alətləri ilə əməliyyatlar gerçəkləşdirir.

Azərbaycan Milli Bankının pul siyasətinin alətləri aşağıdakılardır:

1. açıq bazarda əməliyyatların aparılması;
2. faiz dərəcələrinin müəyyənləşdirilməsi;
3. kredit təşkilatları üçün məcburi ehtiyatların müəyyənləşdirilməsi;
4. kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi;
5. depozit əməliyyatlarının aparılması;
6. bank əməliyyatlarının məhdudlaşdırılması;

7. beynəlxalq təcrübədə qəbul edilmiş pul siyasətinin digər alətləri.

Milli Bank bu Qanunla müəyyən edilmiş məqsəd və funksiyalarına uyğun olaraq bu Qanunun 29.1-ci maddəsində göstərilənlərdən özünün məqbul hesab etdiyi alətləri tətbiq edir.

Milli Bank açıq bazarda aşağıdakı əməliyyatları apara bilər:

1. Dövlətin buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar;
2. Özünün buraxdığı qiymətli kağızlarla alqı-satqı və digər əməliyyatlar;
3. Xarici valyuta ilə alqı-satqı və digər əməliyyatlar.

Pul siyasətinin həyata keçirilməsi məqsədi ilə buraxılan Milli Bankın borc qiymətli kağızlarının buraxılışı və dövriyyəsi qaydaları qanunvericiliklə müəyyən edilir.

Milli Bank uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini müəyyənləşdirir. Milli Bank uçot dərəcəsini müəyyənləşdirərkən ölkədəki mövcud makroiqtisadi durumu və maliyyə bazarının vəziyyətini nəzərə alır. Milli Bank öz əməliyyatları üzrə faiz dərəcələrini pul bazarının likvidlik vəziyyətini nəzərə alaraq özünün açıq bazar, yenidənmaliyyələşdirilmə və depozit əməliyyatları üzrə faiz dərəcələrini təsbit etməklə və ya hərraclarda tələb və təklif əsasında müəyyənləşdirir. Milli Bank müəyyən etdiyi uçot dərəcəsini və öz əməliyyatları üzrə faiz dərəcələrini dərc etdirir. Milli Bank kredit təşkilatlarına məcburi ehtiyatlar saxlamaq barədə göstəriş verə bilər. Ehtiyatlar depozitlərin faizi nisbətində müəyyən edilir və Milli Bankda saxlanılır. Tələb olunan ehtiyatların norması, hesablanması və saxlanması qaydası Milli Bankın İdarə Heyəti tərəfindən müəyyən edilir. Məcburi ehtiyatlar təmin edilmədikdə Milli Bank ehtiyatı təmin etməyən kredit təşkilatına və onun inzibatçılarına qarşı Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuş inzibati tənbeh tədbirlərini tətbiq edə bilər.

Pul siyasətinin həyata keçirilməsi məqsədilə Milli Bank tərəfindən kredit təşkilatlarının yenidən maliyyələşdirilməsi həyata keçirilir. Bu zaman verilən kreditlər dövlət qiymətli kağızları, dövlətin və digər etibarlı emitentlərin qarantiyaları və zaminliyi, xarici valyuta, qızıl, müxtəlif formada qiymətli metallar və digər aktivlərlə təmin olunmalıdır. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və həmin müddətə uzadıla bilər. Yenidən maliyyələşdirilmənin forma, qayda və şərtlərini Milli Bankın İdarə Heyəti müəyyən edir. Kreditlər yalnız milli valyutada (manatla) kredit təşkilatlarının baş idarələrinə verilir.

Milli Bank özünün müəyyən etdiyi şərtlərlə və qarşılıqlı razılaşma əsasında kredit təşkilatlarından depozitlər cəlb edə bilər. Pul siyasətinin həyata keçirilməsi məqsədilə istisna hallarda qanunvericiliyə müvafiq olaraq Milli Bank kredit təşkilatları tərəfindən aparılan ayrı-ayrı əməliyyatları müvəqqəti məhdudlaşdıra, o cümlədən onların əməliyyatları üzrə faiz dərəcələrinin aşağı və yuxarı hədlərini müəyyənləşdirə bilər.

Kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi və nəzarəti üzrə Milli Bankın vəzifələri

Kredit təşkilatlarının fəaliyyətinin tənzimlənməsi və nəzarəti üzrə Milli Bank aşağıdakıları həyata keçirir:

1. bank fəaliyyəti üzrə normativ xarakterli aktları qəbul edir;

2. prudensial normativləri, habelə onların hesablama metodlarını və tətbiqi qaydalarını müəyyən edir;

3. kreditlər və digər aktivlər üzrə ehtimal olunan zərərlərin ödənilməsi üçün banklar, xarici bankların yerli filialları və bank olmayan kredit təşkilatları tərəfindən yaradılan xüsusi ehtiyat fondunun hesablanması və formalaşdırılması qaydasını müəyyən edir;

4. hesabat və yoxlamalar əsasında kredit təşkilatlarının maliyyə vəziyyətini qiymətləndirir və bunun əsasında maliyyə hesabatlarında müvafiq düzəlişlərin edilməsi barədə kredit təşkilatlarına icrası məcburi olan göstərişlər verir;

5. banklarda və xarici bankların yerli filiallarında korporativ idarəetmə standartlarını müəyyən edir və tətbiqinə nəzarət edir;

6. qanunla müəyyən edilmiş hallarda və qaydada kredit təşkilatlarında, habelə onların törəmə təsərrüfat cəmiyyətlərində yoxlamalar aparır;

7. bank xidmətləri bazarında inhisarçılıq fəaliyyətinin qarşısının alınması məqsədilə səlahiyyətli dövlət orqanı qarşısında məsələ qaldırır;

8. kredit təşkilatlarına və onların inzibatçılarına qarşı qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada təsir (təshih) tədbirlərini və sanksiyaları tətbiq edir;

9. qanuna müvafiq surətdə həyata keçirdiyi nəzarət tədbirlərinin nəticələri tələb etdiyi hallarda kredit təşkilatlarının idarəetmə orqanlarının iclaslarında müşahidəçi qismində iştirak edir, kredit təşkilatlarının inzibatçıları ilə məsləhətləşmələr aparır;

10. qanunla nəzərdə tutulmuş hallarda bankların maliyyə sağlamlaşdırılması tədbirləri çərçivəsində onların Milli Bank qarşısında kredit öhdəliklərinin yerinə yetirilməsinin xüsusi şərtlərini müəyyən edir;

11. qanunla nəzərdə tutulmuş hallarda banklara və xarici bankların yerli filiallarına müvəqqəti inzibatçı təyin edir, zəruri hallarda bankın öh-dəlikləri üzrə moratorium tətbiq edilməsi barədə məhkəməyə müraciət edir;

12. lisenziyası ləğv olunmuş banklar və xarici bankların yerli filialları haqqında qanunvericiliyə müvafiq tədbirlər görür;

13. qanunla nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirir.

Kredit təşkilatları ücün prudensial normativləri müəyyən edərkən Milli Bank kredit təşkilatlarının növləri üzrə fərqli normativləri və onların hesablanması metodlarını müəyyənləşdirə bilər.

Bank kreditorlarının və əmanətçilərin maraqları baxımından Milli Bank özünün müəyyən etdiyi qayda və şərtlər daxilində qısamüddətli likvidlik problemi ilə üzləşmiş kredit təşkilatlarına tam təminatlı kreditlər verə bilər. Belə kreditlər 6 aydan çox olmayan müddətə verilir və zəruri hallarda 6 ayadək müddətə uzadıla bilər.

Azərbaycan Respublikasinin Banklar haqqında qanununda istifadə olunan əsas anlayışları açıqlayın

"BANKLAR HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU" (4 mart 2005-ci il tarixli əlavə ilə) Azərbaycanda bank sisteminin hüquqi bazasının beynəlxalq standartlara tam uyğunlaşdırılması, iqtisadiyyatda bank xidmətlərinin rolunun artırılması, bank əmanətçilərinin və kreditorlarının müdafiəsinin gücləndirilməsi və bütövlükdə bank sisteminin stabil və təhlükəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə bankların təşkili, daxili idarəedilməsi, fəaliyyətinin tənzimlənməsi və ləğv edilməsi prinsiplərini, qaydalarını və normalarını müəyyən edir.

Bu Qanunda istifadə olunan anlayışlar aşağıdakı mənaları ifadə edir:

Bank - fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsini, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirən hüquqi şəxsdir.

Bank holdinq şirkəti - bank lisenziyasına malik bir və ya bir neçə törəmə bankı olan, fəaliyyəti baş ofisinin yerləşdiyi ölkənin bank tənzimləməsi orqanları tərəfindən tənzimlənən və nəzarət olunan şirkətdir.

Törəmə bank - nizamnamə kapitalında səsvermə hüququ verən səhmlərin əllidən çox faizi təsisçi banka və ya bank holdinq şirkətinə məxsus olan bankdır, yaxud elə bankdır ki, onunla təsisçi bank və ya bank holdinq şirkəti arasında bağlanmış müqaviləyə əsasən təsisçi banka və ya bank holdinq şirkətinə onun qərarlarının qəbul edilməsinə mühüm təsir göstərmək imkanı verilir.

Bankın filialı - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, banka icazə verilmiş bank fəaliyyətinin hamısını və ya bir hissəsini həyata keçirə bilən bankın ayrıca bölməsidir.

Bankın şöbəsi - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, öhdəlikləri üçün bankın özünün məsuliyyət daşıdığı, onun respublika ərazisində depozitlər cəlb edən və/və ya köçürmə, hesablaşma-kassa əməliyyatları aparan ayrıca bölməsidir.

Bankın nümayəndəliyi - hüquqi şəxs olmayan, bankın olduğu yerdən kənarda yerləşən, bank fəaliyyəti ilə məşğul olmağa hüququ olmayan, yalnız onun mənafelərini təmsil və müdafiə edən bankın ayrıca bölməsidir.

Bank olmayan kredit təşkilatı -öz vəsaiti və/və ya cəlb edilmiş vəsait hesabına (depozitlər istisna olmaqla) yalnız pul formasında kreditlər verməklə məşğul olan hüquqi şəxsdir.

Bank lisenziyası -bu Qanunla müəyyən edilmiş qaydada verilən, fiziki və hüquqi şəxslərdən depozitlər və ya digər qaytarılan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək ilə bağlı fəaliyyəti, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirməyə müstəsna hüquq verən xüsusi razılıqdır.

Bank krediti (bundan sonra kredit) - bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən

pul vəsaitidir. Həmin şərtlərlə pul vəsaitinin verilməsi haqqında götürülmüş hər hansı öhdəlik, qarantiya, zəmanət, borc qiymətli kağızlarının diskontla və ya faizlər alınmaqla satın alınması və müqaviləyə əsasən hər hansı formada verilmiş vəsaitin qaytarılmasını tələb etməklə bağlı digər hüquq da kredit anlayışına aiddir.

Depozit - müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir.

Mühüm iştirak payı - səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblikdir.

İnzibatçı - bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, habelə bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin əməkdaşları, bank filialının, şöbəsinin və nümayəndəliyinin rəhbərləri və baş mühasibləri.

Banka aidiyyatı olan şəxslər - bankın inzibatçıları, struktur bölmələrinin rəhbərləri, qərarların qəbul edilməsində iştirak edən digər əməkdaşları və onlarla yaxın qohumluq münasibətlərində olan şəxslər (əri/arvadı, valideyni, o cümlədən ərinin/ arvadının valideyni, babası, nənəsi, övladı, o cümlədən övladlığa götürülən, qardaşı və bacısı); bankda mühüm iştirak payı olan hər hansı şəxs və ya bankın mühüm iştirak payı olan hüquqi şəxs və həmin hüquqi şəxsdə mühüm iştirak payı olan hər hansı şəxs, habelə bu cür mühüm iştirak payına malik olan hüquqi şəxslərin icra orqanlarının rəhbərləri.

Banka aidiyyatı olan şəxs adından hərəkət edən şəxslər - aralarında bağladıqları müqavilə əsasında banka aidiyyatı olan şəxs adından hərəkət etməyə hüququ olan şəxs; banka aidiyyatı olan şəxsin mühüm təsir göstərə bildiyi hüquqi şəxs; banka aidiyyatı olan şəxsin nümayəndəsi.

Klirinq - hesablaşmalar sisteminin bir və ya bir neçə iştirakçısının həmin sistemin bir və ya bir neçə digər iştirakçısına verdiyi və ya onlardan aldığı ödəniş məbləğləri üzrə yaranan tələblərin və öhdəliklərin, onların fərqi olan bir xalis tələb və ya bir xalis öhdəliyə çevrilməsi prosesidir.

"Yerli" sözü banka, filiala və ya nümayəndəliyə aid edildikdə əsas fəaliyyət yeri Azərbaycan Respublikasında olan bank, filial və ya nümayəndəlik başa düşülür.

"**Xarici"** sözü banka, filiala və ya nümayəndəliyə aid edildikdə əsas fəaliyyət yeri Azərbaycan Respublikasından kənarda olan bank, filial və ya nümayəndəlik başa düşülür.

"**Kredit təşkilatı"** - bank, xarici bankın yerli filialı və ya bank olmayan kredit təşkilatdır.

"Məqbul və lazımi keyfiyyətlərə malik şəxs" - vətəndaş qüsursuzluğuna malik olan, habelə, ictimai mövqeyinə görə vicdanlı və etimada layiq sayılan və peşəkar keyfiyyətləri, təcrübəsi, işgüzar mənafeləri ona bankın mühüm iştirak payının sahibi, inzibatçısı, müvəqqəti inzibatçısı və ləğvedicisi olmaq imkanı verən fiziki şəxsdir;

"Vətəndaş qüsursuzluğu" dedikdə, mühüm iştirak payının sahibləri, o hüquqi şəxs olduqda onun icra orqanının rəhbərləri, habelə bankın törəmə stukturlarının rəhbərləri üçün qəsdən törədilmiş cinayətə görə məhkumluğun olmaması; inzibatçı, müvəqqəti inzibatçı və ləğvedici üçün məhkumluğunun olmaması, keçmişdə mülkiyyət əleyhinə və

iqtisadi fəaliyyət sahəsində ağır və xüsusilə ağır cinayətlərə görə cinayət məsuliyyətinə cəlb edilməsi faktının olmaması, müvafiq vəzifəni tutması və ya peşə fəaliyyəti ilə məşğul olması üzərində məhkəmə qərarı ilə qoyulmuş qadağanın olmaması, məhkəmə qaydasında müflis elan edilməsi faktının olmaması başa düşülür.

"Prudensial"- bankın təhlükəsiz fəaliyyətinin təmin edilməsinə istiqamətlənmiş normativlərə, qaydalara, tələblərə və göstərişlərə əsaslanmış düşünülmüş davranış, idarəetmə və nəzarət üsuludur.

Bankın məcmu kapitalı (öz vəsaiti) - prudensial hesabatlıq məqsədləri üçün istifadə olunan kapital olmaqla, Milli Bankın normativ xarakterli aktları ilə müəyyən etdiyi I dərəcəli (əsas) və II dərəcəli (əlavə) kapitala daxil olan komponentlərin (elementlərin) cəmi və onlardan tutulmaların fərqidir.

Bank fəaliyyətinin sənayə, aqrar, tikinti və nəqliyyat müəssisələrindən əsas fərqliklərini açıqlayın.

Bankların fəaliyyəti sənaye, aqrar, tikinti və nəqliyyat müəssisələrindən çox fərqlidir. Bunu aşağıdakı şəkildə sıralaya bilərik:

1) quruluş yönündən bankların fəaliyyət göstərməsi üçün digər kommersiya şirkətlərindən fərqliliyi onların lisenziyalarının Mərkəzi Bankdan alınması şərtidir:

2) bankın qurucularının şəxsiyyətləri, vicdan və xarakterləri özəl bir araşdırma mövzusudur;

3) öz kapital və cəlb edilmiş sərmayə nisbəti çox fərqlidir. Ümumiyyətlə banklarda borc vəsaiti öz sərmayəyə nisbətən çoxdur. Lakin, bu çoxluq hududsuz deyil, qanunla tənzimlənir;

4) banklar mal deyil, satınalma gücü istehsal edir. Bankçılıq pul ticarəti deməkdir. Bir tərəfdən ucuz faizlə aldığı pulları, digər tərəfdən nisbətən daha yüksək faizlə satmaq nəticəsində mənfəət əldə etməyə çalışır.

5) banklar digər müəssisələrdən fərqli olaraq, rentabellik likvidlik və riskin bölüşdürülməsi prinsiplərinə çox bağlıdırlar. Banklar mümkün olduğu qədər ucuz bir faizlə, hətta yerinə görə faizsiz təmin edərək, ən yüksək faizlə ehtiyacı olan iqtisadi vahidlərə borc olaraq vəsait verir. Bu borc müəyyən bir təminata bağlı olaraq verilir. Bu təminat maddi olduğu kimi şəxsin etibarına görə də müəyyən edilə bilər. Banklar əlindəki pulu mümkün olduğu qədər çox fiziki və hüquqi şəxslərə paylamaq üçün kassasındakı aktivlərinin müəyyən bir hissəsini nağd pul şəklində saxlayır;

6) dövlət orqanları tərəfindən çox ciddi nəzarət altındadırlar;

7) qanun, banklara kassalarında borclarına qarşı hər an likvid varlıqların nisbətini təsbit etdiyi halda, digər müəssisələrdə belə bir məcburiyyət yoxdur;

8) banklar pul yaratmaqla tədavüldə pulun miqdarına təsir edərək qiymət mexanizminə təsir edə bilir, lakin digər müəssisələrin belə bir təsir etmə imkanları mümkün deyildir;

9) bankların quruluş sərmayələrinin böyük olması tələb edilir. Hazırda, Azərbaycanda yeni bank açmaq üçün 10 milyon manat tələb edilir.

10) Bankların iflası zamanı dövlət tərəfindən lazımi tədbirlər və proqramlar hazırlanır.

Kommersiya banklarının funksiyaları.

Banklar ən əsas kredit, əmanət və ödənişlərə aid geniş xidmətlər spektrini təklif edən və iqtisadiyyatda istənilən müəssisəyə çeşidli maliyyə xidmətlərini göstərən kredit təşkilatlarıdır.

Əmanət funksiyası. Hər bir bank aktiv əməliyyatları (kredit qoyuluşu qiymətli kağızlar alqısı və s.) həyata keçirmək üçün öz kapitalı ilə yanaşı (nizamnamə, ehtiyat fondu, bölüşdürülməmiş mənfəət) bank öhdəliklərinin əsas hissəsini təşkil edən əmanət cəlbi ilə də məşğul olur. Geniş mənada əmanətlərə müştərilərin banka müəyyən müddətə daha yüksək faizlə qoyduqları pul vəsaitləri ilə yanaşı fiziki və hüquqi şəxslərıı cari hesablarında olan resurslar da aiddir. Müxtəlif subyektlər gələcəkdə dövrün xərcləri üçün qazancları akumulyasiya edir və bu da bankın əmanət yığma imkanlarını artırır. Banklar əhalinin sıx məskunlaşdığı yaşayış və iş yerlərində şöbələr, hesablaşmaları asanlaşdıran plastik kartlar vasitəsilə sərbəst pul vəsaitlərini toplayıb əmanət bazasını genişləndirir.

Kredit funksiyası. Banklar yığdıqları vəsaitə görə müəyyən haqq verir və ya məsrəfləri ödəyir. Bu xərcləri üstələmək və mənfəət qazanınaq üçün banklar istehsal, ticarət sahələrinə kredit verir. Əmanət və kredit funksiyası ilə banklar iqtisadiyyatda vasitəçi rolunu oynayaraq qənaətli təsərrüfatdan defisitli təsərrüfata pulu öz zəmanəti ilə ötürür.

Köçürmə və hesablaşmalar funksiyası. Hər bir müəssisənin bank hesabı var. Onun vasitəsilə o, ödənişlərini aparır və başqa subyektlərdən ödənişləri qəbul edir. Hesablaşmaların nağdsız formasının banklar vasitəsilə təhlükəsiz, operativ və ucuz və bu əməliyyatların bankdan kənarda mümkün olmadığı üçün bankların vacib funksiya olaraq qəbul edilir.

Nağd vəsaitlərin idarə edilməsi. Bank müəssisələrin ödənişlərinin inkassasiyasını və məxrəcinin aparılmasını öz üzərinə götürür. Artıq nağdi hissəsini isə qısamüddətli qiymətli kağızlara qoyur. Müştəriyə nağdiyyə lazım olduqda isə əks əməliyyat keçirilir. Son vaxtlaradək hüquqi şəxslərin nağdiyyəsi idarə olunurdusa, indi fiziki şəxslərlə də analoji əməliyyatlar aparılır.

Trast funksiyası. Banklar müəyyən haqda şəxslərin (personal trast xidmətləri) və müəssisələrin mülkiyyəti (kommersiya və qeyri-kommersiya trast xidmətləri) və maliyyə resurslarını idarə edir.

Bank investoru və ya anderayter. Anderaytinq qiymətli kağızın emitentdən alınması və mənfəət əldə edilməsi məqsədilə başqasına satılması deməkdir. Bu əməliyyat ənənəvi bank xidmətlərindən risklidir. Buna görə 1933-ci ildə ABŞ konqresi banklara eyni vaxtda investisiya və kommersiya əməliyyatları ilə məşğul olmağı qadağan etdi. Sonralar isə firmalar bank kreditləşməsindənsə, öz qiymətli kağızlarını emissiya edib yerləşdirməyi üstün tutdular. Banklar köhnə müştərilərini qaytarmaq üçün investisiya əməliyyatları ilə məşğul olmaq zərurətini aydınlaşdırdı. Bu xidmət iri müəssisələrin birləşməsi, özəlləşmə proseslərinin sürətlənməsi nəticəsində artmağa meyl etdi.

Broker funksiyası. Banklar müştərilərinə broker xidmətini göstərərək dilerlərə müraciət etmədən səhm, istiqraz və sair qiymətli kağızları almaq imkanını verir. Banklar daşınınaz əmlaka broker əməliyyatlarını apararaq yaşayış və kommersiya tikililərini satıb sonradan onları maliyyələşdirir. Banklar broker firmaları ilə müqavilə bağlayaraq öz təşkilatlarında broker büroları yaradır. Bununla brokerlər bank müştərilərinə, banklar isə brokerlərin biznes dairəsinə yaxınlaşır. Yaşayış yerini dəyişən insanlar "öz bankını" tapmamış, ev və kommersiya tikilisi axtararaq brokerə müraciət edir. O isə öz növbəsində müştərini banka səmtləndirir. Birbaşa faiz dərəcələri ilə əlaqədar olmayan brokerlər bankların partnyoruna çevrilir. Eləcə də banklar artıq bu əməliyyatlar üzrə ixtisaslaşmış broker firmalarını alır. Bankların inkişafinda bu istiqamət də əhəmiyyətli sayılır.

İnvestisiya planlaşdırma funksiyası. Banklar müştəriləri üçün investisiya layihələrini planlaşdırır. Banklar daim iqtisadi cəmiyyətdə gedən prosesləri təhlil obyektində saxlamalı və güclü maliyyə-hüquqi ekspertlər ilə müştərilərinə professional planlaşdırma xidməti göstərməlidirlər.

Kredit pullarının emissiyası. Banklar depozit-kredit emissiyasını həyata keçirərək dövriyyədəki pul kütləsini artırır. Müştəriyə verilmiş kredit onun tələb edilənədək hesabına yazılaraq bankın öhdəliyini artırır. Hesabın sahibi vəsaiti nağdlaşdıraraq dövriyyədəki nağd pul kütləsini artıra bilər. Amma iqtisadiyyat müəyyən həcmli pul kütləsi tələb etdiyindən bankların bu funksiyası mərkəzi banklar tərəfindən ya məhdudlaşdırılır, ya da stimullaşdırılır.

Məsləhət xidməti. Ənənəvi olaraq müştərilər banklara müraciət edərək kreditin, əmanətin, investisiyaların optimal istifadəsini onlarla müzakirə edir. Banklar vergi deklarasiyalarını və biznes-planları tərtib etməkdən tutmuş daxili və xarici bazarlarda

marketinq araşdırmaları, mal və xidmətlərin bazarda irəliləməsi barədə məsləhətlər verir. Banklar hesablaşma əməliyyatı, əmanət qoyanların, kredit götürmək istəyənlərin arasında vasitəçi olaraq külli miqdarda informasiyanı təhlil edir. Məhz bu qabiliyyət göstərilən fimksiyanı daşımaqda bankları başqa uyğun subyektlərdən fərqləndirir.

Dəyərli əşyaların saxlanması. Qədimdən bankların əsas xidmət növlərindən biri də dəyərli əşyaların saxlanmasıdır. Zinət əşyaları, sənədlər və s. şəxsi ləvazimatlar yanmayan seyflərdə qorunur. Bankın mühafizəsi müştərilərin rahat dincəlmə ehtimalını artırır.

Valyuta mübadiləsi. Bu xidmət növü də bank təkamülündə əhəmiyyətli rol oynamışdır. Bu gün dünya maliyyə bazarının riskli olması bu əməliyyatların geniş mənada iri banklar tərəfindən aparılmasına gətirib çıxarıb. Buna səbəb vəsaitin likvidliyi problemi və zəngin təcrübənin vacibliyidir. Geniş mənada aparılan bu əməliyyatlar dilinq adlandırılır.

Lizinq xidməti. Banklar müştərilərinə avadanlıq almaq üçün kredit əvəzinə lizinq təklif edir. Yəni bank öz vəsaiti olaraq onu icarəyə verir. Lizinq ödənişləri tam ödənildikdən sonra avadanlıq ya bankın, ya da müştərinin sərəncamında qalır.

Vençur kapitalının təklifi. Banklar getdikcə riskli sahələrin finansmanına vəsait ayırır. Vençur kapitalı əsasən yüksək texnologiyalar siyahısma aid layihələrdir ki, ənənəvilikdən uzaq iflasa uğramaq ehtimalı çox olan, lakin yüksək gəlir də gətirə bilən biznes-planlar əsasında həyata keçirilir.

Pensiya təminatı. Banklar pensiya fondlarının maraq dairəsinə daxil olaraq vətəndaşların qocalığının təmini ilə məşğul olur. Bu, bilavasitə şəxslərlə, ya da müəssisələrlə bağlanan müqavilə əsasında olur. Daxil olan vəsait akumulyasiya edilərək investisiyalara yönəldilir. Vətəndaşlar təqaüd yaşına çatdıqda və ya onlar əmək qabiliyyətini itirdikdə ödənişlər başlanır. Bu resurslar uzunmüddətli vəsait kimi bankların investisiya fəaliyyətində mühüm rol oynayır.

Bankın aktiv və passiv əməliyyatları

Məlumdur ki, bankın balansında passiv - bankın öhdəliklərini, aktiv banka olan öhdəlikləri göstərir.

Passivlər əməliyyatlar banklar tərəfindən vəsaitlərin cəlb olunması və onun resurslarının formalaşması üzrə əməliyyatlarıdır.

Aktivlər əməliyyatlar mənfəət əldə etmək üçün bankların öz xüsüsi vəsaitlərindən və cəlb olunmuş vəsaitlərindən istifadə etməsi deməkdir.

Aktivlər də passivlər kimi kapital və cari əməliyyatlara bölünür. Kapital əməliyyatlarına banka məxsus torpaq, bina və s. əmlaka bağlı əməliyyatlar aiddir. Cari əməliyyatlar kassa, mərkəzi və digər banklarda olan vəsait, uçota alınmış veksellər, kredit və investisiyalardır.

Aktiv = passiv + öz kapital.

Müasir mərhələdə bankın passiv əməliyyatlarında depozitlərlə bağlı əməliyyatlar mühüm rol oynayır. Düzdür, bu gün depozit problemi ilk növbədə banka inamla bağlıdır. Ona görə də, depozitin səviyyəsi, artma meyli bu təsiri özündə demək olar ki, həmişə əks etdirir. Depozitlər içərisində vacib yeri tələb edilənədək depozitlər tutur. İnkişaf etmiş ölkələrdə müştərinin tələbi ilə nağdlaşdırılan və ya başqa hesaba dərhal köçürülən depozitlərdən vəsait çeklərlə silinir. Onu da qeyd edək ki, ödəmə dövriyyəsinin böyük əksəriyyəti bu çeklərlə aparılır. Bu hesablar üzrə müştərilərə ya faizlər ödənilir, ya qanunvericiliklə qadağan olunur, ya da bankın xidmət haqqında güzəştləri ilə müşayiət olunur. Bu əmanətlərin təklifi

vacib bank xidmətləri olduğundan ödəmə sistemi tez bir zamanda effektivliyini artırdı, işgüzar əməliyyatlar sadələşdi, tezləşdi və təhlükəsizləşdi.

Bu gün banklar müddətli əmanətlər xidmətindən geniş istifadə edir. Müddətli əmanət dedikdə müəyyən müddətə bankın istifadəsinə verilən, tələb edilənədək əmanətdən daha yüksək faizli depozit başa düşülür. Bank "portfeli"ndə bankların 2 cür müddətli əmanət qəbul etdiyi göstərilir: xüsusi müddətli əmanətlər və götürülməsı barədə qabaqcadan xəbərdarlıq edilən əmanətlər. Qaydaya görə, bu əmanət növündəki vəsait müddət qurtaranadək (bloklaşdırılır) və bank tamamilə ondan istifadə edir. Vəsait vaxtında götürülməzsə, o cari hesabdakı kimi istifadə olunur. Adətən müddətlər 4 qrupa bölünür: 30-89 gün, 90-179,180-359 və 360-dən çox. Bir qayda olaraq müddət uzandıqca faiz dərəcəsi artır. Amma uçot dərəcəsinin aşağı düşəcəyi proqnozu varsa, bu qayda pozula bilər. Faizin müddətlərarası dəyişilməsi şərtləri də ola bilər.

Bankçılığın təməl prinsipi

Bankçılığın təməl prinsipi aşağıdakılardır: likvidlik, təhlükəsizlik və mənfəət. Bankçılıqda likvidlik bir bankın minimum zərər ilə, ola biləcək əmanət çəkimlərini ödəyəbilmə və eyni anda bazarın kredit ehtiyacını qarşıyabilmə gücüdür. Bankçılıqda təhlükəsizlik, öz sərmayənin yetərli və aktivlərinin keyfiyyətli olması şəklində iki tərəflidir. Bank kapitalının yetərli olması əmanətçilərin banka olan güvənini, bankın kredit müştərisinin keyfiyyəti isə bankın təhlükəsizliyini təmin edir.

Bu səbəblə, finans sisteminin mərkəzində kredit həcmini, yığım miqdarını, qiymətli kağız qiymətini müəyyən edən və bunların fəaliyyətinə tənzimliyən finans bazarı mövcuddur.

Bankların mənfəəti, kredit müştərisindən aldığı faiz ilə əmanətçiyə ödədiyi faiz arasındakı fərqdir. Bazar prinsipləri çərçivəsində fəaliyyət göstərən və biznes quruluşu olan bankların ən son məqsədləri, təhlükəsizlik və likvidliyi arasında optimallığı təmin edərək bankın mənfəətini maksimizə etməkdir. Ancaq bu üç prinsipin bir biri ilə asanca uyğunlaşmamağı da bir həqiqətdir.

Bankın təşkilat strukturu onun böyüklüyü ilə, təklif edilən xidmətlərin çeşidliliyi və şəxsi heyətin nüfuz dərəcəsi ilə yaxından bağlıdır. Kiçik sərmayəli bankların təməl fünksiyaları kreditlər və müştəri xidmətləridir. Bunun həcmi artdıqca ixtisaslaşma və verdiyi kreditlərin çeşidi də artar (kommersiya, istehlak, inşaat kreditləri kimi) və eyni zamanda, müştəri xidmətləri çoxalar.

Banklar faiz və komisyon formasında təşkil edilən gəlirlərini artıra bilmək üçün təklif etdikləri xidmətlərin çeşidlərini çoxaldırlar. Bankların məhsul birləşimini üç təməl qrupa ayıra bilərik: kreditlər; əmanətə yönəlik xidmətlər; investisiya (pul bazarı alətləri). Müştəri qrupları -müştəri bazarları istehlakçılar (pərakəndə bankçılıq, digər banklar (müxbir bankçılıq) rəsmi müştərilər və qurumlardan (topdansatış bankçılıq) ibarətdir.

Bank menecmentinin məqsədi

Bank menecmentinin məqsədi gəlirliliyi maksimuma çatdırmaq və riskləri minimuma endirməkdir. Bir bankın ən təməl məqsədi, aktivlərini sabit və yüksək bir xalis faiz marjında saxlayaraq idarə etməkdir. Bankçılıq sektoru likvid riski, valyuta riski, kredit riski, faiz riski kimi risklərlə üzrədir. Banklar aktiv passiv mövqelərini idarə edərək sahibləri üçün qazanc istehsal edirlər. Bankın təməl gəliri çeşidli aktiv maddələrindən qazandığı faiz gəliridir. Bu faiz gəliri qiymətli kağız gəlirləri və bankçılıq xidmət gəlirləri tərəfindən tamamlanır. Bankın

təməl xərcləri isə əmanətlər üçün ödədiyi faiz xərclərdir. Əmanətin miqdarına və strukturuna ən önəmli təsir edən ünsür müştərinin sədaqətidir.

Faiz marjı ümumi faiz gəlirləri ilə ümumi faiz xərcləri arasında qalan miqdardır. Bu miqdar özlüyündə elə bir məna kəsb etmir. Amma xalis faiz marjı üçün ümumi faiz gəlir və xərclərini gəlirli aktivlərə bölmək gərəklidir. Bu nisbət bank mənfəətində ən önəmli göstəricilərdən biridir.

Aktiv keyfiyyəti - bankların aktiv keyfiyyətləri önəmli anlayışlardan biridir. Bunlardan ən önəmlisi kreditlərin keyfiyyətidir. Aktiv kefiyyətini ölçmək üçün aşağıdakı nisbətlərdən istifadə edilir.

$$1)\quad \frac{\text{Gəlirli aktivlər}}{\text{Aktivlər}} = \text{Gəlirlik nisbəti}$$

$$2)\quad \frac{\text{Kreditlər}}{\text{Aktivlər}} = \text{Kreditlər nisbət}$$

$$3)\quad \frac{\text{Problemli kredit qarşılıqları}}{\text{Kreditlər}} = \text{Qarşılıq nisbətı}$$

$$4)\quad \frac{\text{Problemli kredit}}{\text{Kreditlər}} = \text{Problemli kredit nisbəti}$$

Menecment keyfiyyəti. Banklar xidmət qurumudur. Bunun üçün insan keyfiyyəti və özəlliklə menecment keyfiyyəti çox önəmlidir və mənfəətə doğrudan ilişkilidir. Menecment keyfiyyəti aktiv- passiv menecmentinin ən önəmli ünsürüdür.

Bank menecmentində bütün idarəçilərin ehtiyac duyduqları təməl nisbətlər aşağıda göstərilmişdir.

$$\text{ROE} = \frac{\text{Xalis mənfəət}}{\text{Kapital}} = \text{Kapitalın gəlirliyi}$$

$$\text{ROE} = \frac{\text{Xalis mənfəət}}{\text{Aktiv}} = \text{Aktivlərin gəlirliyi}$$

$$\text{FK} = \frac{\text{Aktivlər}}{\text{Nizamnamə kapitalı}} = \text{Finans leveredj}$$

"Bank of England"ın hazırladığı 5 önəmli göstərici bankçılıq mövzusunun baş hərfləridir:Capital Adequate = Sərmayə yetərliliyi; Asset Quality = Aktiv verimliliyi; Management Quality = Menecment keyfiyyəti; Earnings Ratio = gəlirlilik durumu; Liqudity = likvidlik.

Banklarda məcmu kapitalın strukturu necə təsbit edilir

Məcmu kapitalın strukturuna birinci (I) dərəcəli və ikinci (II) dərəcəli kapital daxildir. I dərəcəli kapital bankın əsas kapitalı hesab olunur və onun məbləği (aparılan "tutulmalardan" sonra) bankın hesablanmış məcmu kapitalında 50 faizdən az olmamalıdır.

I dərəcəli kapitala aşağıdakı komponentlər daxil edilir: dövriyyəyə buraxılıb tam ödənilmiş adi səhmlər (bankın geri aldığı adi səhmlər çıxılmaqla); dövriyyəyə buraxılıb tam ödənilmiş qeyri-kumulyativ müddətsiz imtiyazlı səhmlər; səhmlərin emissiyasından əmələ gələn əlavə vəsait (kapital artıqlığı); keçmiş illərin bölüşdürülməmiş xalis mənfəəti; bankın konsolidasiya olunmuş törəmə cəmiyyətlərində azlıq təşkil edən səhmdarların (payçıların) kapitalı.

Keçmiş illərin bölüşdürülməmiş xalis mənfəətinə aşağıdakılar daxil edilir: cari ilin zərəri çıxılmaqla bütün əvvəlki illərin yığılıb bölüşdürülməmiş mənfəəti və kapital ehtiyatları, yəni əvvəlki illərin bölüşdürülməmiş mənfəəti hesabına yaradılmış fondlar.

II dərəcəli kapital əlavə kapitaldır. Bankın hesablanmış məcmu kapitalında II dərəcəli kapitalın məbləği I dərəcəli kapitalın məbləğindən (aparılan "tutulmalardan" sonra) çox olmamalıdır. Bundan artıq olan hissə məcmu kapitalın hesablanması zamanı nəzərə alınmır.

II dərəcəli kapitala aşağıdakı komponentlər daxil edilir:cari ilin bu tarixə olan mənfəəti;ümumi ehtiyatlar (balans aktivlərinin və balansdankənar öhdəliklərin risk dərəcəsi üzrə ölçülmüş məbləğinin (aparılan «tutulmalar»dan sonra) 1,25 faizinədək, lakin "adi" ehtiyatların məbləğindən çox olmayan hissəsi); kapitalın digər komponentləri: kumulyativ müddətsiz imtiyazlı səhmlər; ən azı 5 il müddətinə buraxılmış subordinasiya borc öhdəlikləri (ödənişinə qalan son 5 ildə II dərəcəli kapitala daxil edilmək üçün onların məbləği hər il 20 faiz azaldılır). II dərəcəli kapitalın hesablanmasında nəzərə alınan subordinasiya borc öhdəliklərinin məbləği I dərəcəli kapitalın (aparılan "tutulmalar"dan sonra) 50%-dən çox olmamalıdır.

2007-ci ildə bankların məcmu nizamnamə kapitalı 689,5 mln. manatı üstələmiş və ya 72,3% artmışdır. Bəz banklar bankların səhmlərinin emissiyasından əlavə vəsait əldə etmişdirlər.

II-ci dərəcəli kapital 2007-ci il ərzində 165,5 mln. manat (və ya 118,3%) artaraq 305,4 mln. manat təşkil etmişdir.

Bankın kapitalının idarə edilməsi üçün aşağıdakılar təmin etməlidir:

- Likvidlik və kapital tələblərini nəzərə alaraq, kapital gəlirliyi dərəcələrin müəyyənləşdirilməsini;
- Kapitalın biznes bölmələri və göstərilən xidmətər arasında "bölüşdürülməsi"ni;
- Bankın əlavə kapital cəlb edilməsi (məbləğinə və növünə görə) ilə əlaqədar tövsiyələrin verilməsini (məsələn, səhmlərin buraxılışı və ya subordinasiya borclar vasitəsilə);

Bankın kredit siyasəti

Bankın kredit siyasəti, bankın korporativ prinsiplərinə və davranış qaydalarına uyğun aydın müəyyən edilmiş, hərtərəfli düşünülmüş əməliyyat anlayışlarından, qaydalarından və kredit əməliyyatları üzrə standartlardan ibarət olmalıdır. Kredit riskinin idarə edilməsi qaydaları başa düşülən formada aşağıdakılara aydınlıq gətirməlidir:

- Kredit ərizələrinin qiymətləndirilməsi qaydalarına;
- Bank tərəfindən ayrı-ayrı kreditlərinin müntəzəm olaraq təhlili, aktivlərin təsnifləşdirilməsi və ehtiyatların yaradılması üzrə qaydalara;
- Problemli kreditləri müzakirə etmək üçün ümumi struktur və spesifik qaydalara;
- Balansdankənar risk təhlükəsinə baxılmasına;
- Kredit zərəri üzrə ehtiyatların yaradılmasının, kreditlərin balansdan silinmələrinin və gözlənilən həqiqi ödəmə məbləğlərinin əks etdirməsini təmin edən prosedurlara;
- Problemli kreditlərə gündəlik nəzarət və vaxtı ötmüş kreditlərin yığılması üçün prosedurlara və təşkilati resurslara;
- Kreditlərin, aktivlərin təsnifləşdirilməsi və ehtiyatların yaradılması ilə əlaqədar Müşahidə Şurasına təqdim olunan müntəzəm hesabatların strukturuna;
- Zəmanətlərin davamlılığının ardıcıl surətdə giymətləndirilməsi və girovun dəyərinin qiymətləndirilməsi üçün mexanizmlərə;
- Borc məbləğlərinin bir hissəsinin və ya hamısının (əsas və faiz məbləği) kredit müqaviləsinin şərtlərinə əsasən yığılmaması zamanı, borcun qiymətdən düşmüş kimi müəyyən edilməsi prosedurlarına;
- Xalis satış dəyərini əks etdirmək üçün girovun qiymətləndirilməsi prosedurlarına.

FƏSİL 26. BANKLARIN İNVESTİSİYA PROSESİNDƏ İŞTİRAKI

Bankların investisiya prosesində iştirak etmə zəruriyyəti bank sisteminin və ümumilikdə iqtisadiyyatın uğurla inkişaf etməsinin qarşılıqlı asıllığından irəli gəlir.

Kommersiya banklarının iqtisadiyyatı investisiyalaşdırması yalnız münbit nəticəsində həyata keçirilir.

Kommersiya banklarının investisiya prosesində iştirak etməsinin əsas istiqamətləri aşağıdakılardır:

- vəsaitlərin investisiya məqsədi ilə banklar tərəfindən səfərbər edilməsi;
- investisiya xarakterli kreditlərin təqdim edilməsi;
- vəsaitlərin qiymətli kağızlara yatırılması, paylar və pay iştirakı (həm bank hesabına həm də müştərinin tapşırığı ilə).

Bu istiqamətlər bir-biri ilə sıx bağlıdır. Kapitalı, əhalinin əmanətlərini, digər pul vəsaitlərini səfərbər etməklə banklar öz resurslarını mənfəət qazanmaq məqsədilə yaradırlar. Vəsaitlərin yığılması üzrə əməliyyatların həcmi və strukturu bankların kredit və investisiya portfelinin vəziyyətinə, onların investisiya fəaliyyəti imkanlarına təsir edən ən əsas faktorlardır.

Bankların investisiya fəaliyyətinə iki növ xidmət göstərən biznes kimi bxılır: qiymətli kağızların buraxılması və ya onların ilkin bazarda yerləşdirilməsi yolu ilə nəğd pulun artırılması; broker və dillerlərin ikinci bazarda öz funksiyalarını yerinə yetirən zaman alıcı və satıcıların bir araya gəlməsi.

Bankın investisiya fəaliyyəti mikroiqtisadi aspektdə – banka iqtisadi subyekt nöqteyi nəzərindən birbaşa və ya dolayısı ilə gəlir əldə etmək məqsədilə maliyyə və real aktivlərin əldə edilməsinə öz vəsaitlərini yatırmaqla banka bir investor kimi baxmaq olar.

Həmçinin bankların investisiya fəaliyyəti onların bir maliyyə vasitəçisi kimi makroiqtisadi həyata keçirilməsi bağlı olan başqa bir aspekti də vardır. Bu zaman banklar pul kredit formasında bazar iqtisadiyyatı şəraitində çıxış edən təsərrüfatçı subyektlərin investisiya tələbinin realiza edilməsinə səbəb olur. Məhz buna görə də bankların makroiqtisadi aspektdə investisiya fəaliyyəti dedikdə iqtisadiyyatın investisiya tələblərinin təmin edilməsi istiqamətlərində həyata keçirilən fəaliyyət başa düşülür.

Beləliklə də bankların investisisya fəaliyyəti ikili təbiətə malikdirlər. İqtisadi subyekt nöqteyi nəzərindən (bank), bankların gəlirlərinin artmasına istiqamətlənib. Makroiqtisadi aspektdə investisiya fəaliyyətinin effektliyi ictimai kapitalın artırılması mahiyyəti ilə bağlıdır. Kommersiya banklarının hər iki aspekti bir-biri ilə sıx bağlıdır. Bu qarşılıqlı əlaqələrin əsasında özəlləşdirilmiş obyektlər bazarı və qiymətli kağızlar bazarının inkişafı durur ki, hansı ki, bunların aləti birbaşa və ya dolayısı ilə investisiya prosesinin həyata keçirilməsi üçün ilkin şərait yaradırlar.

Mikroiqtisadi aspektin investisiya fəaliyyəti zamanı kommersiya bankları özəlləşdirilən müəssisələrin qiymətli kağızlarının yerləşdirilməsində iştirak edir, müəssisənin aksiyalarını, paylarını əldə etmək məqsədilə nizamnamə kapitalına yatırımlar həyata keçirirlər. Beləliklə əslinə qalsa investisiya fəaliyyəti iqtisadiyyatda investisiya proseslərinin vacib tərtibatçısı kimi qəbul edilməlidir. Buna görə də bankların investisiya prosesindəki iştirakını öyrənərkən bankların investisiya fəaliyyətinin ikili xarakterini mütləq nəzərə almaq lazımdır.

Bank investisiyasının forma və növlərinin ən vacib xarakterlərindən biri sehirli üçbucaq «gəlirlik, risk, likvidlik» adlandırılan vəsaitlərin qoyulmasının ümumi meyarının qiymətləndirilməsindən ibarətdir.

Gəlirlik, likvidlik və risk arasında sabit bir asıllıq vardır. Bu bir qayda olaraq gəlirlik artıqda likvidlik azalır və risk artmağa başlayır. Bu əsasla da tədqiqatı müxtəlif aktivlərin, materialların investisiya keyfiyyətlərinin dəyişməsi barədə cədvəl tərtib edirlər.

Bankların investisiya siyasətinin anlayışları və elementləri - bankların investisiya siyasəti investisiya fəaliyyətinin məqsədli istiqamət sisteminin yaradılması, onların əldə

olunması üçün daha effektiv vasitələrin seçilməsinin nəzərdə tutur. İnvestisiya siyasətinin mühüm qarşılıqlı əlaqə elementləri bankların investisiya fəaliyyətinin idarə olunmasının strateji və taktiki prosseslərdir.

İnvestisiya strategiyası dedikdə investisiya fəaliyyətinin uzunmüddətli məqsədlərinin müəyyən olunması və onların nailiyyət əldə olunması yolları başa düşülür. İnvestisiya fəaliyyətinin idarə olunma prosesinin çıxış nöqtəsi hesab olunur.

İnvestisiya taktikasının hazır olunması investisiya strategiyasının verilmiş istiqamətləri çərçivəsində baş verir və onların cari vaxtlarda yerinə yetirilməsinə yönəldilmişdir. O konkret investisiya qoyuluşlarının həcmi və tərkibinin müəyyən edilməsi, onların həyata keçirilməsi ilə bağlı tədbirlərin işlənib hazırlanması, müəyyən hallarda isə investisiya layihəsindən çıxmaq barədə idarə qərarların qəbul olunma modellərin tərtib olunması və bu qərarların realizasiyası konkret mexanizmləri nəzərdə tutur.

Bankın investisiya layihəsinin işlənib hazırlanması kifayət qədər çətin bir prosesdir ki, bu da aşağıdakı hallarla şərtləndirilir. İlk öncə investisiya fəaliyyətinin sürəkliyi nəticəsində o diqqətli perspektiv analiz əsasında həyata keçirilməlidir: xaric şərtlərin proqnozlaşdırılması (makroiqtisadi mühitin və investisiya abu havasının vəziyyəti, bazarın və onun ayrı-ayrı seqmentlərinin vəziyyəti, vergi xüsusiyyətləri və bank fəaliyyətinin dövlət tənzimlənməsi) daxili şərtlərin (bankın vəsait bazasının həcmi və strukturu, onun həyat silsiləsinin mərhələləri, inkişafın məqsəd və vəzifələri, risk və likvidlik faktorları nəzərə alınmaqla müxtəlif aktivlərin gəlirlik nisbəti). Ehtimal olunan bu xarakterlər investisiya layihəsinin yaradılmasına müəyyən çətinliklər yaradır. Bank fəaliyyətinin xarici mühitindəki dəyişiklik əhəmiyyətli dərəcədə investisiya layihəsinin hazırlanmasında çətinliklər yaradır. Bank investisiya siyasətinin yaradılma prosesi daha geniş olaraq aşağıdakı şəkildə göstərilmişdir.

İnvestisiya məqsədlərinin dürüst istifadə edilməsi - bankın investisiya fəaliyyətinin əsas məqsədi gəlir əldə etməkdir. Ümumi məqsədlər baxımından bank tərəfindən seçilmiş iqtisadi strategiyanın inkişafına uyğun investisiya siyasətinin işlənib hazırlanması hesabat və spesifik məqsədləri nəzərdə tutur ki, bunlar da aşağıdakılardır:

- bank resurslarının bütövlüyünü təmin etmək;
- vəsait bazasının genişləndirilməsi;
- investisiyanın diversifikasiyası, hansı ki, bu da bank fəaliyyətinin ümumi riskini azaldır;
- likvidliyin saxlanılması;
- gəlir gətirməyən aktivlərin payının minimuma endirilməsi;
- bankın təsir sferasının genişləndirilməsi;
- müştəri dairəsinin genişləndirilməsi və investisiya layihələrində çıxış etməklə onların fəaliyyətinə təsir etmək, müəssisələrin yaradılması və onların inkişaf etdirilməsi, qiymətli kağızların, payların, müəssisənin nizamnamə kapitalında pay iştirakının əldə edilməsi;
- maliyyə institutlarının aksiyalarının əldə edilməsi ilə əlavə sərəninin alınması, filialların alınması, kapitalın və aktivlərin genişlənməsi nəticəsində qız maliyyə institutlarının yaradılması, əməliyyat həcminin genişləndirilməsi, vəsaitlərin diversifikasiyası, əldə olan vəsaitlərin yenidən paylaşdırılması, yeni bazarlara çıxmaq, cari xərclərə qənaət etmək.

İnvestisiyanın finans mənbəyinin müəyyən edilməsi – bankın investisiya fəaliyyətinin bütün forma və növlərinin onlar tərəfindən formalaşan vəsaitlər hesabına həyata keçirilir. İnvestisiya vəsaitlərinin formalaşdırılması siyasəti verilmiş həcm və istiqamətlərdə

investisiya fəaliyyətinin həyata keçirilməsini investisiya aktivlərinə qoyulmuş şəxsi və cəlbolunmuş vəsaitlərinin səmərəli istifadəsini etməkdir. İnvestisiya mühüm xarakteristikalardan biri olan gəlirlilik və risk xeyli dərəcədə investisiyanın maliyyələşdirilməsində bank resurslarının istifadə olunmuş növündən asılı olur.

İnvestisiya siyasətinin mühüm elementləri passiv strukturların analizi, bankın öz şəxsi kapitalı və borc öhdəliyi arasında optimal qarşılıqlı münasibətin seçilməsi, ödənilmə müddətinə görə borc öhdəliklərinin strukturunun müəyyən edilməsi, risklə qiymətlərin dəyişdirilməsi, investisiya resurslarının alternativ səfərbərlik formalarının proqnozlaşdırılması hesab edilir. İnvestisiya qoyuluşlarının konkret növünün maliyyə mənbəyini formalaşdıran zaman müxtəlif bank resusrlarının spesifikasının hesabatı mühüm əhəmiyyət kəsb edir. İnvestisiyanını maliyyələşdirilməsi zamanı daha etibarlı və səmərəli kommersiya banklarının öz şəxsi vəsaitləri hesab edilir. Bankın öz vəsaiti zəruri bank spesifikası nəticəsində ümumi bank resursları həcmində az yer tutur. Aktiv əməliyyatlar bank passivləri strukturunda daha çox pay təşkil edən vəsaitlər (müddətli və tələolunanadək) hesab edilir. Müddətli yatırımlardan fərqli olaraq tələb edilən depozitlər bank üçün daha ucuz vəsait mənbəsi hesab edilir. Bununla yanaşı onun geri alınması yüksək dərəcəsini xarakterizə edən passivlər qrupunu təşkil edirlər. İnvestisiyanın maliyyələşdirilməsində istiqraz vərəqələrdə istifadə edilə bilər. Burada mərkəzi bankın kreditləri, banklar arası ssudalar, borc öhdəliklərinin emissiyası (istiqraz, veksel) nəticəsində əldə edilən vəsaitlər aid edilir. Müxtəlif bank resursların hərəkət spesifikası analizi əsasında stabillik dərəcəsinin 3 qrupunu müəyyən etmək olar:

- nisbətən stabil (bank öz vəsaitləri və uzunmüddətli öhdəliklər);
- satbil (müddətlə və əmanət depozitlər, başqa bankların istiqrazları);
- qeyri stabil (enib-qalxmaya məruz qalan tələb olunan depozitlərin qalıqları).

Stabil payın və bank resurslarının ucuz hissəsini payı nə qədər çox olarsa bu zaman bərabər şərtlər nəticəsində kommersiya banklarının gəlirlilk və etibarlılığı daha çox olur. Aktiv və passivlərdəki hər bir dəyişiklik bank əməliyyatların gəlirlik və risk dərəcəsinə təsir edir. Bu dəyişilkliklər əsasında bankın kredit və investisiya siyasətində dəyişikliklər dayanır, hansı ki, öz növbəsində bir sıra makroiqtidisadi və mikroiqtisadi faktorlarla müəyyən edilir.

Kommersiya banklarının investisiya siyasətinin təsir edən makroiqtisadi faktorları açıqlayın

kommersiya banklarının investisiya siyasətinin təsir edən makroiqtisadi faktorlarla aşağıdakılar aid edilir:

- ölkədəki iqtisadi və siyasi vəziyyət;
- investisiya və maliyyə bazarının vəziyyəti;
- bank fəaliyyətinin qanunverici və normativ əsaslar kompleks;
- vergi siyasəti;
- bank sisteminin strukturu və stabilliyi.

İnvestisiya siyasətinin formalaşma prosesinin analiz və hesabat məlumatları, ilkin informasiyaların yığılması və işlənib hazırlanmasını nəzərdə tutur. İnvestisiya imkanlarının qiymətləndirilməsi üçün analitik informasiya aşağıdakı bloklar şəkilində olur:

- makroiqtisadi vəziyyət və investisiya abı-havası;

- ümumilikdə investisiya bazarının makroiqtisadi inkişafını xarakterizə edən əsas göstəricilər;
- investisiya bazarının ayrı-ayrı seqmentlərinin inkişafının əsas göstəriciləri;
- iqtisadi sahələrin investisiya cazibədarlığının göstəriciləri;
- ayrı-ayrı investisiya alətlərinin dinamik məlumatı;
- ayrı-ayrı təsərrüfat subyektlərinin fəaliyyəti haqqında məlumatlar;
- bankların investisiya fəaliyyətinin rejimini müəyyən edən qanunverici və normativ aktlar;
- müxtəlif bank fəaliyyətinin vergi vəziyyəti.

Yuxarıda göstərilən göstəricilər investisiya qərarlarının qəbul edilməsində mühüm oriyentir kimi götürülür. İnvestisiya siyasətinin formalaşdırılmasına təsir edən əsas mikroiqtisadi faktorlar aşağıdakılardır:
- investisiya fəaliyyətinin miqyasını və növünü müəyyən edən vəsait bazasının həcmi və strukturu;
- bank fəaliyyətinin ümumi əsasları, strateji məqsədlərin xarakteri və əhəmiyyəti, investisiya siyasətinin şərtləşdirici seçimi;
- bankın həyat silsiləsinin mərhələsi;
- gəlirlik, likvidlik və risk alternativi ilə müəyyən edilən investisiya qoyuluşunun səmərəliliyi;
- müqayisə edilə bilən aktivlərin gəlirliyi;
- investisiya portfelinin təşkili və idarə olunma xərclərinin miqyası.

İnvestisiya aktivlərinin investisiyasının əsas məbləğinin qorunub saxlanılmasından başqa cari pul ödəmələri şəkilində stabil gəlir və yaxud aktivlərin bazar qiymətinin artırılmasına da təmin etmək lazımdır. Buna görə də kapitalı itirmənin risk dərəcəsinin meydana çıxması ilə yanaşı investisiya qoyuluşdan əldə edilən münasib gəlirlik riskinin sərhədlərdə müəyyən etmək lazımdır. Bu zaman da mümkün olan risk sərhədlərində investisiya vasitələrinin cəlb olunmasının orta qiyməti çıxış edir.

İnvestisiya aktivlərinin likvidliyi isə onların maliyyələşdirilməsinin mənbəyi olan passivlərin xarakterliyi ilə birləşdirilmişdir. Likvidlik dərəcələrinə görə investisiya qoyuluşlarını aşağıdakı kimi qruplaşdırmaq olar. Çox likvidli aktivlər, likvidli aktivlər və az likvidli aktivlər.

BANKLARDA RİSK NÖVLƏRİ

Qrup daxilində risklərin idarə edilməsi funksiyası finans riskləri (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Finans risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Bankçılıqda risk qavramı, bankların investisiya prosesində ortaya çıxa biləcək zərərləri ifadə edir. Banklar mənfəəti və likvidlik ilə əlaqədar qərarlar olarkən, mövcud qeyri-müəyyənliyi ortadan qaldırmaq üzrə çeşidli təhmini versiyalar hazırlar. Ancaq, təhminilə gerçəkləşmənin eyni ölçülərdə olmaması riski amilini ortaya çıxarır.

Banklar, bir tərəfdən likvidliyi təmin edərkən, digər tərəfdən isə bankın gəlirliyini zəmanət etməli, qərarların meydana çıxmasına qarşı müvafiq tədbirlər hazırlamalı və dəyişən şərtlər çərçivəsində operati bir qərar ala bilməlidir. Bütün mənfəət məqsədli

şirkətlər kimi banklar da makro və mikro iqtisadi, risklərlə qarşı-qarşıyadır. Ancaq bankların iqtisadiyyata təsiri qeyri-finans qurumlarından daha güclüdür.

Bankların mənfəətli sabit bir formada fəaliyyət göstərə bilmələri üçün gəlir yaradılmasına və məsrəflərinə nəzarət etməklə yanaşı istənilən riskə hazır olması çox mühüm məsələdir. Risk bankçılıqda qarşısı alınmayan ən problemli amildir.

Bank sektorunda əsas risk növləri aşağıdakılardır:

1. Balans riski;
2. Gəlirlik riski;
3. Sərmayə riski;
4. Kredit riski;
5. Valyuta riski;
6. İqtisadi risk;
7. Likvid riski;
8. Faiz nisbəti riski.

Dalğalı bir bazar strukturu içərisində fəaliyyət göstərən banklar içərisində bazar riskinin ən önəmli göstəricilərindən bir likvidlik, digəri isə açıq pozisiyondur.

Azərbaycan Respublikası Milli Bankının Açıq Valyuta Mövqeyi Limitlərinin Müəyyən Edilməsi və Tənzimlənməsi haqqında Qaydalarına uyğun olaraq, Bankın hər-hansı bir valyuta üzrə açıq valyuta mövqeyi Bankın ümumi kapitalının 10%-dən, bütün xarici valyutalar üzrə isə 20%-dən artıq olmamalıdır.

Bank sektorunda Balans riski

Balansın strukturundan qaynaqlanan risklər əsas etibarı ilə aktiv və passifin tarazlığının pozulmasından ortaya çıxan risklərdir. Balans riski, adətən, məsrəfli passiflərlə gəlirli aktivlərin faiz dərəcələrində və ya valyuta məcənnələrində dəyişim olabiləcəyi diqqətə alınmadan, müddət strukturunun bölgüsünə diqqətə almadan, açıq, qapalı posiziyonlar yaradaraq əməliyyatlar apararaq, qiymətli kağızlar və risklərin fərqliləşdirilməsinə önəm verilməyişindən, yetərli kapital olmadan riskli investisiyalar qoyuluşu və öz qaynaq yetərliyinə diqqət etməlidirlər.

Müddət formasiyasının pozulması və öhdəliklərinin fərqli pul cinsləri üzərindən olması səbəbi ilə balans strukturundakı pozulma nəticəsində ortaya çıxan problemlər bankçılıq böhranlarına yol açа bilir. Banklar, balans strukturundan qaynaqlanan risklər və valyuta risklərinə qarşı valyuta porisyonları tutaraq özlərini riskdən qorumaya çalışırlar.

Kredit riski.

Hər hansı bir kredit xətti açılarkən daim kredit müştərisinin zamanında və istənilən miqdarda aldığı krediti geri ödəməmə riski vardır.Kredit riskinə qarşı qorunmanın ən yaxşı yolu kredit portfelinin çeşidləndirilməsidir. Hər hansı bir bankın kredit risk səviyyəsi həmin bankın sahib olduğu kreditlərin keyfiyyəti ilə doğrudan da sıx bağlıdır. kredit riskli bankların qarşılaşdıqları ən təməl risk növüdür. Basel bankind nəzarət və nizamlama komitəsi tərəfindən kredit riski, bir bankın kredit müştərisinin ya da özü ilə bir anlaşma-ya tərəf olanın müqavilə şərtlərinə uyğun formada öhdəlikləri qarşılayamama olaraq tanımlanmışdır.

Qarşı tərəf borcunu müəyyən edilmiş ödəmə müddətində tam ödəyə bilmədikdə, bank kredit riskinə məruz qalır. Qrup məruz qaldığı kredit riskinə bir borcalan və ya borcalanlar qrupu, eləcə də coğrafi və ya fəaliyyət seqmentləri üzrə limitlər müəyyən etməklə nəzarət edir. Bu cür risklərə Qrup tərəfindən müntəzəm olaraq nəzarət olunur və il ərzində mütəmadi olaraq nəzərdən keçirilir. Kredit riski səviyyəsinin məhsul, borcalan və sənaye sahələri üzrə limitləri müntəzəm olaraq İdarə Heyəti tərəfindən təsdiqlənir.

Bir borcalan, o cümlədən banklar və broker şirkətlərinin məruz qaldığı kredit riski əlavə olaraq balans və balansdankənar riskləri əhatə edən sub-limitlər vasitəsilə, eləcə də gün ərzində forvard valyuta müqavilələri kimi ticarət vasitələri üzrə risk limitlərini ötürməklə məhdudlaşdırılır. Qəbul edilə bilən risk səviyyəsi üzrə limitlərə faktiki olaraq hər gün nəzarət edilir.

Kredit riski mövcud və potensial borcalanların borc vəsaitləri üzrə faiz ödənişlərini və əsas məbləği geri qaytarmaq qabiliyyətini müntəzəm şəkildə təhlil etməklə, həmçinin lazım olduqda kredit limitlərini dəyişdirməklə idarə olunur. Kredit riski həmçinin hüquqi və fiziki şəxslərin təminat və zəmanətlərini almaqla idarə olunur.

Qrupun məruz qaldığı kredit riskinin maksimal səviyyəsi, adətən balans hesabatında maliyyə aktivlərinin balans dəyərində əks olunur. Potensial kredit riskinin azaldılması üçün aktiv və passivlərin əvəzləşdirilməsi imkanı böyük əhəmiyyət kəsb etmir.

Balansdankənar maliyyə vasitələri üzrə kredit riski həmin maliyyə vasitəsi üzrə əməliyyatların digər iştirakçısı tərəfindən müqavilə üzrə öz öhdəliklərini yerinə yetirə bilməməis nəticəsində zərərin yaranması ehtimalı kimi müəyyən edilir. Qrup şərti öhdəlikləri və balans üzrə maliyyə vasitələri ilə əlaqədar əməliyyatların təsdiqlənməsi prosedurları, riskləri məhdudlaşdıran limitlərdən istifadə və monitorinq prosedurlarına əsaslanan eyni kredit siyasətini tətbiq edir.

Banklar gün getdikcə kreditlər xaricində də dəyişik finansal alətlərə ilişkin kredit riski ilə qarşı qarşıya qalmaqdadırlar; məsələn, interbank əməliyyatları, kommersiya finansmanı, valyuta əməliyyatları, swap əməliyyatları, bonoslar, opsiyonlar. Müddətli əməliyyatlar, qarantı və kəfalətlər kimi verilən kreditlərin az sayıda şirkətin yoğunlaşması və ya tək bir şəxsə və ya indastri sektoruna böyük miqdarda kredit açılması kredit riskini artırır.

Bazar riski.

Bazar riski - faiz dərəcəsi, xarici valyuta məzənnəsi və kapitalın (həmçinin bazar qiymətli kağızların) qiymətlərindəki enib-qalxmaların nəticəsində bank aktivinin bazar dəyərini dəyişməsindən itkiyə səbəb ola bilən ehtimaldır. Bu anlayışa əsasən bazar riski riskin mənbəyindən asılı olaraq aşağıdakı kateqoriyalara bölünə bilər:

- Faiz dərəcəsi riski – faiz dərəcəsinin dəyişilməsi nəticəsində yaranan riskdir. Bu risk mənbəyi ilk növbədə faiz gətirən maliyyə alətlərinə təsir edir;
- Xarici valyuta riski – valyuta məzənnələrindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi xarici valyutada yerləşdirilən alətlərin portfelinə təsir edir. O, həmçinin ticarət

əməliyyatları müxtəlif valyutalarda aparıldıqda və sonradan qiymətləndirmə uçotu və hesabatları yerli valyutaya çevirildikdə bankın ümumi portfeli xarici valyuta riski ilə üzləşə bilər;

- Kapital riski – kapitalın və digər bazar giymətli kağızlarının qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyi kapital portfelinə, eləcə də hecinq və spekulyasiya məqsədləri üçün istifadə edilən kapitalın törəmə alətlərinə təsir göstərir;
- Əmtəə-mal riski - əmtəə-mal qiymətlərindəki dəyişikliklərə görə yaranan riskdir. Bu risk mənbəyinin təsir göstərdiyi portfellər faktiki əmtəələrdən (məsələn, qızıl) və ya əmtəə fyuçerslərindən və forvard müqavilələrindən ibarət ola bilər. Bu riskin banklara təsiri onların fəaliyyətindən asılı olacaqdır.

Likvid riski

Likvid riski - banklar istər kredit fəaliyyətlərini və investisiya qoyuluşlarını aparmaq, istərsə də əmanət sahiblərinin tələblərini ödəyə bilmək üçün yetərli miqdarda istifadə edilə bilən, fonda sahib olmaq məcburiyyətindədirlər. Fondların yetərsiz olması halında risk daha da yüksəlir. Bu riskə nümunə kimi bütün əmanət sahiblərinin pullarını bir anda bankdan götürməsi ilə bankın tam iflasa uğraması göstərilə bilər.

Likvidlik riski, bankın aktivlərində olan artımı maliyyələşdirə bilməməsi və öz öhdəliklərini vaxtlı-vaxtında yerinə yetirə bilməməsi riskidir.

Banklara təsir göstərə biləcək üç növ likvidlik riski vardır:

- Qısamüddətli nağd vəsaitlərə olan tələbləri yerinə yetirmək üçün kifayət qədər pul və qiymətli kağızları saxlaya bilməməsi;
- Əlavə maliyyələşdirmənin əldə edə bilməməsi;
- Bazar mövqeyini bağlaya və ya ləğv edə bilməməsi

Banklar, fövqəladə vəziyyətlərdə likvidlik problemləri ilə əlaqədar aydın ifadə olunmuş prosedurlara malik olmalıdır. Bu prosedurlar, bankın risklərin idarə edilməsi üzrə ümumi Qaydalarının bir hissəsi olmalıdır.

Gələcək maliyyələşdirmə tələblərini müəyyənləşdirmək məqsədi ilə Risklərin İdarə Edilməsi Departamenti hər bir valyuta üzrə proqnozlaşdırılan nağd vəsaitlərin axınını qiymətləndirməli və nəzarət altında saxlamalıdır. Bazar və ya bazar likvidliyinin itirilməsindən yaranan likvidlik ehtiyaclarını ödəmək üçün yaradılan alternativ strategiyalar bankın gözlənilməyən hallar üzrə likvidliyin planlaşdırılması prosesinə daxil edilməlidir.

Bankın fəaliyyət göstərdiyi bazarlardakı likvidlik riskləri müntəzəm olaraq qiymətləndirlməlidir. Müvafiq hallarda, bazar likvidliyi riski, bazar mövqeyinin bağlanması üçün təxmin olunan vaxtı əks etdirməklə Riskə məruz Dəyər modelinə daxil edilməlidir.

Likvidlik Boşluğu riski (müxtəlif zaman "dilimləri" və valyuta növləri üzrə proqnozlaşdırılan nağd vəsaitlərin mədaxili ilə məxarici arasındakı fərq), gələcəkdə likvidlik boşluğunun yarandığı vaxtlardakı nağd vəsait axınının diskont edilmiş dəyərinə nəzarət etməklə və müvafiq faiz dərəcələrindəki dəyişiklikləri nəzərə almaqla ayrıca nəzərə alınmalıdır.

Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin passivlər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır.

Faiz

Faiz nisbətlərində meydana gələn dəyişikliklərin bankın gəlir və xərclərinə təsir etməsindən ortaya çıxan bir riskdir.

Faiz başqa sözlə, bankların aktivlərində və passivlərində bulunan faizlə alətlərin yenilənmə sırasında qiymətlərin qeyri-müəyyənlik səbəbi ilə daşıdığı ilə risklərdir. Faiz riskli aktiv və passivlərdən hər hansı birisinin müddətinin digərindən qısa və ya uzun olması durumunda ortaya çıxmaqdadır ki, buna likvidlik riski də deyilir.

Bu səbəblə faiz riski ilə likvidlik riskinə birlikdə dusunup faiz riskini nəzarət etmək üçün müddət riskini də nəzarət etmək lazımdır.

Bankların iqtisadi maraqları likvidlik və etibarlığa riayət edilməklə bank əməliyyatlarının gəlirliyinin təmin olunmasından ibarət olur. Banklar əsasən öz puluna deyil cəlb olunan və borc vəsait hesabına fəaliyyət göstərirlər. Buna görə də onlar münasib zəmanət təmin olunmadıqda öz müştərilərinin vəsaitlərini iri investisiya layihələrinə yatıra bilməzlər. Bununla bağlı olaraq kommersiya bankları öz investisiya layihələrin hazırladıqda riskin real qiymətləndirilməsi, iqtisadi effektlik, investisiya layihələrinin maliyyə cazibədarlığı, uzun, qısa və orta müddətli investisiyaların optimal şəkildə əlaqələndirilməsinə əsaslanır. Buna görə də kommersiya bankları investisiya fəaliyyətinin təşkili və idarə olunması ilə bağlı olan vacib tədbirləri dəqiq işləyib hazırlamalı və formal olaraq təsbit etməlidir. Buna əsaslı investisiya layihəsinin işlənib hazırlanması və realizasiyasından söhbət gedir.

Banklar hər zaman əmanətə ödədikləri faizdən daha fərqli gəlirlilik saxlayan aktivlərə (kreditlər və ya qiymətli kağızlara qoyulan investisiya kimi) sahib olma problemi ilə qarşılaşa bilirlər.

Banklar faiz riskini azaltmaq məqsədi ilə dəyişkən faizli kredit verməyə üstünlük verirlər. Belə vəziyyətdə əmanət faizindəki dəyişmələri kredit faizlərinə yönəltmək mümkün olur.

İqtisadi risk - kredit menecmentlərinin makroiqtisadi şərtləri nəzarət altına ala bilmələri qeyri-mümkün olmasına baxmayaraq, kredit portfelini iqtisadi həyatdakı dalğalanmalardan uzaqlaşdırmaq mümkündür.

Kredit risklərinin idarə edilməsi

Kredit riski, aktivin dəyərini itirməsinə və yaxud dəyərsiz hala düşməsinə səbəb olan, borcalanın maliyyə vəziyyətinin pisləşməsi kimi hadisəsindən (balansdankənar hadisələr daxil olmaqla) yaranan zərər ehtimalıdır. Kredit risklərinin idarə edilməsində məqsəd, belə kredit hadisələrini aradan qaldırmaq, kredit riski təhlükəsini məqbul olan parametrlər daxilində saxlamaq, bank aktivlərinin sağlamlığını qorumaq və onlardan əldə olunacaq gəlirlərin itkilərin örtəcəyini təmin etməkdən ibarətdir. Banklar, bütün kredit portfelinin riskini, eləcə də ayrı-ayrı kreditlərdə və ya əməliyyatlarda mövcud olan riskləri idarə etməlidir.

Kredit risklərinin səmərəli idarə edilməsinə nail olmaq üçün, idarə edilmənin bütün səviyyələrində aydın olan kredit risklərinin qiymətləndirilməsi və hesabat vermə üçün aydın təyin olunmuş metodologiya yaradılmalıdır.

Kreditlər təsdiqləndikdən sonra, Risklərin İdarə Edilməsi Departamenti kredit riskinə nəzarət etmək üçün məsuliyyəti üzərinə götürür. Yaxşı olardı ki, bu prosedur iki cür olsun: ənənəvi kredit risklərinin idarə edilməsi və riyazi baxımdan.

"Ənənəvi" strukturda Risklərin İdarə Edilməsi Departamenti kredit risklərinin idarə edilməsində aşağıdakı funksiyaları yerinə yetirməlidir:

- Əks tərəfin kredit sazişinin şərtlərinə riayət etməsinə nəzarət etmək;
- Mütəmadi olaraq müştərinin fəaliyyətindəki dəyişiklikləri qiymətləndirmək üçün onunla görüşlər təşkil etmək;
- Davamlı olaraq kreditin yalnız kredit sazişində göstərilən məqsədlər üçün istifadə olunmasını yoxlamaq;
- Mövcud olan bütün məlumatlar (kütləvi informasiya vasitələrinin nəşrləri daxil olmaqla) vasitəsilə müştərinin, eləcə də onun zəmanətçilərinin maliyyə vəziyyətinə nəzarət etmək;
- Lazım gəldikdə vaxtı ötmüş kreditlərlə əlaqədar müvafiq prosedurlardan istifadə etmək.

Daha təkmilləşdirilmiş səviyyədə kredit risklərinin idarə edilməsi üçün "ənənəvi" metodla yanaşı daxili və xarici kredit dərəcəsi (reytinq) sistemlərinə, kreditin ödənilməməsi ehtimalına və yığılma dərəcəsinə əsaslanan "riyazi" metodlardan istifadə etmək olar. Bu metod fəaliyyət nəticələrinin və kapital bölgüsünün hesablanması üçün imkan yaradır.

Əməliyyat riski

Əməliyyat riski, qeyri-adekvat və ya uğursuzluqla nəticələnmiş daxili proseslərdən, insanlardan və ya sistemlərdən, yaxud kənar hadisələrin baş verməsindən yaranan zərər riskidir.

Müşahidə Şurası, əməliyyat riskinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, nəzarət edilməsi və yoxlanılması üçün Risklərin İdarə Edilməsi Komitəsi tərəfindən hazırlanmış və İdarə Heyəti ilə razılaşdırılmış prosedurları təsdiq etməlidir. Bu prosedurlara aşağıdakılar daxil olmalıdır:

- Bankın özünün və ya onun qarşılaşdığı risklərin qiymətləndirilməsi: bank öz əməliyyatlarının və fəaliyyətinin potenisal əməliyyat riskinə həssaslığını qiymətləndirməlidir. Bu proses daxildə aparılır və adətən əməliyyat riski mühitinin gücünü və zəifliyini müəyyənləşdirmək üçün hazırlanan yoxlama cədvəllərindən və/və ya keçirilən seminarlardan ibarət olur;

- Risk Xəritəsinin yaradılması: bu prosesdə müxtəlif biznes bölmələri, təşkilati fəaliyyət və ya proseslər risk növləri ilə qarşılaşdırılır. Bu tapşırıq zəif sahələri aşkar etməyə və sonrakı idarəetmə fəaliyyətini üstünlük dərəcəsinə görə sıralamağa kömək edir;

- Əsas Risk Göstəriciləri: risk göstəriciləri statistik və/ və ya metrik olurlar. Onlar çox zaman maliyyə sahəsinə aid olur və bankın risk mövqeyini aydınlaşdırır. Bu göstəriciləri müntəzəm olaraq (illik və ya rüblük) təhlil etmək lazımdır ki, bankın rəhbərliyi risk narahatçılıqlarının göstəricisi ola bilən dəyişikliklər haqqında xəbərdar olsun. Bu cür göstəricilərə tamamlanmamış əməliyyatların dərəcəsi, işçilərin axını dərəcələri, səhvlərin və çatışmamazlıqların baş vermə tezliyi və/və ya ciddiliyi daxil ola bilər;

- Qiymətləndirmə kartları: bu kartlar keyfiyyət qiymətləndirməsinin kəmiyyətcə ifadə edilməsını təmin edir və müxtəlif növ əməliyyat riski təhlükələrinin nisbi dərəcəsini yaradır. Bəzi qiymət ölçüləri spesifik fəaliyyətə xas risklərə aid ola bildiyi halda, digərləri bir neçə fəaliyyət istiqamətlərinə aid ola bilər. Qiymət ölçüləri daxili risklərə aid ola bildiyi kimi, həmin risklərin qarşısını almaq üçün nəzərdə tutulan daxili prosedurlara da aid ola bilər. Bundan əlavə, qiymətləndirmə kartları biznes bölmələrində iqtisadi kapitalın, əməliyyat risklərinin tənzimlənməsi və nəzarət edilməsı üzrə fəaliyyəti nəzər almaqla bölüşdürülməsi məqsədi ilə tətbiq edilə bilər;

- Hədlər/limitlər: adətən risk göstəriciləri ilə bağlı olan limitlər ölçüldükdə, rəhbərlik potensial problemli sahələr haqqında xəbərdar olur;

- Ölçülmə: bank əməliyyat riskinin miqdarını müxtəlif yanaşmalardan istifadə etməklə ölçə bilər. Məsələn, bankın keçmiş zərər təcrübəsi, onun əməliyyat riskinin miqdarını ölçmək, riski azaltmaq və nəzarət etmək siyasətini yaratmaq üçün vacib məlumatla təmin edə bilər. Bu informasiyadan səmərəli istifadə edilməsının yolu, ayrı-ayrı zərər hadisələri üzrə risklərin baş vermə tezliyini, ciddiliyini və digər lazımi informasiyanı sistematik olaraq qeyd etmək və

izləmək üçün struktur yaratmaqdır. Bank həmçinin zərər haqqında daxili və xarici məlumatları, senari təhlillərini və keyfiyyətin qiymətləndirilməsi üzrə amillərli birləşdirə bilər.

Risklərin monitorinqi və toplanması

Bazar, kredit və likvidlik riskləri biznes bölmələri, bank xidmətləri, əməliyyatçı və əməliyyat səviyyəsi növləri üzrə toplanmasından əlavə olaraq, Risklərin İdarə Edilməsi Departamenti tərəfindən bütün bank üzrə toplanmalıdır. Toplanmış risklər gündəlik ümumi bank təlimatları və limitləri əsasında nəzərdən keçirilməlidir. Risklərin İdarə Edilməsi Departamenti, Risklərin İdarə Edilməsi Komitəsinə və İdarə Heyətinə bank və biznes bölmələri səviyyəsində risklərin cəmləşməsi haqqında ümumi şərh təqdim etməlidir.

Bank üzrə limitlərə aşağıdakılar daxil ola bilər:

- Biznes bölmələri və bank xidmətləri üzrə Riskə məruz Dəyər limitləri (bazar riski)
- İri kredit təhlükələri
- Yüksək səviyyəli kredit cəmləşməsi üzrə limitlər

Risklərin İdarə Edilməsi Departamenti müəyyən olunmuş risk limitlərinin ölcülməsi vasitəsilə düzəliş tədbirlərini razılaşdırmaq üçün İdarə Heyətinin məsul üzvünə müraciət etməlidir.

I. Maliyyə idarəetmə planı

Strateji planın "Maliyyə idarəetmə planı" bölməsində aşağıdakı məsələlər şərh olunur:

A. Kapital və Gəlirlər

1) Kapitalın artımına dair proqnozlar və ona nail olmaq üçün tədbirlər;

2) Nizamnamə kapitalının tələblərinə riayət edilməsi üçün onun artırılması planı;

3) Daxili və xarici risklər, planlaşdırılmış əməliyyat və maliyyə fərziyyələri, filiallar, texnologiya, təşkilati və əməliyyat xərcləri nəzərə alınmaqla kapitalın adekvatlığının təmin edilməsi planları. Balandankənar əməliyyatların kapitalın artırılmasına təsiri;

4) Bank aktivlərinin gəlirlik hədəfləri, xalis faiz marjası və digər mənfəətlik göstəriciləri və bu məqsədlərə nail olmaq üçün strategiya;

5) Bankın kapitalının artırılması ilə əlaqədar holdinq şirkətinin istiqrazları üzrə ödənilən faizlər;

6) Bankın dividend siyasəti.

B. Likvidlik və vəsaitlərin idarə edilməsi

1) Bankın likvidlik riskini müəyyən etmək və ölçmək qabiliyyəti;

2) **Maliyyələşdirmə mənbələri (depozitlər, borclar) daxil olmaqla bankın likvidlik riskinin yoxlanması və ona nəzarət edilməsi planı;**

3) **Hər bir maliyyə qurumundan və ya digər mənbələrdən vəsaitlərin borc alınması planı (vəsaitlərin məbləği, faiz dərəcəsi, ödəniş müddəti, məqsədi, tərkibi və təminatı);**

4) **Bankın investisiya qiymətli kağızlar ilə əməliyyat aparması planı.**

C. Bazar riskinə həssaslıq

1) **Bankın faiz dərəcəsi üzrə siyasəti və faiz dərəcəsi riskinə olan davamlığı;**

2) **Bankın faiz dərəcəsi riskini müəyyən etmək və ölçmək qabiliyyəti;**

3) **Aktiv və öhdəliklər portfelinin faiz dərəcəsi riskinə həssaslığı, faiz dərəcəsi riskinə nəzarət etmək üçün risk limitləri;**

4) **Hedcinq fəaliyyəti üçün nəzərdə tutulan planlar (məsələn; fyuçerslər, opsionlar, faiz dərəcəsi svopları).**

Ç. Kredit riski

1) **Bankın kredit riskini müəyyən etmək və ölçmək qabiliyyəti;**

2) **Kredit təhlili proqramının müstəqilliyi, əhatə sahəsi və bu prosedurları həyata keçirən şəxslərin təcrübəsi;**

3) **Mümkün kredit və lizinq itkilərinin örtülməsi üçün ehtiyatların yaradılması metodologiyası və prosedurları.**

D. Borcalmalar

1) **Maliyyə və kredit qurumlarından və ya digər mənbələrdən vəsaitlərin borc alınması planı (məsələn; vəsaitlərin məbləği, faiz dərəcəsi, ödəniş müddəti, məqsədi, tərkibi və təminatı);**

2) **Bankın kapitalının artırılması ilə əlaqədar holdinq şirkətinin istiqrazları üzrə faizlərin ödənilməsi üçün öhdəliklər.**

Korporativ İdarəetmə Prinsipləri

Mükəmməl korporativ idarəetmə təcrübəsi aşağıdakıları tələb edir:

- Bankın strateji məqsədlərinin və korporativ dəyərlərinin müəyyən edilməsini;
- Bank daxilində vəzifə məsuliyyətlərinin müəyyən edilməsi və bütün səviyyələrdə hesabatlığın tətbiqi;
- Müşahidə Şurası üzvlərinin öz vəzifələrinə layiq və idarəetmə strukturunda onların öz rolları barədə düzgün anlayışa malik olmalarının, digər idarəetmə organları və ya kənar şəxslər tərəfindən qeyri sağlam təsirlərə tabe olmamalarının təmin edilməsini;
- İdarə Heyəti tərəfindən müvafiq nəzarətin olmasının təmin edilməsini;
- Daxili və xarici auditorların nəzarət funksiyasını nəzərə alaraq, onların həyata keçirdiyi işlərin səmərəli istifadəsini;
- Əmək haqqı siyasətinin bankın strategiyasına, məqsədlərinə, etik dəyərlərinə və nəzarət mühitinə uyğunluğunun təmin edilməsini;
- Korporativ idarəetmənin şəffaf şəkildə həyata keçirilməsini.

Korporativ idarəetmə prinsipləri aşağıdakılara əsaslanır:

- Bankın fəaliyyətinin başlıca məqsədi bankın sahibkarları (səhmdarları) üçün bankın dəyərini artırmaqdır;
- Bank strateji baxışa malik olmalıdır;
- Bankın Strateji Baxışına uyğun Missiya Hesabatı tərtib edilməlidir;
- Strateji Plan bankın Strateji Baxışını strateji məqsədlərə, hədəflərə və fəaliyyət planlarına çevirməlidir;
- Strateji Planlaşdırma prosesi strategiyanın hazırlanmasını, bankın fəaliyyət nəticələrinin onun strategiyasında göstərilən məqsəd və hədəfləri ilə müqayisə edilməsini, bazar şərtlərinin dəyişməsinə və bankın fəaliyyətinə uyğun olaraq planın yenilənməsini əhatə etməlidir;
- Bankın təşkilati strukturu Strateji Planın tətbiq edilməsi, bankın fəaliyyətinin idarə və nəzarət edilməsi üçün münasib olmalıdır;
- Təşkilati strukturun komponentlərinin funksiyalarını və məsuliyyətlərini dəqiq müəyyən etmək üçün müvafiq səlahiyyətlər bölgüsü və daxili prosedurlar olmalıdır;
- İdarəetmə və nəzarət, funksiyaların ayrılması və verilmiş səlahiyyətlər bank daxilində məsuliyyətlərin aydın bölüşdürülməsi prinsiplərini əhatə etməlidir.

Mühasibat Prosedurları və Mühasibat Funksiyasının İdarə olunması

Hər bir bank özünün mühasibat uçotu və hesabat prosedurları təlimatını hazırlamalıdır. Bu prosedurlar aşağıdakıları əhatə etməlidir:

- **Bankın mühasibat uçotu siyasəti.** Bu bölmədə bank tərəfindən hazırlanmış və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olan spesifik uçot prinsiplərini əks etdirilir. Əgər hər hansı bir MHBS müəyyən maddə ilə əlaqədar uçot siyasəti müxtəlifliyinə icazə verirsə, bu bölmədə, bankın məhz hansı uçot siyasətini qəbul etdiyi göstərilməlidir.
- **Mühasibat uçotu üçün istifadə edilən proqram təminatı.** Bu bölmədə bankın mühasibat uçotu üçün istifadə etdiyi proqram təminatı paketinin təsviri göstərilməlidir.
- **Mühasibat verilənlər bazasına daxil olma hüquqları.** Bu bölmədə mühasibat verilənlər bazasına daxil olma hüquqlarının səviyyələri göstərilməlidir. (Mühasibat xidməti daxilində hər işçiyə müəyyən daxil olma hüququnun səviyyəsi təyin edilməlidir).
- **Bank tərəfindən istifadə edilən standart dəstəkləyici sənədlər.** Bu bölməyə daxili və xarici dəstəkləyici sənədlərin nümunələri və formaları daxil edilməlidir. Bundan əlavə, dəstəkləyici sənədlərin mühasibat xidməti tərəfindən qəbul edilə bilməsi üçün minimal təsdiqləmə şərtləri də bu bölmədə göstərilməlidir.
- **Bank tərəfindən istifadə edilən mühasibat jurnalları və reyestrləri.** Bu bölmədə mühasibat uçotu qeydlərini aparmaq üçün istifadə edilən mühasibat jurnalları və reyestrləri (elektron və ya əl ilə yazılmış) təsvir edilməlidir. Bu bölmədə həmçinin hər bir mühasibat reyestrinə və ya jurnalına məlumatların hansı mənbələrdən daxil olduğu əks edilməlidir.
- **Sənədlərin saxlanması və arxivləşdirilməsi.** Bu bölmədə dəstəkləyici sənədlərin təhlükəsiz yerdə saxlanılmasını və əvvəlki dövrlərə aid olan sənədlərin vaxtında arxivləşdirilməsini təmin etmək üçün bankın tətbiq etdiyi prosedurlar əks edilməlidir. Bundan əlavə, bu bölmədə arxivdən sənədlərin geri götürülməsi prosedurları təsvir edilməlidir.
- **Elektron məlumatların təhlükəsizliyi və ehtiyat surətləri.** Bu bölmədə elektron mühasibat məlumatlarının gündəlik ehtiyat surətlərinin yaradılmasını və təhlükəsiz yerdə saxlanılmasını təmin etmək üçün bankın qəbul etdiyi prosedurlar əks edilməlidir. Həmçinin bu bölmədə ehtiyac olduqda ehtiyat surətlərdən elektron məlumatların bərpa edilməsi prosedurları əks edilməlidir.
- **Rəhbərliyə və istifadəçilərə hesabatların hazırlanması.** Bu bölmədə müntəzəm və ya qeyri-müntəzəm qaydada rəhbərlik və istifadəçilər üçün mühasibat xidməti tərəfindən təqdim edilən hesabatların növləri və formaları, həmcinin onların hazırlanması üçün gərəkli olan prosedurlar əks edilməlidir.

Mühasibat prosedurları və qeydləri MHBS-yə uyğun olaraq maliyyə hesabatlarının hazırlanması üçün banka lazım olan bütün məlumatı təmin etməlidir. Mühasibat prosedurlarının tərtibi zamanı bank mühasibat sisteminin MHBS-də tələb olunan bütün açıqlamaları əks etdirməsini təmin etmək üçün MHBS üzrə məlumatların açıqlanma tələblərini təhlil etməlidir (məsələn, açıqlama cədvəllərindən istifadə etməklə).

Bankların idarəetmə strukturu

Hər bir bank aşağıdakı idarəetmə orqanları tərəfindən idarə edilir:

- Bankın ali idarəetmə orqanı olan Səhmdarların Ümumi Yığıncağı;
- Səhmdarlar tərəfindən təyin olunan, onlara hesabat verən və bankın idarə edilməsinə və fəaliyyətinə nəzarət edən orqan olan Müşahidə Şurası;
- Bankın gündəlik idarə edilməsi üçün məsul icraedici orqan olan İdarə Heyəti;
- Mühasibat uçotu prosedurları, nəzarət və bankın daxili auditi üzrə məsul olan Audit Komitəsi.

Hər bir bankda ən azı dörd funksional bölmə mövcud olmalıdır. Bu funksional bölmələr bankın əməliyyatlarının xüsusiyyətlərinə və onlar arasındakı qarşılıqlı nəzarət əlaqəsinə görə fərqlənirlər. Bu funksional bölmələr aşağıdakıları əhatə edir:

- Müştərilərlə birbaşa iş: müştərilərlə əməliyyatları, filial əməliyyatları və digər pərakəndə fəaliyyət növləri;
- Risklərin idarə edilməsi: daxili nəzarət və risklərin idarə edilməsi infrastrukturu, mütəmadi olaraq bank daxilində müxtəlif risk növlərinin müəyyən edilməsi, ölçülməsi və nəzarət edilməsi;
- Bank əməliyyatları: kredit vermə, xəzinədarlıq, banklararası fəaliyyət, hesablaşma və klirinq əməliyyatları;
- İnzibati və yardımçı xidmətlər: arxa ofis və mühasibat uçotu, Hüquq Xidməti, İnsan Resursları, İnformasiya Texnologiyaları, Tədarük və sair.

Əlavə olaraq, nümunədə təsvir olunan əsas funksional bölmələr haqqında qısa məlumat aşağıda göstərilir:

- Bank işi – fiziki və korporativ müştərilər üzrə bölünə bilər. Ayrı-ayrı əməliyyat bölmələri, müştəri tələblərindən asılı olaraq, risklərin idarə edilməsi və daxili nəzarət məsələlərini nəzərə almaqla müxtəlif fəaliyyət sahələri üzrə məsuliyyət daşıyırlar;

- Xəzinədarlıq – bankın aktiv və passivlərin idarə edilməsi, qiymətli kağızlarla əməliyyatlar daxildir;

- Risklərin idarə edilməsi – risklərin idarə edilməsi siyasətinin müəyyən edilməsi, risklərin təhlil edilməsi, bankın riskə dözümlülüyünə və risk limitlərinə nəzarət daxildir;

- İT, mühasibatlıq, insan resursları, təhlükəsizlik, hüquqi və sair xidmətlər – yuxarıda göstərilən funksional bölmələri inzibati dəstəklə təmin edən əsas daxili xidmətlərdir.

Azərbaycan Respublikası ərazisində nağdsız hesablaşmaların aparılması qaydası.

Nağdsız hesablaşma – pul nişanlarından istifadə etmədən ödəniş sənədləri vasitəsilə həyata keçirilən ödənişdir.

Ödəniş sənədi – nağdsız qaydada pul vəsaitinin kredit təşkilatı (bundan sonra "bank" adlanacaq) vasitəsi ilə ödənilməsi barədə yazılı şəkildə kağız üzərində (kağız daşıyıcı) və ya elektron formada (elektron daşıyıcılarda) rəsmiləşdirilən sərəncamdır.

Pul köçürməsi – bank hesabı açılmadan nağd pulun fiziki şəxs tərəfindən banka təhvil verilməsi yolu ilə həyata keçirilən ödənişdir.

Nağdsız hesablaşmalar müvafiq bank hesablarının açıldığı banklar vasitəsilə aparılır, bu şərtlə ki, nağdsız hesablaşmaların istifadə edilən forması ilə ayrı qayda şərtləşdirilməsin.

Nağdsız hesablaşmaların aşağıdakı formaları vardır:

- ödəniş tapşırıqları ilə hesablaşmalar;
- inkasso sərəncamları ilə hesablaşmalar;
- inkasso üzrə hesablaşmalar;
- akkreditiv üzrə hesablaşmalar.

Ödəniş tapşırığı ilə hesablaşma zamanı bank (emitent bank) ödəyicinin tapşırığı ilə onun hesabında olan vəsait hesabına müəyyən pul vəsaitini bu və ya başqa bankda (benefisiar bankda) ödəyicinin göstərdiyi şəxsin (vəsait alanın) hesabına ödəniş tapşırığının banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq köçürməyi öhdəsinə götürür, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı müddət nəzərdə tutulmasın. Bank hesabı müqaviləsində ödəniş tapşırığının müvafiq sahəsində köçürmənin konkret tarixinin göstərilməsi nəzərdə tutula bilər.

Bank hesabı açılmadan həyata keçirilən pul köçürmələri kassa sənədləri əsasında aparılır. Ödənişi həyata keçirən bank müştərinin kassa sənədləri əsasında elektron ödəniş tapşırığını tərtib edir.

İnkasso sərəncamları ilə hesablaşmalar zamanı ödəyicinin (borclunun) hesabına xidmət göstərən bank (icraçı bank) məcburi icra orqanlarının göstərişi ilə və əlavə edilən icra sənədinə əsasən ödənişi ödəyicinin hesabından mübahisəsiz qaydada (ödəyicinin sərəncamı olmadan) həyata keçirir.

Məhkəmə və digər dövlət orqanlarının qərarlarının məcburi icrası məhkəmə icraçıları tərəfindən həyata keçirilir.

Hüquqi şəxs olan ödəyicinin (borclunun) bank hesabından dövlət sosial sığorta üzrə borcların və tətbiq edilmiş maliyyə sanksiyalarının Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun (bundan sonra "Dövlət Sosial Müdafiə Fondu") büdcəsinə alınması barədə Dövlət Sosial Müdafiə Fondu orqanının sərəncamı inksasso sərəncamı ilə birlikdə banka bilavasitə həmin orqanlar tərəfindən təqdim olunur.

İnkasso tapşırığı əsasında ödənişin alınması akseptli və ya akseptsiz qaydada həyata keçirilə bilər.

İnkasso tapşırığı əsasında akseptli qaydada həyata keçirilən ödəniş zamanı ödəyicinin müvafiq yazılı sərəncamı tələb olunur. Həmin sərəncam qabaqcadan da verilə bilər (qabaqcadan aksept), bu şərtlə ki, vəsait alanı eyniləşdirməyə imkan verən lazımi məlumatlar sərəncamda göstərilmiş olsun.

İnkasso tapşırığı əsasında akseptsiz qaydada ödəniş ödəyicinin sərəncamı olmadan, lakin onunla müvafiq icraçı bank arasında bank hesabı müqaviləsində nəzərdə tutulmuş hallarda həyata keçirilir.

İnkasso üzrə hesablaşmalar zamanı emitent bank (vəsait alan bank) müştərinin (vəsait alanın) tapşırığı ilə ödəyicidən ödənişin və (və ya) ödəniş akseptinin alınması əməliyyatlarını vəsait alanın hesabına həyata keçirməyi öhdəsinə götürür. Vəsait alanın tapşırığını almış emitent bank tapşırığın icrası üçün ödəyicinin müştərisi olduğu icraçı bankı (ödəyici bankı) cəlb edə bilər.

İnkasso tapşırıqlarından malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi ilə bağlı ödənişlərin alınması üçün, habelə müqavilə ilə nəzərdə tutulmuş digər hallarda istifadə edilir.

Akkreditiv üzrə hesablaşmalar zamanı ödəyicinin akkreditiv açılması haqqında tapşırığı və göstərişi ilə hərəkət edən bank (emitent bank) vəsait alana akkreditivin tələblərinə cavab

verən müvafiq sənədlərin təqdim edilməsi şərti ilə vəsait ödəməyi və ya köçürmə vekselini ödəməyi, aksept etməyi və ya uçota almağı və ya bu səlahiyyətləri başqa banka (icraçı banka) verməyi öhdəsinə götürür. Vəsait alana vəsaiti ödəyən və ya köçürmə vekselini ödəyən, aksept edən və ya uçota alan emitent banka icraçı bank haqqında qaydalar tətbiq olunur.

Ödənilmiş akkreditiv açıldıqda emitent bank onun məbləğini ödəyicinin və ya ona verilmiş kreditin hesabına öz öhdəliyinin bütün müddəti ərzində icraçı bankın sərəncamına köçürür. Ödənilməmiş akkreditiv açıldıqda emitent bank onun məbləğini icraçı banka akkreditiv icra olunduqdan sonra ödəyir.

BANKLARDA KORPORATİV İDARƏETMƏ STANDARTLARININ TƏTBİQİ QAYDALARI

Korporativ idarəetmə – bankın strateji baxışı əsasında onun strateji vəzifələrinin müəyyən edilməsini, bütün idarəetmə səviyyələrində dəqiq vəzifə bölgüsünün aparılmasını, idarəetmə orqanları üzvlərinin tutduğu vəzifələrə uyğunluğunu, risklərin səmərəli idarə edilməsi məqsədi ilə müfəssəl nəzarət sistemlərinin tətbiqini, habelə idarəetmənin şəffaflığına nail olmaq üçün daxili və xarici auditdən istifadəni təmin edən prudensial idarəetmə üsuludur.

Korporativ idarəetmə standartlarının lazımi səviyyədə tətbiqni təmin etmək üçün bankın səhmdarları və inzibatçıları aşağıdakıları təmin etməlidirlər:

- Strateji planlaşdırma prosesinin təşkilini və həyata keçirilməsini;
- Səmərəli təşkilati strukturun yaradılmasını;
- Maliyyə planlaşdırması prosesinin həyata keçirilməsini;
- Səmərəli daxili nəzarət və hesabatlıq sistemlərinin mövcudluğunu;
-Bankın fəaliyyətini əks etdirən dürüst, dolğun və qərəzsiz məlumatın istifadəçilərə vaxtında təqdim edilməsini;
- Risklərin idarə edilməsi sistemlərinin yaradılmasını;
- Bankın cari maliyyə vəziyyəti və əməliyyatları haqqında müfəssəl və aydın məlumatın davamlı axınını təmin edən etibarlı idarəedici informasiya sistemlərinin mövcudluğunu və inkişafını;
- Daxili nəzarətin daimi səmərəliliyini artıran, onu mükəmmələşdirən və möhkəmləndirən daxili audit strukturunun yaradılmasını, audit işi üzrə siyasətin və strategiyanın müəyyənləşdirməsini və işinin təşkilini;
- Maraqlar münaqişəsinin qarşısın almaq və tənzimləmək məqsədi ilə müvafiq hallarda bankın səhmdarları və inzibatçıları tərəfindən həyata keçiriləcək dəqiq ardıcıllığı ilə müəyyən edilmiş tədbirlərin hazırlanmasını, habelə hər bir münaqişə üzrə maraqlı tərəflərə bankın aydın və əsaslandırılmış mövqeyinin vaxtında çatdırılmasını;
- İnzibatçıların bankın mənafeini öz mənafelərindən üstün tutmasını;
- Banka aidiyyəti olan şəxslərin və onların adından hərəkət edən şəxslərin öz imkanlarından istifadə edərək bankın finans vəziyyətinin pisləşməsinə səbəb ola bilən və ya imicinə xələl gətirən halların qarşısını almaq üçün tədbirlərin görülməsini;

Qanunvericiliyə uyğun olaraq Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarının istifadəsini və onların tələblərinə daimi riayət edilməsini və bu məqsədlə mühasibat uçotu və hesabatlıq prosedurlarını əks etdirən daxili qaydaların işlənib hazırlanmasını.

Kredit komitəsi bankın İdarə Heyəti üzvlərindən və struktur bölməsinin rəhbərlərindən təşkil olunur. Komitəyə İdarə Heyətinin üzvü rəhbərlik edir. Bankın baş

maliyyə inzibatçısı və müsahibat xidmətinin vəzifəli şəxslərindən biri komitənin üzvü olmalıdır.

Kredit komitəsinin başlıca vəzifələri aşağıdakılardan ibarətdir:

- Müşahidə Şurasının müəyyən etdiyi limitlərdən artıq kreditlərin verilməsi və kredit öhdəliklərinin götürülməsi, habelə onların şərtlərinin dəyişdirilməsi və restrukturizasiyasını təsdqiq etmək;
- Kreditlərin cəmləşmələrinə nəzarət etmək;
- Müxtəlif fəaliyyət növlərinin və sahələrin kreditləşməsi üçün qaydaların hazırlanması və tətbiq edilməsini təmin etmək;
- Kreditlərin və kredit öhdəliklərinin faiz dərəcələrini müəyyən etmək;
- Vaxtaşırı kredit portfelinin qəflətən monitorinqini həyata keçirmək;
- Girovların müntəzəm olaraq yenidən monitorinqini həyata keçirmək;
- Girovların müntəzəm olaraq yenidən qiymətləndirilməsini təmin etmək;
- Kreditlərin verilməsi üzrə səlahiyyətlərə və prosedurlara riayət edilməsini təmin etmək;
- Kreditlərin qaytarılması üçün görülən bütün tədbirlərin iclasına rəhbərlik etmək;
- Kreditlər üzrə mümkün zərərlər üçün yaradılmış ehtiyatların yetərliliyini (adekvatlığın) yoxlamaq və təhlil etmək;
- Ayda bir dəfədən az olmamaq şərti ilə kreditlərin alınması üçün ərizələri nəzərdə keçirmək;
- Ən azı ayda bir dəfə kredit portfelinə aid riskləri təhlil etmək;
- Azərbaycan Respublikası Milli Bankının müəyyən etdiyi qaydaları uyğun şəkildə bütün kreditlərin təsdiqi, təsnifatı, ehtiyatların yaradılması, vaxtında və tam həcmdə ödənilməsi üçün struktur bölmələri tərəfindən hazırlanmış qayda və prosedurlara baxmaq və təsdqiq olunması üçün Müşahidə Şurasına təqdim etmək.

Bankın maliyyə idarəetməsi və hesabatlığı aşağıdakı tərkib hissələrdən ibarətdir:

- Uçotun idarə edilməsi prosedurları;
- Rəhbərliyə məlumat;
- Maliyyə nəzarəti.

Maliyyə idarə etməsi və hesabatlığı üzrə vəzifələr aşağıdakı kimi bölüşdürülür:

- Müşahidə Şurası bankın maliyyə idarəetməsinin və hesabatlığının üsullarını və qaydalarını müəyyən edir, onların lazımi qaydada və vaxtında yerinə yetirilməsinə nəzarət edir;
- İllik maliyyə hesabatları Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilir. Müşahidə Şurası illik maliyyə hesabatlarının əsas istifadəçilərə vaxtında çatdırılmasını, Audit Komitəsi isə onların mötəbərliyini və aydınlığını təmin edir;
- İdarə Heyəti Müşahidə Şurası tərəfindən təsdiq edilmiş büdcə və maliyyə planlaşdırılması sistemini yaradır və proqnozlaşdırılan mənfəətliyin vaxtaşırı təhlilini aparır;
- Baş maliyyə inzibatçısı bankın mühasibat, hesabatlıq və maliyyə nəzarəti funksiyalarının lazımi qaydada təşkil edilməsini və onlara əməl edilməsini təmin edir;
- Baş maliyyə inzibatçısı mühasibat prosedurlarının idarə edilməsini və bütün maliyyə və vergi hesabatlarının vaxtında hazırlanmasını və təqdim edilməsini təmin edir;
- Struktur bölmələrinin rəhbərləri Müşahidə Şurası tərəfindən təsdiq edilmiş daxili qaydalara uyğun olaraq maliyyə nəzarətini həyata keçirmək üçün məlumatın hazırlanmasını və təqdim edilməsini təmin edir.

Bankın bütün struktur bölmələri və mühasibat xidmətinin əməkdaşları məhsul və xidmətlər haqqında cari məlumat bazasını yaradır. Müşahidə Şurası, İdarə Heyəti və ya

bankın hər bir inzibatçısı bu məlumat bazasında saxlanan məlumatlarla istənilən zaman tanış olmaq hüququna və imkanına malik olmalıdır.

Filial və şöbələrin əməliyyatları bankın mühasibat kitablarında real vaxt rejimində və mərkəzləşdirilmiş qayda əks etdirildikdə həmin filial və şöbəyə baş mühasibin təyin olunması məcburi deyildir.

Büdcənin hazırlanması. Büdcə növbəti təqvim ili üçün il başlanmazdan əvvəl tərtib olunur. Büdcənin hazırlanması ilin əvvəlinə bir ay qalmış başa çatdırılır. Büdcə baş maliyyə inzibatçısının rəhbərliyi altında hazırlanır. İdarə Heyəti ilə razılaşdırılır və bankın səlahiyyətli idarəetmə orqanı tərəfindən təsdiq edilir. Büdcənin icrasına məsul olan şəxslər və müddətlər müəyyən edilir.

Maliyyə açıqlaması və şəffaflıq. Bank bütün mühüm məsələləri, o cümlədən maliyyə vəziyyəti, fəaliyyət nəticələri, mülkiyyə və idarə edilmə üzrə məlumatları əsas istifadəçilərə vaxtında və dəqiq açıqlayır. Bank ilin sonunda maliyyə hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq konsolidasiya əsasında hazırlanmış və kənar auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatlarını auditor rəyi ilə birlikdə əsas istifadəçilərə maliyyə ilinin qurtarmasından ən geci beş ay sonra təqdim edir. Bank illik maliyyə hesabatlarını kütləvi informasiya vasitələrində dərc etdirir.

Bank öz fəaliyyətinə dair aşağıdakı rüblük məlumatları kənar auditor tərəfindən təsdiq edilmədən açıqlaya bilər:

- Maliyyə və əməliyyat nəticələrini əks etdirən balansı, mənfəət və zərərlər haqqında hesabatı;
- Maliyyə məlumatlarının açıqlanması üçün bankın İnternet səhifəsindən istifadə edilə bilər.

Bankın açıqlanan maliyyə hesabatları İdarə Heyətinin sədri və baş mühasib (mühasibat xidmətinin rəhbəri) tərəfindən imzalanmalıdır.

Bankların maliyyə və inzibati idarəetmə sistemlərinin təkmilləşdirilməsi 2006-cı ildə qarşıda duran digər mühüm bir vəzifə olmuşdur. Bu məqsədlə effektiv idarətemənin ən mühüm komponenti olan korporativ idarəetmə standartlarının tətbiqinin təşviqi davam etdirilmişdir. Korporativ idarəetmə standartlarının banklarda tətbiqinin səmərəliliyinin artırılması 2006-cı ildə də bank sisteminin sabit inkişafının mühüm şərtlərindən biri olmuşdur. Banklarda korporativ idarəetmənin təkmil standartlarına keçidin stimullaşdırılması və bu prosesin effektiv nəzarətdə əhatə olunması üçün tədbirlər planı hazırlanmış, standartların tətbiqi ilə bağlı hər bir banka müvafiq tövsiyələr verilmiş və il ərzində onların davamlı monitorinqti aparılmışdır.

Həyata keçirilmiş tədbirlər nəticəsində fokus qrupu olan 20 bankda korporativ idarəetmə standartlarının tətbiqi məqbul səviyyəyə çatdırılmışdır. Korporativ idarəetmə, tətbiqi mürəkkəb və davamlı bir proses tələb edən yeni idarəetmə aləti olduğu üçün bu standartların tətbiqi məqsədilə kompleks tədbirlər həyata keçirilməlidir. Bu istiqamətdə görülən işlərin 2007-ci ildə də davam etdirilməsi, prudensial tənzimləmə və nəzarət alətləri vasitəsilə korporativ idarəetmə standartlarının tətbiqinin nəzarətdə saxlanması təmin olunacaqdır.

Bankların fəaliyyətinin şəffaflığının təmin edilməsinin və korporativ idarətemə standartlarının tətbiqinin ən mühüm elementlərindən biri də maliyyə hesabatlığının Maliyyə Hesabatlığının Beynəlxalq Standartlarına (MHBS) uyğun təşkil edilməsidir. Hesabat ilində bankların maliyyə hesabatlarında MHBS-dən kənarlaşmaların tam aradan qaldırılması ilə MHBS-yə keçid prosesləri tamamlanmışdır.

Bank işinin və siyasətinin ümumi strateji istiqamətlərinin, o cümlədən daxili nəzarət siteminin yaradılması və həyata keçirilməsi, habelə bank əməliyyatlarının düzgün və səmərəli aparılması üçün bankın Müşahidə şurası və İdarə Heyəti məsuliyyət daşıyır.

Bankın Maliyyə-təftiş komissiyası isə bankın qanunlara, normativ aktlara, habelə bankın özünün siyasətinə və qaydalarına əməl edilməsini təhlil etmək məqsədilə, onun əməliyyatlarının müntəzəm auditinin keçirilməsi üçün məsuliyyət daşıyır.

Daxili audit, həmçinin bank aktivlərinin təhlükəsizliyini təmin edən müvafiq nəzarət mexanizmlərinin adekvatlığını, yaxud mövcudluğunu, bankın səhmdarlara, nəzarətedici orqanlara və ictimaiyyətə təqdim etdiyi dövri hesabatların dəqiqliyini, tamlığını və dürüstlüyünü təsdiq etməlidir.

Daxili nəzarət mexanizmləri bank fəaliyyətində potensial səhvlərin, nöqsanların və itkilərin vaxtında aşkar edilməsi və qarşısının alınmasının, bank risqlərinin minimuma endirilməsinin mühüm vasitəsidir. Daxili nəzarət mexanizmlərinin yaradılması bank əməliyyatlarının etibarlılığı, təhlükəsizliyi, səmərəliliyi və qanunvericiliyə uyğunluğunu təmin etmək üçün zəruridir.

Hər bir bank öz fəaliyyətində daxili nəzarət mexanizmlərinin adekvatlığını təmin etmək məqsədilə aşağıdakı əsas prinsipləri və qaydaları rəhbər tutmalıdır:

a) Mükəmməl təşkilati struktur;

b) Zəruri siyasət və uçot qaydaları;

c) Aktivlərin qorunması üçün tədbirlər;

d) Daxili audit üzrə səmərəli proqram.

Daxili audit işinin məqsəd və vəzifələri

Daxili audit – bankın daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyini artırmaq məqsədi ilə yaradılmış və icra orqanlarından müstəqil olan gəlir gətirməyən xidmətidir. Daxili audit xidməti, risklərin idarə edilməsi, nəzarət və idarəçilik proseslərinin səmərəliliyinin qiymətləndirilməsi, habelə artırılması istiqamətində bankın öz məqsədlərinə çatmasında köməklik göstərir.

Daxili audit bankın daxili nəzarət sistemlərinin mütəmadi yoxlanılması prosesinin, habelə bankın etibarlı və prudensial idarə edilməsini və fəaliyyətini təmin edən daxili nəzarət

sisteminin bir hissəsidir. Daxili audit bankın Müşahidə Şurasından və İdarə Heyətindən müstəqil olaraq fəaliyyət göstərir.

Daxili audit işinin məqsəd və vəzifələri əsasən daxili audit bölməsindən (bundan sonra DAB) əsasən bankın aşağıdakı sahələrdə fəaliyyətinin yoxlanılmasını, qiymətləndirilməsini və müvafiq hesabatların verilməsini tələb edir:

- Qüvvədə olan Azərbaycan Respublikasının qanunvericiliyinə və AMB-nin normativ xarakterli aktlarına və göstərişlərinə riayət olunması;
- Risklərin tənzimlənməsi və idarə edilməsi;
- Daxili nəzarət sisteminin mövcud olması;
- Yeni bank əməliyyatlarının, sistemlərinin və proseslərinin hazırlanmasında və tətbiqində keyfiyyət prosedurları;
- Bank aktivlərinin qorunması üzrə sistem və prosedurlar;
- Uçot məlumatlarının adekvatlığını və düzgünlüyünü təmin etmək üçün sistem və prosedurlar;

Zəruri hallarda, DAB bankın reqlamentində (daxili qaydalarda, prosedurlarda və əsasnamələrdə) dəyişikliklərin edilməsi üzrə tövsiyələr verir.

Daxili auditin prinsipləri

Daxili auditin prinsipləri aşağıdakıları əhatə edir:

Davamlılıq. Daxili audit fəaliyyəti daimi olaraq həyata keçirilir.

Müstəqillik. Daxili audit, gündəlik nəzarət prosesindən daxil edilməyən bir fəaliyyət növü olmalıdır. Müstəqillik daxili auditin obyektivlik və tərəfsizlik prinsipləri əsasında həyata keçirilməsini təmin edir.

Tərəfsizlik. Daxili audit qərəzsiz olmalı və müdaxilədən kənar şəkildə həyata keçirilməlidir.

Peşəkar səriştə. Daxili auditor öz vəzifələrini həyata keçirmək üçün lazım olan bilik və təcrübəyə malik olmalıdır.

İşin miqyasi . Daxili audit işinin miqyası bankın bütün fəaliyyətini və strukturunu əhatə etməlidir.

Məxfilik. Daxili auditor öz vəzifələrini həyata keçirərkən əldə etdiyi məlumatların qorunmasında və istifadəsində sayıq olmalı və bu məlumatları şəxsi maraqlar üçün və ya bankın məqsədlərinə zərər verəcək şəkildə istifadə etməməlidir.

Daxili auditin hansı növləri vardır

daxili auditin müxtəlif növləri vardır:

- **Maliyyə auditi:** məqsədi uçot sisteminin və məlumatlarının, eləcə də maliyyə hesabatlarının etibarlılığını qiymətləndirməkdir;
- **Normativ qaydalara riayət olunmasının auditi:** məqsədi qanunlara, təlimatlara, qayda və prosedurlara riayət olunmasını təmin etmək üçün yaradılmış sistem və prosedurların keyfiyyətini və uyğunluğunu qiymətləndirməkdir;
- **Əməliyyat auditi:** məqsədi sistem və prosedurların keyfiyyətini və uyğunluğunu qiymətləndirmək, təşkilati strukturu diqqətlə təhlil etmək və audit işi ilə bağlı metodların və resursların adekvatlığını qiymətləndirməkdir;
- **İdarəetmə auditi:** məqsədi rəhbərliyin risklərə və nəzarətə münasibətinin keyfiyyətini qiymətləndirməkdir.

Azərbaycanda banklarında riskləri idarəetmə komitəsi

Azərbaycanda bankın aktivlərinin həcmi 30 mlrd. manata çatdıqda və ya filial şəbəkəsinin sayı 3-dən artıq olan hallarda digər risklərin idarə edilməsi məqsədilə hər bir bankda mövcud daxili komitələrin fəaliyyətlərini əlaqələndirən Riskləri idarəetmə komitəsi yaradılır. Digər hallarda Riskləri idarəetmə komitəsinin səlahiyyətlərini İdarə Heyəti həyata keçirir.

Riskləri idarəetmə komitəsi bankın fəaliyyəti nəticəsində yaranan risklər haqqında məlumata və biliyə malik olan İdarə Heyətinin üzvlərindən və bankın struktur vahidlərinin rəhbərlərindən təşkil olunur. Komitəyə İdarə Heyətinin üzvü rəhbərlik edir.

Riskləri idarəetmə komitəsinin başlıca vəzifələri aşağıdakılardan ibarətdir:

- Risklərin idarə edilməsi qaydalarını hazırlamaq, İdarə Heyəti ilə razılaşdırdıqdan sonra təsdiq olunması üçün Müşahidə Şurasına təqdim etmək;
- Risklərin idarə edilməsi qaydalarını vaxtaşırı qiymətləndirmək və tələb olunduqda yeniləşdirmək;

- Risklərin idarə edilməsi prosesini əməliyyat cəhətdən daim dəstəkləmək və bunun üçün bankın müvafiq struktur bölməsinin və ya əməkdaşlarının müəyyən edilməsini təmin etmək.

Bank sektorunda böhran

Finans böhranı, sadəcə olaraq, iqtisadiyyatın ümumi böhran şərtləri altında yaranmış geniş böhran spektrinin bir tərəfidir. "Finans böhranı" termini son zamanlar çox ümumi və geniş mənada istifadə olunur. Əvvəllər, xüsusən də əgər söhbət dövri iqtisadi böhranlara səbəb olan və onları müşayiət edən hadisələrdən gedirdisə, ənənəvi olaraq, daha çox "pul böhranları"ndan danışılırdı. Finans böhranlarının səbəbləri müxtəlifdir. İlk növbədə, bunun səbəbləri əsassız (tutarsız) makroiqtisadi siyasət, inflyasiyanın güclənməsi, bank sektorundakı çaxnaşma, zəif və ya axsaq milli kredit sistemi, əlverişsiz xarici şərtlər (məsələn, əsas milli ixrac mallarının qiymətinin düşməsi, və ya əsas idxal mallarının qiymətinin qalxması), düzgün olmayan mübadilə kursu (adətən, yüksək), siyasi qeyri-sabitlikdir.

Sistemli böhranın başlanğıcı ümumilikdə bank sektorunda müstəsna rolu olan bir və ya bir neçə bankın ödəmə qabiliyyətində ciddi problemlərin yaranması ilə bağlı ola bilər. Bu cür bankların dağılması "domino effekti"ni təhrik edə və bununla da sistemli böhran yarada bilər.

Bazar iqtisadiyyatı şəraitində bank böhranları qanunauyğun haldır və ona xas olan immanent disproporsiyalar və ziddiyyətlərlə şərtləndirilir.

Beynəlxalq təcrübədə bank böhranının ən geniş yayılmış izahı Demirhuk-Kunt və Detrajiaka məxsusdur. Bu izaha görə əgər aşağıdakı dörd şərtdən biri mövcud olarsa bank sisteminin vəziyyəti böhranlı hesab oluna bilər:

1. bankların aktivlərində işləməyən (yəni gəlir gətirməyən) aktivlərin payı 10 %-dən çoxdur;
2. bank sisteminin işinin bərpasına sərf olunun xərclər ÜDM-un 2 %-dən çoxdur;
3. bank sektorunun problemləri bankların əhəmiyyətli hissəsinin (10 %-dən artıq) milliləşdirilməsinə gətirib çıxarıb;
4. əmanətçilər arasında şaiyələr (panika) yaranıb və depozitlərin kütləvi surətdə geri götürülməsi baş verib və ya depozitlərin dondurulması, ya da ki, böhrana cavab olaraq hökumət tərəfindən depozitlərə ümumi zəmanətlərin tətbiq olunması kimi fövqəladə tədbirlər görülüb.

Ümumiyyətlə, son bank böhranları aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- finans axınlarının qloballaşması və liberallaşması regional və qlobal miqyaslı finans böhranları üçün yeni əlavə zəminlər yaratdı ki, bunların da nəzərə alınmaması milli və dünya iqtisadiyyatının inkişafı üçün, hər şeydən əvvəl bu iqtisadiyyata xidmət edən və eyni zamanda müəyyən müstəqil əhəmiyyət kəsb edən finans sistemi üçün təhlükə yaradır;
- kapitalların beynəlxalq hərəkəti effektlilik, gəlirlilik və risk haqqında təsəvvürlərinə əsaslanan özəl institutlar arasındakı şəxsi razılaşmalar vasitəsilə həyata keçirilir, buna görə də resipientin bazarının etibarlılığına yönələn hər növ şübhələr bu bazarda həm kapitalın yerləşdirilməsi və həm də bazardan çıxma məsələlərində fərdi investorların davranışlarına həlledici təsir göstərir;
- investorların davranışı bir çox hallarda bazarın şəffaflıq, onu xarakterizə edən informasiyaların, xüsusilə də finans vəziyyətinə aid məlumatların dəqiqlik dərəcəsi əsasında

formalaşır. Bu halda real vəziyyəti, çatışmamazlıqları və təhlükələri gizlətməyə yönələn istənilən səylər yalnız böhran hallarının dərinləşməsinə, xüsusilə də böhranın kritik vəziyyətində dağıdıcı proseslərə rəvac verə bilər;

- bazarın sabitliyi bir çox hallarda ona xidmət edən bank sisteminin möhkəmliyi və etibarlılığı ilə təyin olunur ki, bu bankların da zəifliyi finans böhranının mühüm detonatorudur;
- qloballaşmanın və liberallaşmanın bütün çatışmazlıqların baxmayaraq, müasir şəraitdə bu proseslər iqtisadi artım üçün iqtisadi qapalılığa nəzərən daha çox imkanlar yaradır. Lakin göstərilən çatışmazlıqların bazarlara, xüsusilə də yeni formalaşan bazarlara təsirini minimuma endirmək üçün, böhran hallarının yaranmasını və artmasını qabaqlayan, milli spesifikanı, qlobal qanunauyğunluğu və dövlətlərarası razılaşmaları nəzərə alan düşünülmüş və çevik iqtisadi və finans siyasəti zəruridir ki, burada da beynəlxalq təşkilatların və institutların artan rolu qeyd olunmalıdır.

Ümumiyyətlə, dünya üzrə yaşanan bank böhranlarının hamısının əsasında aşağıdakılar durur:

1. Yüksək inflyasiya;
2. Qiymət dəyişmələri ilə əlaqədar gözləmələrin təşvişə yol açması;
3. Gələcəyə olan qeyri-müəyyənlik;
4. Yüksək inflyasiyanın finans bazarına mənfi təsiri;
5. Borcların sürətlə böyüməsi;
6. Nəzarətsiz rəqabət;
7. Kredit tələbindəki ani və sürətli artımlar;
8. Milli pulun dəyərindəki dəyişikliklər;
9. Valyuta bazarındakı iqtidarsızlıq;
10. Bankçılıq sektorundakı problemlər.

Əmanət sığorta sisteminin mahiyyəti və onun azərbaycanda fəaliyyəti

Bankların iflası zamanı dövlət tərəfindən lazımı tədbirlər və proqramlar hazırlanır. Məhz, bankların iflası zamanı dövlət tərəfindən lazımı tədbirlər və proqramlar kontekstində Əmanət sığorta sistemi (ƏSC) fəaliyyət göstərir.

1930-cu illərdə ABŞ – da banklardan əmanətin çəkilməsini önləmək üçün mükəmməl bir dərman olaraq ortaya çıxmış və illərdən bəri özəl sektoru əmanət riskindən qorumaqdadır. Bankın əmanət sahibləri, bank seçimində öz təhlillərindən çox hökümət sığorta və təcrübəsinə əsaslanaraq güvən alır. Lakin, əmanət sığorta obyekti olmasından dolayı, banklar əmanətlərin cəlb edilməsində risklərini sıfıra endirməkdədirlər. Əmanət sahibi acısından durum dəyərləndirildiyində, əmanət sığorta miqdarını aşmadığı müddətcə bir bankın digər bankdan üstün və ya zəif cəhəti təsbit etmək çətinləşir. Bu isə əmanətçilər üçün hansı bankın sağlam və ya zəif çalışmasını müəyyən etməkdə problem yaradır.

Əmanət sığorta sistemləri ölkələrin strukturlarına görə bəzi kiçik fərqliliklər xaricində ümumi struktur etibarilə bir - birlərinə bənzər özəllikləri vardır və bu özəllikləri aşağıdakı kimi açıqlaya bilərik:

- Sistemin quruluşunda tərəf olaraq dövlətin marağı olmuş və sistemin nəzarət və təftişini əlində tutmuşdur;
- Adətən, əmanət bir dövlət qurumu tərəfindən sığortalanır və özəl sığorta şirkətləri isə sistem xaricində qalmaqdadır;
- Çox ölkələrdə sistemə qatılmaq məcburi olmamasına rəğmən rəqabət şərtləri səbəbi ilə həmən-həmən bütün banklar sistemə qatılmaqdadır;
- Banklar əmanətlərin həcminə görə hər il müəyyən bir sığorta haqqı ödəməkdə və bu haqq sabit olub bankların risklərinə görə dəyişməkdədir;
- Əmanətin tamamı deyil, ancaq müəyyən bir hissəsi qüvəncə altına alınmaqdadır;
- Sistem sıxıntıya girdiyi zaman dövlət tərəfindən dəstəklənməkdədir;
- Zəif bankların fəaliyyəti idari nəzarərtlə izlənməkdədir.

Əmanət sığorta sisteminin məqsədi – makro baxımdan əmanət sahiblərinin bank sistemlərinə olan güvəni gücləndirir və əmanətlərin bankcılıq sistemi kənarında qalmasını və ya sistem kənarına çıxarılmasının qarşısını almaq ücün fəaliyyət göstərir. Eyni zamanda, ƏSS yıgım sahiblərinin əmanətlərini topluca və ani olaraq banklardan çəkmələri durumunda bu sektorda yaşanabiləcək böhranların da qarşısını alır və ya ola biləcək mənfi təsirləri minimuma endirilməsində böyük xidməti vardır.

Vətəndaşların finans maraqlarının müdafiəsi dünyanın onlarla ölkəsində vacib problemlərdən biridir. Bu, həm əmanətçilərin zəmanət təminatıdır (başlıca olaraq fiziki şəxslərin),həm də bank likvidliyi böhranının aradan qaldırılmasının real mexanizminin formalaşdırılmasıdır.

Son 20 il ərzində 80-90-cı illərin bank böhranlarına cavab olaraq İEÖ-in bir çoxunda əmanətlərin sığortalanması sistemi (ƏSS) yaradılmağa başlamışdır. Son onilliklərdə bu cür sistemlər Şərqi Avropanın Ukrayna, Albaniya, Baltikyanı ölkələrində, Asiyanın Qazaxıstan,Özbəkistan, Vyetnam kimi ölkələrində yaradılmışdır. Çin, Monqolustan, Malaziya, Qırğızıstan, Taciksitan kimi ölkələr depozitlərin sığortalanmasının milli sisteminin yaradılmasına hazırlıq mərhələsindədir. Azərbaycanda «Əmanətlərin Sığortalanması haqqında» Azərbaycan Respublikasının Qanunu 11 fevral 2007-ci ildə dərc edilməklə qüvvəyə minmişdir. Bu qanun Azərbaycan Respublikasında fəaliyyət göstərən banklarda fiziki şəxslərin əmanətlərinin kollektiv icbari sığortalanması

sisteminin yaradılması və fəaliyyəti, o cümlədən əmanətlər üzrə kompensasiya ödənilməsi qaydalarını müəyyən edir. Bu, onu təsdiq edir ki, təminatlı yaşamın müdafiəsi sisteminin yaradılması dünyada dövlətin stabilliyi və maliyyə təhlükəsizliyinin təminatının effektiv sisteminin zəruri elementi olaraq qəbul olunur.

FƏSİL 25. AZƏRBAYCANda BANK HESABLARIN NÖVLƏRİ

AR- da Müştərilər (hesab sahibləri) bank hesabları açarkən bankları seçməkdə müstəqidirlər, bir və ya bir neçə bankda hesab açа bilərlər. Xarici valyutada bank hesabları yalnız müvəkkil banklarda açıla bilər. Banklar milli valyutada (manatda) müxbir hesablarını yalnız Azərbaycan Respublikasının Milli Bankında açırlar.

Bank hesabları aşağıdakı növlərə bölünür:

- cari hesablar;
- cari sub hesablar;
- ssuda hesabları;
- əmanət (depozit) hesabları;
- müxbir hesablar.

Cari hesablar dövlət orqanlarının, bələdiyyələrin, hüquqi şəxslərin, onların filial, nümayəndəlik və digər ayrıca bölmələrinin, həmçinin fərdi sahibkarların maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır. Büdcə təşkilatlarına cari hesablar yalnız xarici dövlət və hüquqi şəxslər tərəfindən məqsədli təyinat üzrə verilən yardım və qrantların alınması və istifadəsi üzrə bank əməliyyatlarının aparılması üçün açılır.

Cari hesablara müvəqqəti cari hesablar və xüsusi cari hesablar da aiddir.

Müvəqqəti cari hesablar təsərrüfat ortaqlıqları, cəmiyyətləri, kooperativlər və digər təsərrüfat subyektlərinə onların dövlət qeydiyyatına alınanadək müvafiq olaraq nizamnamə, şərikli kapiatllarının, habelə paylarının ödənilməsi üçün açılır.

Xüsusi cari hesablara məhkəmələrin və məhkəmə icraçısı qurumlarının depozit hesabları, habelə notariusların depozit sığorta girosu və zəmanət kassası hesabları aiddir. Məhkəmənin və məhkəmə icraçıları qurumunun depozit hesabları qanunvericilikdə nəzərdə tutulmuş məqsədlərlə bank əməliyyatlarının aparılması üçün açılır.

Sığorta girovu və zəmanət kassası hesabı xüsusi qaydada notariat fəaliyyəti həyata keçirilən zaman fəaliyyət nəticəsində vurula biləcək ziyanın ödənilməsi və xüsusi notariusun məsuliyyətinə zəmanət vermək məqsədilə qanunla nəzərdə tutulmuş pul vəsaitlərinin yığılması və istifadəsi üçün xüsusi notariuslara açılır.

Notariusun depozit hesabı qanunvericilikdə nəzərdə tutulmuş hallarda hüquqi və fiziki şəxslərdə pul vəsaitlərinin, qiymətli kağızların daxil olması, saxlanması və digər əməliyyatların aparılması üçün dövlət və xüsusi notariuslara açılır.

Cari subhesablar hüquqi şəxslərə onların regional fəaliyyətləri ilə əlaqədar filian və nümayəndəlik statusu daşımayan və olduğu yerdən kənarda yerləşən struktur bölmələrinə açılır. Bu hesablara daxil olan vəsaitlər həmin struktur bölmələrinin işçilərinin əmək haqları və əmək haqqı ilə bağlı digər məcburi köçürmələrin, habelə bu qurumların fəaliyyətini təmin edən zəruri kommunal xərclərin ödənilməsi üzrə ödənişləri istisna olmaqla, baş təşkilatla bağlanmış bank hesabı müqaviləsində müəyyən olunmuş müddətlərdə baş təşkilatların cari hesabına köçürülməlidir.

Ssuda hesabları bankın müştərilərə verdiyi kreditlərin uçotu üçün, kredit müqaviləsində nəzərdə tutulduğu hallarda isə, həmçinin kredit vəsaitlərinin istifadəsi və ödənilməsi ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır.

Əmanət (depozit) hesabları bank əmanəti (depozit) müqaviləsinə əsasən müştərilərin əmanətlərinin uçotu, pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi və müvafiq əməliyyatların aparılması üçün açılır.

Hüquqi şəxslərin əmanət (depozit) hesablarında olan pul vəsaiti başqa şəxslərə köçürülə bilməz.

Müxbir hesablar bankların özlərinin və müştərilərinin bank əməliyyatlarının aparılması məqsədi ilə yerli və xarici banklar üçün açılır.

Bank nəzarəti bank sisteminin sabitlik amili kimi

Dünyada bank sferasına nəzarətə və bu sferanın tənzimlənməsinə ciddi ehtiyac ötən əsrin 20-30-cu illərində baş vermiş Böyük depressiyadan sonra formalaşmağa başlamışdır. İkinci Dünya müharibəsindən sonra bank biznesinin beynəlmiləlləşdirilməsi və kapitallaşmanın sürətləndirilməsi beynəlxalq bank nəzarəti qayda və normalarının formalaşmasını şərtləndirdi. Bununla belə, bank sferasında nəzarət səlahiyyətləri hər bir ölkədə qanunvericiliklə müəyyən olunmuş institusional formalarda həyata keçirilir. Bu sistemlərin müxtəlif ölkələr üzrə fərqlərinə baxmayaraq, onların hamısı aşağıdakı əsas məqsədlərin həyata keçirilməsinə istiqamətlənib:

1. Pul və maliyyə sabitliyinin saxlanması. Bu da bankların iflasına yol verilməməsi və aktiv və passivlərin səmərəli idarə edilməsinə yönəldilmiş bank tənzimlənməsi ilə bağlı tədbirlərin görülməsi deməkdir.
2. Bank sisteminin səmərəliliyinin təmin olunması. Bu isə aktivlərin keyfiyyətinin artırılması və potensial risklərin azaldılması hesabına əldə olunur. Bank nəzarətinə həmçinin daxili bank əməliyyatlarının və maliyyə vəziyyətinin qiymətləndirilməsi daxildir ki, bu da bankların həyati əhəmiyyətli iqtisadi əməliyyatları və institutları maliyyələşdirmək qabiliyyətini qiymətləndirməyə imkan verir.
3. Əmanətçilərin maraqlarının müdafiəsi: əmanətçilər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməyən bankların fəaliyyətinə müvafiq orqanlarının əmanətçilərə münasibətdə öz öhdəliklərini yerinə yetirə bilməyən bankların fəaliyyətinə nəzarəti gücləndirilməlidir.

Ayrı-ayrı ölkələrdə bank nəzarətini həyata keçirən orqanların növləri də müxtəlifdir ki, bu da bir sıra institusional, mədəni və inzibati şərtlərlə, habelə iqtisadiyyatın inkişaf səviyyəsi və kapital bazarlarının həcmi ilə izah olunur. Bəzi ölkələrdə mərkəzi banka nəzarət və bu bankların tənzimlənməsi vahid orqan tərəfindən həyata keçirilir, digər ölkələrdə bu funksiyaları öz aralarında sıx əməkdaşlıq edən xüsusi nəzarət orqanları icra edir, çünki pul-kredit siyasətinin və bank nəzarətinin işlənib hazırlanması funksiyaları kəsişir.

Elə ölkələr var ki, burada nəzarət funksiyası tamamilə Mərkəzi bankın əlindədir. Bu ölkələrə İspaniya, Yunanıstan, Portuqaliya və Rusiyanı aid etmək olar. Bəzi ölkələrdə Mərkəzi Bank özünün nəzarət və tənzimləyici funksiyalarından qismən məhrum olunub (Fransa, Almaniya, Avstraliya, Kanada, İsveçrə, Türkiyə və s.). Nəhayət, elə ölkələr də vardır ki, onlarda Mərkəzi Banka və ya oxşar funksiyalara malik orqana nəzarət və tənzimləyici səlahiyyətlərin bir hissəsi verilir. Belə orqanın tipik nümunəsi kimi ABŞ-ın Federal Ehtiyatlar Sistemini göstərmək olar.

Beləliklə, nəzarət oqanları arasında funksiyaların bölünməsinin bir neçə modelini fərqləndirmək olar:

Model 1. Bank fəaliyyətinin tənzimlənməsi və ona nəzarət sferasında müstəsna səlahiyyətlərin qanunvericiliklə mərkəzi banklara həvalə olunmasına əsaslanır. Bank işi

sahəsində nəzarət təcrübəsinin yarandığı vaxtdan etibarən məhz bu model, yeganə olmasa da, tarixən hakim model olub. Bu gün bu model özünün hakim mövqelərini itirsə də, ona əvvəlki kimi həyati tələbat var. Məsələn, bu model İspaniya, Yunanıstan, Portuqaliya və Rusiyada istifadə olunur.

Model 2. "Qarışıq". Nəzarət və yoxlama funksiyaları ixtisaslaşdırılmış orqanlar tərəfindən Mərkəzi Bankın və maliyyə nazirliyinin bilavasitə iştirakı ilə yerinə yetirilir. Klassik misal kimi ABŞ-ı göstərmək olar. Amerikanın kommersiya bankları və maliyyə institutları üzərində nəzarəti Federal Ehtiyatlar Sistemindən başqa, banklarda və digər kredit institutlarında əmanətlərin sığortalanması ilə məşğul olan Əmanətlərin Sığortalanması üzrə Federal Korporasiya və Pul Tədavülünə Nəzarət İdarəsi (Maliyyə Nazirliyinin bürosu) tərəfindən də həyata keçirilir. Hər üç orqan ikiqat işin istisna olunması haqqında razılığa gəliblər. "Qarışıq" modelə Fransa, İtaliya və Niderland aiddirlər.

Model 3. Bank fəaliyyətinə nəzarət Maliyyə Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində, Mərkəzi Bankın iştirakı ilə müstəqil ixtisaslaşdırılmış orqanlar tərəfindən həyata keçirilir. Bu model Kanadanın və qismən Avstriya və Almaniyanın bank sisteminə xasdır.

Model 4. Bu model maliyyə xidmətləri bazarında meqatənzimləyicinin yaradılması haqqında qanunverici qərarlar qəbul etmiş ölkələri birləşdirir. Bu ölkələrin demək olar ki, hamısında nəzarət funksiyaları mərkəzi banklardan ayrılıb. Burada yalnız meqatənzimləyici səlahiyyətlərinin Mərkəzi Banka aid olduğu Sinqapur və müəyyən dərəcədə İrlandiya (burada meqatənzimləyici yerli Mərkəzi Bankın muxtar bölməsinin bazasında yaradılıb) istisna təşkil edir. Vahid maliyyə nəzarəti orqanları ilk dəfə 1986-cı ildə Norveç, 1988-ci ildə isə İslandiya və Danimarkada tətbiq olunub. Bu gün onlar Estoniyada, Latviyada, Macarıstanda, Maltada, Çində, Yaponiyada, Qazaxıstanda, Cənubi Koreyada və bir sıra digər ölkələrdə fəaliyyət göstərir.

Model 5. Beynəlxalq və ya millidən yüksəkdə nəzarət modeli. Bu modeli mənzil-qərargahı İsveçrədə yerləşən Beynəlxalq Hesablaşmalar Bankı (BHB) və üzv dövlətlərin maliyyə bazarlarına əhəmiyyətli təsir göstərən direktivlər qəbul edən Avropa İttifaqı (Aİ) həyata keçirir.

Bank nəzarətinin və tənzimlənməsinin təşkilinin konkret üsulunun seçilməsi bir sıra amillərin məcmusu ilə təyin olunur ki, bu amillərin də özünəməxsus müxtəlifliyi onların hər birinə təkrarolunmaz milli səciyyə qazandırır. Bir mübahisəsiz faktı qeyd etmək lazımdır ki, maliyyə bazarlarının bütün seqmentlərinin artan inteqrasiyası şəraitində nəzarət funksiyalarının meqatənzimləyicinin əlində cəmlənməsi tendensiyası özünü daha dolğun şəkildə büruzə verir.

Vaxtilə bir sıra inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr maliyyə bazarının meqatənzimləyicisini yaratmaqla maliyyə bazarının dövlət tənzimlənməsi sistemində islahatların aparılması yolunu seçmişdilər. Onların sırasına Norveçi (1986), Kanadanı (1987), Danimarkanı (1988), İsveçi (1991), Böyük Britaniyanı (1997), Yaponiyanı (1998), Koreyanı (1998), Avstraliyanı (1998), İslandiyanı (1999), Cənubi Afrikanı (1990), Macarıstanı (1996), Sinqapuru və s. ölkələri aid etmək olar. Meqatənzimləyici, mahiyyətcə, İsveçrədə də

yaradılıb. Maliyyə bazarlarında meqatənzimləyicilərin yaranması üzrə beynəlxalq təcrübənin şərhi 1N-li cədvəldə təqdim olunub.

Maliyyə bazarının bütün bölmələri üzərində nəzarətin və yoxlamanın birləşdirilməsi nadir hadisə deyil. Britaniyada təxminən 10 il əvvəl yaradılmış Maliyyə Xidmətləri İdarəsi (FSA) ilk vaxtlardan həm investisiya xidmətləri sektorunu tənzimləyir, həm də banklara nəzarət edirdi (bank sistemi üzərində nəzarət ona İngiltərə Bankından keçmişdi). Sonralar ipoteka kreditləşməsi sektoruna, 2005-ci ildən isə sığorta sektoruna nəzarət də bu quruma verildi.

Beləliklə, etiraf etmək olar ki, bir çox xarici ölkələrdə meqatənzimləyicilərin yaradılması və ya ən azı maliyyə bazarlarında fəaliyyət göstərən bir neçə tənzimləyici orqanın funksiyalarının birləşdirilməsi tendensiyası kifayət qədər diqqətlə izlənir. Lakin müxtəlif ölkələrdə maliyyə bazarlarının meqatənzimləyicilərinin yaradılması prinsipləri bir-birindən fərqlənir. Bu ölkələrin bəzilərində meqatənzimləyici həm tənzimləyici, həm də nəzarət funksiyalarını, digərlərində daha çox nəzarət funksiyalarını yerinə yetirir. Meqatənzimləyicilərin formalaşma prinsipləri hətta Avropa Ittifaqı çərçivəsində də fərqlənir. Məsələn, tam inteqrasiya olunmuş meqatənzimləyicilər üç ölkədə mövcuddur, iki dövlətdə tənzimlənmə əsasən bir institutda mərkəzləşib, bir ölkədə konfederal sistem, altı ölkədə üç idarədən ibarət tənzimlənmə strukturu mövcuddur, daha ikisində isə mövcud sistem dəyişiklik prosesindədir. Mərkəzi bankların iştirakına gəlincə, yeddi dövlətdə bank nəzarəti mərkəzi bankın daxilindədir və ya onunla sıx əlaqədədir, beş ölkədə banklara nəzarət orqanının mərkəzi bankdan heç bir asılılığı yoxdur, ikisində əsasən müstəqildir, bir dövlətdə isə sistem yenidən nəzərdən keçirilməkdədir.

Bu gün Azərbaycanın bank sektorunda səmərəli bank nəzarəti və tənzimlənmənin daha böyük əhəmiyyət kəsb etdiyi yeni inkişaf mərhələsi

başlayır. Azərbaycanda bank nəzarətinin və tənzimlənməsinin əsas məqsədləri bank sistemində sabitliyin saxlanması, əmanətçilərin və kreditorların maraqlarının müdafiəsidir.

Azərbaycanda bank tənzimlənməsinin qanunverici əsasını "Azərbaycan Respublikasının Milli bankı haqqında Qanun" təşkil edir. Həmin qanuna əsasən, Azərbaycanda kredit təşkilatlarına nəzarəti Azərbaycan Respublikasının Milli Bankı həyata keçirir.

Qanunvericiliklə Milli Banka bank əməliyyatlarının keçirilmə qaydalarının təyin olunması, kredit təşkilatlarının dövlət qeydiyyatı, onların fəaliyyətlərinin lisenziyalaşdırılması, kredit təşkilatlarının (bank və qeyri-bank) fəaliyyətinə nəzarətin həyata keçirilməsi üzrə funksiyaların həvalə olunması ilə əlaqədar Milli Bank tərəfindən normativ aktlar işlənib hazırlanır.

Azərbaycan Respublikası Milli Bankı tərəfindən banklarda və xarici bankların yerli filiallarında yoxlamaların təşkili və həyata keçirilməsinin prosedur qaydalarınını açıqlayın.

Milli Bank tərəfindən banklarda aparılan yoxlamanın əsas məqsədi onların fəaliyyətinin Azərbaycan Respublikasının bank qanunvericiliyinə, o cümlədən Milli Bankın normativ xarakterli aktlarına riayət edilməsinin, uçotun mötəbərliyinin, risklərin idarə edilməsinin, daxili nəzarət sisteminin səmərəliliyinin, bankın maliyyə vəziyyətinin və fəaliyyətinin perspektivlərinin ilkin sənədlər əsasında yerlərdə qiymətləndirilməsi, həmçinin kreditorların və əmanətçilərin maraqlarına bankın təhlükə törədə bilən fəaliyyətinin aşkara çıxarılmasıdır.

Yoxlama bankların fəaliyyəti haqqında məlumatların dəqiqliyini təmin edir və bankla əlaqədar müxtəlif vacib məsələlərin, xüsusilə də idarəetmə vəziyyətinin təhlilinə imkan yaradır.

Milli Bank hər bir bankda ildə bir dəfə yoxlama aparır. Milli Banka təqdim edilən prudensial və bank statistikası hesabatlarının təhlili və mənbəyi məlum olan digər məlumatlar əsasında bank aktivlərinin itirilməsi təhlükəsinin yarandığı, o cümlədən bankın aktivlərinin keyfiyyətini və maliyyə vəziyyətini xarakterizə edən göstəricilərin kəskin və ya davamlı olaraq pisləşdiyi, bank öhdəliklərinin və ya ödənişlərin icra edilməsi üçün zəruri olan likvid vəsaitlərin əhəmiyyətli səviyyədə yaxud davamlı olaraq azaldığı, bankın idarəetmə sistemində onun prudensial idarə edilməsinə təhlükə yarada bilən halların meydanna çıxdığı müəyyən edildikdə, habelə qanunvericiliyin pozulması faktlarının araşdırılması məqsədilə Milli Bank banklarda əlavə (planlaşdırılmamış) yoxlamalar keçirə bilər. Milli Bank, həmçinin, qarşılıqlı fəaliyyət prinsiplərinə müvafiq olaraq xarici bank tənzimlənməsi və nəzarəti orqanlarının sorğularına, habelə məhkəmənin qüvvəyə minmiş qərarlarına əsasən banklarda əlavə (planlaşdırılmamış) yoxlamalar keçirir.

Bankın fəaliyyətinin yoxlanılması hərtərəfli (kompleks) və ya məqsədli (tematik) ola bilər. Hərtərəfli yoxlama – bankın ümumi vəziyyətinin, o cümlədən kapital, aktivlər, idarəetmə, gəlir, likvidlik və riskliyə həssaslıq komponentlərinin qiymətləndirilməsi, habelə onun fəaliyyətinin bank qanunvericiliyinə uyğunluğunu müəyyən etmək üçün bank fəaliyyətinin bütün sahələrini əhatə edən ətraflı yoxlamadır.

Məqsədli (tematik) yoxlamalar – bankın fəaliyyətinin konkret sahəsinə və ya növünə yönəldilmiş yoxlamadır.

Bankın yoxlanılması prosesi ilkin hazırlıq işindən başlayır. Bu mərhələdə bankda aparılacaq yoxlamanın növü və əhatə ediləcək sahələr, habelə onun dövrü, müddəti və yoxlama ilə bağlı digər məsələlər müəyyən edilir.

FİNANS BAZARININ STRUKTURU

Fond təklif və tələbi arasındakı axınları nizamlayan qurumlar, axını saxlayan finans alətləri və bunları nizamlayan hüquqi və idari qaydaların mövcud olduğu və finans alətlərinin doğrudan və ya dolaylı olaraq, fond transfer əməliyyatlarının gerçəkləşdiyi bazarlara "Finans bazarları" adı verilmiş və finans bazarları tərkibinə pul və kapital bazarları daxildir.

Finans bazarlarını çeşidliyinə görə qruplaşdırmaq mümkündür:

1) bu bazardan faydalananlar baxımından: iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə fond tələb etmək üzrə şəxslər, şirkətlər, mərkəzi hökümət, bələdiyyə idarələri, xarici sərmayədarlar kimi 5 çeşid yatırımçı mövcuddur.

Şirkətlər kapital bazarına istiqraz və şirkətin səhmlərini satmaq üçün gəlirlər. Sərmayə bazarlarında ilk və ya II əl kapital alqı satqıları ola bilir. Ümumiyyətlə, şirkət orta müddətli kreditlərini bank və sığorta şirkətlərindən alırlar. Dövlət borcları arasında orta və uzunmüddətli xəzinə istiqrazları (borcları) xüsusən önəmlidir. Bunlar açıq bazarda satılır.

2) alətin tipi: borca və ya kapitala görə, yəni istiqraz və aksiya;

3) alətin müddəti: bir ilədək aşağı müddətli, 5-10 ilədək ortamüddətli və daha uzunmüddətli alətlər;

4) mərkəzləşmə dərəcəsi: bəzi bazarlar regional, bəzi bazarlar ölkə əhəmiyyətlidir. Buraya ölkənin hər yerindən təklif və tələb gələ bilir;

5) I və II bazarlar. II Bazardakı əməliyyatların çoxu daha öncə bazara çıxarılan alətlərin investorlar tərəfindən alqı-satqısıdır, yeni fondlar saxlanması deyildir. Bunlara II bazr işləmləri deyilir. Aksiya və istiqraz bazarlara çıxarılarkən, bunlar ilk bazara gəlir və ilk satış orada aparılır. Bunları satın alanlar satmaq istədikləri zaman II bazara gəlirlər.

Müddətindən asılı olaraq finans bazarı pul bazarı və sərmayə bazarı kimi iki yerə bölünür:

1) **Pul bazarı -** qısa fond təklifləri ilə qısa müddətə olan fond tələblərinin qarşılaşdığı bir bazardır. Ümumiyyətlə, qısamüddətli fondlar hüquqi və fiziki şəxslərin dövriyyə vasitələrinə olan ehtiyacları üçün tələb olunur.

2) **Sərmayə bazarı** - uzunmüddətli fond təklifləri ilə uzun müddətə olan fond tələblərinin qarşılaşdığı bir bazardır. Burada uzunmüddətli fondlar satılır və alınır. Uzunmüddətli fondlar sonradan hüquqi şəxslərin amortizasiya ayırmaları və mənfəətləri hesabına ödənilir.

Finans alətləri finans bazarında alqı-satqı obyektidir. Başqa sözlə, pul vəsaiti maliyyə alətləri vasitəsilə yığım sahiblərindən investora ötürülür. Finans qurumları isə bu prosesin vasitəçiləridir. Onlar pul sahiblərindən pulu cəlb edir və layihəçiyə ötürür. Başqa sözlə desək, finans qurumları finans bazarının iştirakçılarıdır. Finans bazarı pul artığı olanlarla pula ehtiyacı olanlar arasında finans alətləri vasitəsi və finans qurumlarının iştirakı ilə əlaqə yaradan orqanizmdir. Finans alətlərinin alqı-satqısı zamanı bağlanan müqavilənin xarakterinə görə finans bazarını spot və forvard bazarına bölmək olar. Spot bazarında maliyyə alətlərinin alqı-satqısı dərhal həyata keçirilir və ödənişlə qiymətli kağızın sahibin sərəncamına keçməsi eyni anda baş verir. Forvard bazarı isə əvvəlcədən razılaşdırılmış qiymətlə maliyyə alətlərinin müəyyən müddətdən sonra alınıb-satılmasını nəzərdə tutur. Bu bazarın alətlərinə törəmə qiymətli kağız da deyilir. Törəmə qiymətli kağızlara opsion, varrant və fyuçerslər aiddir. Spot bazarında risk forvard bazarına nisbətən aşağıdır. Forvard bazarında tərəflər birja kurslarının dəyişməsi, inflyasiya, faiz stavkalarında tərəddüdlər və s. ilə bağlı olaraq finans itkiləri ilə üzləşə bilərlər. Bu bazarda qiymətli kağızlar spot bazarına nisbətən daha yüksək qiymətə satılır. Finans alətlərinin elementlərinə görə də finans bazarını dövlət qiymətli kağızları və korporativ qiymətli kağızlar bazarı kimi təsnifləşdirə bilərik. Dövlətin finans bazarında emitent kimi çıxış etməsi büdcə kəsirin borclanma yolu ilə örtülməsi ilə bağlıdır. Korporativ finans alətləri isə real iqtisadiyyatın özəl qurumlarının maliyyə ehtiyaclarının ödənilməsinə xidmət edir. Dövlət borc sənədlərinin finans bazarında ağırlığının artması özəl qurumların sərəncamlarına gələn maliyyə axınlarının məhdudlaşmasına gətirib çıxarır. Bu tendensiya ölkə iqtisadiyyatında investisiyaların azalmasına, nəticə etibarilə iqtisadi artım tempinin aşağı düşməsinə (crowdinq təsiri). Dolaylı maliyyə vəsaitləri şəraitində əmanətçilər öz vəsaitlərini müəyyən müddət və faiz ödənilməsi şərti ilə finans institutlarına verirlər. Sonradan kreditə ehtiyacı olan şirkət və fərdlərin bu ehtiyacları finans qurumları tərəfindən təmin edilir. Göründüyü kimi, finans bazarında borc verənlərlə borc alanlar arasındakı qarşılıqlı münasibətləri finans sistemi tənzim edir. Lakin, bu zaman fondların axını göstərilən iqtisadi subyektlərin bilavasitə görüşməsi nəticəsində deyil, vasitəçi qurumların yardımı ilə baş verir. Təbii ki, əgər finans sistemi olmasa idi, borc vermək istəyənlərlə, borc almaq istəyənlər bir-birini tapmayacaq, nəticədə dolayı pul münasibətləri də qurulmayacaqdır. Birbaşa maliyyə vəsaitləri şəklində borc almaq istəyində olanlar finans bazarında doğrudan borc verənlərə qiymətli kağız sataraq fond təmin edirlər. Bu durumda borc alan iqtisadi vahidlər borclarını gələcəkdə əldə etdikləri gəlirlərdən ödəmək öhdəliyini öz üzərinə götürür.

Bu bazarlar axtarılan fondun müddətinə görə də adlandırılır. Ən çox bir il olaraq tanımlanan qısa müddətli fondların alınıb satıldığı bazarlara pul bazarları, bir ildən yuxari, yəni uzun müddətli fondların axtarıldığı bazarlara isə sərmayə bazarları adı verilir.

Qısa müddətli fond təklif və tələbinin bir araya gəldiyi bazarlara "pul bazarları" (money markets) deyilir. Diqqət edilməsi lazım gələn ən önəmli nöqtə, bu bazarın qısamüddətli fondlardan təşkil edilməsidir. Burada göstərilən müddət, prinsipcə, bir ildən yuxarı ola bilməz.

Banklar pul bazarlarında fəaliyyət göstərən ən önəmli qurumlardır. Kommersiya banklarının mənbələrini təşkil edən əmanətlər qısamüddətli olduğu üçün bankların satdıqları fondlar da (kreditlər) qısamüddətli olmaqdadır. Pul bazarı alətləri sırasına hökümətlərin ixrac etdiyi xəzinə bonoları dövlət istiqrazları, özəl sektor qurumlarının

ixrac etdiyi xəzinə bonoları, dövlət istiqrazları, özəl sektor qurumlarının ixrac etdiyi finansman fondları, bankların ixrac etdiyi depozit sertifikatları, repo anlaşmaları daxil edilə bilir.

Pul bazarında əldə edilən fondlar şirkətlərin finansmanında istifadə edilir.Bu bazarda şirkətlərin gerçəkləşdirilməsində istifadə edilən alətlər isə ticari sənədlər və əmanətlərdir. Pul bazarında gerçəkləşdirilən əməliyyatlarda müddət qısa, risk və faiz nisbətləri aşağıdır.

Orta və uzun müddətli fond təklif və tələbinin bir araya gəldiyi bazara "kapital bazarları" adı verilir. Kapital bazarını pul bazarından ayıran ən əsas xüsusiyyət orta və uzunmüddətli (bir ildən çox olmaq şərti ilə) fondlardan meydana gəlməsi və bu fondların şirkətlərin durum varlıqlarının digər bir ifadə ilə sabit sərmayə ehtiyaclarının qarşılanmasında istifadəsidir. Qaynaqlar pul bazarlarındakı kimi yığım olub, alətləri isə aksiya və istiqraz kimi qiymətli kağızlardır. Bu bazardakı əməliyyatlarda müddət uzun, risk və faiz nisbətləri də aşağıdır.

Uzunmüddətli fond ehtiyaclarının qarşılaşdığı sərmayə bazarlarının ən təməl iki aləti isə istiqrazlar və aksiya sənədləridir. Şirkətlər finans bazarından 2 şəkildə qaynaq əldə etmək imkanına malikdirlər. Ən çox istifadə olunan metod borc aləti (bono kimi) ixrac etməkdir. Bu alətlə firma borc alətini (bonoyu) alan quruma, məlum bir ödəmə zamanında (müddət sonunda) məlum bir gəlir ilə birlikdə əsas pulu ödəməyi öhdəlik edir. Borcun müddət sonu bir ildən az isə "qısa müddətli", bir illə on il arasında ödəmə tarixi olan bonolara "orta müddətli", müddəti on ildən daha uzunüddətli qiymətli kağızlara isə "uzunmüddətli" bonolar qoyulur. Şirkətlərin cəlb edə biləcəkləri başqa bir finans mənbə aləti səhmlərdir. Səhm olan qurum və ya fərd, səhmi çıxaran şirkətə ortaq olmaqdadır. Şirkət il sonunda mənfəət əldə etməsi halında səhmdarlara "divident" verir. Səhmləri bono və ya istiqrazdan ayıran ən önəmli xüsusiyyətlər: səhmlərin müddətinin olmaması və ya müəyyən edilmiş olan bir gəlir nisbətinə sahib olmamasıdır.

Əməliyyatlarına görə finans bazarları: I və II bazarlar adlandırılır. Finans bazarlarında əməliyyat görən finans alətləri, bazarlara ilk dəfə girilməsinə görə, I və II bazarlar olaraq iki qrupa ayrılır. Finans bazarlarına ilk dəfə çıxardılan aksiya və istiqraz kimi qiymətli kağızları ixrac edən şirkətlər ilə əmanət sahiblərinin doğrudan doğruya qarşılaşdıqları bazarlara "I bazarlar" (primary markets) deyilir. I bazarlar kapital bazarları məntiqi ilə uzunmüddətli fondların əmanət sahiblərindən şirkətlərə hərəkət etməsini saxlar və gerçəkləşdirilən istiqraz və aksiya sənədləri satışları ilə şirkətlərə yəni sərmayə yaradar. I bazarlara daha öncə təklif edilmiş və dövriyyədə olan uzunmüddətli qiymətli kağızların alınıb satıldığı, aksiyalarda heç bir zaman, istiqraz müddəti gəldiyində, bu qiymətli kağızları ixrac edən zaman quruma baş vura bildikləri bazarlara "II bazarlar" (secondary markets) deyilir. II bazarlar qiymətli kağızların pula dönmə sürətini artıraraq, I bazara tələb yaradır və inkişafa yardımçı olur. Ayrıca, bu bazarda gerçəkləşdirilən fəaliyyətlərin şirkətlər ilə heç bir əlaqəsi yoxdur.

Təşkilatlanmamış kapital bazarları isə hüquqi və idari qaydaları olmayan, fiziki və rəsmi bir məkana sahib olmayan, təşkilatlanmış bazarların xaricində alqı-satqı işləmələrinə davam edən, əlaqəli qurum və quruluşların nəzarət və təftişindən uzaq (yəni ingiliscə buna "Over The Counter (OTC) Markets) olan finans bazarıdır.

Qiymətli kağizlar bazarinin təsnifatı və funksiyalari

Qiymətli kağızlar bazarının bir sıra fıınksiyaları vardır ki, onlan şərti olaraq iki qrupa bölmək olar:

1) ümumi bazar funksiyaları - hər bir adi bazara xas olan;

2) xüsusi funksiyalar - bu funksiya onu digər bazarlardan fərqləndirir.

Ümumi qiymətli kağızlar bazar fünksiyalarına aşağıdakılar aid edilir:

1. Kommersiya funksiyası - bazarda görülən əməliyyatlardan gəlir əldə etmək funksiyası;
2. Qiymət funksiyası;
3. İnformasiya funksiyası - bazarın ticarət obyektləri və onun iştirakçıları haqqında olan bazar məlumatlarının bazar iştirakçıları üçün hazırlanması və çatdırılması;
4. Tənzimləyici funksiya bazarda ticarət və iştirak etmək üçün qayda-qanunlar yaradır, iştirakçılar arasında mübahisələri həll edən nəzarət orqanlarını və yaxud da idarə orqanlarını təşkil edir.

Qiymətli kağızlar bazarının xüsusi fünksiyalarına isə aşağıdakıları aid etmək olar:

1. Yenidən bölüşdürülmüş funksiya;
2. Qiymət və finans risklərinin sığortası funksiyası.
3. Yenidən bölüşdürülmüş flmksiyanın özünü şərti olaraq 3 yerə bölmək olar:
4. Pul vəsaitlərinin bazar fəaliyyəti sahələri və sferaları arasında yeni bölüşdürülməsi;
5. Əmanətlərin qeyri-istehsal formasından istehsal formasına çevrilməsi;
6. Dövlət büdcəsi kəsirinin qeyri-informasiya əsasında maliyyələşdirilməsi, yəni tədavülə əlavə pul vəsaitlərinin buraxılmaması.

Qiymət və finans risklərinin sığorta edilməsi funksiyasının meydana gəlməsi törəmə qiymətli kağızlar olan fyuçers və opsionların meydana gəlməsi nəticəsində mümkün olmuşdur.

Qiymətli kağız bazarları quruluşlarındakı qanuni xüsusiyyətlər baxımından üç ana qrupa ayrılır:

1) Dövlət qiymətli kağız bazarları. Qanun ilə qurulan, idarə heyəti və qaydaları rəsmi məqamlar tərəfindən müəyyən edilən bazarlardır.

2) Özəl qiymətli kağız bazarları. Qiymətli kağız bazarlarının üzvləri tərəfindən qurulan, mənfəət məqsədi olmayan və əsas etibarı ilə əqidə quruluşu statusunda olan bazarlardır. Anqlosakson ölkələrindəki qiymətli kağız bazarları buna nümunədir.

3) Qarışıq xüsusiyyətə malik qiymətli kağız bazarları, qismən dövlət, qismən də özəl qiymətli kağız bazarlarının xüsusiyyətlərinə sahib bazarlardır.

Fond birjasının təməli 1801-ci ildə qoyulmuş və bina 1802-ci ildə tikilmişdir, ancaq birja qanuni fəaliyyətə 1875-ci ildən başlamışdır. Azərbaycanda fond birjası ilk dəfə 15 fevral 2001-ci il tarixdə fəaliyyətə başlamışdır.

Qiymətli kağızlar bazarının strukturu va növləri. Qiymətli kağızlar bazarının strukturunda əsas 2 bazar götürülür: Qiymətli kağızların birinci bazarı; Qiymətli kağızların ikinci bazarı.

Birinci bazara şirkətlər və bələdiyyə orqanları tərəfindən ilk ixrac edilmiş qiymətli kağızlar çıxarılır. Birinci bazarda istiqrazlar və aksiyalar kimi qiymətli kağızlar almıb-satılır. Birinci bazarın özəyi qiymətli kağızların ixracdan satın alınmasıdır. Birinci bazardan alınan qiymətli kağızlar ikinci bazarda satıla bilər, yeni əl dəyişdirilə bilər. İkinci bazar qiymətli kağızların hər an pula çevrilməsini saxlayan bazardır. İkinci bazar qiymətli kağızların likvidliyini artıraraq birinci bazara tələbi artmr və onun inkişafını təmin edir.

İkinci bazarın özü dörd bazara bölünür: birja; qeyri-birja bazarı; üçüncü bazar və dördüncü bazar.

Fond birjası. İkinci bazarın ən vacib elementlərindən biri fond birjasıdır. Fond birjası qiymətli kağızlar bazarının likvidliyini və onun tənzim olunmasını təmin edir. Fond birjası qiymətli kağızların bazar qiymətini müəyyən edir, qiymətli kağızlara olan tələb və təklif arasında tarazlığı əks etdirməklə həmçinin onlar haqqında lazımı informasiyanın yayılmasını təşkil edir.

Qeyri-birja bazarında qiymətli kağızlar birjada qeydiyyatdan keçmir. Qeyri-birja bazarı avtomatlaşdırılmış şəkildə fəaliyyət göstərir ki, bu da alıcılara və satıcılara qiymətli kağızların cari qiymətlərini izləmək imkanı verir.

Üçüncü bazar qeyri-birja bazarıdır ki, burada qiymətli kağızların alqı-satqısı vasitəçilər tərəfindən qeydiyyata alınaraq yüksək komisyon məbləği tələb olunur. Bu bazar ən çox ABŞ-da inkişaf edib. ABŞ-da bu bazarın ticarət dövriyyəsi 1992-ci ildə 18 mln. aksiyaya çatıb.

Dördüncü bazar və yaxud da kompüterləşdirilmiş bazar. Bazar dördüncü bazarın əsasında aksiyaların elektron ticarət sistemi sistemi fəaliyyət göstərir. Bu bazar investorlara sazişləri güclü kompüter sisteminin vasitəsilə imzalamaq imkanı verir ki, burada da birjaya toxunmadan böyük komisyon xərclərinə qənaət etmək olar. İnvestor istənilən vaxt şəbəkə vasitəsilə öz istədiyi qiyməti fayla göndərir və əgər qarşılıqlı təklif alınarsa, sövdələşmə baş tutmuş hesab olur.

Yuxarıda adları çəkilən qiymətli kağızlar bazarını müxtəlif əlamətlərinə görə də seqmentləşdirmək olar. Qiymətli kağızlar öz növlərinə görə aşağıdakı bazarlara bölünürlər.

- Aksiya bazarları;
- İstiqraz bazarları;
- Veksel bazarları;
- Opsiyon bazarları;
- Depozit və əmanət sertifikatları bazarı.

Emitentlərə görə də qiymətli kağızlar bazarını aşağıdakı bazarlara bölmək olar:

- şəxsi qiymətli kağızlar bazarı;
- dövlət qiymətli kağızlar bazarı;
- beynəlxalq qiymətli kağızlar bazarı.

İnvestorlara görə də qiymətli kağızlar bazarı aşağıdakı bazarlara bölünürlər:

- inistitusal investorların qiymətli kağızlar bazarı;
- fərdi investorların qiymətli kağızlar bazarı.

Ərazi meyarına görə qiymətli kağızlar bazarının aşağıdakı növləri vardır: regional; milli və qlobal.

Qiymətli kağızlar bazarı işlədilən ticarət "texnologiyasına" görə aşağıdakı növlərə bölünürlər:

- Kassa bazarları;
- Təcili bazarlar;
- Auksiyon bazarları;
- Diler bazarları.

Əgər maraqlı tərəflər öz qiymətli kağızlarını təcili alıb-satmaq istəyirlərsə, onda onlar kassa bazarlarından istifadə edirlər. Bu bazarda sövdələşmələr 12 gün ərzində həyata keçirilir.

Auksion bazarları aşağıdakı bazarları özündə birləşdirir:

- Sadə auksion bazarları;
- Holland auksion bazarları;
- İkili auksion bazarları;
- Onkol bazarları;
- Fasiləsiz auksion bazarları.

FƏSİL 35. FOND BİRJASI

Kapital bazarının anatomik strukturunun təhlili zamanı, bu bazarın daxilində qiymətli kağızlar bazarının da olduğunu və bu iki bazarın iç-içə olmasma rəğmən təklif və tələbin tərs yönlü olduğunu görərik. Qiymətli kağızlar bazarında sərmayə tələb edən şirkətlər xalqa qiymətli kağız təklif edir. Sərmayə təklif edən xalq da əvəzində qiymətli kağızlar tələb edir. Qiymətli kağızlar birjası (stock exchange, securities bourse) gerçəkdə sərmayə bazarının deyil, qiymətli kağızlar bazarının qurumudur. Ancaq bu bazarlarda alqı-satqı mövzusu olan "Qiymətli kağızlar" deyilən aksiya və istiqraz kimi dəyərli kağızlar bilavasitə iqtisadi dəyər olmayıb, iqtisadi dəyərləri təmsil edən sənədlərdir. Qiymətli kağız bazarlarında alqı-satqı edənlərin məqsədi mənfəət əldə etməkdir. Aksiyanı satın alan şəxsin məqsədi divident və ya aksiyanı daha yüksək qiymətə sataraq qazanc əldə etməkdir.

Qiymətli kağızların ikinci bazarında əsas yerlərdən birini fond birjası tutur. Birjanın meydana gəlməsinin əsas səbəblərindən biri bazar münasibətlərinin inkişaf etməsi olmuşdur. İlk dəfə birja anqlosaks dövlətlərində meydana gəlmişdir.

Fond birjası, müstəqil olaraq, fəaliyyət predmeti qiymətli kağızlar üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi, kağızlara olan tələb və təklif arasında tarazlığı əks etdirən, həmçinin onlar haqqında lazımi informasiyanın yayılması, qiymətli kağızlar bazarı iştirakçılarının yüksək peşəkarlıq səviyyəsini nümayiş etdirmək üçün şərait yaradılması olan təşkilatdır. Fond birjası qapalı səhmdar cəmiyyət formasında olur. Fond birjası yalnız birja üzvləri arasında ticarəti təşkil edir.

Fond birjası fəaliyyətini müvafiq icra hakimiyyəti orqanının verdiyi xüsusi razılıq əsasında həyata keçirir. Fond birjası depozitari və klirinq fəaliyyəti istisna olmaqla, digər fəaliyyət növləri ilə məşğul ola bilməz. Fond birjasının nizamnaməsinin, onun ticarət qaydalarının pozulması və fond birjasının digər daxili sənədlərinin pozulması zamanı cərimələr müəyyən edilir. Fond birjasının üzvlərinə aid olan daxili normativ aktlar fond birjası tərəfindən onun üzvlərinin təklifləri nəzərə alınmaqla müstəqil müəyyənləşdirilir.

Fond birjasının beş əsas funksiyası vardır:

1) likvidlik ehtiyaclarını qarşılamaq;

2) alıcıları-satıcıları qiymətli kağızların alqı-satqısını etmək üçün bir məkanda qarşılaşdırmaq;

3) qiymətli kağızların real kursunu müəyyən etmək;

4) kapitalın bir sahədən digər sahəyə axmasını təmin etmək;

5) real bazarın yaradılmasına xidmət etmək.

Fond bazarının peşəkar iştirakçıları.

Qiymətli kağızlar bazarında vasitəçi rolunda, adətən brokerlər və dilerlər çıxış edirlər. Tapşırıq və ya komisyon müqaviləsi əsasında müvəkkil və ya komisyonçu kimi fəaliyyət göstərən hüquqi və ya fiziki şəxs onun müştərisinin marağına uyğun və onun hesabına qiymətli kağızlarla mülki hüquqi əqdlərin bağlanması broker fəaliyyəti hesab edilir.

Qiymətli kağızlar bazarının broker fəaliyyəti ilə məşğul olan peşəkar iştirakçısı broker adlanır. Broker sifətində həm fiziki şəxslər, həm də hüquq şəxslər çıxış edə bilərlər. Fond bazarında peşəkar broker fəaliyyəti müəyyən lisenziya əsasında həyata keçirilir.

Qiymətli kağızlar bazarında broker və ya broker təşkilatı kimi fəaliyyət göstərmək üçün aşağıdakı tələblərə cavab verməlidir:

- müəyyən edilən minimal kapitala sahib olmalıdır ki, investor qarşısında maddi məsuliyyət hiss etsin.
- qiymətli kağızlarla əməliyyatları tam və dəqiq təzahür edən, işlənib hazırlanmış haqq-hesab sisteminə malik olmalıdır.

Broker və müştəri öz əlaqələrini müqavilələr əsasında qurur. Broker müştərinin adından və hesabından çıxış edir. Broker müştərinin tapşırığı əsasında hərəkət edir. Brokerin əsas gəliri sazişlərin məbləğindən asılı olaraq tutulan komisionlardır.

Çox zaman brokerler öz fəaliyyətinə qiymətli kağızlar bazarında müştərilərlə məsləhət etməyi də daxil edirlər.

Hüquqi şəxsin müəyyən qiymətli kağızlarının alış və satış qiymətlərini elan edib, bu qiymətli kağızların elan edilmiş qiymətlər üzrə alınması və ya satılmasını öhdəsinə götürməklə öz adından və öz hesabından qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanılması diler fəaliyyəti hesab edilir. Qiymətli kağızlar bazarında diler fəaliyyətini həyata keçirən peşəkar iştirakçı diler adlanır. Brokerdən fərqli olaraq diler qiymətli kağızlar bazarında hüquqi şəxs kimi fəaliyyət göstərən investisiya şirkətlərini təmsil edir. Əqdləri də müştərilərin hesabına deyil, öz hesabına yerinə yetirir. Dilerin gəliri alqı-satqı qiymətləri arasındakı fərqdə olur. Bazarda operator rolunda çıxış edən diler alqı-satqı qiymətlərini, alınan və satılan qiymətli kağızların minimal və maksimal saylarını, həmçinin də elan edilən qiymətlərin nə vaxta qədər qüvvədə qalacağını müəyyən edir.

Qiymətli kağızların və ya onların sertifikatlarının saxlanılması, yaxud uçotu və qiymətli kağızlara olan hüquqların keçməsi üzrə xidmətlər göstərilməsi depozitari fəaliyyəti hesab olunur. Qiymətli kağızlar bazarının depozitari fəaliyyətini həyata keçirən peşəkar iştirakçısı depozitari adlanır. Qiymətli kağızların uçotu üçün təyin edilmiş hesabat "depo hesabı" adlandırılır. Yalnız hüquqi şəxs depozitari ola bilər. İlk depozitari sistemi fond birjalarına xidmət etmək üçün yaradılmışdır. Depozitari fəaliyyəti ilə bağlı olan əməliyyatların hamısı depozitari və deponent arasında bağlanan müqavilələr əsasında həyata keçirilir. Depozitor müqaviləsi yazılı şəkildə bağlanır və bu müqavilənin bağlanması deponentin qiymətli kağızlara olan hüququnun depozitariyə keçməsini bildirir. Depozitar deponentin onda saxladığı qiymətli kağızlar sertifikatlarının qorunınasına mülki hüquqi məsuliyyət daşıyır.

Depozitari müqaviləsinə aşağıdakı mühüm şərtlər daxil edilməlidir:

1) müqavilənin predmetinin birmənalı müəyyən edilməsi, qiymətli kağızların sertifikatlarının saxlanılma və ya qiymətli kağızlara olan hüquqların uçotu üzrə xidmətlərin göstərilməsi;

2) deponentin depozitaridə saxlanan qiymətli kağızları üzrə sərəncam verilməsi haqqında deponentin depozitariyə məlumat vermə qaydası;

3) müqavilənin qüvvədə olduğu müddət;

4) müqavilədə nəzərdə tutulmuş depozitari xidmətlərinin ödənilməsinin həcmi və qaydası;

5) depozitarinin deponent qarşısında hesabat verməsinin forması və dövriliyi;

6) depozitarinin vəzifələri.

Öz aralarında danışan brokerlər onlarda saxlanılan bütün qiymətli kağızların sertifikatlarını yığır və birja depozitarisində deponent edirlər. Bu zaman bütün reyestrlərdə bu qiymətli kağızları broker hesabından nominal sahib kimi çıxış edən birja depozitarisinin hesabına köçürürlər. Birja depozitarisində hər bir brokerə "depo hesabı" açılır ki, burada da ona məxsus olan bütün qiymətli kağızların hesabatı gedir. Beləliklə, brokerlər arasında görülən sazişlərin nə-ticələrinin rəsmiləşdirilməsi üçün reyestr xidmətlərinə müraciət etmək lazım deyil. Mülkiyyətçinin dəyişdirilməsi birja depozitarisinin depo hesablarında öz əksini tapır. Beləliklə də qiymətli kağızların hesabatını aparılması nağdsız olur və depo hesablarında dəyişikliklər edilir.

Qiymətli kağızların göndərilməsi üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (qiymətli kağızlarla əqdlər üzrə məlumat toplanması, yoxlanılması, təshih edilməsi və onlar üzrə mühasibat sənədlərinin hazırlanması) bu öhdəliklərin hesaba alınması və qiymətli kağızlər üzrə hesablanma aparılması klirinq fəaliyyəti hesab edilir. Praktikada klirinq təşkilatları aşağıdakı kimi adlandırılırlar: hesabat palatası, klirinq palatası, klirinq mərkəzi, hesabat mərkəzi və s. Ümumi planda hesablaşma klirinq təşkilatları ixtisaslaşdırılmış bank tipli təşkilatlardır ki, qiymətli kağızlar bazarının iştirakçılarına hesablaşma ilə bağlı xidmət göstərir. Onun aşağıdakı əsas məqsədləri vardır:

1. bazar iştirakçılarına hesablaşma xidmətləri xərclərinin minimuma endirilməsi;
2. haqq-hesab vaxtının qısaldılması;
3. Hesablaşma zamanı yer alan bütün risklərin minimum səviyyəyə endirilməsi.

Hesablaşma-klirinq təşkilatlanı, adətən, kommersiya banklarının oldugu hüquqi formada olur; amma çox vaxt qapalı səhmdar cəmiyyət formasında olur ki, bu təşkilatlar da ölkənin mərkəzi bankının verdiyi lisenziya əsasında fəaliyyət göstərirlər. Hesablaşma-klirinq təşkilatları kommersiya şirkətləri olub, gəlirlə işləməlidir. Onun nizamnamə kapitalı onun üzvlərinin ödəmələri hesabına yaradılır. Bu təşkilatın əsas gəlir mənbəyi aşağıdakı kimidir:

- sazişləri qeydiyyatdan keçirmə haqqı;
- məlumatların satılmasmdan əldə edilən gəlir;
- tədavüldəki pul vəsaitlərindən əldə edilən gəlir;
- öz hesablaşma texnologiyasının satışından daxil olmalar;
- digər gəlirlər.

Hesablaşma-klirinq təşkilatlaın törəmə qiymətli kağızlar olan fyuçers müqavilələri və birja opsionlarının alqı-satqısında mərkəzi yer tutur. Hesablaşma-klirinq təşkilatları ilə onun üzvləri, birjalar və digər təşkilatlar arasında qarşılıqlı münasibətlər müvafiq müqavilələr əsasında qurulur.

Hesablaşma-klirinq təşkilatlarının üzvləri əsasən iri banklar, iri finans şirkətləri, həmçinin də fond və fyuçers birjaları olur. Hesablaşma-klirinq təşkilatlarının kredit və ya digər aktiv əməliyyatları həyata keçirmək hüququ yoxdur. Hesablaşma-klirinq təşkilatları depozitari xarakterli xidmətləri də həyata keçirir.

Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması sistemini təşkil edən göstəricilərin toplanınası, qeydə alınması, işlənməsi, saxlanması və verilməsi qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət hesab edilir. Qiymətli

kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətlə yalnız hüquqi şəxslər məşğul ola bilər. Reyestrin aparılması üzrə fəaliyyət emitent və ya onun tapşırığı ilə qiymətli kağızlar bazarının peşəkar iştirakçıları tərəfindən həyata keçirilə bilər. Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyəti həyata keçirən şəxslər reyestr saxlayıcıları və ya qeydiyyatçılar adlandırılır. Reyestrin aparılması üçün yalnız bir qeydiyyatçı ilə müqavilə bağlanılır. Qeydiyyatçı qeyri-məhdud saylı emitentlərin qiymətli kağızlarının sahiblərinin reyestrini apara bilər. Öz əsas funksiyalarından başqa qeydiyyatçılar reyestrlə bağlı bir sıra əlavə funksiyaları yerinə yetirirlər. Qeydiyyatçılar qiymətli kağızların sertifikatlarına da nəzarət edirlər. Sahibkarın dəyişdirilməsi zamanı qeydiyyatçı yeni sahibkarın adına sertifikat yazmalıdır və bu zaman o, ona qeydiyyatdan keçirmək üçün verilən sertifikatın doğrudan həmin şəxsə məxsus olduğunu, oğurluq olmadığını və ya axtarışda olub olmadığını yoxlamalıdır. Bir qayda olaraq, qeydiyyatçı emitentin agentidir. Qeydiyyatçı vasitəsilə emitent öz investorlarına məlumat verə bilər. Əgər qeydiyyatçı rolunu bank yerinə yetirirsə, o, həmçinin də emitenti ödəmə agenti kimi çıxış edə bilər. Bir qayda olaraq, qeydiyyatçılar qiymətli kağızların sahiblərinin şəxsi hesablarını aparır. Şəxsi hesabda sahibkara məxsus olan qiymətli kağızların sayı və sahibkar haqqında digər lazımi informasiyalar olur. Əgər alqı-satqı baş veribsə, sahibkarın dəyişdirilməsi reyestrdə qeyd olunmalıdır.

Qiymətli kağızların nominal saxlayıcı reyestrinin aparılması sistemində qeydə alınmış, o cümlədən hüquqi sahibinin tapşırığı ilə və onun xeyrinə depozitarinin deponenti olan və qiymətli kağızlar barəsində sahib olmayan şəxsdir. Nominal saxlayıcı bu o şəxsdir ki, onun adına reyestrdə bir neçə qiymətli kağız yazılıb, amma həqiqətdə o, bu kağızların sahibi deyildir. Qiymətli kağızların nominal saxlayıcısı kimi qiymətli kağızlar bazarının peşəkar iştirakçıları ola bilərlər. Depozitari və brokerler müştərilərlə bağlanan müqavilə əsasında qiymətli kağızların nominal saxlayıcısı kimi qeydiyyatdan keçə bilərlər. Nominal saxlayıcılar özləri real sahiblərin uçotunu apara bilər. Əgər yeni və köhnə sahibkarlar öz hesabını nominal saxlayıcılarda açıblarsa, alqı-satqı zamanı nominal saxlayıcıda hesabın vəziyyəti dəyişir, amma sayı sabit olaraq qalır. Buna görə də uzağa gedib qeydiyyatçıdan qeydiyyatdan keçmək lazım deyil, sahibkarın dəyişdirilməsi nominal saxlayıcıda da rəsmiləşdirilə bilər. Əgər emitent qiymətli kağızların sahiblərinin reyestrini istəyirsə, bu zaman qeydiyyatçı nominal saxlayıcıya sorğu göndərir və o da hesablarını apardığı sahibkarların adlarını təqdim edir. Bir çox inkişaf etmiş ölkələrdə qeydiyyatçılar institutu yoxdur. Reyestrlərin toplanması və onların emitentə verilməsi vəzifəsini öz üzərinə depozitari sistemləri götürür. Belə ölkələrə Almaniya, İsveç, digər Skandinaviya ölkələrini və İsveçrəni misal göstərmək olar. Dünyanın bir çox ölkələrində qeydiyyatçılar hələ də vardır, amma getdikcə onlar sıxışdırılır.

Birja indeksləri.

İlk fond indikatoru XIX əsrin sonunda işlənib hazırlanmışdır. Çarlz Dou 1884-cü ildə 11 sənaye şirkətinin aksiyasını birləşdirən fond indeksini işləyib hazırlamışdır. 1928-ci ildə isə bu indeks otuz ən iri sənaye şirkətinin aksiyasını ehatə etmişdir. Amma bütün bunlar senaye sektorunu əhatə etmir. Dörd "Do Cons" indeksi mövcuddur. "Do Cons" sənaye indeksi. "Do Cons" sənaye indeksi dünyada ən qədim və geniş yayılmış indekslərindən biridir. Nyu-York fond birjasında kotirovka edilən aksiyaların 15-20 %-ə qədəri

"Do Cons" indeksinin payına düşür. Bu indeksli birjada tədavülə buraxılan aksiyalar toplanılır və alınan məbləğin müəyyən edilmiş deminotora bölünməsi ilə hesablanır. "Do Sons" indeksi hər səhər Amerikanın bəzi qəzetlərində çap edilir. Amma Nyu-York fond birjasında isə "Do Cons" indeksi hər yarım saatdan bir hesablanır və bu barədə məlumat verilir. "Do Cons" şirkəti bu indeksdən fyuçers kontraktları və opsionlarla iş zamanı istifadə etməyi qadağan edir. "Do Cons" nəqliyyat indeksinə iyirmi nəqliyyat şirkətinin aksiyaları daxil edilir. Bura avia şirkətlər dəmir yol şirkətləri və avtoyol şirkətləri daxildir. "Do Cons" kommunal indeksi - qaz və elektrik təchizatı ilə məşğul olan on beş iri şirkətin aksiyalarını özündə cəmləşdirir. "Do Cons" tərkib indeksi - bu indeks həm də "indeks-GS" adı ilə də məşhurdur. Bu indeksin göstəriciləri "Do Cons"un sənaye nəqliyyat və kommunal indekslərinin əsasında tərtib edilir. "Do Cons" indeksinin hesabına aşağıdakı şirkətlərin aksiyaları daxil edilmişdir: General Elektrik, General Motors, İnko, Dirop, Amerikan - 10, Cons Linvil, Merk, Prokter ənd Fembeli, Teksako, Vulvort, Standart Oyl".

"Standard and Roors" - "500" indeksi 500 iri şirkətin aksiyasının bazar qiymətini ölçən indeksdir. 500 iri şirkətin tərkibinə aşağıdakı şirkətlər qrupu aid edilir: 400-sənaye, 20 nəqliyyat, 40 finans və 40 kommunal şirkətlər. Bura əsasən Nyu-York fond birjasından, Amerika fond birjasından və qeyri-birja dövriyyəsindən qeydiyyatdan keçmiş şirkətlərin aksiyaları daxildir "SR-500" indeksinin hesablanma metodu "D.S" indeksinə nisbətən çox çətindir.

"SR-500" indeksi 1941-43-cü illərdən hesablanmağa başlanmışdır. "SR-500" indeksinin bazis qiyməti kimi 1941-43-cü illərdə olan müvafiq aksiyaların orta qiyməti götürülür.

Məsələn, SR-500 indeksinin 1997-ci il 4 aprelində indeksi 757.90 punkt təşkil edirsə, bu onu bildirir ki, 500 şirkətin aksiyalarının orta bazar qiyməti 1941-45-ci illərlə müqayisədə 75 dəfədən bir az çox olaraq artmışdır.

"SR-100" indeksinin əsasını Çikaqo opsion biıjasından qeydiyyatdan keçmiş şirkətlərin opsionları təşkil edir. Bu indeks də əsas etibarı ilə Nyu-York fond birjasından qeydiyyatdan keçmiş sənaye şirkətləridir. "SR-100" indeks də "SR-500 indeksi kimi hesablanır, amma burada 100 şirkətin aksiyaları götürülür. Məsələn "SR-100" indeks kəmiyyəti 410 punkt təşkil edirsə, bu onu göstərir ki, aksiyaların orta qiyməti 41 dəfə artmışdır.

ABŞ-ın qeyri-birja dövriyyəsində ən əsas indeks NASDAQ indeksidir. "NASDAQ" indeksi qeyri-birja bazarının 5000 aksiyasını özündə birləşdirir. "NASDAQ" indeksinin də hesablanma metodu "SR-500" indeksi kimidir. İlk dəfə bu indeksin hesablanmasına 1971-ci ildən başlanılmışdır və 100 punkta bərabər olub, 1997-ci ilin 4 aprelində bu indeksin kəmiyyəti 1236,7 punkt təşkil etmişdir. Bu da onu göstərir ki, aksiyaların orta qiyməti 12 dəfə artmışdır.

İlk Avropa indeksi İngiltərədə meydana gəlmiş və 30 şirkəti özündə birləşdirmişdir. Fond bazarında edilən müəyyən dəyişikliklərdən sonra P-90 indeksi meydana gəldi. Bu indeksi işləyib hazırlayanlar iqtisadiyyatda müəyyən struktura və gücə sahib olan 30 ən iri şirkəti seçdilər. İngiltərədə ən məşhur indekslərdən biri də "Futsi-100" indeksidir. Bu indeks real zaman rejimində hesablanır. Yaxın qonşumuz olan Rusiya Federasiyasında da bir sıra fond indeksləri fəaliyyət göstərir. 1) "Skeytpress" indeksi, 2) "AKVM" fond indeksi, 3) "Kommersont" jurnalının fond indeksi, 4) "Ros" indeksi, "Sol" indeksi, 5) "Tront" finans mərkəzinin fond indeksi.

İlk dəfə birja indeksində opsionlarla əməliyyata 1983-cü ildən başlanılmış, sonralar isə Çikaqo əmlak birjasında bir yerə cəmlənmişdir. Ən geniş yayılmış "Sr-500" "Sr-100" və "Nyu-York fond birjasının opsiyon indeksləridir. Fyuçers kontraktlarında da ən geniş yayılmış indeks "Sr-500" indeksidir ki, bunlar da Çikaqo əmtəə birjasında satılır. Bu indeksin də hər punktu opsionda olduğu kimi 500-ə bərabərdir. Məs: opsiyonun qiyməti 5000-dirsə, opsionu alan zaman punkt 490 olubsa, indeks 245000 olacaqdır. Əgər bir müddət sonra "Sr-500" indeksinin punktu 506-ya çatarsa, onda indeksin dəyəri 253000 dollara qalxacaqdır. Bu vəziyyətdə alıcı öz hüququndan istifadə edəcək və satıcı 8000 fərqlə pul ödəyəcəkdir.

BEYNƏLXALQ LİKVİDLİK.

Rəsmi xarici ehtiyatlar mərkəzi bankın valyuta birjasına müdaxilə üçün mövcud olan bütün beynəlxalq ödəmələr vasitələrinin cəmidir. Məlumdur ki, mərkəzi banklar valyuta məzənnələrini sabit tutmaq məqsədi ilə bazara müdaxilə edir. Bu da sabit və ya idarə etməli dalğalanma sisteminin bir xsüsusiyyətidir. Halbuki, tam sərbəst üzən kurs sistemində məzənnələr tamamilə bazar iqtisadiyyatının işləm mexanizminə görə formalaşdığı üçün mərkəzi bankların bazara müdaxilə etməsi zəruri deyil.

Əslində sabit kurs sistemlərində müvəqqəti kəsirlər olduğu təqdirdə mərkəzi banklara ehtiyac olur. Çünki müvəqqəti kəsiri yaradan səbəblərin bir müdət sonra aradan qalxacağına görə, bu kəsir öz-özünə ortadan götürələcək. Bunun üçün tarazlaşdırıcı tədbirlər olaraq faktor bölgüsünü dəyişdirmək lazım deyil. Halbuki, köklü iqtisadi və ya maliyyə səbəblərindən baş verən uzun müddətli kəsirləri xarici ehtiyatlardan istifadə edərək tarazlaşdırmaq mümkün deyil.

Ölkələrin malik olduqları rəsmi xarici ehtiyatların cəminə beynəlxalq likvid adı verilir. Beynəlxalq likvidin çatışmazlıq problemi xüsusilə sabit kurslu Bretton-Vuds zamanında bəri iqtisadi ədəbiyyatda mübahisəli bir mövzudur. Nəzəri baxımdan beynəlxalq likvidin dünya iqtisadiyyatının tələblərindən asılı olduğu qeyd edilmişdir. Beynəlxalq likvidin hansı sürətlə artırılmasını müəyyən etmək üçün bəzi obyektiv göstəricilərdən danışmaq olar. Məsələn, dünya ticarət və maliyyə hərəkətlərindəki artım nisbəti, bu hərəkətlərdəki dalğalanma, xarici ehtiyatları saxlamaq məsrəfi, xarici ehtiyatlara yetişmə asanlığı və əlbəttə ki, sabit və ya üzən sistemin praktikasına əsaslanması və s. kimi.

Amma həqiqətdə hansı puldan nə qədər ehtiyat tutulacağı mərkəzi bankın işçilərinin alternativlərindən və ehtiyatların idarə edilməsi siyasətindən asılıdır. Ehtiyat olaraq tutulan valyutaların dəyərində düşmə ehtimalı, rəsmi ehtiyatların dəyərini azaltdığı kimi, bir yüksəlmədə spekulyativ qazanclar meydana gətirər. Başqa sözlə ehtiyatları bu və ya digər beynəlxalq ödənişlərin vasitəsi üzərindən tutmanın riski və eyni zamanda gəliri vardır. Adı çəkilən gəlirlər faiz və valyuta dəyərində gözlənilən artımlardan meydana gələ bilər. Bu baxımdan mərkəzi bankın rəhbər işçiləri də ehtiyatların idarə edilməsi problemi ilə üzləşiblər. Bu mövzuda mərkəzi bank ehtiyatları müxtəlif növə bölərək, riski paylaşdırmaqdan başqa, dəyərində artımın gözlənildiyi müəyyən pullara investisiya qoyaraq spekulyativ şəkildə hərəkət də edə bilərlər. Amma mərkəzi bank kimi rəsmi bir qurumun spekulyativ qazancın arxasına düşmək əvəzinə, riski paylaşdırma məqsədinə görə hərəkət etməsini iddia etmək daha realdır.

Beynəlxalq rəsmi ehtiyatlar əvvəlcə qızıl və qeyri-qızıl mənbələr olmaqla iki yerə ayrılır. Qeyri qızıl ehtiyatları da valyuta və BPF mənbələrindən ibarətdir.

Bretton-Vuds qızıla əsaslanan bir sistem idi. Amma qızıl istehsalatının asanlıqla artırılmaması, bahalı olması və bir özəl spekulyasiyaya səbəb olması onun yaxşı bir ehtiyat pul olmayacağını göstərib. Bugünkü tendensiya qızılı beynəlxalq ödəmə vasitəsindən çıxarıb bir sənaye xam məhsulu olaraq həqiqi funksiyasına qaytarmaq istiqamətindədir. Bu səbəblə uzun müddətdir ki, qızıla rəsmi qiymət qoyulmur. Bundan başqa BPF də üzvlərin ehtiyat dilimlərini qızılla ödəmə məcburiyyətini ləğv edib və əlindəki qızıl ehtiyatlarının bir bölməsini əlindən çıxarılıb. Belə ki, 1976-cı ildə qızıl ehti-

yatının 1/6-ni sərbəst bazarda sataraq gəlirlərini ən yoxsul vəziyyətdə olan az inkişaf etmiş ölkələrə kredit vermək üçün istifadə edib və qalan 1/6-i də üzv ölkələrə geri verilib.

Bu gün yenə də bir çox mərkəzi banklr rəsmi ehtiyatlarının əhəmiyyətli bir hissəsini qızılla saxlayırlar.

Digər tərəfdən, beynəlxalq rəsmi valyuta ehtiyatlarının tərkibinə baxsaq hələ də ən böyük pay Amerika dolları təşkil edir. Dollar və məhdud ölçüdə İngilis sterlinqi Bretton-Vuds sisteminin ənənəvi ödəmə vasitələri olmuşlar, ancaq bu gün də dollar rezerv valyuta kimi fəaliyyət göstərir. Amma digər sənayeləşmiş ölkələrin sürətlə inkişaf etməsindən sonra Avro, Yapon iyeni və İsveçrə frankı kimi pul vahidlərinin də rəsmi valyuta kimi qəbul edilməsinə başlandı. Beləliklə, dolların rəsmi ehtiyatlar içindəki payı getdikcə azalmağa başladı. Ancaq bu nisbət hələ də 50%-dən yuxarıdır.

FƏSİL 37. TƏDİYƏ BALANSI

Ölkənin tədiyə balansı başqa ölkələrdən daxil olan pulun ümumi məbləği ilə digər ölkələrə ödənilən pulların məbləği arasındakı nisbətdir. Tədiyə balansı prinsipcə illik hazırlanır. Bundan başqa tədiyə balansı o ölkədə yerləşən fiziki şəxs, firma və ya qurumların xarici ölkələrlə apardığı iqtisadi əməliyyatların sistematik qeydiyyatıdır. Bununla yanaşı, məsələn, ABŞ-da tədiyə balansı statistikaları mövsümlük (üç aylıq) olaraq dərc edilir. Tədiyə balansında qeyd edilən əməliyyatlar ölkədə yerləşən fərd və qurumlarla xaricdə yerləşən iqtisadi vahidlər arasında aparılır. Ölkədə yerləşmiş olanlar əsasən o ölkənin vətəndaşıdırlar. Amma tədiyə balansı baxımından vətəndaş olmaq vacib deyildir. Ölkədə yerləşmiş olma dedikdə o ölkədə daima oturmaq, şirkətlərin öz fəaliyyətlərini normal olaraq o ölkədən idarə etməsi anlaşılır. Yəni bunların xarici ölkələrdə apardığı əməliyyatlar yerləşdikləri ölkələr baxımından xarici iqtisadi əməliyyat olaraq qiymətləndirilməlidir.

Beynəlxalq iqtisadi əməliyyat termini geniş anlayışdır. Maliyyə və xidmətlərlə yanaşı, istehsalat faktorları üzrə əməliyyatlar da bu qrupa daxildir. Buna görə beynəlxalq maliyyə və mal və ya xidmət ticarəti, ölkələrarası qısa və uzunmüddətli maliyyə vəsaiti və birbaşa sərmayə investisiyaları, beynəlxalq işçi miqrasiyaları və texnologiya hərəkətləri də bu anlayışın çərçivəsində qiymətləndirilir. Beynəlxalq iqtisadi əməliyyatların qarşılığında bir qayda olaraq bir ödəmə vardır. Beynəlxalq tədiyələrin yerinə yetirilməsində ənənəvi olaraq Amerika dolları, sterlinq, qızıl və Avro kimi pul vahidlərindən istifadə edilir.

Ancaq, son vaxtlar Amerika dollarının payı müəyyən bir ölçüdə azalır kən, Avro və Yapon iyeni kimi sağlam valyutalar Beynəlxalq tədiyələrdə istfiadə edilməyə başlayıb. Qızılın da rəsmi ödəmə vasitəsi kimi rolu azalıb. CDR isə olduqca sağlam və etibarlı bir ödəmə vasitəsi olmasına baxmayaraq, istifadəsi olduqca məhdud olub.

Bir çox iqtisadi əməliyyatlar nəticəsində xaricdən ölkəyə və ya ölkədən xaricə doğru bir tədiyə axını meydana gəlir. Lakin bəzi iqtisadi əməliyyatlar tədiyə balansına qeyd edilməklə yanaşı, hər hansı bir tədiyə meydana gətirmir. Bunun bəzi nümunələrini sıralayaq: Malın mala dəyişdirilməsi, yəni barter və klirinqə əsaslanan ticarət, investisiya malı, texnologiya və ya menedcment biliyi formasındakı xarici sərmayə formasındakı qarşılıqsız ödəmələr və s. Bu onu göstərir ki, tədiyə balansına qeyd edilən əməliyyatlar, ölkənin valyuta giriş və çıxışlarına təsir etməklə yanaşı, bir qismi üçün də nəticə yaranmır.

Ölkənin xarici almələ etdiyi əməliyyatlar kredit vəya da debet xarakterli olur. Nominal tədiyə meydana gətirib-gətirməməsindən asılı olmayaraq, bütün əməliyyatlar bu qaydada kredit və debet olmaqla iki yerə ayrılırlar.

Kredit əməliyyatları ölkəyə valyuta girişin, debet əməliyyatları isə valyuta çıxışını təmin edir. Amma bir tədiyə axını meydana gətirməyən əməliyyatları da əhatə edəcək şəkildə tərif verə bilərik: ölkədə yerləşən şəxs və qurumlar lehinə xarici ticarət üzrə bir alacaq haqı yaradan əməliyyatlar kredit əməliyyatlarıdır. Bunun əksinə, ölkədə yerləmiş olanlar baxımından xaricə qarşı bir borc yaradan əməliyyatlar da debet əməliyyatlarıdır. Buna görə, məsələn, ixracat ölkəyə gələn xarici turistlərin xərcləmələri, qısa və uzunmüddətli maliyyə vəsaiti və ölkəyə qoyulan birbaşa kapital qoyuluşları kredit əməliyyatlarına (alacaqlı qrupuna) girər. Bunların əksinə, yəni idxalat, xarici ölkələrə səyahət sırasında xərclənən vəsaitlər, maliyyə və birbaşa sərmayə çıxışları kimi əməliyyatlar debet (borclu) əməliyyatlarına daxil edilir. Bu xüsusiyyətlərini gördükdən sonra qeyd edək ki, tədiyə balansındakı qeydlər əslində mühasib əməliyyatı xarakterindədir. Praktikada tədiyə balansına qeydlər «iki tərəfli qeyd» sisteminə görə aparılır. Bu sistemdə xarici aləmlə aparılan hesab ya kredit vəya da debet əməliyyatı olaraq yazılır.

Beləliklə, mühasibat sisteminin bir zəruriliyi olaraq eyni əməliyyt bir hesabla kredit, digər hesabla debet olaraq qeyd edildiyi üçün tədiyə balansının kredit tərəfi debet tərəfininin cəminə bərabər olar. Digər bir sözlə, mühasibat qeydləri baxımından tədiyə balansı hər zaman tarazlıq içindədir. Amma, bu ölkənin xarici iqtisadi münasibətlərində həqiqi bir qeyri-tarazlığın olmaması mənasını vermir. İqtisadi mənada tədiyə balansındakı bir açıq (kəsir), artıq və ya müvazinatı müəyyən edə bilmək üçün bəzi xüsusi məlumatlar olmalıdır.

Beynəlxalq iqtisadi əməliyyatların qeydiyyatı tədiyə balansına təsadüfi deyil, birbirlərinə olan bənzərliklərinə və iqtisadi təsirlərinə görə qruplaşdırılır. Belə əsas hesab qrupları bunlardır: cari əməliyyatlar hesabı, kapital hərəkətləri hesabı və ehtiyat aktivləri hesabı.

Cari əməliyyatlar hesabı. Ölkənin beynəlxalq iqtisadi əməliyyatlarının çox əhəmiyyətli bir qrupu cari əməliyyatlar hesabına qeyd edilir. Bu hesab eyni zamanda ölkənin ümumi məhsulunun bir hissəsini meydana gətirir. Cari əməliyyatlar hesabına girən əməliyyatların bir qismi mal ticarətini əhatə edir. Bir çox ölkələrin xarici iqtisadi əlaqələrində mal ticarəti əhəmiyyətli yer tutur. İxracat krediti (alacaqlı), idxalat isə debet (borc) əməliyyatıdır. Mal ixracatı ilə mal idxalatının meydana gətirdiyi fərqlə «xarici ticarət balansı» adı verilir. Bu termin tədiyə balansı termini ilə qarışdırılmamalıdır. Xarici ticarət balansı, ümumiyyətlə, iqtisadiyyatdakı uzunmüddətli struktur dəyişikliklərinin, ya da rəqabət gücünün bir göstəricisi olaraq təhlil edilir.

Cari əməliyyatlar balansında yer alan ikinci qrup əməliyyatlar beynəlxalq xidmətlər sahəsindəki ticarətdir. Bunlara «görünməyən ticarət» də deyilir. Məsələn, xarici turizm, beynəlxalq bank və sığorta xidmətlərindən əldə edilən komisyon və marjlar, xarici investorların mənfəət və faiz gəliləri (kapital xidmətlərinin qarşılığı olaraq), lizinqin qarşılığı, xarici məşvərətçilik xidmətləri və mühəndislik maaşları kimi öhdəliklər bu əməliyyatlar sırasına daxil edilir.

Cari əməliyyatların üçüncü alt qrupu qarşılıqsız yardımlardır. Bunlar ianə və yardım xarakterində olduğu üçün, qarşısında bir öhdəlik yoxdur. Buna görə də buna tək tərəfli trasferlər deyilir. Məsələn, özəl şəxs və ya hökumətlərin xarici ölkələrə göndərdikləri mal və pul şəklindəki yardımlar, hədiyyələr və s. kimi əməliyyatlar bura aiddir. Azərbaycan

üçün bu qrupda yer alan əhəmiyyətli bir cəhət Rusiyada işləyən işçilərin vətənə göndərdiklə-ri pullardır.

Cari əməliyyatlar hesabına qeyd edilən bütün debet və kredit əməliyyatlarının miqdarına cari əməliyyatlar balansı deyilir. Debet və kredit hesablarının cəmi bir-birinə bərabər olmadığı təqdirdə isə, cari əməliyyatlar balansının saldosu ya mənfi, ya da müsbət olacaq.

Kapital hərəkətləri hesabı. Ölkənin xarici dünya ilə apardığı bütün növ maliyyə vəsaiti və birbaşa qoyulan sərmayə investisiyaları, tədiyə balansının sərmayə hesabı bölməsində qeyd edilir. Bu əməliyyatlar öz aralarında bəzi alt bölmələrə ayrılır. Məsələn, kapital hesabı əvvəlcə uzunmüddətli və qısamüddətli sərmayə deyilən iki alt bölməyə ayrılır. Birbaşa xarici sərmayə investiyaları ilə xarici istiqraz vərəqələri və səhm sənədlərinin alqı-satqısı uzunmüddətli sərmayə əməliyyatları daxildir. Bundan başqa rəsmi qurumlar tərəfindən xarici ölkələrdən və ya beynəlxalq maliyyə qurumlarından təmin edilən layihə və proqram kreditləri də bu qrupa daxildir. Sərmayə hesabına qeyd edilən əməliyyatların ikinci qrupunu qısamüddətli, yəni müddəti prinsipcə 1 ildən az olan sərmayə giriş və çıxışları təşkil edir. Bunlar xarici ticarətin maliyyələşdirilməsinə istiqamətlənmiş kreditlərlə yanaşı, beynəlxalq faiz fərqlərindən faydalanmaq və ya spekulyativ məqsədli qısamüddətli fondlar da ola bilər. Adı çəkilən sərmayə, kurs və faiz dəyişikliklərinə qarşı çox həssas olub, asanlıqla bir ölkədən digər ölkəyə hərəkət edə bilir. Buna görə də bunlara bəzən «isti pul» (hot money) fondları da deyilir. Başqa bir məqam da budur: sərmayə hesabına yalnız ana sərmayə hesabına giriş və çıxışlar qeyd edilir. Faiz və ya mənfəət isə sərmayə hesabına deyil, yuxarıda qeyd edildiyi kimi, cari əməliyyatların xidmətlər bölməsində göstərilir.

Ümumi debet və kredit sərmayə əməliyyatları arasındakı fərqə də sərmayə balansı deyilir. Əgər cari əməliyyatlar balansı müəyyən miqdarda kəsirlidirsə, sərmayə balansında həmin miqdar da artıq çıxarsa və ya tərsi olarsa, tədiyə balansında müvazinət pozulmur. Amma müvazinətin təmin edilmədiyi vəziyyətlərdə bir kəsir və ya daha artıq meydana gəlir.

Ehtiyat aktivləri hesabı. Ehtiyat aktivləri zəruri hallarda istifadə etmək məqsədi ilə mərkəzi bank tərəfindən tutulan beynəlxalq ödəmə vasitəsidir. Qeyd etmək lazımdır ki, mərkəzi bankların valyuta bazarına müdaxilələri ölkənin xarici iqtisadi və maliyyə münasibətlərindəki proseslərin bir nəticəsidir.

Əgər ölkənin xaricdən əldə etdiyi valyuta gəlirləri valyuta xərclərini tam şəkildə qarşılayırsa, valyuta kurslarında aşırı bir yüksəlmə və ya düşmə də görülmmür. Belə vəziyyətdə mərkəzi bankın müdaxiləsinə lüzum yoxdur. Amma, məsələn, valyuta gəlirləri xərcləmələir qarşılamaq üçün kifayət deyilsə, bu təqdirdə valyuta kursları yüksəlməyə başlayır. Əksinə, valyuta təklifi valyuta tələbindən çox olarsa, valyuta kursları aşağı düşür.

Əgər mərkəzi bank, az-çox bütün ölkələrdə görüldüyü kimi, kurs sabitliyini təmin edən bir siyasət izləyirsə, bu təqdirdə valyuta bazarına müdaxilə etməlidir. Yəni valyuta tələbi çox olanda valyuta satmalı və təklif çox olanda bazardan valyutanı almalıdır. Bu fəaliyyətlər kursları istənilən səviyyədə saxlamağa kömək edir. Təbii ki, mərkəzi bankın müdaxilələri digər cəhətdən də ehtiyat aktivlərində dəyişməyə səbəb olmur.Bazarda valyuta satışı olanda ehtiyatlar azalır, bazardan valyuta alanda isə ehtiyatlar artır. Ehtiyatlardakı konkret dəyişmələr isə, ölkənin tədiyə balansında göstərilir. Ancaq bir məqamı xatırlatmaq lazımdır ki, mühasibat baxımından ehtiyatlardakı bir azalma kredit, artma da debet əməliyyatı kimi qeydə alınır. Ehtiyat aktivləri hesabı ilə birlikdə tədiyə balansının əsas hesab qruplarının nəzərdən keçirdik. Bu açıqlamalarda əhəmiyyətli bir

məqam budur: tədiyə balansında qeydə alınan əməliyyatlardan bir qismi sərbəst, bir qismi də tarazlaşdırıcı xarakterə malikdir. Tədiyə balansında müsbət və ya mənfi saldo meydana gətirən əməlyiyatlar sərbəst əməliyyatlardır. Bunlar iqtisadi həyatın irəlləyişi nəticəsində meydana gəlir.

VALYUTA SİYASƏTİ

Valyuta siyasəti – dünya iqtisadi inteqrasiya prosesləri kontekstində iqtisadiyyatın daxili və xarici dinamik müvazinətini (tarazlığını) təmin etmək, beynəlxalq ödəmələri müəyyən sistem daxilində yerinə yetirmək və tədiyyə balansını tənzimləmək məqsədi ilə ölkənin cari və strateji məqsədlərinə uyğun olaraq monetar orqanların həyata keçirdiyi tədbirlərin məcmuəsidir.

Valyuta siyasətinin istiqamət və formaları (deviz siyasəti, diskont siyasəti, valyuta rezervlərinin diversifikasiyası, devalvasiya, revalvasiya) ölkənin valyuta-iqtisadi vəziyyətinə və dünya iqtisadiyyatı sferasında gedən dəyişikliklərə bağlı olaraq tarazlanır. Valyuta siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

1. iqtisadiyyatda dollarlaşmanın qarşısını almaq;
2. valyuta nəzarəti;
3. valyuta bazarının optimal strukturu və qızıl-valyuta ehtiyatları diversifikasiyası;
4. xarici borcun idarə olunması;
5. valyuta rezervlərinin yığımı;
6. daxili investisiya ehtiyacını qarşılamaq məqsədi ilə xarici resursların cəlbi;
7. kapital çıxışına məhdudiyyət;
8. xarici rəqabətə qarşı yerli istehsalçıların müdafiəsi (idxal əvəzliyici istehsalın stimullaşdırma siyasəti);
9. valyuta böhranına qarşı alınacaq tədbirlər;
10. valyuta məzənnə tarazlığının təminatı;
11. tədiyyə balansının tarazlığı;
12. ixracatçılara yönəlik stimullaşdırma siyasəti;
13. çirkli pulların yuyulmasına qarşı mübarizə;
14. deviz siyasəti (valyuta müdaxiləsi);
15. diskont siyasəti.

Valyuta siyasəti xarici valyutaya olan tələb və təklifi əsasında realizə olunur. Beləliklə, valyuta siyasəti – ölkə daxili və xarici iqtisadi problemlərinin həllinə yönəlik, valyuta tənzimlənməsi və nəzarəti, valyuta bazarı, qızıl-valyuta ehtiyatlarından səmərəli istifadə, beynəlxalq maliyyə təşkilatlarında iştirak məsələsinə aydınlıq, valyutanın dönərliyi, ölkədaxili və ölkəxarici valyuta problemlərini sistemli formada təhlili kimi ümdə məsələləri özündə birləşdirir.

Valyuta tələb və təklifinə təsir göstərən tədbirləri bir neçə kateqoriyaya bölmək olar:

1. Maliyyə –monetar (Mərkəzi bankın emissiya siyasəti, o cümlədən MB valyuta bazarında iştirakı; büdcənin icrası ilə əlaqədar hökumətin fəaliyyəti, qeyri-rezidentlərə açılan kredit xətti, büdcə hesablarında qalıqların tənzimlənməsi və s.);
2. İqtisadi (ölkənin ixracat potensiyalının inkişafı və ya idxalı əvəzedici sahələrin inkişafı);

3. İnzibati (valyuta nəzarət və tənzimlənməsi konteksində birbaşa (kvota) və dolaylı (gömrük məhdiyyəti);

4. sosial-psixoloji (dövlətin informasiya-məlumat xarakterli fəaliyyəti, iqtisadi vahidlərin valyuta sferasında gedən hadisələrə yönəlik aydınlıq gətirmə siyasəti).

Valyuta kursuna təsir edən amilləri açıqlayın

1. 1.Tədiyə balansı: yəni bir ölkənin tədiyə balansının kəsirli olması, xarici borcların artması və sərmayə girişindəki azalmalar ölkənin pul dəyərinə mənfi yöndə təsir edir. Bir ölkə xaricə ölkəyə aldığı mal dəyərindən çox mal satırsa, o vaxt ticarət balansında müsbət saldo, bundan başqa xarici ölkələr bu ölkənin mallarını almaq üçün, təbii ki, o ölkə puluna olan tələbi artıracaq və bu pul bazarda dəyər qazanacaq. Digər tərəfdən, tədiyə balansı mütəmadi şəkildə kəsir verəndə, o ölkənin pul vahidinə təklif tələbdən çox olanda, həmin pul xarici bazarlarda dəyərini itirir.
2. Satınalma gücü pariteti nəzəriyyəsi: valyuta kursunun qiymətlər üzərindəki təsirini 1920-ci ildə İsveç iqtisadçı Qassel təsbit etmişdir. Qassel nəzəriyyəsində qızıla arxalamayan bir pulun satınalma gücünün atributu daxili bazardakı satınalma gücüdür. Bu nəzəriyyəyə görə valyuta kursları milli pulun satınalma gücünü əks etdirməlidir. Pulun daxili satınalma gücü ümumi qiymətlər səviyyəsinin tərsi ilə ölçülür. Bu nəzəriyyəyə görə, devalvasiya nisbəti pulun daxili satınalma gücündəki dəyişməyə bərabər olmalıdır.
3. Faiz həddi: faiz hədləri ilə valyuta kursu arasındakı münasibətə baxmaq üçün əvvəlcə faiz hədləri ilə inflyasiya arasındakı münasibəti qurmaq lazımdır. Buna Beynəlxalq Fişer təsiri deyilir. Fişer təsirinə görə, nominal faiz dərəcələri real faiz dərəcələri ilə inflyasiyanın kombinasiyasıdır. Ölkələr arasındakı real faiz dərəcələrinin fərqi yalnız gözlənilən inflyasiya dərəcələri ilə əlaqədardır. Fişer təsiri nəzəriyyəsinə görə, bir ölkədə gözlənilən inflyasiya dərəcəsi digər ölkədə gözlənilən inflyasiya dərəcəsindən nə qədər böyükdürsə, müvafiq ölkələrdəki illik faiz dərəcələri bu fərqə görə qərarlaşır və nəticədə müvafiq ölkələrin pul vahidləri bir-birinə nisbətən daha əvvəlki münasibətə görə dəyər qazanır və ya itirir.
4. Pul-kredit və maliyyə siyasətləri. Pul siyasəti valyuta kursuna təsir edən amillərdən biridir. Pul təklifindəki bir artım, ümumiyyətlə, valyuta kursuna tərs qaydada təsir edir.
5. Vergi dərəcələrini dəyişdirmə yolu ilə, idxal vergiləri və vergi siyasətində dəyişikliklər, o ölkədə yaşayanların satınalma gücünü azaldır və ya da artırır. Məsələn, bir ölkə deflasiya prosesini yaşayırsa, aşağı düşən vergi dərəcələrinin milli pulun dəyərinə müsbət təsir etməsi gözlənilir. Buna qarşılıq, yüksək inflyasiya olan ölkələrdə isə zidd bir nəticənin olması labüddür.
6. Qeyri -bazar amillər: valyuta bazarında MB müdaxilə dərəcəsi; ölkədə siyasi vəziyyət və beynəlxalq valyuta bazarında ümumi vəziyyət və meyllər.
7. Siyasi və psixoloji amillər də valyuta kurslarına təsir edən amillərdəndir. İqtisadi amillər, uzunmüddətli valyuta kurslarının müəyyən edilməsində çox əhəmiyyətli rol oynayırlar. Ancaq iqtisadi olmayan amillər də çox vaxt valyuta kurslarına da ciddi təsir edir. Bu təsir nəticəsində

bəzi pullar üzərində meydana gələn münasibətlər də rol oynayır. Məsələn, İsveçə frankı etibarlı puldur. Bu da onun müəyyən bir ölçüdə qüvvətli pul olduğunu göstərir.

FƏSİL 38. VALYUTA BAZARI

Valyuta birjaları (bazarları) beynəlxalq maliyyə bazarının tərkib hissəsi olmaqla bərabər, maliyyə bazarında aparılan əməliyyat həcminə görə ən böyük bazar olaraq qəbul edilir. 1990-cı ilin göstəricilərinə görə, valyuta üzrə ümumi əməliyyatın həcmi 650 milyard dollar həddində ikən, hal- hazırda 1500 mlrd. dollardan yuxarıdır.

Valyuta bazarları içində əməliyyat həcminin böyüklüyünə görə birinci sırada London bazarıdır. Ondan sonrakı yerləri Nyu-York və Tokio bazarları tutur. İsveçrə, Honkonq, Fransa, Hollandiya və Kanada isə ikinci qrupda yerləşir.

Valyuta bazarının müştəriləri arasında ixracatçı və idxalatçı kimi şirkətlərlə bərabər, bazardan xarici fond təmin etmək və ya xarici investisiya ilə məşğul olmaq istəyən şirkətlər (xüsusi ilə beynəlxalq şirkətlər) və dövlət idarələri də yer alır , digər tərəfdən spekulyatorlar və valyuta vəziyyətlərini tarazlaşdırmaq istəyən bank və digər maliyyə qurumları da bazarda əməliyyat işləmi görə bilərlər.

Nəhayət, valyuta məzənnələrinə müdaxilə etmək üçün mərkəzi banklar da bəzən bazarda alqı-satqı əməliyyatları aparırlar.

Valyuta bazarının əsas vasitəçi qurumları kommersiya banklarıdır. Demək olar ki, bütün böyük banklar müştərilərinə valyuta dəyişdirmək xidmətini təklif dirlər. Bankların valyuta dəyişdirmək əməliyyatlarını həyata keçirmək üçün ayrı-ayrı servisləri vardır. Banklar ya müştəriləri adına, ya da öz adlarına valyuta dəyişdirmə əməliyyatlarını həyata keçirirlər.

Valyuta bazarının vasitəçi qurumları arasında yer alan banklar xaricində də başqa qurumlar vardır. Bunlar valyuta ticarəti ilə məşğul olan şirkətlər və ya fiziki şəxslərdir.

Banklardan başqa bu bazarda vasitəçi olan brokerlər də vardır. Bunlar bir növ komisyonçulardır. Alış və satış təkliflərini qoşalayaraq əməliyyatın həyata keçməsinə vasitəçilik edir, xidmətlərinin əvəzində də iki tərəfdən komisyon alırlar. Valyuta bazarında brokerlər xüsusi ilə banklararası əməliyyatlara vasitəçilik edir və valyuta kurslarının formalaşmasında əhəmiyyətli rol oynayırlar.

Valyuta bazarının böyük bir hissəsini təhvil əməliyyatları təşkil edər. Buna görə bu növ əməliyyatların meydana gətirdiyi bazara «ani təhvil bazarı» və bunlara isə tətbiq edilən məzənnələrə də «ani təhvil məzənnəsi» deyilir. Müddətli təhvil əməliyyatları da «müddətli təhvil bazarını» meydana gətirir və bunlara da «müddətli təhvil məzənnələri» tətbiq edilir.

Ani əməliyyatlarda, alınıb-satılan milli pulların prinsip etibarı ilə o an təhvil verilməsi şərti yaranır. Bununla yanaşı, burada qiymət üzərində anlaşdıqdan sonra bir tərəfin satılan valyutanı, digər tərəfin də qarşılığı olan milli pulu dərhal təhvil verməsi daha çox nağd valyuta əməliyyatlarında görünür. Məsələn, bir bankın kassasından effektiv valyuta alışında olduğu kimi.

Müddətli təhvil əməliyyatlarının əsas xüsusiyyəti ani əməliyyatlar kimi deyil. Belə əməliyyatlarda bir bankda valyuta alış və ya satış müqaviləsi eyni gündə bağlanır. Yalnız valyutanın və qarşılığında ödənəcək milli pulun təhvili müddəti 30,60 və ya 90 gün kimi

təsbit edilən bir zamandan sonra yerinə yetirilir. Beləliklə, müqavilənin həmin gündən bağlanması ilə nəzərdə tutulan müddətin tətbiq ediləcək məzənnə indidən müəyyən edilir.

Burada valyuta bazarının digər bazarlara nisbətən bəzi fərqli cəhətləri vardır. Bunlar aşağıdakılardır:

1. Valyuta bazarları alıcı və satıcıların qarşılaşdıqları bazarlar deyil. Bu bazarda məsələn əmtəə bazarlarından fərqli olaraq alıcı və satıcılar, ümumiyyətlə, üz-üzə gəlmirlər və alıcı və satıcılar əməliyyatları bir-biri ilə deyil, vasitəçi bank və ya qeyri bank maliyyə qurumları ilə həyata keçirirlər.

2. Valyuta bazarları müəyyən bir birja şəklində təşkilatlanmış bazarlar deyil. Valyuta əməliyyatları, məsələn, fond birjalarındaı kimi, müəyyən bir bina və təşkilat strukturuna malik birja binalarında həyata keçirilmir. Valyuta bazarları təşkilatlanmamış bir bazardır. Doğrusu, valyuta əməliyyatları ilə məşğul olan banklar və vasitəçi qurumlar daha çox müəyyən şəhərlərdə ola bilər. Amma əməliyyatlar müştərilərlə banklar və ya banklar aralarında bazar qaydaları əsasında həyata keçirilir.

3. Valyuta bazarları ümumbəşəri bazarlardır və valyuta ticarəti ilə məşğul olan qurumlar daha çox böyük maliyyə mərkəzlərində və xüsusi ilə fond birjalarına yaxın yerdə məskunlaşırlar. Dünyanın harasında olursa olsun, valyuta əməliyyatları ilə məşğul olan bankların və digər maliyyə qurumlarının diler, broker və ya digər maraqlı tərəflərin faks, telefon və görüntülü kömpüter şəbəkələri bir-birinə bağlanıb. Yəni hər hansı bir milli bazarda meydana gələn prosesdən bütün digər mərkəzlərin də xəbəri olur. Proseslərin o saat yayılması və arbitraj imkanlarının varlığı çarpaz məzənnələrdə meydana gələn dəyişikliklərin surətlə tənzimlənməsinə yol verir. Bu baxımdan coğrafi uzaqlığa baxmayaraq, bütün milli bazardakı məzənnələr şəraitə və dəyişikliklərə uyğunlaşırlar. Bu xüsusiyyətinə görə valyuta bazarlarına qloballaşmış bazarlar deyə bilərik.

4. 4. Qitələr arasındakı saat fərqlərinə görə 24 saat içində dünyadakı valyuta bazarlarından heç olmasa birisi açıq olur. Məsələn, ABŞ-ın qərbindəki San-Fransiskoda iş günü başa çatanda, Uzaq Şərq bazarları (Tokio, Honkonq, Sinqapur) iş gününə yeni başlayır. Bu bazarlar isə bağlananda Yaxın Şərq bazarları iki saat əvvəl açılır, Avropa bazarları isə iş günə yeni başlayır. Bu zaman intervalında iki bazarda da iş həcmi aşırı həddlərə çatır. Valyuta bazarının 24 saat boyunca heç bağlanmamasının əhəmiyyəti buradadır. Digər bazarlar bağlı ikən açıq olan regional bazarda meydana gələn bir dəyişiklik bütün digər bazarlara da təsir edir. Yəni dilerlər səhər işə başlayanda aşxamkı qapanmış məzənnədən fərqli bir məzənnəylə qarşılaşa bilərlər. Başqa sözlə, günün 24 saatında valyuta kurslarının hər an dəyişmə ehtimalı yüksəkdir.

5. Valyuta bazarları tam rəqabət şərtlərinə olduqca yaxın bazardır. Əgər bazarlara hökumət müdaxilələrinin minimum səviyyədə olduğunu fərz etsək, valyuta bazarları tam rəqabət şərtlərinə böyük nisbətdə uyğunluq göstərir. Məsələn, alıcı və satıcıların sayı çoxdur, bazara giriş və çıxışlar sərbəstdir. Bundan başqa bütün əməliyyat iştirakçılarının hər an bazar şərtləri haqqında olduqca yaxşı məlumatı var.

VALYUTA KURS SİSTEMLƏRİ

Sabit kurs sistemlərindən ən qədimi qızıl standartıdır. Sabit kurs sistemlərində bazardakı valyuta kurslarını, paritet ətrafında nəzərdə tutulan sərhədlər içində saxlamaq üçün mərkəzi bank bazardan valyuta alqı-satqı əməliyyatlarını aparmalıdır. Amma müntəzəm olaraq eyni səviyyədə qala bilərmi? Əsla. Çünki mərkəzi bankın valyuta ehtiyatlarının bir sərhədi vardır. Bir az xaricdən borc təmin edərək bu ehtiyatları artırma imkanı olsa da gec-tez ehtiyatlar tükənə bilər.

inkişaf dərəcələrinə görə birjaların təsnifatı

inkişaf dərəcələrinə birjaları aşağıdakı kimi dərəcələndirmək mümkündür:

1) Super birjalar: Nyu-York birjası; Tokio birjası və London birjası.

Bu üç birjada aparılan qiymətli kağızlarla əməliyyatın həcminin dünya birjaları içindəki payı 60%-dir.

2) Böyük birjalar: Honkond birjası; Paris birjası; Milan birjası və Frankfurt birjası;

3) Orta ölçülü birjalar: ABŞ-da Boston, Filadelfiya; Avropada- Madrid, Barselona, Bruksel, Kopenhagen; Uzaq Şərq ölkələrində - Seul, Tayvan, Sidney, Bombey; Latın Amerikası ölkələrində - Buenos Ayres, Toronto, Monreal.

4) Kiçik birjalar. Dünyada irili-xırdalı 65 birja fəaliyyət göstərməkdədir. Yuxarıda sayılanların xaricində bütün birjalar kiçik birjalar siyahısına daxildir. Bunlar arasında İstanbul, Afina, Təl-Əviv, Helsinki, Monila, Kuala-Lamur, Nigeriya birjaları gələcəkdə orta ölçülü birjalar siyahısına girməyə namizəddirlər. İnkişaf etməkdə olan ölkələrdə qurulan fond birjaları Dünya Bankı və onun yan quruluşu olan Beynəlxalq Finans Qurumunun dəstəyi və nəzarətində inkişaf etməkdədirlər. Bu birjaların üstün cəhətlərindən biri odur ki, hamısının qapısı xarici investorlara açıqdır.

Beynəlxalq bankçılıqın insitusional xidmət vahidləri

Beynəlxalq bankçılıqın insitusional xidmət vahidləri aşağıdakılardır:

1. Nümayəndəliklər: bəzi banklar xarici ölkədə bir şöbə açmamışdan əvvəl nümayəndəlik açır. Nümayəndəlik ana bankın müştərilərinə yerli firmalar və ölkə haqqında iqtisadi məlumat alır və bunları analiz edərək müştərilərinə satır. Ən əhəmiyyətlisi də ona bankın xidmətlərinə ehtiyacın olub-olmadığı ilə əlaqədar tədqiqat aparır. Bu üstünlüklərinə baxmayaraq, nümayəndəliklər əmanət qəbulu, kredit vermə, səyahət çekləri və ya kredit məktubları vermək imkanına sahib deyildir.

2. Müxbir banklar: beynəlxalq fəaliyyətə yönələn bir çox bank, xarici əməliyyatları apara bilmək məqsədi ilə müxbir banklar qovşağı təşkil etməyə üstünlük verir. Bir ölkə bankı xarici bir bank ilə öz ölkələrində bir-birlərinin qarşılıqlı agentləri olaraq fəaliyyət göstərmək üçün müqavilə imzalaya bilər. Bu banklar əmanət hesablarını bir-birinə nəql edə və qarşılıqlı olaraq işləri bir-birinə həvalə edə bilərlər. Xarici ölkədə dürüst bir müxbir bank sözləşdiyi bankın nümayəndəliyindən daha az bir xərclə finans əməliyyatları keçirə bilər. Çünki nümayəndəlik üçün məcburi bəzi xərclər (investisiya və personal xərcləri kimi) olduğu halda, müxbir bank üçün belə bir problem yoxdur. Digər tərəfdən müxbir bank fondları və sənədləri toplayıb ya sövdələşdiyi bank və ya müştərilər adına hissə sənədi təhvil alıb-sata bilər.

3. Şöbələr: xarici bir şöbə bu şöbəni açan bankın bir bankçılıq qurumudur və buna görə də müstəqil bir qurum deyildir. Bu səbəbə görə xarici şöbələrin aktiv və passivləri ilə apardıqları siyasət ana banka aid olur. Xarici ölkələrdə açılan şöbələr üçün iki qrup hüquqi tənzimləmə qarşı-şarşıyadır. Bunlar ev sahibi və ana ölkənin hüquqi tənzimləmələridir. Xaricdə şöbə açmaq, bir banka ixtisas sahəsinə girən xidmətləri vermək, nümayəndəlik və ya müxbir münasibətləri istifadə edilən banklara nəzərdə daha səmərəlidir. Şöbə bankın açdığı kreditlər ana bankın kapital həcmindən asılıdır. Əmanətlər isə şöbədən çox ana bankın təminatı altındadır.

4. Filial və ya asılı quruluşlar: «asılı quruluşlar» termini xarici bir ölkədə olan və bütöv, ya da bir hissəsi ana banka aid olan xarici bir bankı ifadə edir. Filial vəziyyətində olan bank sərmayəsinin 50%-dən çoxu ana bankın əlində toplanır.

5. Bank konsorsumları: Tərəf olaraq banklar konsorsiumda müəyyən edilmiş sərmayə ilə iştirak edir və konsorsiumun idarə heyətində iştirak payı nisbətində təmsil haqqına malik olurlar. Konsorsium hərəkəti 1960-cı illərdə Avropada başlamışdır. Bu tip qrupun meydana gəlməsində üç faktor əhəmiyyətli rol oynamışdır. Birincisi, Amerikada xariclərin ABŞ-ın finans bazarlarında uzun müddətli fond təminin məhdudiyyət qoyan «sərmayə nəzarət proqramı»dır. İkincisi, Avropa bazarlarına ABŞ banklarının şöbələri tərəfindən ortamüddətli kreditlərin açılması və bu kimi kreditə olan ehtiyacın Amerika banklarından qarşılanmasıdır. Axırıncısı isə «böyük birmalarının dəyişik ölkələri» pullarından ibarət olan tələbin artması və bnun qarşılanma ehtiyacıdır.

Konsorsiumun qarşılaşdığı ən əhəmiyyətli problemlərdən biri finans böhranı vəziyyətində vəsait tapmamalarıdır. Çünki bu tip qrumular bir ölkəyə və ya bir mərkəz bankından asılı olaraq fəaliyyət göstərirlər.

6. Off-Şor bankçılığı. 1950-ci illərdən etibarən sürətli bir genişləmə prosesinə girən dünya iqtisdiyyatı ilə birlikdə Qərb və Şərq bloku ölkələri arasındakı münasibətlər gərginləşdi. Bu illərdə SSRİ Hökuməti ABŞ-ın milli pul vahidi olan dolları Avropa pul bazarına aparmış və nəticədə Avrobazar meydana gətirmişdi. Bu dəyişləmələr nəticəsində də «Off-Şor» bankçılığı yaranmışdı. Belə bankçılıq ölkə xaricində təmin

edilən fondların yenə də ölkə xaricində istifadə edilməsini qarşısına məqsəd qoyan bir bank tipidir.

«Off-Şor» bankların göstərdikləri xidmətlər xarici pul vahidi ilə aparılır. Xüsusi ilə «Off Şor» bankçılığı vergilərdən yararlanmaq məqsədi ilə qurulur. İllki sabit bir ödəmə xaricində heç bir vergi və valyuta nəzarətinin olmadığı bir qrup ölkələr arasında Hollandiya antilləri, Tayman adaları nümunə göstərilə bilər.

Hal-hazırda daha genişyayılan-ofşor banklardır. Onlarsız praktiki olaraq heç bir TMB-nin əməliyyatları keçinə bilməz. Prinsipcə offşor bankların təşkili məqsədləri offşor kompaniyalarla eynidir. Onlardan ən əsası vergiqoymanı minimumlaşdırmaqdır.

Offşor bankların aşağıdakı xüsusiyyətləri vardır:

- bankın qeydiyyata alındığı ölkənin rezidentləri ilə işləmək hüququ yoxdur.
- qeydiyyata alınmaq üçün ödənilən nizamnamə kapitalının tələb edilən həcmi digər ölkələrə nisbətən çox aşağıdır.
- bank praktiki olaraq vergilərdən azaddır.
- ehtiyat saxlamaq və digər bank normativlərinə qoyulan tələblər bir qayda olaraq ofşor banklarında başqa ölkələrə nisbətən daha az ciddidir, ölkə xaricində əməliyyatlara görə valyuta nəzarəti mövcud deyil.

Dünyada «offşor» zonaları içində ən tanınmış bölgə – Kayman adalarıdır. Burada qeydiyyata alınmış bankların sayı 580-dır və onların aktivlərinin dəyəri 500 milyard dollardır. Karib dənizinin şərq hissəsində Sent-Vinsent adalarında 15 bank və 7 min transnasional şirkət, Dominikada – 5800 şirkət, Naue adalarında isə 3 min şirkət qeydiyyatdan keçmişdir. Halbuki, bu adada yaşayanların sayı 2 mindir.

Dünya iqtisadiyyatında Men, Qernsi və Cersi adalarının, Banam adasının, Sent-Kristofer və Nevis Federasiyasının, Niderland Antil adalarının, Arubı (İtaliya mafiyasının ənənəvi sığınacağı), Kayman adasının, Britin Virginiya adaları, Panama (ofşor biznesin beşiyi) və nəhayət, Kipr ofşor bankları daha böyük əhəmiyyət kəsb edir.

Yeri gəlmişkən, son zamanlar xüsusi İsveçrə bankları kimi tanınan ofşor biznes çox geniş inkişaf etmişdir.

Kayman adalarında 500-dən çox ofşor banklar və 1300 sığorta kompaniyası qeydə alınmışdır. Belə ki, dünyanın 50 iri bankının 43-ünün burada bölmə və törəmə bankları var. Kayman adalarında bankların bölmələrinin məcmu depozit qoyuluşunun məbləği astronomik rəqəmə – 150 mlrd. dollara çatmışdır. Honkonqda xarici bankların 1,5 mindən çox bölməsi fəaliyyət göstərir.

Demək olar ki, ofşor banklar transmilli bankların daha bir əsas təbəqəsini yaratmışdır. Müasir şəraitdə praktiki olaraq dünyada heç bir transmilli kapitalın finans sxemi bunsuz keçinə bilmir.

XXI əsrin əvvəllərində şaxələnmiş, çoxqatlı və çoxfunksiyalı TMB sistemi formalaşmışdır. TMB sistemi transmilli kapitalın əsas tələbatlarını ödəyir və dünya finans bazarlarının fəaliyyətinin institutsional əsasını təşkil edir.

Lakin investorlar üçün cənnət sayılacaq məkan – Banam adalarındır. Burada 36 ölkə mənşəli 418 bank, 580 investisya fondları, 60 sığorta şirkətləri və 100 min transnasional şirkətlər fəaliyyət göstərir. Bunların dövriyyəsi təqribən 350 milyard dollar səviyyəsindədir.

Offşor bankçılıq üçün gərəkli olan struktural şərtləri aşağıdakı kimi sıralamaq mümkündür:

- ❖ iqtisadi və finans üstünlükləri;
- ❖ iqtisadi və siyasi sabitlik;

- texniki şərtlər;
- hüquqi şərtlər;
- bankçılıq sirrinin maksimum ölçüdə qorunması;
- digər səbəblər.

FƏSİL 42. BEYNƏLXALQ KREDİT

Klassik iqtisadçılara görə, inkişaf etməkdə olan ölkələrin finans qaynaqlarına olan ehtiyacın qarşılanmasına beynəlxalq kredit deyilir. İnkişaf etməkdə olan ölkələrdə rast gəlinən problemlərdən biri yığım çatışmazlığıdır. Beynəlxalq kreditə olan ehtiyacın səbəblərini aşağıdakı formul vasitəsi ilə göstərə bilərik: **S - I = X - M.** Burada S - ölkə daxili yığımı, (I) - ölkə daxili investisiyaları, X - mal və xidmət ixracını, M - mal və xidmət idxalını göstərir. S < I-dən isə ölkə daxilində qoyulan investisiyaların miqdarının ölkə içindəki yığımlara nisbətən böyük olduğu başa düşülür.

Bu durumda investisiyaların beynəlxalq kredit hesabına saxlanaraq qarşılanınası məsələsi olacaqdır. Saxlanan beynəlxalq qaynaqlar idxalat çoxluğuna yönəldiləcəkdir.

Beynəlxalq finansman, ölkələr arasındakı müxtəlif növ finans axınlarının və əməliyyatların prosesini əhatə edir. Beynəlxalq Finans quruluşlarının finansman fəaliyyətlərindəki əməliyyatlar bir-birindən fərqlidir. Bunun səbəbi də kreditlərin çeşidliyindədir.

Beynəlxalq finansmanın anlamı olaraq həm xarici borcları, həm də beynəlxalq yardımları əhatə edən geniş bir mənaya malikdir. İanələr yardım özəlliyi formasında olub beynəlxalq finansman formalarından biridir. İanələr, ehtiyac hiss edilən maddələrin, ehtiyacı olan ölkəyə verilməsi ilə həyata keçiririlir. Çox az rastlanan pul ianələridir. Texniki yardımlar da ianə anlamı içindəki yardımlardır. Adətən, beynəlxalq finans qurumlarının fondlarından az inkişaf etmiş ölkələr ianə formasında yararlana bilirlər.

Beynəlxalq maliyyələşmənin böyük bir hissəsini rəsmi yardımlar təşkil edir. Bunlar hökumətdən hökumətə köçürülən borc vermə əməliyyatlarıdır ki, ümumiyyətlə, uzun müddətli və aşağı faizli olurlar. Digər finansman forması da millətlərarası qurumlar (əsasən, Dünya Bankı və ona bağlı olan qurumlardır) tərəfindən açılan kreditlərdir. aparılan finanslaşmadır.

Digər bir beynəlxalq kreditləşmə forması özəl satıcı kreditləridir. Özəl istehsalçı və ya satıcı qurumlar qarşı tərəfdəki ölkənin rəsmi və ya özəl sektor qurumlarına doğrudan kredit verirlər. Xarici özəl investisiyalar da beynəlxalq finans qaynaqları içində önəmli bir yer tutur. Xarici sərmayəli şirkətlərin inkişaf etməkdə olan ölkələrə investisiya yardımları doğrudan-doğruya mənfəət əldə etmək məqsədini güdür.

Defisit iqtisadiyyatı müəyyən şəraitdə borc iqtisadiyyatını səciyyələndirir. Borc iqtisadiyyatı xarici borc və ödəmələrin artan həcmi ilə səciyyələnir, yeni borclanmalar və xarici borcların ödənilməsi ilə ölkə siyasətinin əsas şərt və fəaliyyət istiqamətlərindən birinə çevrilir.

Ölkənin xarici öhdəliklərinin yerinə yetirməsinin əsas səbəbi ona qarşı kreditor tərəfindən cavab tədbirlərinin görülməsi təhlükəsidir. Bu tədbirlər borclu ölkənin həmin ölkə ərazisində yerləşən aktivlərinin müsadirə edilməsi, həmçinin ikitərəfli ticarətin dayandırılması və s. ola bilər.

Beynəlxalq kredit 1-ci növbədə müxtəlif ölkələrin rezidentləri arasındakı iqtisadi əlaqələrə, 2-ci növbədə rezident ölkələrin müxtəlif institutlarla yəni beynəlxalq və

regional təşkilatlarla münasibətlərə, ən son olaraq isə müxtəlif rezident ölkələrin beynəlxalq pul və kapital bazarlarındakı əməliyyatlarına xidmət edir.

Beynəlxalq kreditin baza mənbəsi – beynəlxalq finans bazarlarına daxil olan dünya ölkələrinin dövlət və özəl əmanətləridir.

Beynəlxalq investisiyalar üzrə öhdəliklərə aiddir: birbaşa xarici investisiyalar və portfel investisiyalar – beynəlxalq qiymətli kağız və istiqrazlar və s. Beynəlxalq finans bir tərəfdən isə kreditorlar və investor ölkələr üçün ümumu gəlir mənbəyi rolunu oynayır.

Beynəlxalq kredit rəsmi və özəl ola bilər. Rəsmi kreditlər beynəlxalq və regional kredit təşkilatları, dövlətin mərkəzi və yerli orqanları təklif edir. Rəsmi finans vasitələri ölkələrə imtiyazlı, qeyri bazar şərtləri ilə təqdim olunur və onların mənbəyi vergi ödəyicilərinin büdcə vəsaitləri hesabına olur. Beynəlxalq ölkələrarası təşkilatlar həmçinin BVF-u, DB, Avropa Yenidəqurma və İnkişaf Bankı əsasən öz fondlarını üzv ölkələrin haqları hesabına həyata keçirir. Bəzi təşkilatlar böyük borcları beynəlxalq finans bazarları hesabına həyata keçirir.

Beynəlxalq kredit təşkilatları öz mənbələrini yalnız mərkəzi hökumətlərə, bəziləri isə qəbul edən ölkələrin özəl layihələrinə ayırır. Beynəlxalq kredit təşkilatları tərəfindən mərkəzi hökumətə verilən borclar adətən əsaslandırılmış və məqsədli istiqaməti olur. BVF-un məsələn fondun üzvü olan hər hansı ölkəyə borc verdikdə ondan müəyyən öhdəlik proqramlarının qəbulunu da tələb edir.

BVF-u monitorinq həyata keçirərək qəbul edilmiş proqram çərçivəsində nəzarət həyata keçirir. Ölkə tərəfindən öhdəliyin yerinə yetirilməməsi sonrakı tranşın təqdim olunmaması ilə nəticələnə bilər.

Özəl xarici kreditləşməni özəl xarici banklar və digər kredit təşkilatları həmçinin qeyri kredit korporasiyaları həyata keçirir. Beynəlxalq kredit bazarı özündə bank kreditləşməsini, qiymətli kağızlar bazarını (hansı ki, müxtəlif ölkələrin rezidentləri əməliyyatlar həyata keçirir) özündə cəmləyir.

Beynəlxalq kreditin əldə etmənin əlamətlərinə görə təsnifatı aşağıdakı kimidir:

1) krediti alma mənbəyinə görə:

1.1. Beynəlxalq saziş üzrə, kreditin milli kredit bazardan təmin etmək;

1.2. Xarici kredit bazarından;

1.3. Beynəlxalq finans mərkəzlərindən.

2) borclunun kateqoriyasına görə:

2.1. Dövlət və beynəlxalq təşkilatlar;

2.2. Özəl istehsal və ticari şirkətlər.

3) Kredit sazişinin xarakterinə görə:

3.1. Kommersiya krediti;

3.2. Xarici-ticari əlaqələrə aid olmayan, başqa məqsədlərə istifadə edilən finans krediti.

4) Kreditin növlərinə görə:

- kommersiya krediti, yəni kredit mal formasında, ixracatçı tərəfindən alıcıya açılan kommersiya krediti;
- kredit valyuta ilə, ancaq pul formasında, yəni banklar tərəfindən açılan kredit;
- qiymətli kağızları yerləşdirməklə beynəlxalq kapital bazarından vəsait cəlb etmək.

5) valyutanın mənşəyinə görə:

5.1. Kredit borclu ölkənin valyutasında;

5.2. Kredit kreditor ölkənin valyutasında;

5.3. Kredit üçüncü ölkənin valyutası ilə.

6) Kreditin müddətinə görə:

- qısamüddətli, adətən 1-ilədək, bəzi hallarda iki ilədək;
- orta müddətli, 1 ildən – 2 ilədək, 2 ildən – 5-dək;
- uzunmüddətli – 5-7.

7) Təminatına görə:

- təminatlı;
- təminatsız (bank) krediti.

8) Təyinatına görə:

- ixracat krediti;
- idxalat krediti.

Beynəlxalq iqtisadi münasibətlər sistemində beynəlxalq kredit ssuda kapitalının hərəkəti olub, müxtəlif ölkələrin rezidentləri arasında kredit münasibətlərini əks etdirir.

Beynəlxalq kredit milli iqtisadiyyatın inkişafında önəmli rola malikdir. Adətən, beynəlxalq kreditin axını tək yönümlü hərəkətlə gedir, yəni inkişaf etmiş ölkələrdən inkişaf etmiş ölkələrə doğru hərəkət edir və dünya praktikası göstərir ki, beynəlxalq kreditin hərəkətində axsamalar milli ölkələrdə iqtisadi böhranlara yol açа bilir. Beynəlxalq kreditin inkişafının əsasını – beynəlxalq inteqrasiya, istehsalın ixtisaslaşması, dünya iqtisadiyyatının qloballaşması ilə əlaqədardır. Beynəlxalq kredit bazarının subyektləri, özəl şirkətlər, dövlət müəssisələri, hökumətlər, beynəlxalq və regional finans qurumlarıdır.

Beynəlxalq kredit – valyuta kursu, qiymət, mənfəət, tədiyə balansı və s. bu kimi iqtisadi kateqoriyalarla sıx əlaqəsi vardır. Beynəlxalq kreditin üç əsas mənbəyi vardır:

- korporasiyanın pul formasında müvəqqəti sərbəst vəsaiti;
- dövlətin valyuta ehtiyatları;
- şəxsi pul yığımları.

Beynəlxalq kredit münasibətlərində ssuda kapitalının əsas finans mənbəyini dövlətin kapitalı təşkil edir. Beynəlxalq kreditin əsas prinsipləri daxili kreditin prinsipləri ilə eynidir, yəni, müddətlilik, qaytarılmaq, ödəncilli, təminatlı və məqsədli.

Beynəlxalq krediti əsas funksiyalarını aşağıdakı kimi sıralamaq olar:

- ölkələr arası ssuda kapitalının yenidən bölgüsü;
- dövlət kredit təşkilatları vasitəsi ilə (aksimbank), ixracat və idxalatı tənzimləmək;
- hesablaşmalarda ödəmələri sürətləndirmək və mübadilə xərclərini minimizə etmək;
- dünya iqtisadiyyatında inteqrasiya prosesini güclənir.

Beynəlxalq kreditin ölkələrarası iqtisadi əlaqələrin gücləməsində rolu çox önəmlidir:

- beynəlxalq ticarəti genişləndirir;
- istehsalda texnoloji yeniliklərdə istifadəni stimullaşdırır;
- milli məhsulların xarici bazara çıxışına şərait yaradır;
- məhsuldarlığın və əmək məhsuldarlığının artımına ciddi təkan verir;
- ölkənin dünya bazarında rəqabət qabiliyyətli mövqeyinin artırır;
- həyat səviyyəsinin inkişafında mühüm təsir edir.

Bununla bərabər, beynəlxalq kredit ölkədaxilində tətbiq edilən səhv monetar siyasətinin nəticəsi olaraq milli iqtisadiyyatında iqtisadi problemlərin dərinləşməsinə yol açıla bilər, o cümlədən:

- müəyyən iqtisadi sektorların inkişafına, digərlərin isə geriləşməsinə nədən ola bilər;
- dünya və milli iqtisadiyyatda disporsiyanın dərinləşməsinə yol açа bilir;

- beynəlxalq kredit «isti pullar» pullar formasından hərəkət edərək dünya valyuta sistemində sabitliyin pozulmasına və dünya iqtisadiyyatında valyuta böhranlarına yol açа bilər;

- həddindən yuxarı beynəlxalq kreditin cəlbi və onun qeyri rasional istifadəsi borc alan ölkəni finans bataqlağına sala bilir və hətta əhalinin həyat səviyyəsinin düşməsinə nədən olur.

Beynəlxalq kredit Milli dövlət iqtisadi tənzimlənməsinin obyekti kimi çıxış edir.

Beynəlxalq kreditin şərtlərinə aşağıdakılar daxildir:

- kreditin valyuta mənşəyi;
- ödəmənın valyuta mənşəyi;
- kredit məbləği;
- kreditin müddəti;
- kredit açmanın üsulları;
- kreditin istifadəsi və ödənilməsi şərtləri;
- ortaya çıxa biləcək risklərin sığorta metodu.

Beynəlxalq kreditin spesifik funksiyalarında biri də kapital təmərküzləşməsi və mərkəzləşməsinin gücləndirilməsidir. Beynəlxalq kredit özəl şirkətlərin səhmdar cəmiyyətlərə transformasiyasını, yeni şirkətlərin qurulmasında ciddi rolu vardır.

Beynəlxalq kredit münasibətlərinin subyekti kimi kreditor (ssuda kapitalının təklif edən) və borclu (ssuda kapitalına tələbi olan) çıxış edir.

Beynəlxalq kredit təməl motivi, açılan kreditdən maksimal mənfəət əldə etməkdir. Beynəlxalq kredit münasibətlərinin subyektləri aşağıdakı institutlardır: Beynəlxalq finans təşkilatları – BPF, Dünya bankı qruppası. Bu təşkilatlarının kredit siyasəti təşkilatın nizamnaməsində yer alan kreditlər çərçivəsində təsbit edilir.

Beynəlxalq krediti təklif edən banklar siyahısında ilk yerləri: Citigroup, Deutshe Bank, HSBC bankları tutur. Hal-hazırda beynəlxalq kredit alətlərinin həcmi 30 trl. dollarından da yuxarıdır.

BEYNƏLXALQ PORTFEL İNVESTİSİYASI

Xarici sərmayə hərəkətlərinin bir forması da portfel investisiyasıdır. Portfel investisiyası informasiya əldə etmə riski kimi əlavə risklərə qatlanmaq şərti ilə sərmayə qazancı ilə faiz və divident gəliri əldə etmək məqsədilə səhm, istiqraz və digər sərmayə bazarı alətlərinə investisiya qoyuluşudur.

Beynəlxalq investisiyalarda risk üç ana qrupda toplanılır: qlobal risk; ölkə riski və makro-iqtisadi riski (sektor və firma riskliliyi).

Yuxarıdakı qruplaşmaya bənzər olaraq istər portfel nəzəriyyəsində, istərsə də Finans nəzəriyyəsində risk iki təməl qrupda verilir: sistematik risk və sistematik olmayan risk.

Sistematik risk anlamı ilə eyni bazarda bulunan hər bir finans varlığın sahib olacağı bazar riskilə ifadə edilir. Dünya bazarı üçün düşündüyündə dünya konyuktura riski sistematik risk olacaqdır. Portfel çeşidləndirilməsi yapmaqla sistematik riskdən qaçınmaq mümkün deyildir.

Çünki ən yaxşı təşkil edilmiş bir beynəlxalq portfel ən azından qlobal olaylara qarşı həssas olacaqdır. Digər tərəfdən, beynəlxalq investisiyalarda sistematik olmayan risk anlamı ilə ölkə riski və firma riskləri toplamı diqqətə alınır. Bir AAA firmasının idarəsindən qaynaqlanacaq bacarıqsızlıq sistematik olmayan risk qrupundan yer alır. Həmin, bu firmanın beynəlxalq petrol böhranından təsirlənməsi durumu isə sistematik riskin nəticəsidir.

Qısamüddətli investisiyalar, əsas etibarı ilə finansman bonosu kimi, qısamüddətli borclanma alətləri, bank əmanətləri, qısamüddətli bank kreditləri və qısamüddətli digər alacaq və borclardan ibarətdir.

Portfel investisiyaları isə istər uyğun, istərsə də qısa müddətli qiymətli kağızlarla bərabər dövlət qiymətli kağızları, özəl sektor istiqrazları və səhmlərdən ibarətdir. Portfel yatırımları qısamüddətli yatırımlara görə daha uzun müddətləri ifadə etməklə bərabər, portfelə daxil olan finans aktivlərinin likvidliyinin yüksək olması səbəbi ilə qısamüddətli investisiyalar kimi, yatırım qoyulan ölkəni hər an tərk edə və dolayısı ilə iqtisadi tarazlıqlar üzərində neqativ təsir yarada bilər.

Yeni inkişaf edən bazarlara yönəlmiş fondlar çeşidli formalarda olmuşdur. Bu fonları sektorlar üzrə coğrafi və ya investisiya alətlərinin növlərinə görə çeşidli şəkillərdə təşkil edilmişdir. Ən çox bilinənlər aşağıdakı kimidir:

1. **Beynəlxalq portfel investisiya fondları.** Adətən bu fondlar yeni inkişaf edən ölkə bazarlarında əməliyyatda olan qiymətli kağızlara investisiya qoyurlar. Bu cür əməliyyatlarla məşğul olan investisiya fondları satın alınan qiymətli kağızların likvidlik dərəcələrini göz önündə tutaraq portfel çeşidləndirilməsi aparar və şirkətlərin çox hissəsi səhmlərini saxlamaq yerinə onu azaltmağa üstünlük verərlər.

2. **Səhm fondları:** (bunlar direkt və ya birbaşa investisiya fondları adlandırılır). Burada məqsəd şirkətin səhmlərinin çoxunu almaqla şirkətin idarə heyətində iştirak etməkdir.

3. **Risk sərmayəsi fondları.** Adətən yeni qurulmuş şirkətlərin səhmlərinin az bir hissəsini satın alarlar. Burada məqsəd yeni qurulan şirkətlərin gədəcəkdəki səhmlərinin dəyərlərinin yüksəlişindən gəlir əldə etməkdir.

4. **Yerli investisiya fondları.** Yerli institusional investorlar gəlir əldə etmək məqsədilə yerli və digər borcalma alətlərindən portfel təşkil etməyə başlayırlar.

BEYNƏLXALQ MALİYYƏ TƏŞKİLATLARI

Beynəlxalq Valyuta Fondu. İMF II Dünya müharibəsindən dərhal sonra Amerika Birləşmiş Ştatları və İnglitərə dövlətlərinin başçılığı ilə 1944-cü il 1-22 iyul tarixləri arasında ABŞ vilayətinin Bretton-Vuds qəsəbəsində Birləşmiş Millətlər Təşkilatının pul və maliyyə konfransı keçirildi. Konfransda 55 ölkənin nümayəndəsi iştirak etmiş, müharibədən sonra beynəlxalq iqtisadi münasibətlərin yenidən tənzimlənməsi, yeni bir ödəmələr sisteminin əsasları və ticarətin sərbəst bir şəkildə inkişaf etdirilməsi, çeşidli güclüklər içində olan ölkələrə maliyyə yardımları edilməsi və iqtisadi əməkdaşlığın saxlanması kimi mövzularda önəmli qərarlar verilmişdir. Konfransda Beynəlxalq Valyuta Fondunun qurulması haqqında qərar qəbul edilmişdir.

Beynəlxalq Valyuta Fondunun məqsədi quruluq anlaşmasının birinci maddəsində aşağıdakı şəkildə sıralanmışdır:

- Beynəlxalq valyuta problemləri barədə məsləhətləşmələr və əməkdaşlıq mexanizmini saxlayan daimi bir qurum vasitəçiliyi ilə beynəlxalq valyuta iş birliyini inkişaf etdirmək;
- Beynəlxalq ticarətin tarazlı inkişafını gerçəkləşdirmək və beləcə bütün üzv ölkələrin tam məşğulluq və yüksək bir iqtisadi artıma çatmalarına imkan yaratmaq;
- Valyuta sabitliyini saxlamaq və devalvasiya siyasətini əngəlləmək;
- Çoxtərəfli xarici ödəmələr sisteminin qurulmasına, beynəlxalq ticarətə maneçilik törədən – valyuta idxalat məhdudiyyətlərinin aradan qaldırılmasına xidmət etmək;
- Üzv ölkələrə tədiyə balansındakı tarazsızlıqları aradan qaldırmaq məqsədilə kredit vermək. Ümumiyyətlə, beynəlxalq rifahın yüksəlməsinə maneçilik törədən faktorları aradan qaldırmaq;
- Üzvlərinin tədiyə balanslarındakı sabitsizlik dərəcələrini azaltma.

Yuxarıda adı çəkilən məqsədlərin gerçəkləşdirilməsi üçün üzv ölkələrin də yerinə yetirəcəklrəi bəzi şərtlər vardır. Bu şərtlər anlaşmanan 4 və 8 maddələrində göstərilmişdir.

- Turizm də daxil olmaqla xarici ticarət fəaliyyətlərində beynəlxalq xidmət və mal alış-verişlərində valyuta da nəzarət və məhdudlaşdırılmalara, mərhələ-mərhələ üzən valyuta sisteminin tətbiq edilməsinə, spekulyativ xarakterli sərmayə hərəkətlərinə mane olmaq;
- Üzv ölkələrin devalvasiya etmə ehtiyacının ortaya çıxdığında devalvasiya dərəcəsini fonda bildirmək;

Ölkə ilə əlaqədar iqtisadi və maliyyə mövzularında fonda məlumat vermək;

Beynəlxalq Valyuta Fondu anlaşmada müəyyən edilən qaydaları pozan və öhdəliklərini yerinə yetirməyən ölkələrə qarşı cəza tətbiq edə və bu ölkələrə verilən kreditləri kəsə hətta üzvlükdən xaric edə bilər.

Fəaliyyəti. İMF üzv ölkələrə qısa müddətli kreditlər açır. Kreditlər CDR (kreditlər) pul vahidi ilə verilir. Fond tərəfindən saxlanan kreditlər «Stand bu Anlaşmaları» ilə «iqtisadi sabitlik proqramları» çərçivəsində verilir. «Stand Bu Anlaşmaları»nda bir niyyət məktubu hazırlanır. Niyyət məktubunda hökumətin iqtisadi və maliyyə siyasəti göstərilir. İMF üzv ölkələrə saxladığı maliyyə dəstəyi yanında texniki yardımlar da verir. Üzv ölkələr iqtisadi, maliyyə və texniki problemlərin həllində vasitəçilik xidmətləri də göstərir.

Bunlardan başqa, Vaşinqtonda qurulan bir institut nəzdində üzv ölkələrin mərkəz bankı və maliyyə Nazirliyinin məsul vəzifələri üçün çeşidli təhsil proqramları da verir.

Dünya bankı. İBRD 1944-cü ildə İMF ilə birlikdə qurulmuş və 25 iyul 1946-cı ildən fəaliyyətə başlamışdır. Dünya Bankı adı ilə tanına quruluşun anlaşması 144 ölkə tərəfindən təsdiq edilmişdir. Dünya bankına üzv olan ölkələr eyni zamanda İMF-nin də üzvləridir.

Öz öhdəliklərini yerinə yetirməyən ölkələr bankın səlahiyyətli qurumları tərəfindən veriləcək qərarla üzvlükdən çıxarıla bilər.

Bankın ana sözləşməsinin 1-ci maddəsinə görə Dünya Bankının məqsədləri aşağıdakı kimi sıralana bilər:

- Üzv ölkələrin iqtisadi islahatlarına yardım etmək;
- Üzv ölkələrə xarici özəl mənbələrdən gələcək sərmayə investisiyalarını təsbit etmək və özəl sərmayənin yetərsizliyi vəziyyətində bunları tamamlamaq;
- Üzv ölkələr üçün gəlirli investisiyaları təsbit edərək uzun dönəmdə beynəlxalq dəyişmələrdə tarazlığı saxlamaq;
- Üzv ölkələr üçün borcvermə mexanizmini uyğun hala gətirmək;
- Yerli şirkətlərin maliyyə mənbələrinə olan ehtiyacları mövzusunda yardımçı olmaq.

Dünya Bankının verdiyi kreditlərdən sadəcə üzv olan ölkələr yararlanır. Kreditlər uzunmüddətli olub, tələb edən ölkənin iqtisadi inkişafı proqramlarının ehtiyacına görə verilir. Maliyyələşdirilən investisiya layihələrinin iqtisadi, texniki, idari, maliyyə və menecment istiqamətləri Dünya Bankı tərəfindən fərqli bir şəkildə araşdırılır. Bundan başqa, kredit tələb edən ölkənin gələcəkdə maliyyə öhdəliklərini yerinə yetirib yetirməyəcəyi araşdırılır. Tədqiqat və araşdırmalar ilk olaraq mərkəzdə aparılır. Ancaq kerdit açılması mövzusunda bəzi məsələlər olduğundan Dünya Bankı öz işçilərindən və ya tədqiqatçılardan təşkil edən bir qrupu krediti tələb edən ölkəyə göndərərək yerində məlumat alır. Şərtlər yetərli olarsa, kredit anlaşması zarlınaraq imzalanır.

Dünya Bankı kredit açdıqdan sonra aparılan layihəni yaxından izləyir. Layihənin hər mərhələsində sonra bir hesabat tələb edir.

Dünya Bankı layihə kreditlərinin xaricində bəzi texniki yardımlarda da iştirak edir. İnkişaf etməkdə olan ölkələrin investisiya layihələrinin seçimi və hazırlanmasında, iqtisadi vəziyyətin təhlilində, inkişaf proqramları mövzularında texniki vasitəçilik xidmətləri göstərir. Bundan başqa, bank üzv ölkələrin yüksək vəzifəli məmur və texniki işçilərinə təhsil proqramları ilə də yardım edir.

Avropa Yenidənqurma və İnkişaf Bankı. AYİB – III ən böyük kredit təşkilatı olmaqla 1990-cı ildə Avropa yenidənqurma və İnkişaf Bankı üzrə Sazişin imzalanması ilə yaradılmışdır. Öz fəaliyyətinə 1991-ci ildən başlamışdır. Bankın mərkəzi ofisi böyük Britaniyanın London şəhərində yerləşməkdədir.

Bank əməliyyatları departamenti 3 şöbəyə malikdir: Ölkələr üzrə qrup, Sahələr üzrə qrup və əməliyyatlara dəstək qrupu. Hər bir şöbənin tərkibinə üzv ölkələrin özəl və dövlət sektoru sahəsində ixtisaslaşmış mütəxəssilərindən ibarət işçi qrupu daxildir.

Bankın səhm kapitalının ümumi məbləği 10 milyard avro təşkil edir. Avro Bankın rəsmi valyutası hesab olunur. Bankın bütün aktivləri, öhdəlikləri və maliyyə hesabatları avro ilə aparılır. Səhm kapitalı hər birinin nominal dəyəri 10 000 Avro olan 1 milyon aksiyadan ibarətdir. Dəyəri ödənilən aksiyaların ümumi məbləği 4.3 milyard dollardır.

İstifadə edilən normativ sənədlər və təlimatlar.

1. "AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ BANKI HAQQINDA"AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU (2004-cü il 12dekabr)
2. BANKLAR HAQQINDAAZƏRBAYCAN RESPUBLİKASININ QANUNU(4 mart 2005-ci il tarixli əlavə ilə)
3. "VALYUTA TƏNZİMİ HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU (2001-il 27 noyabr və 2002-ci il 30 aprel tarixli Qanunla edilmiş əlavə və dəyişikliklərlə)
4.

Azərbaycan Respublikası Milli Bankin normativ xarakterli aktlarinin reyestri

1. Lisenziyalaşdırma və prudensial nəzarət
1. Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları - 31.03.2008-cü il.
2. Bankların likvidliyinin idarə olunması haqqında Qaydalar - 29.12.1999-cü il
3. Banklarda daxili nəzarət və daxili auditin təşkili barədə Qaydalar - 29.12.1999-cü il.
4. Kredit əməliyyatları üzrə faizlərin hesablanmasının dayandırılması haqqında Qaydalar - 22.07.2000-ci il.
5. Aktivlərin təsnifləşdirilməsi və mümkün zərərin ödənilməsi üçün ehtiyatların yaradılması Qaydaları - 17.06.2003-cü il.
6. Kredit İttifaqına bank əməliyyatı aparmaq üçün xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları - 27.01.2001-ci il.
7. Kredit İttifaqınının iqtisadi tənzimləmə normativləri (prudensial normativlər) haqqında Qaydalar - 27.01.2001-ci il.
8. Banklarda kreditlərin verilməsinin daxili prosedurları və uçotu haqqında Qaydalar - 03.04.2001-ci il.
9. Ödənilməmiş borclar müqabilində banklar tərəfindən əmlakın balansa götürülməsi və qiymətləndirilməsi Qaydaları - 05.05.2001-ci il.
10. Kredit təşkilatları tərəfindən digər hüquqi şəxslərin paylarının (səhmlərinin) əldə edilməsi Qaydaları - 25.05.2001-ci il.
11. Bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə risklərin tənzimlənməsi haqqında Qaydalar - 29.12.2001-ci il.
12. Banklara aidiyyatı olan şəxslərlə əməliyyatların aparılması Qaydaları - 29.12.2001-ci il.
13. Bankların əsas vəsaitlərlə (əmlakla) apardıqları əməliyyatların tənzimlənməsi. 16.08.2002-ci il
14. Bankların birləşmə və ya qoşulma şəklində yenidən təşkili qaydaları - 25.03.03
15. Xarici bankın yerli nümayəndəliyinin hesabatının forması, məzmunu və Milli Banka təqdim edilməsi Qaydası - "28" iyun 2004-cü il
16. Bank lisenziyalarının və icazələrin alınması üçün müraciət qaydaları haqqında təlimat - "28" iyun 2004-cü il
17. Banklarda korporativ idarəetmə standartlarının tətbiqi qaydaları - 03.11.2004
18. Mərkəzləşdirilmiş kredit reyestri haqqında qaydalar - 03.11.2004
19. Bank inzibatçılarının vəzifədən azad edilməsi barədə sanksiyanın tətbiqinə dair materiallara baxılması və onun nəticələrinin rəsmiləşdirilməsi qaydaları - 03.11.2004

20. Yerli bankların şöbələrinin və yerli nümayəndəliklərinin açılması üçün icazə alınması və icazənin ləğv edilməsi qaydaları
21. Bank yoxlamalarının həyata keçirilməsinin prosedur qaydaları - 03.11.2004
22. Bank inzibatçılarının Milli Bankda attestasiyadan keçməsi qaydaları - 03.11.2004
23. Konsolidasiya əsasinda prudensial hesabatlarin tərtibi, təqdim edilməsi və nəzarət qaydalari - 04.08.2005
24. Prudensial hesabatların yeni təkmilləşdirilmiş formaları (son variant)
25. Bankların və xarici bankların yerli filiallarının məcburi ləğvinə dair təlimat
26. Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması qaydaları
27. Bankların və xarici bankların yerli filiallarının kənar auditinin aparılmasına dair tələblər haqqında qaydalar
28. Məcburi ehtiyatların norması, hesablanması və saxlanması qaydaları

2.Valyuta tənzimi
1. Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında qaydalar
2. Fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına ətirilməsi və Azərbaycan Respublikasından çıxarılması qaydaları
3. Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi qaydaları
4. Azərbaycan Respublikası Rezidentlərinin qeyri-rezident banklarda hesablarının açılması qaydaları

3.Mühasibat uçotu və hesabatı
1. Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında əsas vəsaitlərin uçotu Qaydaları
2. Azərbaycan Respublikasının Bank sistemində hesablama metodu ilə uçot Qaydaları
3. Azərbaycan Respublikasının Bank sistemində əmanətlərin (depozitlərin) uçot Qaydaları
4. Azərbaycan Respublikasının bank sistemində xarici valyuta əməliyyatları üzrə uçot Qaydaları
5. Azərbaycan Respublikasının bank sistemində balansdankənar əməliyyatların uçot Qaydaları
6. Azərbaycan Respublikasının bank sistemində icarə əməliyyatları üzrə uçot Qaydaları
7. Azərbaycan Respublikasının bank sistemində qiymətli kağızlarla əməliyyatlar üzrə uçot Qaydaları
8. Banklarda hesabların açılması, aparılması və bağlanması qaydaları
9. Azərbaycan Respublikasının bank sistemində digər aktiv və passivlərin uçot Qaydaları
10. Azərbaycan Respublikasının kredit təşkilatlarının icmal maliyyə hesabatlarının tərtib və təqdim edilməsi və törəmə müəssisələrə qoyulan investisiyaların uçotu Qaydaları
11. Azərbaycan Respublikasının kredit təşkilatlarının maliyyə hesabatlarında assosiasiya olunmuş müəssisələrə qoyulan investisiyaların uçotu Qaydaları
12. Azərbaycan Respublikasının bank sistemində pul vəsaitlərinin hərəkəti barədə hesabatın tərtib olunması Qaydaları
13. Azərbaycan Respublikasının kredit təşkilatlarının birgə fəaliyyətdə iştirakının maliyyə hesabatlarında uçotu Qaydaları
14. Azərbaycan Respublikasının kredit təşkilatlarının maliyyə hesabatlarında fəaliyyətin dayandırılmasının uçotu Qaydaları
15. Azərbaycan Respublikasının bank sistemində maliyyə hesabatlarında hesabat tarixindən sonra baş vermiş hadisələrin uçotu Qaydaları
16. Azərbaycan Respublikasının bank sistemində maliyyə hesabatlarının tərtib və təqdim olunması Qaydaları
17. Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarının birləşməsinin uçotu Qaydaları
18. Azərbaycan Respublikasının bank sisteminin maliyyə hesabatlarında aktivlərin qiymətdən düşməsinin uçotu Qaydaları
19. Azərbaycan Respublikasının bank sistemində maliyyə hesabatlarında investisiya mülkiyyətinin uçotu Qaydaları
20. Azərbaycan Respublikasının bank sistemində maliyyə hesabatlarında dövr üzrə xalis mənfəət və zərər, uçot siyasətində əsaslı səhvlər və dəyişikliklər haqqında Qaydalar
21. Azərbaycan Respublikasının bank sistemində maliyyə hesabatlarında dövlət subsidiyalarının uçotu və dövlət yardımı haqqında məlumatların açıqlanması Qaydaları

22. Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında mühasibat uçotunun aparılması Qaydaları
23. Azərbaycan Respublikasının kredit təşkilatlarında azqiymətli və tezköhnələn əşyaların uçotu Qaydaları
24. Azərbaycan Respublikasının bank sistemində ödəniş vasitələrinin maliyyə hesabatlarında uçotu Qaydaları
25. Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatlarında qeyri-maddi aktivlərin uçotu Qaydaları

4.Nağd pul dövriyyəsi və nəğdsiz ödəmələr
1. Azərbaycan Respublikasinda fəaliyyət göstərən Banklar arasinda hesablaşmalarin aparilmasi qaydaları
2. Azərbaycan Respublikasinda nağdsiz hesablaşmalar və pul köçürmələri haqqında təlimat
3. Azərbaycan Respublikasında xatirə sikkələrinin tədavülə buraxılması qaydaları
4. Bank sistemində pulların ekspertizasının təşkili və aparılması qaydaları
5. Azərbaycan Respublikasinin kredit təşkilatlarinda kassa əməliyyatlarinin aparilmasi və qiymətlilərin inkassasiyasinin təşkili qaydaları

5.Milli Bankın qiymətli kağızlarla əməliyyatları
1. Notlarla əməliyyatlar
2. Repo qaydaları
3. Azərbaycan Respublikasının Milli Bankı tərəfindən veksellərin yenidən uçotu haqqında müvəqqəti qaydalar
4. Kredit təşkilatlarında veksellərin uçotunun aparılması qaydaları

6.Korporativ idarəetmə standartları
1. Risklərin Idarə Edilməsi Standartı
2. Strateji planin hazirlanmasi üzrə metodoloji rəhbərlik
3. İnsan Resursları və Riayət Olunma Standartı
4. Strateji Planlaşdırma və Təşkilati Struktur Standartı
5. Daxili Audit Standartı
6. İnformasiya Texnologiyaları Standartı
7. Maliyyə İdarəetməsi və Hesabatları Standartı

7.Banklarda İnformasiya Texnoloqiyalarının tətbiqi qaydaları
1. Banklarda İnformasiya Texnoloqiyalarının tətbiqi qaydaları
2. Banklarda informasiya texnologiyalarının tətbiqi Qaydalarına əlavə
3. Informasiya texnologiyalarina dair hesabat

Əsas makroiqtisadi göstəricilər

	2000	2001	2002	2003	2004	2005	2006	2007
Ümumi daxili məhsul, mln. manat	4718,2	5315,6	6062,4	7146,5	8530,2	12522,5	18037,1	26815,1
Fizik həcm indeksi, %-lə								
- əvvəlki ilə nisbətən	111,4	109,9	110,6	111,2	110,2	126,4	134,5	125,0
-1990-cı ilə nisbətən	59,0	64,8	71,7	79,7	87,8	111,0	149,3	186,6
İndeks deflyator, əvvəlki ilə nisbətən	106,1	102,7	103,1	106,0	108,4	116,1	107,1	114,4
Adambaşına düşən ÜDM, ABŞ dolları	665,2	714,2	774,5	896,7	1060,3	1591,9	2373,3	3473,9
Sənaye istehsalının həcm indeksi, əvvəlki ilə nisbətən, %-lə	106,9	105,1	103,6	106,1	105,7	133,5	136,6	124,0
Kənd təsərrüfatı istehsalının həcm	112,1	111,1	106,4	105,6	104,6	107,5	100,9	104,0

indeksi, əvvəlki ilə nisbətən, %-lə								
Xarici ticarət balansı, mln.$	319,4	613,8	481,6	-98,2	161,2	3299,1	7745,3	15224,0
- ixrac	1858,3	2078,9	2304,9	2624,5	3742,9	7649,0	13014,6	21269,0
- idxal	1538,9	1465,1	1823,3	2722,7	3581,7	4349,9	5269,3	6045,0
İstehlak qiymətləri indeksi								
- əvvəlki ilə nisbətən	101,8	101,5	102,8	102,2	106,7	109,6	108,3	116,7
- əvvəlki ilin dekabrına nisbətən	102,2	101,3	103,3	103,6	110,4	105,4	111,4	119,6
Sənayenin toplansatış qiymət indeksi, əvvəlki ilə nisbətən	124,6	101,8	97,7	116,1	112,9	118,6	117,7	108,0
Orta aylıq nominal əmək haqqı, manat	44,3	52,0	63,1	77,4	96,7	117,9	141,3	214,0
əvvəlki dövrə nisbətən, %-lə	120,2	117,3	121,3	122,7	124,9	121,9	119,8	142,0
Orta aylıq real əmək haqqı əvvəlki dövrə nisbətən, %-lə	118,1	115,6	118,0	120,1	117,1	111,2	110,6	121,7
Kredit qoyuluşu, mln. manat	466,5	486,3	520,2	670,3	989,5	1441,0	2362,7	4681,8
Yenidən maliyyələşdirmə dərəcələri (dövrün sonuna, %-lə)	10,0	10,0	7,0	7,0	7,0	9,0	9,5	13,0
Geniş pul kütləsi (dövrün sonuna), mln. manat	325,8	351,1	405,2	518,4	683,6	796,7	2137,7	4401,6
Dövlət Qısamüddətli İstiqraz Vərəqələri:								
- yerləşdirmənin həcmi, mln. manat	68,9	93,5	101,1	91,1	16,0	65,9	115,9	167,2
- orta ölçülmüş gəlrlilik, %-lə	16,6	16,5	14,6	7,6	4,6	11,5	10,8	10,6
Milli Bankın notları								
- yerləşdirmənin həcm, mln. manat	-	-	-	-	-36,5	217,4	830,3	1920,4
- orta ölçülmüş gəlirlilik, %-lə	-	-	-	-	4,5	9,3	11,2	9,8

İstehlak qiymətlərinin indeksinin dəyişməsi, əvvəlki ilin dekabrına nisbətən, %-lə

	Cəmi mallar və xidmətlər üzrə	Ərzaq məhsulları, içkilər, tütün	Qeyri-ərzaq malları, xidmətlər	Qeyri-ərzaq malları	Ərzaq və qeyri-ərzaq malları	Xidmətlər
1995-ci il	84,6	90,3	68,5	68,6	86,9	68,4
1996-cı il	6,8	0,3	32,0	9,5	2,3	104,5
1997-ci il	0,4	-0,7	4,4	0,0	-0,6	14,6
1998-ci il	-7,6	-9,0	-2,1	-3,0	-8,2	-0,6
1999-cu il	-0,5	-2,0	2,5	0,0	-1,6	6,1
2000-ci il	2,2	4,0	-0,9	1,7	3,4	-4,4
2001-ci il	1,3	1,8	0,5	1,3	1,7	-0,6
2002-ci il	3,3	4,8	1,0	1,7	4	-0,1
2003-cü il	3,6	5,4	0,5	1,0	4,2	-0,3
2004-cü il	10,4	13,7	4,9	4,3	11,3	5,7
2005-ci il	5,4	6,3	4,3	3,2	5,3	5,7
2006-cı il	11,4	16,1	6,1	7,5	13,2	4,3
2007-ci il*	19,6	20,1	18,7	11,6	17,5	27,6

* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən hesablanmışdır.

Əhalinin əmanətləri, mln. manat

İllər	Əmanətlər			qısamüddətli			uzunmüddətli		
	o cümlədən			o cümlədən			o cümlədən		
	CƏMİ	manatla	xarici valyuta ilə	CƏMİ	manatla	xarici valyuta ilə	CƏMİ	manatla	xarici valyuta ilə
2001-ci il	117,0	12,0	105,0	101,4	9,1	92,3	15,6	2,9	12,7
2002-ci il	153,5	13,5	140,0	114,2	10,6	103,6	39,3	2,9	36,3
2003-cü il	251,9	19,0	232,9	126,7	15,5	111,2	125,2	3,4	121,8
2004-cü il	403,1	30,1	373,0	194,6	25,4	169,2	208,6	4,7	203,8
2005-ci il	494,5	55,8	438,7	241,2	42,4	198,7	253,4	13,4	240,0
2006-cı il	819,5	250,3	569,2	462,8	186,4	276,4	356,7	63,9	292,7
2007-ci il	1468,4	676,4	792,0	982,5	529,4	453,1	486,0	147,0	338,9

İllər	Əmanətlər			qısamüddətli			uzunmüddətli		
	o cümlədən			o cümlədən			o cümlədən		
	vaxtı keçmiş			vaxtı keçmiş			vaxtı keçmiş		
	CƏMİ	cəmi	%-lə	CƏMİ	cəmi	%-lə	CƏMİ	cəmi	%-lə
1995-ci il	218,2	45,0	20,6	181,4	37,9	20,9	36,8	7,1	19,2
1996-cı il	266,7	54,7	20,5	245,6	52,7	21,5	21,2	2,0	9,4
1997-ci il	310,8	63,0	20,3	289,1	59,8	20,7	21,7	3,2	14,7
1998-ci il	340,6	67,3	19,8	333,4	65,5	19,7	7,2	1,8	24,7
1999-cu il	356,0	72,8	20,5	347,1	71,1	20,5	9,0	1,7	19,4
2000-ci il	466,5	100,2	21,5	336,1	88,3	26,3	130,5	11,9	9,1
2001-ci il	486,3	134,4	27,6	354,0	117,4	33,2	132,3	17,1	12,9
2002-ci il	520,2	109,6	21,1	374,2	96,6	25,8	145,9	13,0	8,9
2003-cü il	670,3	67,5	10,1	487,1	52,9	10,9	183,2	14,6	7,9
2004-cü il	989,5	55,0	5,6	700,8	41,7	6,0	288,7	13,3	4,6
2005-ci il	1441,0	68,2	4,7	913,3	48,6	5,3	527,7	19,6	3,7
2006-cı il	2362,7	77,7	3,3	1142,0	53,2	4,7	1220,7	24,4	2,0
2007-ci il	4681,8	100,3	2,1	1649,5	69,5	4,2	3032,2	30,7	1,0

Azərbaycan Respublikasının tədiyə balansı, mln. ABŞ dolları

	2000	2001	2002	2003	2004	2005	2006	2007
Cari hesab	-167,7	-51,7	-768,4	-2020,6	-2589,2	167,3	3707,6	9018,9
Xarici ticarət balansı	319,4	613,9	481,6	-98,2	161,2	3299,1	1145,3	15224,3
İxrac	1858,3	2078,9	2304,9	2624,5	3742,9	7649	13014,6	21269,3
İdxal	-1538,9	-1465,0	-1823,3	-2722,7	-3581,7	-4349,9	-5269,3	-6045,0
Xidmətlər balansı	-224,6	-375,1	-935,6	-1614,5	-2238,4	-1970	-1923,4	-2131,0
İxrac	259,8	289,8	362,1	431,9	491,9	683	939,9	1247,5
İdxal	-484,4	-664,9	-1297,7	-2046,4	-2730,3	-2653	-2863,3	-3378,6
Gəlirlər	-335,4	-367,2	-384,7	-442,0	-700,6	-1645,6	-2680,6	-5079,4
Kredit (daxilolmalar)	55,9	41,5	37,1	52,7	52,9	201,8	280	331,0
Debet (ödəmələr)	-391,3	-408,7	-421,8	-494,7	753,5	-1847,4	-2960,6	-5410,4
Cari transfertlər	73,0	76,6	70,4	134,2	188,5	483,8	566,3	1005,0
Kapitalın və maliyyənin								
hərəkəti hesabı	441,9	317,4	1051,5	2338,1	3023,3	566	-1735,4	-5759,8
Birbaşa investisiyalar	29,1	220,1	1066,8	2293,2	2329,7	458,2	-1306,5	-5102,7
Neft bonusu	100,0	6,4	0,0	58,6	21,6	1	17	68,2
Digər investisiyalar	312,8	90,9	-15,3	-13,7	672,0	106,8	-445,9	-725,3
Sair vəsaitlər	-	-	-86,6	-112,1	-50,1	-125,6	-256,1	-360,9
Ehtiyat aktivlərin dəyişməsi	-274,2	-265,6	-196,5	-205,4	-384,0	-607,7	-1716,1	-2898,1
(-artım; +azalma)								
Balans	0	0	0	0	0	0	0	0

Kredit təşkilatları haqqında məlumat

	2000	2001	2002	2003	2004	2005	2006	2007
Bank fəaliyyətəinin həyata keçirilməsi üçün lisensiyası olan kredit təşkilatlarının sayı	158	116	93	104	114	129	138	142
I. Banklar								
1. Bankların sayı, o cümlədən:	59	53	46	46	44	44	44	46
- dövlət bankları	3	2	2	2	2	2	2	2
- özəl banklar, o cümlədən	56	51	44	44	42	42	42	44
xarici kapitalı bankların sayı, o cümlədən:	16	16	15	17	15	18	20	21
- nizamnamə kapitalının 50%-dən 100% qədərini təşkil edən	5	5	4	4	5	5	5	6
- nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil edən	9	9	9	11	9	11	13	13
- xarici bankların yerli filialları	2	2	2	2	1	2	2	2
2. Məcmu kapitalın həcminə görə bankların qruplaşdırılması								
- 3,5 mln. manat								
- bankların sayı	-	-	-	-	19	2	0	0
- ümumi bank kapitalında xüsusi çəkisi	-	-	-	-	24,5	1,8	0	0
-3,5 – 5,0 mln. manat								
- bankların sayı	-	-	-	-	10	9	3	1
ümumi bank kapitalında xüsusi çəkisi	-	-	-	-	27,7	41,2	45,6	4,4
3. Bankların yerli filiallarının sayı, o cümlədən:	195	191	220	305	350	374	420	485
- dövlət bankları	132	122	124	125	127	126	125	125
- özəl banklar	63	69	96	180	223	248	295	360
4. Yerli filialları olan bankların sayı	26	27	31	36	38	38	41	41
5. Bankların şöbələrinin sayı	0	0	0	0	1	1	0	0
6. Bankların yerli nümayəndələriklərinin sayı	0	0	0	0	1	1	0	0
7. Xarici bankların yerli	0	0	0	2	2	2	2	3

nümayəndəliklərinin sayı								
8. Bankların xaricdə fəaliyyət göstərən strukturlarının sayı, o cümlədən:	2	2	3	4	3	4	4	5
- törəmə banklar	0	0	1	1	1	1	1	2
- filialları	1	1	1	1	1	1	1	1
- nümayəndəlikləri	1	1	1	2	1	2	2	2
II. Bank olmayan kredit təşkilatları								
1. Bank olmayan kredit təşkilatları sayı, o cümlədən	99	63	47	58	70	85	94	96
- Kredit ittifaqlarının sayı				45	55	68	77	77
Filialların sayı				0	0	0	0	0
- Beynəlxalq humanitar təşkilatlar tərəfindən maliyyələşdirilən kredit təşkilatlarının sayı				12	14	16	16	18
- Filialları sayı				6	13	13	29	44
- Digər bank olmayan kredit təşkilatlarının sayı				1	1	1	1	1
Filialların				12	12	12	12	12

Pul aqreqatları, mln. manat

	M0 dövriyyədə olan nağ pul	M1 M0+tələb olunadək depozitlər	M2 M1+müddətli depozitlər	M3 M2+SDV depozitləri
01.01.95	55,2	80,3	86,2	209,6
01.01.96	120,5	185,0	191,5	259,9
01.01.97	173,1	234,7	240,8	309,0
01.01.98	234,1	307,6	311,3	412,7
01.01.99	185,2	240,5	243,7	342,6
01.01.00	227,2	278,0	280,9	398,0
01.01.01	270,0	315,5	325,8	509,7
01.01.02	293,8	337,5	351,1	686,8
01.01.03	333,7	393,5	405,2	785,2
01.01.04	408,2	499,8	518,4	1018,8
01.01.05	477,8	657,3	683,6	1503,0
01.01.06	547,4	747,8	796,7	1841,8
01.01.07	1311,3	1853,6	2137,7	3440,5
01.01.08	2713,5	3652,7	4401,6	5897,3

Cədval 12. Bank sisteminin kapitalinin struktum va dinamikasi

	01.01.2007		01.01.2008	
	mln. manat	xüsusi çəkisi, %-lə	mln. manat	xüsusi çəkisi, %-lə
I dərəcəli kapital	420,5	80,2	755,3	74,8
Nizamnamə kapitalı	400,2	76,4	689,5	68,3
Səhmlərin emissiyasından əmələ gələn əlavə vəsait	4,3	0,8	20,3	2
Bölüşdürülməmiş xalis mənfəət	23,3	4,4	59,6	5,9
II dərəcəli kapital	139,9	26,7	305,4	30,1
Cari ilin mənfəət	62,1	11,8	132,8	13,1
Umumi ehtiyatlar	34,8	6,6	63,0	6,2
Kapitalın digər vəsaitləri	43,0	8,2	159,3	15,8
Məcmu kapitaldan tutulmalar	36,4	6,9	49,4	4,9
Tutulmalardan sonra məcmu kapital	524,1	100	1009,1	100